AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU

İKRAM AĞASİYEV

# XVIII ƏSRİN SONU — XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ALMANLARIN QAFQAZDA MƏSKUNLAŞMASI

BAKI – 2009

*Azərbaycan Milli Elmlər Akademiyası AA.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının 05 iyun 2009-cu il tarixli qərarı ilə çap edilir (pr. № 04).*

Elmi redaktor: **İ.S.Bağırova,**
*tarix elmləri doktoru*

Rəyçilər: **H.Y.Verdiyeva,**
*tarix elmləri doktoru*
**S.İ.Əliyeva,**
*tarix elmləri namizədi*

**İkram Ağasiyev**
**A 29** XVIII əsrin sonu — XX əsrin əvvəllərində almanların Qafqazda məskunlaşması, Bakı, «Təhsil», 2009, 304 səh.

Monoqrafiyada XVIII əsrin sonlarından Qafqazda məskunlaşmağa başlamış alman əhalisinin sosial-iqtisadi, siyasi, mədəni və dini həyatının aktual məsələləri işıqlandırılır.

Müəllif geniş arxiv materialları və sair yazılı mənbələr əsasında XVIII əsrin sonundan XX əsrin əvvəllərinə qədərki dövrdə Şimali və Cənubi Qafqazda mövcud olmuş 250-yə yaxın alman koloniyasının fəaliyyət xüsusiyyətlərini göstərmiş, regionun inkişafında onların roluna obyektiv qiymət vermişdir.

Üç fəsildən ibarət olan tədqiqat işi mütəxəssislər, aspirantlar, magistrlar, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**M** $\frac{\mathbf{4306020600}}{\mathbf{053}}$ **2009**

«Təhsil», 2009

# GİRİŞ

Müasir xalqlararası, dövlətlərarası münasibətlər insan nəslinin kütləvi şəkildə məhv edildiyi İki Dünya müharibəsi ilə yanaşı, etnik, dini münaqişələrin də dünyanın ictimai-siyasi həyatında oynadığı mənfur rola dair acı təcrübə ilə zəngindir.

Milli-etnik zəmində yaranan münaqişələrin müasir dünya qaydası üçün necə böyük təhlükə törətdiyini keçmiş SSRİ və digər sosialist respublikalarının yaşadığı tale əyani şəkildə sübut edir. Müasir dövrdə dünyada mövcud olan əsas etnik münaqişələrin əksəriyyəti Qafqaz regionunun payına düşür. Etnik xəritəsinə görə dünyanın ən spesifik regionlarından biri olan Qafqazda onlarla xalqın, etnik qrupların, müxtəlif konfliktfessiyaların nümayəndələri yüzillərlə yan-yana yaşamış, əməkdaşlıq etmişlər. SSRİ kimi nəhəng bir dövlət dağıldıqdan sonra dünyanın etnoqrafik muzeyi sayılan Qafqaz təəssüflər olsun ki, etnik və dini münaqişələr meydanına çevrilmişdir. Bölgədə mövcud olan ekstremist qüvvələr Qafqaz xalqları arasında düşmənçilik toxumu səpir, öz xalqları haqqında uydurulmuş müsbət avtostereotipin formalaşması istiqamətində geniş təbliğat və təşviqat fəaliyyəti göstərirlər ki, bu da regionda etnik və konfessional qarşıdurmanın daha da güclənməsinə gətirib çıxara bilər. Qloballaşma dövründə bu problem Qafqaz hüdudlarından kənara çıxaraq, təkcə bölgə dövlətləri üçün deyil, dünyanın aparıcı dövlətləri, onların Qafqazda işbirliyi yaratmaq siyasəti üçün müəyyən narahatlıq yaradır. Məhz buna görə də Qafqazın etnik tarixinin öyrənilməsinə kompleks yanaşılmalı, sivilizasiyaya böyük fəlakətlər gətirən etnik, dini münaqişələrin yaranma səbəbləri, kökləri, inkişaf dinamikası, habelə bu münaqişələrdən çıxma yolları elmi cəhətdən ciddi təhlil edilməli, əldə olunmuş nəticələr əsasında etnik münaqişələrin həllinə dair konkret təkliflər verilməlidir.

Bu baxımdan XVIII əsrin sonlarından başlayaraq Qafqaza köçürülmüş alman əhalisinin yeni etnik, konfessional, siyasi, iqtisadi şəraitə uyğunlaşması, onun Qafqazın yerli əhalisi və bu regiona miqrant kimi gəlmiş başqa etnoslarla qarşılıqlı münasibətləri məsələləri böyük maraq doğurur.

Qafqazda yaşamış alman əhalisinin tarixinin öyrənilməsinin aktuallığını artıran başqa bir amil bugünkü qloballaşan dünyada Qərb-Şərq qarşıdurmasının yaranma təhlükəsidir. Avropa mədəniyyətində Şərqin Qərbə qarşı qoyulmasının iki min ildən artıq tarixi var. Müxtəlif amillərin təsiri ilə Qərb və Şərq xalqları arasında, dünyanın bu iki hissəsi haqqında müxtəlif obrazlar formalaşmışdır: Şərq aləmi Qərb dünyasını mənəvi dəyərlərdən uzaq, özünəməxsusluğunu itirmiş, yalnız maddi rifah marağı ilə yaşayan bir toplum kimi təsəvvür edirdisə, Qərb Şərqə «Özgə mədəniyyətin, adət və ənənələrin, psixologiyanın daşıyıcısı kimi baxmışdır. Avropa ictimai şüurunda Şərq dünyasına münasibət, bəzən «sivil», yüksək mədəniyyətli dünyanın «barbar» dünyasına münasibəti formasını almışdı və təəssüflər olsun ki, bu cür stereotiplər bu gün də qalmaqdadır. Qərb-Şərq

qarşıdurmasının yaranması onun gələcəkdə daha təhlükəli qarşıdurmaya — dünya dinlərinin əsasında formalaşan sivilizasiyalararası qarşıdurmanın meydana gəlməsinə zəmin yarada bilər. Bu nöqteyi-nəzərdən müasir dövrdə bəşər sivilizasiyalarının zaman və məkanda əlaqəliliyinin bərpasına, müxtəlif konfessiyalara aid xalqlar arasında qarşılıqlı inamın yaranmasına, qarşılıqlı anlaşmaya, birliyə, razılığa xidmət edən, Qərb və Şərq mədəniyyətlərini birləşdirən ümumi cəhətlərin üzə çıxarılmasına və təbliğ edilməsinə böyük ehtiyac var. Qərblə Şərqin qovşağında yerləşən Qafqazın etnik tarixi və ilk növbədə Avropanın xristian xalqlarının, o cümlədən almanların bu regionda məskunlaşması, təsərrüfat həyatı qurması, yerli xalqlarla sosial-iqtisadi, mədəni inteqrasiya məsələlərinin öyrənilməsi bu məqsədə çatmaqda əhəmiyyətli rol oynaya bilər.

Qafqaz almanlarının tarixinin öyrənilməsi region dövlətləri və ilk növbədə Azərbaycan üçün vacib olan bir sıra məsələlərə aydınlıq gətirilməsinə köməklik edə bilər. Belə ki, çarizmin XVIII əsrin II yarısından başlayaraq apardığı məskunlaşdırma siyasətinin əsas obyektlərindən biri də Qafqaz regionu idi. Bu siyasət Qafqazdan türksoylu və digər müsəlman xalqların sıxışdırılmasına, bu bölgənin xristianlaşdırılmasına, onun daha çox Avropa mədəniyyətinə — xristian dininə aid xalqlarla məskunlaşdırılmasına xidmət edirdi. Bu mənfur siyasətin həyata keçirilməsində çar hökumətinin əlində alətə çevrilən alman əhalisinin tarixinin tədqiqi Rusiyanın Qafqaz siyasətinin əsas məzmununu, istiqamətlərini aydınlaşdırmağa imkan verər, müasir dövrdə Azərbaycan cəmiyyəti üçün aktual olan bəzi məsələlərin və ilk növbədə Qafqazda slavyan, erməni elementlərinin sayının artması, türk mənşəli, islam dininə aid xalqların öz tarixi torpaqlarından sıxışdırılması faktlarının bir daha sübut olunmasında yardımçı ola bilər.

XII əsrdən başlayan almanların kütləvi miqrasiyası tarixdə baş verən ən möhtəşəm, dünyanın siyasi xəritəsinə, onun etnik, konfessional tərkibinə önəmli təsir etmiş ən güclü əhali miqrasiyalarından biri olmuşdur. XX əsrin ortalarına qədər, yəni səkkiz əsrə yaxın davam etmiş bu proses geniş coğrafi areala malik olmuş, Şimali və Cənubi Amerikanı, Afrikanı, Ön Asiyanı, Şərqi Avropadan tutmuş Uzaq Şərqə qədər, yəni ingilis politoloqu C.Makinderin «yerin ürəyi» adlandırdığı böyük bir Avrasiya məkanını əhatə etmişdir. Göründüyü kimi, almanların məskunlaşması müxtəlif istiqamətlərdə getmiş, müxtəlif dövrlərdə, müxtəlif regionlarda bu prosesin xarakteri, məqsədləri, məzmunu, sosial və siyasi bazası eyni olmamışdır. Əhalinin bu qlobal yerdəyişməsi prosesində 10 mln. yaxın alman əhalisi iştirak etmişdir.

Almanların məskunlaşmasının əsas və ilk istiqaməti Şərq istiqaməti olmuşdur ki, 800 il ərzində alman əhalisi Mərkəzi Avropadan başlayaraq geniş Avrasiya məkanına — Baltikyanı dövlətlərin, indiki Polşa, Macarıstan, Çexiya, Slovakiya, Bolqarıstan, Türkiyə, Avstriya, Rumıniya və keçmiş SSRİ ərazilərinə yayılmağa başlamışdır.

Postsovet məkanında almanlar Pribaltika, Şimal-Qərb rayonu (Peterburq), Mərkəzi rayon (Moskva), Cənub-Qərbi Ukrayna, Şimali Qara dəniz sahilləri, Şimali və Cənubi Qafqaz, Volqaboyu, Ural, Qazaxıstan, Mərkəzi Asiya, Qərbi Sibir, Şərqi Sibir, Altay, Uzaq Şərq (Saxalinə qədər) kimi regionlarda kompakt halda məskunlaşmışlar. Postsovet məkanının elə bir guşəsi olmamışdır ki, orada almanlar məskunlaşmasınlar. Yuxarıda yalnız onların kompakt yaşadığı regionlar göstərilir. 1897-ci ildə əhalinin siyahıyaalınmasına görə çar Rusiyasının ərazisində 2 milyona yaxın alman yaşamışdır. XX əsrin əvvəllərində onların sayı bir qədər də artmışdır.[1]

Stalinizm dövründə SSRİ-nin başqa xalqları ilə yanaşı, almanlar da repressiyalara məruz qalmış, ədalətsiz olaraq onlara «casus», «diversant» damğaları vurulmuş, yaşadıqları ərazilərdən Orta Asiya, Sibir və Uzaq Şərqə deportasiya edilmişlər. Bütün bunlara baxmayaraq, SSRİ dövründə də alman əhalisi sovet cəmiyyətinin əhəmiyyətli hissəsini təşkil etmişdir: 1989-cu ildə əhalinin siyahıyaalınmasının nəticələrinə görə, SSRİ-də 2 milyondan artıq alman əhalisi qeydə alınmışdır.[2] Son 20 il ərzində onların müəyyən hissəsi xaricə mühacirət etsə də, bu gün postsovet məkanında almanların sayı 700 mindən artıqdır və onların da təqribən 30 mini Qafqazda yaşayır.[3]

Təqdim olunan monoqrafiyanın tədqiqat obyekti Qafqazda XVIII əsrin sonlarından yaranmağa başlamış alman məskənlərinin sosial-iqtisadi, siyasi, dini və mədəni həyatının aktual məsələləridir.

Qafqazda almanlar kompakt şəkildə Don-hərbi dairəsində, Kubanda, Şimali Osetiyada, Kabarda-Balkariyada, Şimali Dağıstanda, Çeçenistanda, Azərbaycan və Gürcüstanda məskunlaşmışlar. Əgər XX əsrin əvvəllərində Azərbaycanda 8, Gürcüstanda 19 koloniya mövcud olmuşsa, Şimali Qafqazda koloniyaların sayı 220-yə çatırdı və bu koloniyalarda 120 minə yaxın əhali yaşayırdı.

Tədqiqat işinin xronoloji çərçivəsi XVIII əsrin sonlarından 1914-cü ilə qədər olan dövrü əhatə edir. Xronoloji çərçivənin alt hüdudu XVIII əsrin sonlarına təsadüf edir. Məhz 1770—1780-ci illərdə çar Rusiyası Şimali Qafqazın böyük bir hissəsini işğal etdi və bu vaxtdan başlayaraq Qafqazda alman kolonistlərinin məskunlaşdırılması siyasəti həyata keçirilməyə başlandı.

Xronoloji çərçivənin üst hüdudu 1914-cü illə məhdudlaşır, çünki I Dünya müharibəsinin başlanması ilə həm Şimali, həm də Cənubi Qafqazın siyasi həyatında mühüm dəyişikliklər baş verdi və Qafqaz almanlarının tarixində məzmunca yeni bir dövr başladı ki, bu da tədqiqat obyekti kimi xüsusi yanaşma tələb edir.

Ərazi baxımından əsərdə Qafqaza daxil olan bütün regionlarda yaşayan alman əhalisinin keçdiyi tarixi yol araşdırılmışdır. Qafqazın böyük hissəsini əhatə edən Şimali Qafqaz bu gün Rusiya Federasiyasının tərkibinə daxil olan 10 federal subyektdən—Rostov vilayətindən, Stavropol və Krasnodar diyarlarından, Adıgey,

Qaraçay-Çərkəz, Kabarda-Balkariya, Şimali Osetiya, İnquşetiya, Çeçenistan və Dağıstan respublikalarından ibarətdir.

Tədqiqat işinin xronoloji çərçivəsində, yəni XVIII əsrin sonlarından 1914-cü ilədək Şimali Qafqaz ərazisində dəfələrlə inzibati islahatlar keçirilmiş, yeni inzibati vahidlər yaradılmış, köhnələri ləğv edilmiş, onların birləşməsi və ayrılması nəticəsində sərhədlər dəfələrlə dəyişdirilmişdir. Yalnız XIX əsrin 60-cı illərindən başlayaraq Şimali Qafqazın inzibati quruluşunda nisbi sabitlik yaranmışdı. Kiçik ərazi vahidlərinin birləşdirilməsi nəticəsində 5 böyük inzibati vahid - Don Hərbi Dairəsi, Stavropol, Kuban, Terek və Dağıstan vilayətləri yaradıldı. I Dünya müharibəsinin sonlarınadək bu inzibati bölgü dəyişməz qalmışdır.

İnzibati bölgünün qeyri-sabitliyi Qafqazın ikinci hissəsinə — Cənubi Qafqaza da xas olmuşdur. XIX əsrin I yarısında çarizmin inzibati siyasəti dəyişkənliyi ilə xarakterizə olunurdu. Yalnız XIX əsrin II yarısından Cənubi Qafqaz ərazisi əhalinin əksəriyyətinin azərbaycanlılardan ibarət olan Bakı, Yelizavetpol, İrəvan və gürcülərin çoxluq təşkil etdiyi Tiflis və Kutais quberniyalarına bölündü. Cənubi Qafqaz almanları dispers şəkildə bütün adı çəkilən quberniyalarda yaşasalar da, onların kompakt yaşayış məntəqələrinə Yelizavetpol, Kutais və xüsusən də Tiflis quberniyalarında rast gəlinirdi. Şəhərdə alman əhalisi daha çox Bakıda və Tiflisdə məskunlaşmışdı.

Qafqaz almanlarının tarixi lazımi səviyyədə hələ tədqiq olunmamışdır və keçmiş Rusiya ərazisində almanların məskunlaşması problemi ilə məşğul olan müasir tədqiqatçılar bu məsələyə dəfələrlə diqqət yetirmişlər[4].

Rusiya imperiyasının əhalisinin etnik tərkibi haqqında yazılan ilk əsərlərdən biri rus tədqiqatçısı P.İ.Keppenə məxsusdur[5]. Toplanmış məlumatlar əsasında İ.P.Keppen 1851-ci ildə Rusiyanın etnik xəritəsini nəşr etdirdi və Rusiyanın əhalisinin etnik tərkibini tədqiq etmək üçün tarix elmi çox qiymətli mənbə əldə etdi.

XIX əsrin 70-ci illərinin əvvəllərində tədqiqatçı A.Klaus alman kolonistlərinin tarixinə aid bir neçə əsər yazdı[6]. Tədqiqatçı alman kolonistlərinin XVIII əsrin ortalarından başlayan iqtisadi, siyasi, mədəni fəaliyyətini təhlil edərək gələcək üçün çox dəyərli təkliflər irəli sürürdü. A.Klausun əsərləri birbaşa Qafqaz almanlarının tarixinə aid olmasa da, müəllifin Rusiya almanlarının sosial-iqtisadi, mənəvi həyatı haqqında nəticələri almanların məskunlaşma prosesinin ümumi qanunauyğunluqlarını və onun regional xüsusiyyətlərini ayırd etməkdə böyük əhəmiyyət kəsb edir.

XIX əsrin 90-cı illərində Rusiya ictimaiyyətinin diqqətini cəlb edən əsərlərdən biri A.A.Velitsina məxsus olmuşdur[7]. Bu əsərin çatışmayan cəhəti kimi müəllifin alman kolonistlərinin Rusiya tarixində oynadığı rola bir qədər qərəzli münasibət bəsləməsidir: müəllifin fikrincə, alman əhalisinin Rusiyada məskunlaşmaqda əsas niyyəti burada panqermanizm ideyalarını təbliğ etmək, Almaniyanın gələcək işğalları üçün platsdarm yaratmaq olmuşdur.

Alman məskunlaşması ilə bağlı Rusiyada 1917-ci ilə qədər çap olunmuş əsərlər sırasında Q.Q.Pisarevskinin, Y.Ştaxın, S.P.Şeluxinin, K.E.Lindemanın əsərlərini, xüsusilə qeyd etmək lazımdır.[8]

Yuxarıda adlarını çəkdiyimiz əsərlərin heç biri xüsusi olaraq Qafqaz almanlarının tarixinə həsr olunmamışdır, bu əsərlərdə Ümumrusiya xarakterli proseslər əks olunmuşdur. Lakin bununla yanaşı, adı çəkilən bütün bu əsərlər Qafqazda alman məskunlaşmasının regional xüsusiyyətlərinin ayırd edilməsində mühüm rol oynaya bilərlər.

1917-ci ilə qədər çap olunan əsərlərdə almanların Qafqazda məskunlaşmasının Rusiya imperiyası və Qafqaz tarixində yeri, rolu və əhəmiyyəti haqqında söylənilən fikirlər, əksər hallarda rəsmi dövlət orqanlarının nəzər-nöqtəsini əks etdirdiyindən, onlara tənqidi yanaşmaq lazımdır.

Sovet dövründə SSRİ-də yaşayan almanların tarixinin öyrənilməsinə qadağa qoyulmuşdu. Hakimiyyət orqanları hər vasitə ilə Qafqazda 150 ildən artıq yaşamış alman əhalisinin tarixini unutdurmağa çalışırdılar. Məhz bunun nəticəsidir ki, sovet tarixşünaslığında Qafqaz almanlarının tarixinin bütün məsələlərini kompleks şəkildə əks etdirən heç bir fundamental əsər yazılmamışdır. Baxdığımız dövrdə Cənubi Ukraynada, Sibirdə, Altayda, həmçinin Qafqazda mövcud olmuş alman koloniyalarının tarixinin bəzi məsələlərinə bu regionların tarixinə aid ümumi əsərlərdə səthi şəkildə toxunulmuşdur[9].

Qafqazda mövcud olmuş alman koloniyalarının tarixinə dair xüsusi tədqiqat işlərinin aparılması siyasi konyunkturanın sifarişləri ilə izah olunur. Məlumdur ki, sovet dövründə almanlara «frist», «faşist», «şpion» və sair kimi damğalar vurulmuşdu və sovet almanlarının tarixinin tədqiq olunması birbaşa siyasi məqsədli sifarişlərə xidmət edirdi. 1974-cü ildə işıq üzü görmüş Q.X.Mandjqaladzenin «Zaqafqaziyada alman kolonistləri (1817-1920-ci illər)» adlı əsəri məhz bu qəbildəndir[10]. Baxmayaraq ki, monoqrafiyada Gürcüstan və Azərbaycanda yaranan koloniyaların sosial-iqtisadi, mədəni həyatına dair maraqlı faktlara rast gəlinir, «Soyuq müharibə»nin qızışdığı bir dövrdə yazılmış və siyasi sifariş xarakteri daşıyan bu əsərdə almanların bütün həyat fəaliyyətinin panqermanizmin planlarına xidmət etdiyi vurğulanır, almanlara «casus», «diversant» damğası vurulur. 35 il bundan əvvəl yazılan bu əsərdə almanların tarixi təhrif olunmuş şəkildə əks etdirilir və bugünkü reallıq üçün qəbuledilməzdir.

SSRİ dağıldıqdan sonra postsovet respublikalarında almanların məskunlaşması probleminə tədqiqatçıların marağının artması müşahidə olunur. Bu baxımdan Azərbaycanda mövcud olmuş alman koloniyalarının tarixinin tədqiq edilməsində yerli tədqiqatçılar nisbətən daha çox fəallıq göstərmişlər. Onların arasında Ç.Abdullayevin, B.Quliyevanın, Q.Cavadovun, E.Kərimovun, N.İbrahimovun, K.Əliyevin, M.Cəfərlinin, M.Muradovun, H.Verdiyevanın, T.Axundovanın, S.Zeynalovanın, T.Hümbətovanın əsərlərini qeyd etmək olar.[11]

Gürcüstanda yaranan alman koloniyalarının tədqiq edilməsində müəyyən boşluqlar mövcuddur. Gürcüstan tarixinin sosial-iqtisadi, siyasi və mədəni məsələlərinə həsr olunmuş Q.V.Pipiyanın, P.V.Ququşvilinin, M.M.Diqvilavanın, N.Q.Volkovanın, K.D.Antadzenin və Y.D.Ançabadzenin əsərlərində Gürcüstan almanlarının tarixinə də ötəri şəkildə toxunulmuşdur.[12] Adı çəkilən müəlliflərin əsərlərində Gürcüstanda yaranmış alman koloniyalarının tarixinə dair fraqmentar faktlar verilmişdir ki, onlarla tanışlıq tədqiqat işinin daha da dolğunluğuna yardımçı olmuşdur.

Şimali Qafqaza gəldikdə, bu regionda mövcud olmuş alman kolonistlərinin də tarixi lazımınca tədqiq edilməmişdir.

Bu günə qədər Şimali Qafqaz almanları haqqında yazılan ən dəyərli əsər T.N.Ploxotnyukun yazdığı «Российские немцы на Северном Кавказе» («Rusiya almanları Şimali Qafqazda») monoqrafiyasıdır[13]. Əsərdə, əsasən Şimali Qafqazda alman koloniyalarının yaranması prosesi, onların təsərrüfat və dini həyatının aktual məsələləri əks olunmuşdur. Monoqrafiyada Şimali Qafqaz almanlarının siyasi və mədəni həyatı lazımınca işıqlandırılmamışdır. Əsasən, 1917—1941-ci illərin hadisələrini əks etdirən bu əsər tədqiqat zamanı müqayisə mənbəyi rolunu oynamışdır.

Son illər alman kolonistlərinin tarixinə marağın artması müxtəlif elmi konfransların təşkilində də özünü göstərir. 1995-2008-ci illərdə keçirilən elmi-konfranslarda Şimali Qafqaz almanlarının tarixinə həsr edilmiş bəzi məqalələr, çıxışlar dərc edilmişdir ki, onlardan T.N.Ploxotnyukun, İ.B.Serbakovun, A.Q.Tereşenkonun, E.B.Çesnokun, İ.İ.Alekseyenkonun, L.K.Qostiyevanın, E.Y.Aqoyevanın, Z.V.Kanukovanın, S.İ.Akkiyevanın məqalələrini qeyd etmək olar[14]. Bu kiçikhəcmli məqalələrdə Şimali Qafqazın ayrı-ayrı regionlarında yaşayan almanların ictimai-siyasi həyatının bəzi məsələlərinə toxunulmuşdur.

Rusiya tarixçiləri V.M.Kabuzan, V.B.Vinoqradov, M.M.Alekseyenko, V.S.Belozyorovun Şimali Qafqaza həsr olunmuş ümumi xarakterli əsərlərində almanların da tarixinin bəzi məsələləri tədqiq olunmuşdur[15].

Əfsuslar olsun ki, Şimali Qafqazın bütün regionlarında — Don ərazisində, Kubanda, Kabarda-Balkariyada, İnquşetiyada, Çeçenistanda, Şimali Osetiyada, Dağıstanda mövcud olmuş alman koloniyalarının mürəkkəb, çoxtərəfli tarixi lazımi səviyyədə tədqiq edilməmiş və öz qiymətini almamışdır.

Qafqaz almanlarının tarixinin öyrənilməsində Almaniya tarixçiləri də öz töfhələrini vermişlər. Xarici tarixşünaslıqda Qafqaz almanları haqqında ilk əsərlər İkinci Dünya müharibəsindən sonra işıq üzü görmüşdür və bu sarıdan keçmiş Rusiya almanlarının Ştutqartda yaratdığı «Rusiya almanlarının həmyerlilər cəmiyyəti» («Die Landsmannschaft der Deutschen aus Rusland») böyük rol oynamışdır. Cəmiyyətin mütəmadi olaraq nəşr etdirdiyi «Heimatbuch der Deutschen aus Rusland» («Rusiya almanlarının Vətən kitabı») adlı almanaxda Rusiyanın müxtəlif regionlarında, o cümlədən Qafqazda yaşamış alman əhalisinin

tarixinə dair çox maraqlı və vacib materiallar dərc olunmuşdur. Almanaxın müxtəlif nömrələrində çap olunan K.Stumppun, M.Xaberlinin, İ.Şnurrun, J.Hummelin, J.Schleiningin məqalələrində Qafqaz almanlarının sosial-iqtisadi, siyasi həyatına dair qiymətli məlumatlar verilir[16].

Almaniyalı tarixçi Eva-Mariya Aux Cənubi Qafqaz almanlarının tarixinə bir neçə məqalə həsr etmişdir[17]. Müəllif almanların Cənubi Qafqazdakı həyatının bəzi məsələlərinə toxunaraq, təhrifedici mülahizələr irəli sürmüşdür və baxdığımız problemin tədqiqatı zamanı Y.M.Auxun əsərlərinə tənqidi yanaşılmış, onun alman kolonistlərinin tarixi haqqında qeyri-elmi mülahizələrinə əks-arqumentlər qoyulmuşdur.

Qafqazda almanların məskunlaşması probleminin tarixşünaslığına nəzər saldıqdan sonra belə nəticəyə gələ bilərik ki, Qafqaz regionunda mövcud olmuş alman koloniyalarının tarixinin bəzi məsələləri tədqiq olunmuş və bu baxımdan Azərbaycanda məskunlaşmış almanların tarixinin öyrənilməsində daha çox fəallıq nəzərə çarpır. Qafqazın yuxarıda adı çəkilən regionlarında yaşamış almanların tarixinin araşdırılmasına böyük ehtiyac duyulur.

Baxdığımız problemin araşdırılma səviyyəsindən irəli gələrək tədqiqat işinin əsas məqsədi ayırd edilmişdir ki, bura Qafqaz almanlarının məskunlaşmasının əsas mərhələlərinin təyin olunması və əsaslandırılması, onların təsərrüfat-iqtisadi fəaliyyətinin regional xüsusiyyətlərinin ayırd edilməsi, Qafqaz koloniyalarının konfessional mənsubiyyəti və koloniyaların fəaliyyətinə dini amillərin təsiri, Rusiya-Almaniya münasibətlərinin Qafqaz almanlarının ictimai-siyasi həyatına təsiri və sair hələlik lazımınca tədqiq olunmayan məsələlərin işıqlandırılması daxildir.

Qafqaz almanlarının tarixinin tədqiq olunmasını mürəkkəbləşdirən amillərdən biri problem üzrə mənbələrin müxtəlif dövlətlərin mərkəzi və regional arxivlərində yerləşməsidir. Müəllif tədqiq etdiyi mövzu üzrə geniş mənbələrdən istifadə etmişdir ki, onların böyük əksəriyyəti ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilir.

Əsərin hazırlanması zamanı 10 arxivdə saxlanılan materiallardan istifadə olunmuşdur: 1) Azərbaycan Respublikasının Dövlət Tarix arxivi (Bakı); 2) Gürcüstan Respublikasının Dövlət Tarix arxivi (Tiflis); 3) Ukrayna Dövlət Mərkəzi Tarix arxivi (Kiyev); 4) Jitomir Vilayət Dövlət arxivi (Jitomir, Ukrayna); 5) Rusiya Dövlət Qədim Aktlar arxivi (Moskva); 6) Rusiya Dövlət Tarix arxivi (Sankt-Peterburq); 7) Krasnodar Diyarı Dövlət arxivi (Krasnodar, Rusiya); 8) Stavropol Diyarı Dövlət arxivi (Stavropol, Rusiya); 9) Rostov Vilayət Dövlət arxivi (Rostov, Rusiya); 10) Şimali Osetiya Respublikasının Mərkəzi Dövlət arxivi (Vladiqafqaz, Rusiya).

Çap olunmuş mənbələr sırasında ən əhəmiyyətlisi çar hökumətinin qanunverici aktlarını özündə cəmləşdirən «Rusiya imperiyasının tam qanunlar toplusu»dur («Полное Собрание законов Российской империи»)[18].

Müəllif «Tam qanunlar toplusu»nda nəşr edilən, alman kolonistlərinin sosial-iqtisadi, siyasi, mədəni həyatına birbaşa və dolayısı ilə aid olan qanunverici aktlardan (manifestlər, nizamnamələr, Dövlət Şurasının qərarları, reskriptlər, konvensiyalar və sair sənədlər) geniş istifadə etmişdir.

Çap olunmuş mənbələrdən Qafqaz canişininin arxivi əsasında hazırlanmış «Qafqaz arxeoqrafiya komissiyasının aktları»nın böyük əhəmiyyəti var[19].

Xüsusi mənbə növü kimi statistik məlumatlar toplularından da tədqiqat zamanı geniş istifadə olunmuşdur.[20] Rusiya imperiyasının müxtəlif regionlarına həsr olunmuş bu toplularda Qafqaz almanlarına aid materiallara da rast gəlinir və müəllif zərurət yarandıqda bu mənbələrdən də istifadə etmişdir.

Çar Rusiyası zamanı nəşr edilən qanunlar toplusunun başqa bir nümunəsi kimi «Rusiya imperiyasının qanunlar külliyatı»nı («Свод законов Российской империи») göstərmək olar. 1857-ci ildə nəşr edilən «Rusiya imperiyasının qanunlar külliyatı» xüsusi əhəmiyyətə malikdir. Bu nəşrin 12-ci cildinin ikinci hissəsində «İmperiyada yaşayan əcnəbi koloniyalar haqqında Nizamnamə» dərc edilib.[21] Müxtəlif profilli alim və səyyahların əsərləri mənbələr sırasında xüsusi yer tutur. Türk tarixçisi, səyyah Övliya Çələbinin «Səyahətnamə» əsərində rus işğalından və almanların kütləvi məskunlaşmasından əvvəlki Qafqazın etnokonfessional, sosial-iqtisadi vəziyyəti haqqında əvəzolunmaz məlumatlar əks olunmuşdur[22].

XIX əsrin I yarısı üçün akademik P.S.Pallasın, İ.Lepexinin, S.Q.Qmelinin, Klaprotun, Qüldenstedtin əsərləri çox dəyərlidir[23]. Bu alimlər Qafqazın coğrafiyası, əhalisi, alman koloniyalarının həyatı və məişəti haqqında dəyərli material toplamışlar.

Vacib və az tədqiq olunmuş mənbələrdən biri də 1897-ci ildə keçirilmiş Ümumrusiya əhalisinin birinci siyahıyaalınmasının nəticələridir[24]. Bu sənəddə Şimali və Cənubi Qafqazın quberniyaları, vilayətlərində yaşayan alman əhalisinin sosial-iqtisadi, mənəvi həyatı, koloniyalarda əhalinin demoqrafik, sosial və professional vəziyyəti haqqında məlumatlar əldə etmək olar.

XIX əsrin II yarısı — XX əsrin əvvəllərində Qafqaz alman koloniyalarının siyasi həyatı, kolonistlərə qarşı Almaniya və Rusiya hökumətlərinin apardığı siyasi kursun məzmunu haqqında ən dolğun məlumatlar Almaniyanın xarici siyasətinə, alman-rus münasibətlərinə dair sənədlər toplusunda cəmləşmişdir və müəllif bu qiymətli mənbələrdən geniş istifadə etmişdir[25].

Rusiya almanlarının 200 illik tarixinə dair hüquqi-normativ sənədlər V.A.Auman və V.Q.Çebotaryovanın redaktorluğu ilə hazırlanmış «Rusiya almanlarının tarixi sənədlərdə» adlı topluda nəşr edilmişdir[26]. Bu topluda Qafqaz almanlarının XIX əsrin II yarısı — XX əsrin əvvəllərindəki tarixinə aid qiymətli sənədlər vardır. Xüsusilə almanların I Dünya müharibəsi illərində ictimai-siyasi həyatına dair sənədlər çoxluq təşkil edir.

XIX əsrin II yarısı — XX əsrin əvvəllərində Rusiyada müxtəlif regionlara həsr edilmiş çox dəyərli materiallar toplusu nəşr edilmişdir. Bu toplularda Qafqazda yaşayan xalqların, o cümlədən almanların etnoqrafiyası, onların adət və ənənələri haqqında məlumatlar əks olunmuşdur. Materiallar toplusunda çap olunan məqalələrin əksəriyyəti rəsmi dövlət sənədləri əsasında yazıldığından onlara tənqidi yanaşmaq vacibdir[27].

Nəşr edilmiş mənbələr sırasında dövri mətbuatın özünəməxsus yeri var[28]. XIX əsrin I yarısında rəsmi pressdə, xüsusən də Daxili İşlər Nazirliyinin və Dövlət Əmlak Nazirliyinin nəşr orqanlarında Rusiya imperiyası, o cümlədən Qafqazda məskunlaşan alman kolonistləri haqqında geniş statistik materiallar, zəngin yazılar dərc edilmişdir. XIX əsrin II yarısı — XX əsrin əvvəllərində qəzet və jurnallarda çap olunan məqalələrdə Qafqaz almanları haqqında statistik məlumatlar verilir, almanların yerli xalqlarla — azərbaycanlılarla, ruslarla, gürcülərlə, ermənilərlə və başqa etnoslarla qarşılıqlı münasibətləri, onların adət-ənənələri, məişəti haqqında maraqlı faktlar əks olunmuşdur.

Qiymətli mənbələrdən biri də epistolyar materiallardır.[29] Epistolyar mənbələr sırasında alman kolonistlərinin qohumlarına yazdıqları məktubları, onların xatirələrini, oçerklərini, o cümlədən dövrün tanınmış siyasi xadimlərinin memuarlarını, xatirələrini göstərmək olar. Bu mənbələrdə Qafqaz almanlarına dair epizodik faktlara rast gəlinir.

Tədqiqat zamanı çar Rusiyası və SSRİ dövründə, həmçinin başqa ölkələrdə nəşr edilmiş təqvimlərdən, ensiklopedik lüğətlərdən geniş istifadə olunmuşdur[30].

Müəllif geniş və müxtəlif çeşidli mənbələr əsasında Qafqazın alman əhalisinin tarixinin aktual məsələlərini tədqiq etmiş və Azərbaycan tarixşünaslığında, demək olar ki, tədqiq olunmayan Şimali Qafqaz və Gürcüstan alman koloniyalarının tarixinə aid çoxlu sayda arxiv materiallarını elmi dövriyyəyə buraxmışdır. Təqdim olunan bu monoqrafiyada müəllifin Qafqaz almanlarının tarixinin müxtəlif aspektlərinə dair çap olunmuş bütün elmi məqalələrində söylənilən müddəalar əks olunmuşdur[31].

Monoqrafiyada əks olunan bir çox məsələlər — Qafqaz almanlarının dini həyatının xüsusiyyətləri, «alman məsələsi» və çarizmin antialman siyasəti, I Dünya müharibəsi illərində, Azərbaycan və Gürcüstan müstəqil dövlətlərinin mövcudluğu illərində kolonistlərin ictimai-siyasi həyatı, Qafqaz almanlarının yerli xalqlarla qarşılıqlı münasibətləri və sair vacib məsələlər alman koloniyalarının tarixşünaslığında ilk dəfə tədqiqat predmeti olmuşdur ki, bu da monoqrafiyanın elmi yeniliyini təşkil edir. Monoqrafiya işi AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun «Qafqaz tarixi» şöbəsində yerinə yetirilmişdir. Müəllif tədqiqat işi aparılan dövrdə verdiyi metodoloji məsləhətlərə görə AMEA-nın müxbir üzvü, A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, prof. Y.M.Mahmudova, həmin İnstitutun «Qafqaz tarixi» şöbəsinin müdiri, tarix elmləri doktoru İ.S.Bağırovaya və öz dəyərli qeydlərinə görə şöbə əməkdaşlarına təşəkkürünü bildirir.

# I FƏSİL

# ALMAN ƏHALİSİNİN QAFQAZA KÖÇMƏSİ, ONLARIN SOSİAL-İQTİSADİ, SİYASİ VƏ MƏDƏNİ-DİNİ HƏYATININ TƏŞƏKKÜLÜ

***(XVIII əsrin sonu- XIX əsrin birinci yarısı)***

## 1.1. ŞƏRQİ AVROPA ƏRAZİLƏRİNDƏ ALMANLARIN MƏSKUNLAŞMASININ ƏSAS MƏRHƏLƏLƏRİ VƏ QAFQAZDA İLK ƏCNƏBİ KOLONİYALAR YARATMAQ CƏHDİ

Əhalinin miqrasiya tarixi insanın yaranma tarixi qədər qədimdir. Hər şeydən əvvəl, ictimai proses kimi kulturoloji, sosial-iqtisadi, siyasi amillərin təsiri nəticəsində baş verən əhalinin miqrasiyası məhsuldar qüvvələrin inkişafında, etnik birliklərin formalaşmasında və ümumiyyətlə, cəmiyyətin tərəqqisində xüsusi rol oynamışdır.

Eramızın II minilliyinin əvvəllərindən Mərkəzi Avropada başlayan alman əhalisinin kütləvi mühacirəti bütöv qitələrin, dövlətlərin və xalqların tarixində dərin iz buraxmışdır. Bu baxımdan postsovet məkanında yaranan dövlətlər istisna təşkil etmirlər, belə ki, bu dövlətlərin ərazilərində almanların məskunlaşması qədim tarixə malikdir.

Rusiya imperiyasına daxil olmuş ərazilərdə yaranan alman koloniyaları haqqında ilkin məlumatlara Kiyev Rus dövləti və feodal dağınıqlığı dövrünə aid mənbələrdə rast gəlinir. Vurğulamaq vacibdir ki, qədim rus müəllifləri Müqəddəs Roma imperiyası ərazisində yaşayan bütün roman-german mənşəli xalqları «alman» adlandırırdılar. Buna görə orta əsr mənbələrində ayrıca «alman» adı ilə yanaşı, «alman avstriyalı», «alman italyan», «Livon almanı», «alman-polyak» və Tevton ordeninin «alman cəngavərləri» kimi adlara da rast gəlinir.[1]

Rusiya imperiyası ərazisində ilk alman koloniyalarının yaranması XIII əsrin əvvəllərinə təsadüf edir. XI-XII əsrlərdə Çexiyanın, Polşanın, Transilvaniyanın qərb əraziləri almanlar tərəfindən məskunlaşdırıldıqdan sonra, tədricən alman mühacirləri Pribaltika və Qərbi Ukrayna ərazilərində yerləşməyə başladılar. Qeyd edək ki, adı çəkilən ərazilərdə almanların məskunlaşma prosesi xarakter etibarilə bir-birindən fərqlənirdi. Əgər Pribaltikada almanların məskunlaşması burada yaşayan xalqlara qarşı hərbi təcavüz nəticəsində həyata keçirilirdisə, Qərbi Ukrayna ərazilərinə almanlar yerli knyaz sülalələri tərəfindən dəvət olunurdular. Məsələn, 1259-cu ildə monqol-tatar basqınlarından sonra Qaliç-Volın knyazı Danil Qalitski dağıdılmış şəhərləri, qalaları bərpa etmək məqsədilə alman sənətkarlarını, memarlarını, ticarət adamlarını knyazlığa dəvət etdi. Əcnəbi mühacirləri cəlb etmək məqsədilə o, Maqdeburq şəhər hüququna müvafiq olaraq, onlara yerli

idarəetmə, məhkəmə sistemində azadlıqlar vermiş, sosial-iqtisadi sahədə bir sıra imtiyazlar bağışlamışdı.[2] Knyaz Danil Qalitskinin apardığı siyasət təcrübəli alman sənətkarlarının, inşaatçılarının, tacirlərinin fəal şəkildə Qərbi Ukraynada məskunlaşması ilə nəticələndi.

Knyaz Vladimir Vasilkoviçin dəfn mərasimini təsvir edən Qaliç-Volın salnaməsinin müəllifi yazırdı: «Onun tabutu üstündə bütün vladimirlilər - kişilər, qadınlar və uşaqlar; almanlar, surojlular və novqorodlular» ağlayırdılar.[3]

Qaliç-Volın knyaz sülaləsinin davamçıları knyazlar Yuri, Andrey və Lev Tevton ordeni ilə yaxın münasibətlərdə idilər. Monqol-tatar təhlükəsindən müdafiə məsələsində ümumi maraqlar və Baltik dənizi vasitəsilə aparılan ticarət əlaqələri tərəflər arasındakı dostluq münasibətlərinin əsasını təşkil edirdi. Knyaz Yurinin hakimiyyəti illərində almanların sayı xeyli artdı və Qərbi Ukraynanın şəhərlərinin siyasi həyatında onların nüfuzu getdikcə güclənirdi ki, bu da knyaza qarşı xalq üsyanının səbəblərindən biri olmuşdu. Xalq kütlələrinin fikrincə, «knyaz şəhərləri çexlərlə və almanlarla dolduraraq onların hüquqlarını və dini etiqadlarını dəyişmək istəyirdi»[4] XIV əsrin 40-cı illərində Vladimir-Volın, Lutsk, Lvov, Ostriq və sair şəhərlərdə baş verən xalq qiyamları alman mühacirlərinin əksəriyyətinin qırğını ilə nəticələndi. Daxili çəkişmələr nəticəsində zəifləyən Qaliç-Volın knyazlığı XIV əsrin II yarısında öz müstəqilliyini itirdi, onun qərb əraziləri Polşa tərəfindən işğal olundu. Yerdə qalan ərazilər Böyük Litva knyazlığının tərkibinə qatıldı. Həm Polşa, həm də Litva dövlətləri alman torpaqları ilə sıx ticarət əlaqələrinin qurulmasında maraqlı idilər. Polşa kralı III Kazimir (1333-1370) 1349-cu ildə qərbi-rus şəhərlərində yaşayan alman mənşəli sənətkarların, tacirlərin hüquqlarının daha da genişləndirilməsinə yönələn fərman imzaladı.[5] ABŞ tarixçisi Orest Subtelninin yazdığına görə, XIV əsrin sonlarına Volının, Qalitsiyanın şəhərlərində «almanlara məxsus onlarla sənətkar sexləri, tacir gildiyaları fəaliyyət göstərirdi».[6] XIV-XV əsrlərdə Maqdeburq şəhər hüququnun Polşa və qərbi-rus şəhərlərində qəbul edilməsi bu ərazilərə alman millətindən olan çoxsaylı ticarət adamlarının, sənətkarların köçməsinə səbəb oldu. Qərbi-rus şəhərləri — Syanokda, Lutskda, Koveldə, Vladimir-Volında, Torçində, Striydə, Lvovda və sair şəhərlərdə alman sənətkarlarının, tacirlərinin məhəllələri meydana gəlmişdi. Onlar german və rus torpaqları arasındakı ticarət əlaqələrində vasitəçi rolunu yerinə yetirirdilər.

XVI əsrin ortalarında qərbi-rus torpaqlarında əcnəbilərin ilk əkinçi koloniyaları meydana gəldi: 1563-cü ildə, tarixi ədəbiyyatda «holendrlar» adı ilə tanınan əhali Brest şəhərindən cənubda, Buq çayı sahilində Noydorf və Noybrau koloniyalarının əsasını qoydular.[7] Tarixi mənbələrdə «holendrlar»ın etnik mənsubiyyəti barədə müxtəlif fərziyyələr söylənilmişdir və onların etnik cəhətdən almanlara və yaxud hollandlara məxsusluğu məsələsi alman koloniyalarının tarixi ilə məşğul olan tədqiqatçılar arasında mübahisə obyektinə çevrilmişdir. Məsələn, Polşa tədqiqatçısı S.Sixotska-Petrajeska hesab etmişdir ki, Brest ətrafında məskunlaşan «holendrlar» etnik hollandlardır. Onun fikrincə, «XV əsrdə Cənubi

Niderlanddan Polşaya köçən hollandlar burada koloniyalar yaratmış və yerli Polşa əhalisi əcnəbi kolonistləri «holendrlar» adlandırmışdır ki, bu da «hollandlar» sözündən əmələ gəlmişdir»[8].

S.Sixotska-Petrajeska holland koloniyalarında «sonralar almanların və polyakların da məskunlaşdığını, onların tədricən polyaklaşdığını vurğulayır». Alman tarixçisi V.Kuhnun fikrincə, «holendrlar» adı simvolik xarakter daşıyır, belə ki, orta əsr Polşasında çoxsaylı holland koloniyaları əhatəsində adda-budda yerləşən alman koloniyalarının sakinləri də belə adlana bilərdi. «Holendrların» alman etnosuna mənsubluğuna sübut kimi, V.Kuhn belə faktlar gətirir ki, «hollandlar» «dini etiqadına görə Lüteran kilsəsinə aid olmuş və qədim qot yazısından istifadə etmişlər».[9] Qeyd edək ki, holendrların etnik mənsubiyyəti məsələsi o qədər də prinsipial xarakter daşımır, belə ki, Qərbi-rus torpaqlarında bir neçə koloniya yaratmış bu etnik qrup sonrakı əsrlərdə alman kolonistləri ilə qaynayıb qarışaraq «almanlaşmışlar». Ümumi götürdükdə, orta əsrlərdə alman əhalisinin Şərqi Avropada məskunlaşması prosesi böyük miqyasa malik olmamışdır.

XVI-XVII əsrlərdə Şərqi Avropada alman mühacirlərinin ən çox maraq göstərdikləri dövlətlər Reç Pospolita və Moskoviya idi. Bu dövrdə Rusiyada məskunlaşan almanların əksəriyyətini Livoniya müharibəsində (1558—1583) əsir düşmüş hərbçilər, həmçinin rus çarları—IV İvan və Aleksey Mixayloviç tərəfindən dəvət olunmuş müxtəlif peşə sahibləri — geoloqlar, hərbi mühəndislər, heykəltəraşlar, həkimlər və sair kateqoriyadan olan elm, mədəniyyət xadimləri təşkil edirdilər. 1643-cü ildə təkcə Moskvada artıq 400 alman ailəsi yaşayırdı və onlar kompakt şəkildə xüsusi bir məhəllədə məskunlaşaraq Alman Slabodasını yaratmışdılar.[10]

Qeyd edək ki, almanların daha intensiv məskunlaşdıqları dövlətlərdən biri Reç Pospolita idi. 1569-cu ildə Polşa ilə Litvanın birləşməsindən yaranan bu dövlət Baltik dənizi ilə Qara dəniz arasındakı geniş şərqi slavyan torpaqlarını öz tərkibinə qatmışdı.

XVII əsrin II yarısında—XVIII əsrin əvvəllərində Reç Pospolita ağır iqtisadi və siyasi böhran dövrünü yaşayırdı. İqtisadiyyatın əsasını təşkil edən kənd təsərrüfatının böhrandan çıxarılması üçün yerli feodallar iki metoddan istifadə edirdilər: 1) «çinş» sisteminin tətbiqi; 2) folvarkın, yəni «mülkədarın əkin sahəsi»nin genişləndirilməsi. Böyük Polşada (tarixi Polşa əraziləri—İ.A.) iri torpaq sahibləri öz təsərrüfatlarında çinşeviklərin əməyindən istifadə etməyə başladılar. «Çinş» sözü tərcümədə «mükəlləfiyyət» mənasını verir və göründüyü kimi, çinşeviklər feodal torpağında məskunlaşır, onu əkib becərir, əvəzində feodala renta ödəyirdilər. Böyük Polşada çinşeviklərin əksəriyyətini alman kolonistləri təşkil edirdilər.

Folvarkların genişləndirilməsi mövcud kəndli təsərrüfatlarının zəbt edilməsi hesabına aparılırdı və bu hal daha çox Polşa tarixşünaslığında «Kiçik Polşa»

adlandırılan qərbi-rus torpaqları üçün xarakterik idi. Bu səbəbdən Reç Pospolitanın qərb və mərkəz əyalətlərində gedən almanların kütləvi məskunlaşması prosesi qərbi-rus torpaqlarını əhatə etmədi. Yalnız Lüteran və Katolik kilsələri tərəfindən təqibə məruz qalan yevangelist-xristian baptistlərdən ibarət bir neçə mühacir qrupu Qərbi Ukraynanın Kiselin və Slavutiç kəndlərində məskunlaşdı.

XVIII əsrin əvvəllərindən Rusiya imperiyasında XVI— XVII əsrlərdə işğal yolu ilə ələ keçirilmiş ərazilərin məskunlaşdırılması siyasətinin fəal şəkildə həyata keçirilməsinə başlandı.

Bu siyasətin ən vacib istiqamətlərindən biri ölkəyə əcnəbi mühacirlərin dəvət olunması idi. XVIII əsrin əvvəllərindən Rusiyada məskunlaşan əcnəbilərin, xüsusən də almanların sayı nəzərəçarpacaq dərəcədə artdı ki, bu da çar I Pyotrun fəaliyyəti ilə bağlı idi.

Gənc yaşlarından o, əcnəbilərlə və əsasən də Alman Slabodasının sakinləri ilə əhatə olunmuşdu. Elə o vaxtdan I Pyotrda «almanlara vərdiş, onlarla tanışlıq, Qərbə rəğbət hissləri formalaşdı».[11]

Rusiyada hərtərəfli islahatların aparılması zərurəti yaransa da, bu vəzifəni həyata keçirmək üçün savadlı, işini bilən mütəxəssislər çatışmırdı. Bu səbəbdən çar I Pyotr əcnəbi, əsasən də alman mənşəli mütəxəssislərin Rusiyaya cəlb edilməsini xarici siyasətinin ən prioritet istiqamətlərindən biri elan etdi və bununla əlaqədar, 16 aprel 1702-ci il tarixində müvafiq manifest imzaladı.[12] Manifestin məzmunu Avropa ölkələrində, xüsusən də alman torpaqlarında böyük maraq doğurdu və minlərlə qabaqcıl mütəxəssislər, həkimlər, müəllimlər, hərbi mühəndislər, arxitektorlar, kimyaçılar, tarixçilər, botaniklər, arxeoloqlar və sair peşə sahibləri Rusiyaya axışdılar. Burjua islahatlarının həyata keçirilməsində fəal iştirak edən alman mühacirləri tezliklə böyük siyasi nüfuz qazandılar və Rusiyanın dövlət orqanlarında təmsil olunmağa başladılar. Təkcə onu demək kifayətdir ki, Peterburq administrasiyasının 25%-ni artıq alman mənşəli məmurlar təşkil edirdi.[13]

Ordu generalları, admirallar və zabitlər arasında da almanlar çox böyük faiz təşkil edirdilər.

Çar I Pyotrun niyyəti Rusiyada alman elementinin mövqelərini, sadəcə, gücləndirmək deyil, daha dərinə gedərək rus çar nəslini tanınmış alman knyaz nəsilləri ilə qohumlaşdırmaq idi. Bu məqsədlə hələ I Pyotrun sağlığında iki nəsil arasında çoxsaylı nikahlar bağlandı: I Pyotrun qardaşı qızları Meklenburq və Kurlandiya knyazlarına ərə getdilər; I Pyotrun oğlu Aleksey 1712-ci ildə Braunşveyq-Volfenbüttel şahzadəsi Şarlotta Xristiana Sofiya ilə nişanlandı; I Pyotrun I Yekaterina ilə nikahından doğulan Anna Petrovna (1708-1728) Qolşteyn-Qottop hersoqu Fridrix Karla ərə getdi və onların oğlu Karl Peter Ulrix sonralar III Pyotr adı ilə Rusiya imperatoru olmuşdu.

Çar I Pyotr tərəfindən almanların məskunlaşdırılmasının dəstəklənməsi və alman nəsilləri ilə qohumluq əlaqələrinin yaranması sadə rus xalqı üçün başa düşülən deyildi və tarixçi F.Platonovun sözləri ilə desək, «almanların hədyan

ədaları xalqda narazılığın yaranmasına gətirdi». Təsadüfi deyil ki, 1705-ci ildə Həştərxanda baş verən üsyan «boyarlara, voyevodlara və almanlara qarşı» yönəlmişdi.[14]

Beləliklə, I Pyotrun dövründə Rusiyada, əsasən yaradıcı insanlar—alimlər, həkimlər, mühəndislər, hərbi mütəxəssislər və sair intellektual peşə sahibləri yerləşirdilər və əsasən iri şəhərlərdə məskunlaşan bu kateqoriya mühacirlər Rusiyanın qabaqcıl Avropa dövlətinə çevrilməsində mühüm rol oynasalar da, Rusiyada mövcud boş qalmış ərazilərin mənimsənilməsinə əməli fayda vermədilər.

23 noyabr 1719-cu il tarixdə çar I Pyotr imzaladığı fərmanla Svyatoy Krest (indiki Rusiyanın Budyonovsk şəhəri) qalası ətrafı ərazilərində gürcü mənşəli mühacirlərin məskunlaşması «onlara ilk vaxtlarda pul və çörək yardımının ayrılması» haqqında göstəriş vermişdi.[15] Fərmanın mətnindən görünür ki, adı çəkilən ərazidə məskunlaşmaq istəyən gürcülərin sayı 100-dən artıq deyil və onlar gürcü knyaz nəsillərinin nümayəndələridir ki, siyasi motivlərlə bağlı Gürcüstanı tərk edərək Rusiyada sığınacaq axtarırdılar. Fərmanda nəzərdə tutulan torpaq sahəsi ilə təmin olunduqdan sonra gürcü mühacirlərə «pul vəsaiti ayrılmasının dayandırılması» onu göstərirdi ki, çar hökuməti boş qalmış ərazilərin iqtisadi mənimsənilməsində gürcü mühacirlərə ümid bəsləmirdi.[16] Boş torpaqların məskunlaşdırılması dövlət üçün o qədər əhəmiyyət kəsb edirdi ki, hətta I Pyotrun ölümündən sonra başlanan saray çevrilişləri zamanı belə bu mühüm məsələ çar hökumətinin diqqətindən kənarda qalmamışdı.

Rusiya rəsmi dairələri yaxşı başa düşürdülər ki, XVI—XVII əsrlərdə Rusiyaya birləşdirilmiş Volqaboyu və Sibir regionlarının iqtisadi mənimsənilməsi, həm də geosiyasi əhəmiyyət kəsb edir,[17] çünki Uzaq Şərq və Mərkəzi, Cənub-Şərqi Asiya ölkələri ilə əsas ticarət yolları bu ərazilərdən keçirdi. Volqaboyu regionun vəziyyəti daha acınacaqlı idi, belə ki, de-yure Rusiyanın tərkibinə qatılan bu bölgə faktiki olaraq müxtəlif köçəri xalqların—noqayların, qırğızların, qazaxların, başkirlərin, kalmıkların və sair Volqaboyu xalqlarının nəzarətində idi. Volqaboyu Rusiya üçün strateji əhəmiyyət kəsb edirdi. Bir tərəfdən Volqaboyu vasitəsilə imperiyanın Asiya hissəsi ilə kommunikasiya saxlanırdı və Volqaboyunun itirilməsi Rusiyanın Uraldan şərqə hakimiyyətinin itirilməsi demək idi; ikinci bir tərəfdən iqtisadi cəhətdən inkişaf etmiş Volqaboyu regionu gələcəkdə Rusiyanın cənuba—Qafqaza və Mərkəzi Asiyaya ekspansiyası zamanı forpost rolunu oynaya bilərdi. Bütün bunları nəzərə alan imperateritsa Anna İvanovna (1730—1740) Volqaboyunun mənimsənilməsi istiqamətində bir sıra mühüm tədbirlərə əl atdı. 1731-ci ildə çar hökuməti bu regionda əhalinin könüllü məskunlaşmasına icazə verdi və köçkünlərə hər cür maddi dəstək göstəriləcəyini vəd etdi. Gələcək sakinləri qorumaq məqsədilə Volqa sahillərinə, hətta üç batalyon əsgər göndərildi.[18] Ancaq Anna İvanovnanın Volqaboyunu məskunlaşdırmaq cəhdi bir nəticə vermədi: Volqaya göndərilən əsgərlər yerli köçəri xalqlar tərəfindən

öldürüldülər və könüllü şəkildə bu regiona köçmək arzusunda olanlar da öz niyyətlərini dəyişdilər.

Bu hadisədən sonra 1732-ci ildən başlayaraq Anna İvanovna regionun məskunlaşdırılmasında məcburi metodlara əl atdı. Yeni müdafiə xəttinin tikilişi adı altında Don ərazisindən 1057 kazak ailəsi, həmçinin sürgünə məhkum olunanlar, öz mülkədarından qaçan kəndlilər, müxtəlif cinayətlər törədən ünsürlər zorla Volqa sahillərinə köçürülürdülər. Çar hakimiyyətindən narazı olan əhali təbəqəsi, nəinki Volqaboyunun mənimsənilməsinə fayda verdi, əksinə, tezliklə onlar özləri çara təhlükə yaradacaq cinayətkar qüvvəyə çevrildilər.

Beləliklə, Anna İvanovnanın Volqaboyu regionun geniş ərazilərinin daxili məskunlaşma hesabına mənimsənilməsi siyasəti bir nəticə vermədi. Bütün bunların fonunda çar hökuməti yeni ərazilərin mənimsənilməsində əcnəbilərdən istifadə etmək qənaətinə gəldi. 4 iyul 1738-ci il tarixdə Anna İvanovnanın imzaladığı qərarda rus ordusu tərkibində İran və Türkiyəyə qarşı müharibələrdə iştirak edən erməni və gürcü əhalisinin imperiyanın cənub hüdudlarında məskunlaşdırılmasının əhəmiyyəti vurğulanır, xüsusən də ermənilərin «sərhədlərin dağlı xalqlarının hücumlarından qorunmasında» oynaya biləcəyi rol qeyd olunurdu.[19] Yeni məskən salanlara tövsiyə olunurdu ki, «onlar məktub yazaraq qohumlarını da Rusiya imperiyasına köçməyə səsləsinlər»[20] Göründüyü kimi, çar hökuməti Rusiyada əcnəbilərin kütləvi məskunlaşdırılması planları ilə çıxış etməyə hələ hazır deyildi və bu problemi mühacirlərin şəxsi təşəbbüsləri hesabına həll etmək niyyətində idi ki, bu səbəbdən qəbul edilən qərarlar arzulanan effekt vermirdi.

Boş qalmış ərazilərin məskunlaşdırılması XVIII əsrin ortalarında Rusiyanın daxili siyasətində ən prioritet məsələlərdən biri kimi qalmaqda idi. Anna İvanovnanı əvəz etmiş çariça Yelizaveta Petrovna (1741-1761) hakimiyyətinin ilk illərində öz sələflərinin apardığı məskunlaşdırma siyasətinin səhvlərini təkrar edərək daha çox daxili məskunlaşma rezervlərinə üstünlük verirdi. Problemin həlli yollarının araşdırılması məqsədilə, hətta qabaqcıl dövlət məmurları, formalaşmaqda olan burjua nümayəndələri də cəlb edilmişdilər. XVIII əsrin 40-cı illərində Həştərxan qubernatoru V.M.Tatişev və Simbirsk zavod sahibi A.Duxov Aşağı Volqaboyunun məskunlaşdırılması planları ilə çıxış etsələr də, əhali resurslarının çatışmazlığı səbəbindən onların həyata keçirilməsi baş tutmadı.[21]

Rusiyada mövcud təhkimçilik münasibətləri əhalinin sərbəst şəkildə miqrasiyasına maneə yaradırdı. Mülkədarlar sərhədyanı, xam ərazilərdə, siyasi cəhətdən qeyri-sabit regionlarda yeni təsərrüfatlar yaratmaqda maraqlı deyildilər. Bundan başqa, Prussiyanın, Avstriyanın və Şimali Amerika koloniyalarının təcrübəsi göstərirdi ki, boş qalmış ərazilərin mənimsənilməsi, yeni təsərrüfatların yaradılması torpaq sahibi ilə torpaqdan istifadə edən arasında yeni münasibətlər—kapitalist münasibətlər sisteminin bərqərar olmasını tələb edirdi. Rusiyada təhkimçilik qaydalarının ləğv edilməsi və yaxud zəiflədilməsi siyasi hakimiyyətin məhvinə gətirə bilərdi və bu səbəbdən XVIII əsrin ortalarında məskunlaşdırma

siyasətinin daxili rezervlərin hesabına aparılması mümkün olmadı. Rusiya tarixşünaslığında əcnəbilərin Rusiyada kütləvi məskunlaşdırılması nəzəriyyəsinin banisi 1760-cı ildə Rusiyaya dəvət olunmuş alman tarixçisi Auqust Lüdviq fon Şletser hesab olunur.[22] Ancaq tarixi mənbələrdən görünür ki, ilk dəfə olaraq Rusiyaya əcnəbi kolonistlərin kütləvi köçürülməsi məsələsini müzakirəyə çıxaran imperateritsa Yelizaveta Petrovna olmuşdur.

XVIII əsrin ortalarında Şərqi və Cənub-Şərqi Avropada, Şimali Amerikada fəal şəkildə alman kolonistlərinin məskunlaşması prosesi gedirdi. Anna İvanovnanın hakimiyyəti illərində başda E.İ.Biron olmaqla alman məmurlarının törətdikləri özbaşınalıqlardan sonra Yelizaveta Petrovna alman elementinə çox mənfi yanaşırdı və buna görə alman kolonistlərinin Rusiyada məskunlaşması variantı qəbul edilməz sayılırdı. O, hesab edirdi ki, Rusiyada rus xalqı ilə həm dil cəhətdən, həm dini nöqteyi-nəzərdən yaxın olan Balkan yarımadasının slavyan xalqlarını yerləşdirmək daha məqsədəuyğun olardı. Bu məqsədlə 24 dekabr 1751-ci il tarixində Yelizaveta Petrovna məskunlaşmaq istəyən serblərin rus təbəəliyinə qəbul edilməsi haqqında fərman imzaladı.[23] Serb kolonistləri üçün Zaporojye kazaklarının torpaqları nəzərdə tutulmuşdu.

Yelizaveta Petrovna, həmçinin katoliklər tərəfindən təqiblərə məruz qalan fransız protestantlarının da Rusiyada məskunlaşmasını təqdirəlayiq sayırdı. Bu proyektin həyata keçirilməsi məqsədilə 1752-ci ildə fransız mənşəli məmur De La Fontenin başçılığı ilə xüsusi komissiya yaradıldı.[24]

Qeyd edək ki, Yelizaveta Petrovna dövründə Rusiyaya köçənlər Volqaboyu regionunda məskunlaşmaqdan imtina edir, əsasən indiki Ukraynanın cənub ərazilərinə daha çox üstünlük verirdilər. İmperiyanın cənub hüdudlarında əcnəbilərin yerləşdirilməsi yerli ukraynalıların öz torpaqlarından sıxışdırılması ilə müşayiət olunurdu. Belə ki, Çariçanın fərmanında «bu ərazilərdə serblərdən və başqa gəlmə əhalidən savayı heç kəsin məskunlaşmasına yol verməmək» tələb olunurdu.[25] Nəticədə, çar hökumətinin köçürmə siyasətindən narazı qalan Ukrayna əhalisi öz əmlakını satır, Rusiya imperiyasını tərk edərək xarici ölkələrə köçməyə məcbur olurdu. Onların bir hissəsi Reç Pospolitanın tərkibindəki Sağsahili Ukraynada, başqaları isə Osmanlı dövlətinin tərkibindəki «Xan Ukraynasında» (indiki Dnestryanı ərazilər — *İ.A.)* məskunlaşdılar. Ukrayna əhalisinin xaricə mühacirətinin qarşısını almaq məqsədilə 1753-cü ildə Yelizaveta Petrovna yeni fərman imzaladı və bu fərmana görə «hər bir kəsə «Yeni Serbiya» adlandırılan ərazidə məskunlaşmağa icazə verilirdi».[26]

1754-cü ildən «Yeni Serbiya»nın intensiv şəkildə məskunlaşdırılması başladı. Bütün bu məskunlaşma prosesi serblərin adı ilə bağlı olsa da, onlar kolonistlərin ümumi çəkisində 12% təşkil edirdilər. Yeni sakinlər arasında əsas kütlə moldovanlardan ibarət idi — 75%. Yerdə qalan kolonistlər 13% təşkil edirdilər, o cümlədən: makedonlar 6%, macarlar 4%, bolqarlar 2% və nəhayət, almanlar 1%.[27]

Yelizaveta Petrovnanın bacarıqsız məskunlaşdırma siyasəti istənilən nəticəni vermədi: 1751-1762-ci illər ərzində «Yeni Serbiya» kolonistlərinin yerləşdirilməsi üçün dövlət büdcəsindən, o dövr üçün çox böyük məbləğ 700 min. rubl sərf edilsə də, arzulanan nəticə alınmadı.[28] Əksinə, çar hakimiyyətinin ukraynalılara qarşı ədalətsiz mövqeyi onların cənub əraziləri tərk edərək qonşu dövlətlərin ərazilərinə köçməsinə gətirib çıxardı. Çar hakimiyyət dairələrinin fikrincə, boş qalmış ərazilərin məskunlaşdırılmasında «bironovçuluq» dövründə və sonrakı illərdə Rusiyanı məcburən tərk edərək xarici ölkələrdə yaşayan minlərlə rus mənşəli əhali mühüm rol oynaya bilərdi. Onların doğma vətənə qaytarılması vəzifəsini qarşıya qoyan Yelizaveta Petrovna 04 sentyabr 1755-ci il tarixində «Polşada və Litvada yaşayan rus təbəələrinin əfv edilməsi haqqında Manifest» imzaladı. Manifestdə vurğulanırdı ki, «1 yanvar 1757-ci il tarixinə qədər onlar heç bir qorxusuz Vətənə qayıda bilərlər».[29] 03 oktyabr 1756-cı il tarixdə imzalanmış fərman özündən əvvəlki Manifestin şərtlərini bir daha Rusiyadan xaricdə yaşayan qaçqın əhalinin nəzərinə yetirdi.[30]

02 yanvar 1761-ci il tarixdə yeni fərman imzalandı və bu fərmana görə Polşada yaşayan qaçqın rus əhalisinin könüllü qayıtması üçün ayrılan müddət həmin ilin 01 sentyabr tarixinə qədər uzadıldı. Fərmana görə Rusiyaya «qayıdanlara vergilərin ödənilməsində güzəştlər vəd edilir və onlar 6 il müddətinə bütün mükəlləfiyyətlərdən azad olunurdular».[31] Yelizaveta Petrovnanın bu fərmanı da konkret heç bir nəticə vermədi. Onun köçürmə siyasətinin uğursuzluğu, fikrimizcə, həm obyektiv, həm də subyektiv amillərlə bağlı idi. Belə ki, 1756-cı ildə başlayan Yeddiillik müharibə bütün Avropanı cənginə aldı və xam torpaqların mənimsənilməsi ilə bağlı bir çox proyektlərin həyata keçirilməsi ikinci plana keçdi. Subyektiv amil kimi, Yelizaveta Petrovna dövründə çar hökumətinin fəaliyyətindəki bacarıqsızlığı, passivliyi göstərmək olar, belə ki, hökumət Avropa mühacirlərini cəlb edə biləcək dəqiq, aydın, sadə formada ifadə olunan miqrasiya qaydaları tərtib edə bilmədi. Zamanın tələblərinə cavab verən, Şimali və Cənubi Amerikaya, Avstraliyaya və sair ölkələrə üz tutmuş avropalı mühacirlərin diqqətini Rusiyaya cəlb edə biləcək konkret hərəkət proqramına ehtiyac duyulurdu.

Beləliklə, XVIII əsrin ortalarında Rusiyanın yalnız bir regionunda— Baltikyanı ərazilərdə (Liflyandiya, Kurlyandiya, Estlandiya) alman əhalisi kompakt şəkildə yaşayırdı. Çoxsaylı yazılı mənbələrin təhlili əsasında XVIII əsrin I yarısında Rusiyada yaşayan alman əhalisinin sayı haqqında məlumat əldə etmək olar. Bu baxımdan tədqiqatçı V.M.Kabuzanın elmi araşdırmaları çox önəmlidir. Rusiyada XVIII əsrin 20-ci, 40-cı və 60-cı illərində keçirilən reviziyaların materialları əsasında tədqiqatçı Baltikyanı ərazilərdə 1720-ci illərdə 53,1 min, 1740-ci illərdə 55,2 min və 1760-ci ilin əvvəllərində 60 min almanın yaşadığını göstərir.[32] Nəzərə alsaq ki, yuxarıda adı çəkilən Baltikyanı ərazilərdən savayı almanlar dispersiya şəklində Moskvada, Peterburqda, Kiyevdə və sair şəhərlərdə

də məskunlaşmışdılar, XVIII əsrin ortalarında Rusiyada onların ümumi sayı 60 mindən artıq olmuşdu.

Əcnəbi kolonistlərin, o cümlədən almanların Rusiyada kütləvi məskunlaşması imperateritsa II Yekaterinanın (1762—1796) adı ilə bağlıdır. Hakimiyyətə gəldikdən sonra o, dövlət siyasətini Avropa maarifçilərinin ideyalarına əsaslanaraq qurmağa başladı. XVIII əsrin II yarısında Avropada geniş yayılmış fiziokratların ideyaları II Yekaterinanın praktiki fəaliyyətinə, xüsusən böyük təsir göstərdi. Fiziokratların təliminə görə zənginliyin mənbəyi sənaye deyil, guya hər şeyin öz-özünə bitdiyi kənd təsərrüfatıdır.[33] Rusiya üçün bu tezis çox aktual idi, çünki XVIII əsrin II yarısında Rusiya imperiyası feodal-təhkimçilik münasibətlərinin hökm sürdüyü aqrar ölkə olaraq qalırdı. 36 mln. əhalinin yalnız 4%-i şəhərlərdə yaşayırdı.

XVIII əsrin II yarısında Rusiyanın kənd təsərrüfatı ekstensiv inkişaf etdiyindən və bütün işlər əllə yerinə yetirildiyindən kənd təsərrüfatının inkişafının ən başlıca şərti azad kənd təsərrüfatı əhalisinin mövcudluğu idi.

II Yekaterina boş qalmış ərazilərin iqtisadi mənimsənilməsinin və bu ərazilərdə əhalinin məskunlaşdırılmasının strateji əhəmiyyətini yaxşı başa düşürdü. Bu barədə o, yazırdı: «Bizim əhaliyə ehtiyacımız var. Əgər mümkünsə, elə edin ki, xalq bizim boş düzənliklərimizdə qarışqa kimi qaynaşsın».[34] Əhali problemi, əsasən Rusiyanın Volqaboyu regionunda, Krım xanlığı və Osmanlı imperiyası ilə sərhədyanı ərazilərdə daha kəskin idi. Adı çəkilən əraziləri məskunlaşdırmaq məqsədilə çar hökuməti rus mülkədarlarına torpaq sahələri paylasa da, bu addım heç bir müsbət nəticə vermədi: mülkədarlar Mərkəzi Rusiyada öz təsərrüfatlarının əsasına xələl gətirərək təhkimli kəndlilərini ucqar ərazilərə köçürmək və burada yeni təsərrüfatlar yaratmağa meyil etmirdilər. Qeyd etmək yerinə düşər ki, yeni torpaqların mənimsənilməsi üçün rus mülkədarları lazımi miqdarda maliyyə vəsaitinə də malik deyildilər.

II Yekaterina başa düşürdü ki, təhkimçilik qaydalarının hökm sürdüyü Rusiyada məskunlaşma siyasətinin daxili rezervlər hesabına həyata keçirilməsi mümkün olmayacaq və bu səbəbdən o, xarici məskunlaşmaya maraq göstərməyi üstün tutdu. Bu sahədə onun ilk addımı 04 dekabr 1762-ci il tarixində «Xaricə qaçmış rus əhalisinin azad şəkildə vətənə qayıtması və yəhudilərdən savayı, bütün əcnəbilərin Rusiyaya gələrək məskunlaşmasına icazə haqqında» Manifestin imzalanması oldu.[35] Manifestin mətni çox qısa idi və orada göstərilən qaydalar və şərtlər sırf deklarativ xarakter daşıyırdı. Rusiyadan xaricə qaçanlar vətənə dönərək cəmiyyət üçün faydalı işlə məşğul olduqları halda, onların əvvəllər törətdikləri bütün cinayətlər bağışlanılırdı və əcnəbi mühacirlərə bütün fəaliyyət sahələrində dövlət dəstəyi vəd edilirdi. Manifestin mətni rus, fransız, alman və ingilis dillərində min nüsxədə çap etdirilərək Avropa ölkələrində yayıldı. Qeyd edək ki, Rusiyanın Avropada fəaliyyət göstərən diplomatik korpusları bu işdə xüsusi fəallıq nümayiş etdirirdilər. Manifestin qeyri-konkret, deklarativ müddəaları Avropa əhalisi üçün

qaranlıq qaldı və Rusiyaya mühacirlərin axınına heç bir təsir göstərə bilmədi. ABŞ-ın, Avstraliyanın, Polşanın, Avstriyanın agentləri daha fəal təbliğat aparırdılar, müharibə və aclıqdan təngə gəlmiş Avropa əhalisinə daha konkret təkliflər edərək onları öz ölkələrinə cəlb edirdilər. Bütün bunların fonunda II Yekaterinanın 04 dekabr 1762-ci il Manifesti o qədər də cəzbedici görünmürdü. Rus diplomatları bu çatışmazlıqları aradan qaldırmaq məqsədilə bəzi Avropa ölkələrində əhalinin rəyini öyrəndikdən sonra çar hökumət dairələrinə təklif etdilər ki, gələcək manifestdə avropalı sakinlərə müraciətdə mühacirlərin imtiyazları, məskunlaşmaq üçün ayrılan ssudanın miqdarı dəqiq göstərilsin. Beləliklə, Avropadakı diplomatların və miqrasiya üzrə müxtəlif agentlərin rəylərini nəzərə alaraq çar hökuməti elə bir fərman hazırladı ki, bu, həqiqətən, Rusiya imperiyasında başlanan kütləvi məskunlaşma prosesinin hüquqi əsası oldu. 22 iyul 1763-ci il tarixində II Yekaterina «Rusiyaya köçüb gələn bütün əcnəbilərə istənilən quberniyada məskunlaşmağa icazə verilməsi və onlara bəxş edilən hüquqlar haqqında» Manifestə imza atdı.[36]

Manifestin mətni əsas Avropa dillərinə tərcümə olundu və Rusiyanın agentləri tərəfindən fəal şəkildə Fransada, İtaliyada, İngiltərədə, Hollandiyada və təbii ki, alman dövlətlərində təbliğ edildi. Əcnəbilərin Rusiyada qarşılanması və yerləşdirilməsi vəzifələri 22 iyul 1763-cü il tarixli fərmanla yaradılan «Əcnəbi kolonistlərə qəyyumluq Dəftərxanasına» həvalə edildi. Dəftərxananın başçısı II Yekaterinanın favoriti Q.Q.Orlov təyin olundu.[37] II Yekaterinanın 22 iyul 1763-cü il Manifesti ilə əcnəbi kolonistlərə verilən əsas azadlıqlar və imtiyazlar aşağıdakılar idi: [38]

— kim harada arzulayırsa, orada məskunlaşa bilərdi;

— «Əcnəbilərə qəyyumluq Dəftərxanasının, istənilən qubernator və yaxud şəhər rəisinin icazəsi ilə imperiyanın istənilən şəhərində məskunlaşmaq;

— Rusiyanın xaricdəki diplomatik korpuslarından köçmək üçün lazımi maliyyə vəsaiti almaq;

— Rusiyada gələcək yaşayış yerini və məşğuliyyət formasını azad seçmək;

— din və dini etiqad azadlığı;

— koloniyalarda məskunlaşmaq və öz koloniyalarında özünüidarə hüququ;

— kənd yerlərində 30 il, şəhərin kateqoriyasından asılı olaraq, 5-10 il müddətinə vergilərdən azad olma;

— «əbədi olaraq» hərbi və mülki xidmətdən azad olma;

— koloniyalarda yarmarkalar keçirmək hüququ;

— 300 rubla qədər dəyərində şəxsi əmlakın gətirilməsi zamanı gömrük məhdudiyyətlərindən azad olma;

— öz fabrikini açmış fabrikantlara mallarını gömrük rüsumu ödəmədən ixrac etmək, Dövlət bankından kredit almaq, kəndliləri işə götürmək hüququ;

— cüzi ödəmələri yerinə yetirmək şərtilə hər ailənin pulsuz torpaq sahəsi almaq hüququ;

— köçkünlərə təhkimçilik hüququ aid edilmirdi, onlar rus təbəəliyinin qəbulunda və yaxud milli mənsubiyyətinə görə vətəndaşlığının saxlanılmasında sərbəst idilər;

— köçkünlərə yerli özünüidarə əsasında kompakt yaşamaq hüququ verilirdi.

Manifestə əlavə edilən reyestrdə «məskunlaşmaya yararlı və boş torpaq sahələri ilə zəngin olan Rusiya regionlarının siyahısı verilirdi. Burada Krımdan və yenicə ələ keçirilmiş cənub quberniyalarından savayı, Aşağı Volqa, Ural və Sibir regionlarının da adı çəkilirdi.[39]

Manifestin müddəaları xarici ölkələrdə rus diplomatiyası tərəfindən geniş təbliğ olunurdu və nəticədə bütün Avropa ölkələrində minlərlə insan Rusiyaya köçmək arzusu ilə rus diplomatik nümayəndəliklərinə müraciət edirdilər. Xüsusən alman dövlətlərində Rusiyaya köçmək əhvali-ruhiyyəsi kütləvi xarakter aldı ki, bu da alman torpaqlarında uzun sürən siyasi və iqtisadi böhranla izah olunurdu. II Fridrixin hakimiyyəti illərində (1740—1786) fasiləsiz müharibələr və siyasi konfliktlər nəticəsində Prussiyada daxili böhran daha da dərinləşdi: 1740—1748-ci illərdə Avstriya ilə müharibə, 1756—1763-cü illərin Yeddiillik müharibəsi və sair regional hərbi konfliktlər böyük maliyyə vəsaiti tələb edirdi ki, onun da ağırlığı alman kəndlisinin çiyninə düşürdü. Sonuncuların vəziyyətini təsvir edən alman tarixçisi Z.Zuqenheim yazırdı: «Bəzən yazıq kəndli Roma qulundan da ağır vəziyyətdə olurdu. Zadəganlar və dindarlar kəndlinin əlindən, nəinki məhsulun 1/10-i, çox vaxt yarısını alırdılar».[40] Alman kəndliləri vəziyyətdən çıxış yolunu yalnız xarici ölkələrə köçməkdə görürdülər. Alman ərazilərində bir çox əyalətlər əhalisiz qalmış, əkin sahələrini yabanı bitkilər basmışdı. Öz aralarında düşmənçilik edən cırtdan alman dövlətləri əhalinin mühacirətində rəqibi zəiflədən amil görürdülər və buna görə bir-birinin əhalisinin azalmasına yönələn siyasət aparırdılar. Bu baxımdan rus diplomatik korpusu ilə fəal əməkdaşlıq edən Sakson generalı Veysbax Prussiyadan əhalinin Rusiyaya cəlb edilməsinin əsas təşkilatçılarından biri idi: onun fikrincə, «Prussiyanın insan resurslarının azalması onun iqtisadiyyatını dağıdacaq və Saksoniyanın güclənməsinə xidmət edəcəkdir».[41]

Mühacirlərin böyük əksəriyyəti Rusiyaya köçməyi qət etdilər və onlar, əsasən imperiyanın şərq quberniyalarına yollanırdılar. Müxtəlif alman dövlətlərindən alman kəndlilərindən, sənətkarlarından, din xadimlərindən ibarət mühacir kütlələri toplanış məntəqələrində qeydiyyatdan keçdikdən sonra Lübek şəhərində cəmləşdirilir və oradan Şərqə—Rusiyaya yola salınırdılar. Alman dövlətlərindən və başqa Avropa ölkələrindən gələn mühacirlər Rusiyanın, əsasən iki şəhərində — Kronstadt və Narva şəhərlərində komendant tərəfindən qəbul edilir, ondan sonra onları Peterburqda — Əcnəbi kolonistlərə qəyyumluq Dəftərxanasının sərəncamına göndərirdilər. Adı çəkilən Dəftərxananın təlimatında göstərilirdi ki, «yeni gəlmiş kolonistlərin vaxtında regionlara bölüşdürülməsi üçün onlar qəyyumluq Dəftərxanası ilə qonşuluqda yerləşdirilməlidirlər.[42] Getdikcə mühacirlərin sayı artırdı və bu səbəbdən onların hamısını müvəqqəti də olsa

Dəftərxananın əldə etdiyi binalarda yerləşdirmək mümkün olmadı. Problemi həll etmək üçün 30 aprel 1764-cü il tarixində qraf Orlov II Yekaterinaya müraciət edərək gündən-günə sayı artan mühacirlərin Peterburq yaxınlığındakı kiçik Orienbaum şəhərində yerləşdirilməsi təklifini irəli sürdü.[43] Qraf Orlovun fikrincə, bu şəhərcikdə Avropadan gələn bütün mühacirlər üçün müvəqqəti dayanacaq mərkəzi yaratmaq məqsədəuyğun olardı.

Beləliklə, 1764-cü ilin baharında Avropadan Baltik dənizi ilə gələn mühacirlərin bir hissəsi Orienbaumdakı ağac baraklarda, qalanları isə yerli əhalinin mənzillərində yerləşdirilirdilər. Rusiyanın müxtəlif regionlarına bölüşdürülənə qədər, bəzən mühacirlər Orienbaumda bir neçə ay qalmalı olurdular və bu müddət ərzində rəsmi dairələr əcnəbi kolonistlərin yerli Rusiya şəraitinə uyğunlaşması istiqamətində iş aparırdılar ki, onlar Rusiya qanunvericiliyi, rus adət və ənənələri ilə tanış edilir, müalicəyə ehtiyacı olanlar dövlət hesabına müalicə olunurdular. Orienbaumda müvəqqəti qaldıqları müddətdə kolonistlər siyahıya alınır, onların ailə tərkibi, uşaqlarının yaş həddi, gəldikləri ölkə, peşə və konfessional mənsubiyyətləri haqqında məlumat toplanılırdı. Müvəqqəti toplanış məntəqəsində kolonistlərlə iş aparmaq üçün hökumət orqanları mühacirlərin dilini, adət və ənənəsini, mentalitetini bilən xüsusi hazırlıqlı mütəxəssislər cəlb etmişdi. Mühacirlər arasında kurator adlandırılan bu şəxslər mühacirlərin müvəqqəti yaşadıqları dövrdə onların problemlərinin həlli ilə məşğul olurdular. XVIII əsrin 60-cı illərində Orienbaum məntəqəsində tanınmış kuratorlardan Adam Assen-Delfti göstərmək olar ki, nöqsansız xidmətinə görə çar hökuməti tərəfindən ona şəxsi mənzil və ayda 400 rubl məvacib ayrılmışdı.[44]

Yeni yaşayış yerinə göndərilməmişdən əvvəl hər kolonist rus taxt-tacına sadiqlik haqqında and içməli idi və bu müqəddəs andın mətni 03 avqust 1763-cü il tarixində təsdiqlənmişdi.[45]

Baxmayaraq ki, 22 iyul 1763-cü il Manifestində kolonistlərə yaşayış yerini sərbəst seçmək hüququ verilmişdi, çar hökuməti onların əhalisiz Volqa, Ural, Sibir regionlarında məskunlaşmasında maraqlı idi və buna görə «Əcnəbi kolonistlərə qəyyumluq Dəftərxanası» mühacirləri məhz bu regionlarda yerləşdirməyə çalışırdı.

Kolonistlər Rusiyanın coğrafiyasına yaxşı bələd deyildilər və Avropadakı rus diplomatlarının təbliğatından sonra onlarda Volqaboyu haqqında münbit torpaqlara, sağlam iqlimə malik region təsəvvürü yaranmışdı. Bu səbəbdən kolonistlərin əksəriyyəti könüllü olaraq Volqaboyunda məskunlaşmaq arzusundaydılar ki, bu da hökumətin köçürmə siyasətinə uyğun gəlirdi. Qeyd edək ki, çar hökuməti ölkəyə əkinçiliklə məşğul olan əhalinin köçməsində daha maraqlı idi. Ancaq 22 iyul 1763-cü il Manifestinin reklam xarakterli müddəaları Rusiyaya minlərlə sənətkar ailəsini cəlb etdi. Rusiya tarixçisi İ.R.Plevenin tədqiqatlarına görə Volqaboyuna köçən kolonistlərin 60%-ni əkinçilər, 40%-ni isə 150 peşə növünə aid sənətkarlar təşkil edirdilər[46]. Sənətkarlarla manipulyasiya edən çar

hökumət orqanları onlara, eyni zamanda həm sənətkarlıqla, həm də kənd təsərrüfatı ilə məşğul olmağı təklif edirdilər.

Sənətkarların böyük hissəsi Dəftərxana məmurlarının tələbləri ilə razılaşmalı oldular və kənd yerlərində məskunlaşdılar. Ancaq sənətkarların bir qismi Volqaboyu və sair kənd təsərrüfatı regionlarında məskunlaşmaqdan imtina edərək şəhərlərdə yaşamaq və öz peşələri ilə məşğul olmaq əzmində idilər. Bu cür mühacirlərə qarşı çar hökuməti sərt mövqe tutur, onların şəhərlərdə azad sənətkar kimi fəaliyyət göstərməsinə müxtəlif maneələr yaradırdı. Məsələn, 1776-cı ildə qəbul edilmiş yeni pasport qaydalarında göstərilirdi ki, «əkinçilikdən imtina edən əcnəbilər gəlirlərindən xəzinəyə olan borclarını qaytarmalıdırlar» və onların pasportlarında borcun məbləğini göstərən qeyd edilirdi. Qaydalara görə onlar hər il «Əcnəbilərə qəyyumluq Dəftərxanasında» pasportlarını təzələməli idilər, başqa halda bu cür mühacirlərin işə və yaxud hər hansı bir xidmətə götürülməsi qadağan olunurdu[47]. Yalnız çox az sayda sənətkar öz hüquqları uğrunda mübarizə apararaq şəhərlərdə məskunlaşmağa nail oldu.

Ümumi götürdükdə 1763-1770-ci illər ərzində əcnəbilər Rusiyada 117 koloniya yaratdılar ki, onların böyük əksəriyyəti 102 koloniya Volqaboyu regionunda, qalanları Sankt-Peterburq və Çerniqov quberniyalarının hər birində 6, Liflyandiyada 2 və Voronej quberniyasında 1 koloniya yerləşirdi. Bu dövrdə Rusiyada məskunlaşan mühacirlərin ümumi sayı 32 min təşkil edirdi.[48] Bu həm Rusiya hökumətinin, həm də onun yaratdığı «Əcnəbi kolonistlərə qəyyumluq Dəftərxanasının» bacarıqlı fəaliyyətinin nəticəsi kimi qiymətləndirilə bilər.

Adı çəkilən Dəftərxana xaricdə kolonistlərin cəlb edilməsindən tutmuş, onların yerləşməsi, həyat və fəaliyyətləri ilə bağlı bütün məsələlərin həlli ilə məşğul olurdu. Səlahiyyətlərinə görə Dəftərxana dövlət kollegiyalarına bərabər tutulurdu və xüsusi nazirlik kimi yalnız çariça II Yekaterina qarşısında hesabat verirdi. Volqaboyu regionu alman məskunlaşmasının mərkəzinə çevrildikdən sonra yaranan problemlərin operativ həll edilməsi məqsədilə regionun mərkəzi şəhəri— Saratovda «Əcnəbilərə qəyyumluq Dəftərxanasının Kontoru» yaradıldı.[49] Kontorun əsas vəzifəsi Volqaboyu koloniyalarının idarə edilməsinə nəzarət etmək, kolonistlərin təsərrüfat və şəxsi həyatının tənzimlənməsini təmin etməkdən ibarət idi. Bu məqsədlə 1768-ci ildə Saratov Kontoru «Müvəqqəti Nizamnamənin» proyektini hazırladı və bu proyekt 1769-cu ildə «Əcnəbilərə qəyyumluq Dəftərxanası» tərəfindən təlimatnamə kimi təsdiq edildi.[50] Məskunlaşma prosesinin ən fəal dövrü 1763-1768-ci illərə təsadüf edir və bundan sonra əcnəbi mühacirlərin Rusiyaya axını əhəmiyyətli dərəcədə zəiflədi ki, bu da həm ölkədaxili, həm də xarici siyasət amilləri ilə izah olunurdu. Mühacirlərin sayının azalmasının ən başlıca səbəbi kimi Çar hökumətinin 22 iyul 1763-cü il Manifestində verdiyi bir sıra vədlərin və birinci növbədə «mühacirlərin Rusiyada sərbəst yerləşmək hüququnun» yerinə yetirilməməsi oldu. Manifestin 1-ci punktunda mühacirlərə «bizim bütün quberniyalarımıza gəlmək və hər kəsə arzuladığı yerdə

məskunlaşmaq» vəd edilirdisə, artıq «Əcnəbilərə qəyyumluq Dəftərxanasının yaradılması haqqında» fərmanda kolonistlərin məskunlaşması üçün nəzərdə tutulan konkret ərazilər göstərilirdi. Bu sənədə görə mühacirlərin Sibir, Orenburq və Voronej quberniyalarında, həmçinin Saratov ətrafı ərazilərdə məskunlaşdırılması məqsədəuyğun sayılırdı[51]. Bundan savayı, Manifestdə mühacirlərə məşğuliyyət azadlığı «onlara sexlər yaratmaq, şəhərdə meşşan kimi məskunlaşmaq və yaxud boş və yararlı» torpaqlarda yerləşərək koloniyalar yaratmaq kimi azadlıqlar elan olunsa da[52], peşəsindən, təhsilindən asılı olmayaraq, çar hökuməti əcnəbi mühacirləri koloniyalarda məskunlaşdıraraq əkinçiliyə istiqamətləndirirdi.

Manifestə görə əcnəbi mühacirlərə hökumət tərəfindən geniş maliyyə dəstəyi vəd edilmişdi və əcnəbilərin yerləşməsi üçün «heç bir faizsiz lazımi miqdarda pul vəsaitinin ayrılması» nəzərdə tutulurdu.[53] Ancaq məskunlaşmanın ilk illərindən çar hökuməti kolonistlərdən çəkilən xərclərin qaytarılmasını tələb etməyə başladı və borcların qaytarılması məsələsi kolonistlərlə hökumət arasında münasibətlərin soyuqlaşmasına səbəb oldu.

Kolonistləri maraqlandıran əsas məsələyə—torpaq məsələsinə gəldikdə çar hökuməti vəd edilənlərə tam əməl etmədi: Manifestdə deyilirdi ki, əcnəbilər koloniya yaradaraq məskunlaşarsa, «onlara ailəsinin sayından asılı olaraq, lazımi miqdarda torpaq sahəsi və sair yerlər veriləcəkdir»[54]. 19 mart 1764-cü il fərmanı ilə hər kolonist ailəsinə 30 desyatin torpaq ayrılması qərara alındı.[55] Ancaq bütün torpaq fondu ayrı-ayrı mülkədarlara satıldığından kolonistlər Volqaboyunda mülkədar torpaqlarında yerləşdirildilər və mülkədarlardan həm iqtisadi, həm də hüquqi asılılığa düşdülər. Torpaqlar bütöv icmaya verilirdi, icma üzvləri torpağı öz aralarında bölürdülər və 2-3 ildən sonra torpaqların yeni bölgüsü keçirilirdi. Əcnəbi kolonist heç cür öz torpaq sahəsinin tam sahibinə çevrilə bilmirdi. Beləliklə, deyə bilərik ki, Volqaboyunda alman məskunlaşması feodal quruluşunun xüsusiyyətlərinə malik olmuşdu.

Görürük ki, 22 iyul 1763-cü il Manifestinin əsas müddəaları siyasi bəyanatdan savayı bir şey olmadı. Bəzi müddəaların yerinə yetirilməməsi onların reallaşma mexanizminin olmaması ilə izah olunursa, bəzilərinin həyata keçirilməsi Rusiyanın dövlət maraqlarına cavab vermirdi. Bütün bu reallıq Avropa sakinlərinə aydın oldu və məskunlaşmanın templəri əhəmiyyətli dərəcədə aşağı düşdü. Məskunlaşma prosesinin tempinin aşağı düşməsi, həmçinin xarici siyasət amilləri ilə bağlı idi.

Məlumdur ki, XVIII əsrin ortalarından rumınların, macarların, slavyan xalqlarının çoxluq təşkil etdiyi Avstriyanın daxili siyasət məsələlərindən ən aktualı ölkədə alman əhalisinin sayının artırılması idi. Bu məqsədlə Bukovina, Qaltsiya, Banat, Transilvaniya ərazilərinə Alman dövlətlərindən alman əhalisi köçürülürdü. 22 iyul 1763-cü il Manifestindən sonra alman mühacirlərinin daha çox Rusiyaya meyil etməsi Avstriyanın dövlət maraqlarına təhlükə yaradırdı və bu prosesin qarşısını almaq məqsədilə 1768-ci il 7 iyul tarixində imperator II İosif Avstriyadan

əhalinin emiqrasiyasını və xarici ölkə agentlərinin fəaliyyətini qadağan edən fərman imzaladı. Alman torpaqlarında rus agentləri müvəqqəti olaraq fəaliyyətlərini dayandırdılar[56].

XVIII əsrin 60-70-ci illərində əcnəbilərin məskunlaşma prosesinin zəifləməsinə mənfi təsir göstərən amil kimi 1768—1774-cü illərin rus-türk müharibəsini və 1773—1775-ci illərin Y.Puqaçovun rəhbərliyi ilə baş vermiş Kəndli müharibəsini göstərmək olar. Kəndli müharibəsinin cərəyan etdiyi regionlardan biri də almanların kütləvi məskunlaşdığı Volqaboyu idi. Bütün Volqaboyu xalqları kimi, almanları da üsyana çağıran Y.Puqaçov kolonistlərdən rədd cavabı aldıqdan sonra alman koloniyalarına basqınlar etdi, «bir çox kolonistlər məhv edildi, əsir götürüldü və çoxları soyğunçuluğa məruz qaldılar». Y.Puqaçov üsyanı Volqadakı alman koloniyalarına böyük ziyan vurdu. 1782-ci ildə keçirilən IV reviziyanın nəticələrinə görə 1774-cü illə müqayisədə Saratov quberniyasında alman kolonistlərinin sayı 3,8 min azalmış və 28,2 min təşkil etmişdi.[57] Bütövlükdə çar hökumətinin məskunlaşdırma siyasəti müəyyən müsbət nəticə versə də, bu Rusiya imperiyasının real imkanlarından və tələbatından hələ uzaq idi. Deyilənlərin təsirini artırmaq üçün belə bir fakt göstərmək yerinə düşərdi ki, 10 il ərzində, yəni 1766-1776-cı illərdə Alman dövlətlərindən xaricə 200 min əhali köçmüşdür ki, onların yalnız 15%-i Rusiyanı seçmiş, böyük əksəriyyəti əvvəlki illərdə olduğu kimi, Şimali Amerikaya emiqrasiya etmişdir[58]. 1770-ci illərin ortalarından Rusiyada almanların məskunlaşmasının yeni mərhələsi başlayır və bu proses cənub istiqamətində daha intensiv gedirdi. 1774-cü ilin Kiçik Qaynarca sülhündən sonra Qara dənizin bütün şimal sahilləri Rusiyanın tərkibinə qatıldı. 1783-cü ildə Türkiyənin son forpostu və Qızıl Ordanın relikti Krım xanlığı da Rusiyanın təbəəliyini qəbul etdi. Yeni ərazilərin birləşməsi ilə Rusiyanın Dunaydan Kubana qədər dəniz sərhəd zolağı yarandı. Cənubdakı strateji sərhədyanı əraziləri tez bir zamanda məskunlaşdırmağın zəruriliyini nəzərə alan çar hökuməti hələ 1764-cü ilin iyulunda «Novorossiya quberniyasındakı dövlət torpaqlarının məskunlaşma məqsədilə paylanması planı» adlı sənəd qəbul etmişdi.[59] Novorossiya qubernatoru A.P.Melqunov, N.İ. və P.İ.Panin qardaşları tərəfindən hazırlanan bu sənəd Novorossiya və Azov quberniyalarına şamil edilirdi və uzun müddət bu quberniyalarda torpaqların paylanması siyasətinin, kolonistlərin statusu və məişəti ilə bağlı qaydaları təyin etmişdi.

«Plana» görə adı çəkilən quberniyalarda torpaq fondu 26 des. (meşəli torpaqlarda) və 30 des. (meşəsiz torpaqlarda) ölçüdə sahələrə bölünmüşdü. Sənədə görə «kolonist kimi məskunlaşmağa razı olan hər cür statuslu insan torpağa varislik hüququ əldə edirdi».[60]

«Üstünlüklər haqqında» bölmədə təntənəli şəkildə elan olunurdu ki, kimin haradan gəlməsindən asılı olmayaraq, hər bir kolonist «köhnə rus təbəələri» kimi bütün hüquqlardan istifadə edəcəkdir və torpağın mənimsənilməsi dərəcəsindən

asılı olaraq, kolonistlər məskunlaşdıqları gündən başlayaraq 6 ildən 16 ilə qədər müddətdə bütün vergilərdən azad olunacaqlar.[61]

Əgər Volqaboyu koloniyalarında Rusiyaya xas olan torpağın cana görə yenidən paylaşdırılmasına əsaslanan (peredelnaya) icma üstünlük təşkil edirdisə və feodal sinfinə uyğun torpaq sahibliyinin yaradılması nəzərdə tutulurdusa, «1764-cü ilin Planına» görə Novorossiyada «mülkədar torpaq sahibliyi» inkişaf etməli idi. «Hər silkdən olan insanlar» 3 il ərzində öz ərazisini məskunlaşdırmaq şərtilə xüsusi mülkiyyətə 1440 desyatinə qədər torpaq sahəsi ala bilərdi. Əgər bu müddət ərzində torpaq sahəsi məskunlaşdırılmazsa xəzinəyə qaytarılırdı.

Geniş imtiyazlar verilməsinə baxmayaraq, XVIII əsrin 70-ci illərində kolonistlərin Novorossiyaya axını o qədər də güclü olmadı. Bunu həm 1773-1775-ci illərin Kəndli müharibəsinin mənfi təsiri ilə, həm də Avropa ölkələrində əhalinin emiqrasiyasına qadağa qoyulması ilə izah etmək olar. Bundan başqa, Novorossiya ərazisinə gələn mühacirlərin marşrutu Reç Pospolita ərazisindən keçirdi. Polşa hökuməti Rusiya ilə müqayisədə daha əlverişli şərtlərlə mühacirlərin böyük hissəsinin Reç Pospolitada məskunlaşmasına nail olurdu. Elə o vaxtlar indiki Qərbi Ukrayna ərazilərində bir neçə alman koloniyası yarandı. 22 iyul 1763-cü il Manifestində yol verilən çatışmazlıqları nəzərə alaraq 1785-ci ilin iyulunda yeni məzmunlu daha bir Manifest imzalandı. 1775-ci ildən sonra, yəni Zoporojye kazaklarının torpaqları, həmçinin Buq və Dnepr çayları arasındakı ərazilər Rusiyaya birləşdirildikdən sonra dövlət torpaq fondu daha da artdı, kolonist ailələrinə paylanan torpaq sahəsi 26 və yaxud 30 desyatindən 60 desyatinə çatdırıldı[62]. Manifestə görə əcnəbilərə kənd təsərrüfatının, ticarətin inkişafı üçün geniş imkanlara, əlverişli iqlim şəraiti və münbit torpaqlara malik olan Qara dənizin şimal sahillərində məskunlaşmağa icazə verildi.[63] 1785-ci il Manifesti İtaliyanın, İsveçrənin, Serbiyanın, Moldovanın və sair ölkələrin yoxsul əhalisi arasında rəğbətlə qarşılandı.

Qeyd edək ki, adı çəkilən Manifestə qədər Rusiyaya köçən almanların əksəriyyəti lüteran və katolik dininə aid olsa da, 1785-ci ildən sonra Qara dəniz sahillərində məskunlaşanların əksəriyyətini Qərbi Prussiyadan və Şimali Polşadan köçüb gələn mennonit sektasının üzvləri təşkil edirdilər.

Volqaboyu kolonistlərindən fərqli olaraq, Novorossiyada hər kolonist ailəsinə 60 desyatin torpaq sahəsi ayrıldı. Novorossiya koloniyalarında torpaqdan istifadə forması da fərqli xarakter daşıyırdı. Volqaboyunda «peredelnaya» icma 1906-cı ilin Stolipin aqrar islahatına qədər mövcud olduğu halda, Novorossiyada kolonistlər məskunlaşdıqları vaxtdan həyət-təsərrüfat sistemi ilə torpaqdan istifadə edirdilər.

Novorossiya kolonistləri Volqaboyu almanlarından təkcə coğrafi mənşəyi, dini mənsubiyyəti ilə deyil, həmçinin sosial mənşəyinə görə də fərqlənirdilər. Əgər Volqaboyunda alman məskunlaşması total xarakter daşıyırdısa, Novorossiyaya gələn kolonistlər müəyyən seçimdən keçirdilər və yalnız təcrübəli əkinçilər və

sənətkarlara məskunlaşmağa icazə verilirdi. Mühacirlər arasında, bəzən zəngin meşşanlara, ölkəsini siyasi səbəblərdən tərk edən yüksək dairələrə mənsub şəxslərə də rast gəlinirdi.

Çar hökuməti köçkünlərin təsərrüfat həyatının nizama salınması məqsədilə kifayət qədər maliyyə vəsaiti ayırırdı. Lakin yerlərdə çar hökumətinin qərarları vaxtında yerinə yetirilmir, maliyyə məsələlərində əyrintilərə, itkilərə yol verilirdi. Müəyyən dərəcədə bu 1782-ci il 20 aprel fərmanına görə aparılan inzibati islahatlar nəticəsində quberniyaların yaranması və Əcnəbilərə qəyyumluq Dəftərxanasının ləğv edilməsi, onun səlahiyyətlərinin regional «evdarlıq direktorları»na verilməsi ilə bağlı idi[64]. Bu dəyişiklik köçürmə proseslərinə nəzarətdə desentralizasiyaya, yerlərdə bürokratik aparatın özbaşınalığına və kolonistlər arasında narazılığın artmasına gətirib çıxardı. İmperator I Pavel (1796—1800) kolonistlərin daxili həyatına aid məsələlərlə ciddi məşğul olmağa başladı. Yerlərdə vəziyyət haqqında dürüst məlumat almaq üçün fövqəladə reviziyalar yaradıldı və toplanmış məlumat koloniyaların idarəetmə sistemində növbəti islahatların zəruriliyini göstərdi: 04 mart 1797-ci il tarixində I Pavelin fərmanı ilə «Kənd təsərrüfatı və əcnəbilərə qəyyumluq üzrə dövlət təsərrüfatı ekspedisiyası» yaradıldı[65]. Ekspedisiyanın əsas vəzifəsi Rusiyaya gələn kolonistlərin yerləşdirilməsi və əvvəllər məskunlaşanların bütün fəaliyyət sahələrinə nəzarət etməkdən ibarət idi. Regionlarda kolonistlərin problemlərini vaxtında həll etmək məqsədilə almanların kompakt yaşadığı yerlərdə Kolonist işləri üzrə baş idarələr yaradıldı. Rusiyanın üç regionunda — Volqaboyunda, Novorossiyada və Baltikyanı region üçün Sankt-Peterburqda Baş idarələr fəaliyyət göstərirdi. Başqa regionlarda dispersiya şəklində mövcud olan ayrı-ayrı koloniyalar yerli quberniya orqanlarının tabeliyində idi. Volqaboyu koloniyaları üçün 30 iyun 1797-ci il fərmanından sonra Əcnəbilərə qəyyumluq Kontorunun fəaliyyətinin bərpa olunması böyük əhəmiyyət kəsb etdi.[66] Kontoraya kolonistlərin məhkəmə işlərini aparmaq, koloniyaların sosial-iqtisadi problemlərini həll etmək, dövlət borclarının və vergilərinin ödənilməsinə nəzarət etmək, təsərrüfat formalarının, metodlarının təkmilləşdirilməsi və sair kimi səlahiyyətlər verilmişdi. «Təlimata» görə, Kontora alman kolonistlərinə bütün göstərişləri alman dilində çatdırmalı idi.

26 iyul 1800-cü il tarixində çarın imzaladığı fərmana görə eyni vəzifələri yerinə yetirən və səlahiyyətlərə malik olan daha bir Kontora Novorossiya kolonistləri üçün yaradıldı.[67]. 1790-cı illərdə, I Pavelin dövründə əcnəbilərin Rusiyaya köçməsi o qədər də yüksək tempə malik olmamışdır. Mühacirlərin əsas hissəsi Novorossiyada məskunlaşırdılar. Bu regionda məskunlaşmanın templəri on dəfələrlə artsa da, kolonistlərin ümumi sayı çar hökuməti üçün təsəlliverici deyildi: əgər 1782-ci ildə Novorossiyada 0,2 min alman yaşayırdısa, XVIII əsrin sonunda bu rəqəm 5,5 minə çatmışdı.[68] Əksinə, Volqa regionunda bu dövrdə məskunlaşmanın tempi aşağı düşmüşdü. Məsələn, əgər 1763—1782-ci illərdə Zavoljyedə (indiki Orenburq vilayəti) 30,6 min alman məskunlaşmışdısa, 1783-

1795-ci illərdə burada yerləşdirilənlərin sayı 14,4 min nəfər təşkil edirdi[69]. XVIII əsrin II yarısında çarizmin fəal məskunlaşdırma siyasəti apardığı regionlardan biri də Şimali Qafqaz oldu. 1768-1791-ci illərin rus-türk müharibələrində qalib gələn Rusiya Buq və Dnepr çayları arası ərazilərlə yanaşı, Krım yarımadasını, Kubanı tərkibinə qatdı. 1774-cü ildə Şimali Osetiya, 1781-ci ildə Diqoriya, 1790-ci illərdə Balkariya Rusiya imperiyasının tərkibinə qatıldı. Rusiya ilə Gürcüstan arasında 1783-cü ildə bağlanan Georgiyevsk traktatına görə Rusiyanın Gürcüstan üzərində protektoratı bərqərar oldu ki, o da bütün Qafqazın gələcək siyasi həyatında həlledici rol oynadı. Beləliklə, XVIII əsrin 70-80-ci illərində Qara dənizin şimal sahilləri və Qafqaz bölgəsində nəzərəçarpacaq dərəcədə geosiyasi dəyişikliklər baş verdi: Rusiya imperiyası Qafqazda möhkəmlənmək, Mərkəzi və Ön Asiyanı nəzarətə almaq üçün əlverişli mövqe əldə etdi.

Rusiya hökumətinin Qafqazda həm strateji, həm də iqtisadi maraqları vardı və onlardan ən başlıcası bu regionun iqtisadi mənimsənilməsini həyata keçirmək, Qafqazı inkişaf etməkdə olan Rusiya sənayesinin xammal bazasına çevirməkdən ibarət idi.

İşğal olunmuş ərazilərdə effektli məskunlaşma siyasətini həyata keçirmək üçün, ilk növbədə onların müdafiəsini təmin etmək lazım idi. Bu məqsədlə Azov dənizi sahillərindən Mozdoka qədər uzanan hərbi müdafiə xəttinin yaradılmasına başlandı. Bu xətt boyunca tezliklə 10 hərbi qala inşa edildi. Şimali Qafqazın mənimsənilməsində çar hökuməti daha çox daxili məskunlaşma resurslarına ümid edirdi. Rusiyada təhkimçilik qaydalarının hökmranlığı və xaricdən mühacir axınının zəiflədiyi bir şəraitdə ölkənin müxtəlif regionlarında yaşayan əcnəbi kolonistlərin xidmətindən istifadə edilməsi gündəmə gəldi. Regionun daha sürətli mənimsənilməsini təmin etmək üçün çar hökuməti Şimali Qafqaza qeyri-rus mənşəli əhalinin, o cümlədən öz məskunlaşma imkanları ilə artıq hökumət dairələrində müsbət cəhətdən tanınmış alman kolonistlərinin də köçməsinə icazə verdi.

Bu məqsədlə 27 oktyabr 1778-ci il tarixində II Yekaterina general-prokuror Vyazemskinin hazırladığı «Azov-Mozdok xəttinə Volqanın düzənlik tərəfindən kolonistlərin köçürülməsi» adlı xüsusi hesabatı təsdiqlədi və həmin vaxtdan hesabatda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə başlandı[70]. General-prokurorun təqdim etdiyi hesabatdan görünür ki, Saratov quberniyasının Tarlıkovka, Krasnopolya, Kaçetnaya, Krasnorinovka, Kustarevaya, Rovnaya və Privolnaya koloniyalarının sosial-iqtisadi vəziyyəti acınacaqlı vəziyyətdə idi. Sənəddə adı çəkilən koloniyaların bir neçə il quraqlığa məruz qalması, kolonist təsərrüfatlarında tez-tez ev heyvanlarının, iri buynuzlu mal-qaranın kütləvi tələfatı halları qeyd olunurdu. Vyazemskinin hesabatında Saratov kontorunun kolonistlərə göstərdiyi yardım yüksək qiymətləndirilsə də almanların bu koloniyalarda yaşayışının mümkünsüzlüyü vurğulanır. Qeyd etmək lazımdır ki, hələ Vyazemskinin hesabatına qədər, 1774-cü ildə dövlət müşaviri Lodıjinski adı

çəkilən koloniyalarda torpaq və su nümunələrinin laborator analizindən sonra kolonistlərin buradan başqa regiona köçürülməsi haqqında raport hazırlamış, lakin onun bu təklifi «Əcnəbilərə qəyyumluq üzrə Saratov Kontoru» tərəfindən dəstəklənmədiyindən məsələnin həlli təxirə salınmışdı.

1778-ci ildə adı çəkilən koloniyaların Şimali Qafqaza köçürülməsi təklifi ilə çıxış edən general-prokuror Vyazemski bu planın knyaz Q.A.Potyomkin tərəfindən də dəstəkləndiyini və bu köçürmə aktının dövlət büdcəsinə yalnız xeyir gətirəcəyini vurğulayırdı. Saratov Kontoru əvvəldən kolonistlərin Şimali Qafqaza köçürülməsinə qarşı çıxırdı, çünki bu tədbir Volqaboyu koloniyalarında daxili sabitliyi poza bilərdi, digər tərəfdən, köçürülmə ilə bağlı bütün maliyyə xərcləri «Əcnəbilərə qəyyumluq üzrə Saratov Kontorunun» hesabına ödənilməli idi.[71]

1778—1785-ci illər ərzində Saratov koloniyalarının nümayəndələri Şimali Qafqaza gələrək yeni məskunlaşma yerlərinin seçimi ilə məşğul olsalar da regionun hüquqi, hərbi-siyasi statusunun tam müəyyənləşdirilməməsi almanların burada məskunlaşmasına mənfi təsir göstərirdi. Yalnız 09 may 1785-ci il tarixli fərmanla Qafqaz canişinliyi və Qafqaz quberniyası yaradıldıqdan sonra Saratov kolonistləri Şimali Qafqaza köçmək haqqında ciddi düşünməyə başladılar[72].

Şimali Qafqazın məskunlaşması prosesinin templəri çar hökumətini qane etmirdi və təbii ki, bu ləngimənin əsas səbəblərindən biri insan rezervinin çatışmazlığı idi. 1760-ci illərdə əcnəbilərin məskunlaşdırılmasına dair qəbul edilən fərmanların bir sıra müddəaları artıq köhnəlmiş, öz aktuallığını itirmişdi. 1760-1780-ci illər ərzində Rusiyanın istər iqtisadi, istərsə də siyasi həyatında baş verən mühüm dəyişikliklər və ilk növbədə ölkənin Qara dənizə çıxış əldə edərək Dunaydan Xəzərə qədər böyük bir ərazini işğal etməsi, bu ərazilərin qısa bir zamanda mənimsənilməsinə yaranan zərurət II Yekaterinanı öz məskunlaşdırma siyasətinə yenidən baxmağa vadar etdi. Nəticədə, 24 iyul 1785-ci il tarixində əcnəbi təbəələrin Rusiya imperiyasına dəvət olunması haqqında yeni Manifest dərc olundu[73]. Bu Manifestdə əcnəbilərə Qara dənizin şimal sahillərində, Azovda, Qafqaz quberniyasında məhsuldar torpaqların paylanması vəd edilir, onların kənd təsərrüfatı, sənətkarlıq və ticarətlə məşğuliyyəti üçün hər cür dəstəyin veriləcəyi qeyd olunurdu. Yuxarıda qeyd etdiyimiz kimi, 24 iyul 1785-ci il Manifestindən sonra Rusiyaya köçən almanların əksəriyyətini Qərbi Prussiyadan və Şimali Polşadan gələn mennonit sektasının üzvləri təşkil edirdilər. Tarixi mənbələrdən göründüyü kimi, onların əksəriyyəti Novorossiya diyarında, Volqaboyu quberniyalarında və Orenburq ətrafında məskunlaşdılar. 24 iyul 1785-ci il Manifestindən sonra Rusiyaya köçən mühacirlərin hesabına Şimali Qafqazda heç bir koloniya yaranmadı[74]. Regionda ilk alman koloniyası 1789-cu ildə Stavropol diyarının Mojor şəhəri yaxınlığında salındı ki, onun da əsasını qoyanlar Saratov quberniyasından köçüb gələn 347 alman kolonisti olmuşdu[75].

İndiki Budyonovsk ətrafında yaranan bu ilk koloniya çox yaşamadı: yeni coğrafi şəraitə uyğunlaşa bilməyən almanların bir qismi 1791-ci ildə Qafqaz

quberniyasının şəhərlərinə köçdülər, bəziləri isə geri Saratov quberniyasına qayıtdılar. Miqrasiya proseslərini lazımi istiqamətə yönəltmək məqsədilə çar hökuməti bir sıra məhdudiyyətlərə əl atmalı oldu. Belə ki, 01 iyul 1794-cü il tarixli fərmanla kolonistlərin sərbəst şəkildə yaşayış yerini dəyişməsinə qadağa qoyulurdu. Yaşayış yerini dəyişmək istəyən kolonist bu haqda yerli hakimiyyət orqanlarına yazılı şəkildə müraciət edərək Saratov və yaxud Qafqaz quberniyasında məskunlaşmaq niyyətini bildirməli idi. Yazılı icazə olmadan bir quberniyadan başqasına köçən, hətta bir quberniya daxilində yaşayış yerini dəyişən kolonistləri ciddi cəza gözləyirdi. Miqrasiya prosesləri ilə məşğul olan orqanların fəaliyyətində baş verən çoxsaylı qanun pozuntuları, məmur özbaşınalıqları, təşkilatsızlıq, daxili miqrantlar üçün yaradılan müxtəlif bürokratik əngəllər alman kolonistlərinin sərbəst şəkildə Şimali Qafqazda məskunlaşmasına imkan vermədi və XVIII əsrin II yarısında bu regionda fəaliyyət göstərən heç bir alman koloniyası yaratmaq mümkün olmadı.

Beləliklə, I fəslə yekun vuraraq qeyd etmək olar ki, XVIII əsrin sonunda alman əhalisi Rusiyanın 3 regionunda kompakt məskunlaşmışdı: Baltikyanı ərazilər, Volqaboyu və Novorossiya diyarı.

Qeyd etdiyimiz kimi, almanlar Baltikyanı ərazilərdə hələ XIII əsrdən məskunlaşmış və Şimal müharibəsindən sonra (1700-1721) Rusiya imperiyasının tərkibinə qatıldıqları zaman artıq milli, mədəni, ərazi xüsusiyyətlərinə məxsus etnik qrup kimi formalaşmışdılar.

Yüksək təhsil səviyyəsinə və sosial statusa malik olan Baltikyanı və yaxud «ostzey» almanlarının bir çox nümayəndələri I Pyotr və Anna İvanovnanın çarlıq dövrlərində dövlət orqanlarında yüksək vəzifə tutmuşdular. Baltikyanı almanlarını «mühacir» və yaxud «kolonist» adlandırmaq düzgün olmazdı, çünki onlar Rusiya imperiyasının tərkibinə qatıldıqları zaman Baltikyanı ərazilərin yerli əhalisi sayılırdılar. Volqaboyu, Novorossiya və sair regionlarda məskunlaşan alman kolonistləri ilə «ostzey» almanları arasında əlaqələr yox dərəcəsində idi: onlar Moskva, Peterburq və sair iri şəhərlərdə yaşayan alman mənşəli ziyalılarla münasibətlər saxlayırdılar. Rusiyada yenicə məskunlaşan kolonistlərdən fərqli olaraq, yerli idarəetmə sisteminə malik olmayan Baltikyanı almanları Ümumrusiya qanunları ilə idarə olunur, heç bir güzəştlərə və xüsusi imtiyazlara malik deyildilər.

XVIII əsrin sonunda Baltikyanı ərazilərdə yaşayan almanların sayı təqribən 78,5 min nəfər təşkil edirdi ki, bu Rusiyada mövcud olan ən çoxsaylı alman etnik qrupu idi.[76]

XVIII əsrin II yarısında almanların kompakt yaşadığı ikinci region Volqaboyu idi, Volqaboyu almanları etnik qrup kimi XVIII əsrin sonlarında formalaşmışdılar. Yuxarıda qeyd etdiyimiz kimi, Volqaboyu almanlarının yaxın sosial və konfessional tərkibi müxtəlifliyi ilə seçilirdi. Əsasən lüteran və katoliklərdən ibarət kolonist kütləsində əkinçilərə, sənətkarlara, incəsənət və din xadimlərinə, ehtiyatda olan zabitlərə və sair kateqoriyadan olan insanlara rast

gəlinirdi. Onlar, hətta coğrafi mənşəyinə görə də Almaniyanın müxtəlif regionlarını təmsil edirdilər.[77] K.Hempelin statistik məlumatlarına görə Volqa kolonistləri arasında Reyn vilayətindən gələnlər 28%, qessenlilər 17%, Prussiya və Şimali Almaniyadan gələnlər 18%, Elzas və Bavariya mühacirləri 7% təşkil edirdilər. Göründüyü kimi, Volqaboyu almanlarının əksəriyyəti Cənubi Almaniyadan köçənlər idi. 1796-cı ilin məlumatına görə Volqaboyunda 37,2 min alman yaşayırdı.[78]

Kompakt məskunlaşmaya meyillilik, tarixi vətənlə əlaqələrin itirilməsi, Rusiyadakı başqa alman qruplarından təcrid olma, müxtəlif Almaniya regionlarına xas olan dil və mədəni ənənələrin yaşanmasında konservativ mövqe, çar hökuməti tərəfindən sərt nəzarət - XVIII əsrin sonunda Volqaboyunun alman koloniyalarının ümumi xarakteristikası bu mənzərədən ibarət idi.

Nəhayət, XVIII əsrin 70-90-cı illərində Qara dənizin şimal sahillərində Osmanlı dövlətinin sıxışdırılması və sonralar Novorossiya adlandırılan bu diyarın münbit torpaqlarında aparılan intensiv məskunlaşma siyasəti nəticəsində Rusiya almanlarının kompakt yaşadığı daha bir region meydana gəldi. Vurğulamaq lazımdır ki, Türkiyənin Qara dənizin şimal sahillərindən məhrum edilməsi Novorossiya ilə yanaşı, qonşu regionlarda Şimali Qafqazda, Cənubi Uralda, Aşağı Volqaboyunda məskunlaşma proseslərinin intensivləşməsinə təkan verdi. Novorossiya almanları həm sosial, həm dini, həm də coğrafi mənşə baxımından Baltikyanı, Volqaboyu almanlarından fərqlənirdilər və onlarla praktiki olaraq heç bir kontakt saxlamırdılar.

Novorossiya almanlarının sayı 5,5 min təşkil edirdi və məskunlaşmanın templərinə görə bu region avanqard sayılırdı. 1782-ci ildən 1796-ci ilə qədər məskunlaşma tempi 27 dəfə artmışdı. Beləliklə, əgər XVIII əsrin ortalarında Rusiyada 66 min alman yaşayırdısa, 1782-ci ildə bu rəqəm iki dəfə artaraq 132 minə çatdı. Rusiyada 1796-ci ildə keçirilən V reviziyanın nəticələrinə görə imperiyada 361, 8 min alman əhalisi yaşayırdı.[79] Almanların sayının sürətli artımı yalnız kütləvi məskunlaşma prosesinin nəticəsi ilə deyil, həm də çoxsaylı almanların kompakt yaşadığı yeni ərazilərin Rusiyaya birləşdirilməsinin nəticəsi idi. Bu cür ərazilərə Reç Pospolitanın bölüşdürülməsi nəticəsində Rusiyaya birləşdirilmiş Qərbi Ukrayna, Qərbi Belorusiya və tarixi ədəbiyyatda Polşa çarlığı kimi tanınan inzibati ərazi vahidi aid idi.

Çar hökumətinin səylərinə baxmayaraq, XVIII əsrin II yarısında Şimali Qafqazda əcnəbi kolonistlərin məskunlaşdırılması baş tutmadı. Regionda ictimai-siyasi vəziyyətin qeyri-sabitliyi, Şimali Qafqazın dağlı xalqları ilə çarizm arasında mübarizə meydanına çevrilməsi, həmçinin 1782-ci ildə «Əcnəbi kolonistlərə qəyyumluq üzrə Dəftərxana»nın ləğv edilməsindən sonra məskunlaşdırma proseslərinə nəzarətin zəifləməsi[80], miqrasiya xidmətinin desentralizasiyası, məskunlaşdırma ilə məşğul olan bürokratik aparatın genişlənməsi və rüşvətxorluğa qurşanması, Şimali Qafqazda əcnəbilərin məskunlaşmasına əngəl yaradan əsas

səbəblər bunlardan ibarət idi. XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən geosiyasi dəyişikliklər bütün Qafqaz regionunda, xüsusən də Şimali Qafqazın düzənlik rayonlarında məskunlaşma proseslərinin sürətlənməsinə münbit hüquqi və siyasi şərait yaratdı

## 1.2. ALMANLARIN QAFQAZA KÖÇMƏSİNİN SƏBƏBLƏRİ, BAŞLANĞICI VƏ ƏSAS İSTİQAMƏTLƏRİ

Şimali Qafqazda yaranan ilk əcnəbi koloniyanın əsasını şotlandlar qoymuşlar. 1802-ci ildə indiki Pyatiqorsk şəhəri yaxınlığında Edinburq missionerlər cəmiyyətinin üzvləri Karras (Şotland) koloniyasını yaratdılar və 1803-1805-ci illərdə missionerlərə daha 21 şotland mənşəli kolonist qoşuldu.[81] Sonralar 1809, 1810, 1813-cü illərdə Karras koloniyasına Volqaboyu bölgəsindən alman kolonistləri köçmüşdülər. Volqaboyu almanlarının Karrasda nə vaxt məskunlaşması və Volqaboyunun hansı koloniyalarından gəlmələri məsələsi Şimali Qafqazın etnik tarixini araşdıran tədqiqatçılar arasında qızğın mübahisə obyekti olmuş, bu barədə bir-birinə zidd fikirlər söylənilmişdir.

Məsələn, XIX əsrin II yarısında yaşamış və Qafqaz almanlarının tarixini tədqiq etmiş alim Y.Veydenbaum «Pyatiqorsk ətrafında yaranan Şotland koloniyasının tarixinə dair» adlı məqaləsində Volqaboyunun Sarepta və Sevastyanovka koloniyalarında yaşayan alman kolonistlərinin özbaşına, kortəbii şəkildə Şimali Qafqaza köçmələri haqqında məlumat verilir. Müəllifin fikrincə, kolonistlər Karrasda məskunlaşaraq koloniyaya verilən imtiyazlardan istifadə etmək məqsədləri güdürdülər və çoxsaylı Volqaboyu almanlarından yalnız bir neçə ailə koloniya cəmiyyətinə qəbul olundu. Qalanların bir hissəsi özbaşına Svyatoy Krest (indiki Budyonovsk) şəhərində məskunlaşdı, başqa bir hissəsi isə Saratov quberniyasına qayıtdılar.[82] Stavropolda tanınmış ölkəşünas-tədqiqatçı İ.Apuxtin XX əsrin əvvəllərində nəşr etdirdiyi «Karras koloniyası, onun keçmişi və bu günü» adlı əsərində qeyd edir ki, bu koloniyada məskunlaşan kolonistlər Vürtemberq krallığından gələnlərdir. Rusiyada əvvəlcə Saratov quberniyasının Sarepta koloniyasında məskunlaşan almanlar, sonralar şotland mənşəli missionerlərin dəvəti ilə Kavminvoda köçmüşlər.[83] Qafqaz almanlarının tarixinin müasir tədqiqatçılarından olan S.A.Çekmenyevin fikrincə, alman kolonistləri 1809-cu ildə Karrasa Saratov quberniyasından və Gürcüstandan köçmüşlər.[84] Tədqiqatçı alim S.A.Çekmenyevin irəli sürdüyü bu fikir arxiv materialları ilə təsdiqini tapmamışdır. Belə ki, çoxsaylı arxiv sənədlərinə əsasən, almanların Cənubi Qafqazda məskunlaşmasının başlanğıcı 1817-ci ilə təsadüf edir. Nəzərə alsaq ki, Cənubi Qafqaza köçən pietistlər burada dünyanın sonunu qarşılamaq niyyətindəydilər və onların dini təliminə görə İsa peyğəmbərin ikinci gəlişi 1836-cı ildə baş verməliydi,[85] bu vaxta qədər onların Cənubi Qafqaz hüdudlarından kənara köçməsi fikri inandırıcı görünmür. Gürcüstanda yaşayan almanlardan kiminsə

Karras koloniyasına köçməsi yalnız XIX əsrin ortaları və yaxud II yarısında baş vermişdi.

Karras koloniyasının yaranma tarixi və əhalisinin etnik tərkibi məsələsində həqiqətə daha yaxın mövqe tədqiqatçı E.Y.Aqoyevaya məxsusdur. Onun fikrincə, Karras koloniyasının əsasını Şotlandiyadan gəlmiş missionerlər qoymuşlar və bu baxımdan koloniya «ana koloniya» adlandırıla bilər.[86] Koloniyaya verilən bu xarakteristika ilə razılaşmaq olar, belə ki, almanlar Karrasa sonralar, daxili məskunlaşma prosesi nəticəsində köçmüşlər. Deyilənlər müxtəlif arxiv mənbələri ilə öz təsdiqini tapmışdır. Məsələn, «Qafqaz arxeoqrafiya komissiyasının topladığı aktlar»ın beşinci cildində Karras koloniyasının starşinası Aleksandr Patersonun məktubu dərc edilmişdir. Bu məktubda Saratov almanlarının icazəsiz olaraq koloniyaya gəlməsi və şotlandların onlara xoş münasibəti haqqında məlumat verilir, yuxarı hakimiyyət orqanlarından Saratov kolonistlərinin bir hissəsinin Karrasda məskunlaşmasına icazə verilməsi xahiş edilir.[87] Ehtimal etmək olar ki, şotlandlarla məskunlaşan almanlar dini nöqteyi-nəzərdən onlara yaxın olan reformatorlar cərəyanına aid olmuşlar və şotlandlarla birlikdə missionerlik etməyə razılıq vermişlər. Mənbələrdən aydın olur ki, alman reformatorlarının şotlandlarla birgə fəaliyyəti uzun çəkməmiş, dağlı xalqları ilə Rusiya arasında hərbi toqquşmaların intensivləşməsindən sonra, 1809-1811-ci illərdə onlar şotland koloniyasını tərk etməyə məcbur olmuşlar.[88] Alman reformatorlarının şotland koloniyasını tərk etməsinə səbəb onlarla şotland missionerləri arasında dini zəmində yaranan münaqişə olmuşdur. Müəyyən dərəcədə almanların koloniyanı tərk etməsi onların daha çox təsərrüfat fəaliyyətinə üstünlük vermələri ilə bağlı idi. Nazirlər Kabinetinə bu fakt haqqında məlumat 29 sentyabr 1817-ci il tarixdə çatdırılmışdır və hökumətin icazəsi ilə Karrası tərk etmiş alman ailələrinin Svyatoy Krest şəhərində məskunlaşması rəsmiləşdirilmişdir. Qeyd etməliyik ki, almanların şəhərlərdə məskunlaşması ümumi qaydalar əsasında həyata keçirilirdi. Lakin Nazirlər Kabineti Svyatoy Krestdə məskunlaşan almanları «kolonist» statusundan məhrum etmədi, hər ailəyə 60 des. torpaq sahəsinin verilməsi haqqında qərar qəbul etdi. Rekrut mükəlləfiyyətini çıxmaq şərti ilə kolonist ailələri yerli kəndlilərlə birlikdə bütün vergiləri ödəməli və mükəlləfiyyətləri yerinə yetirməli idilər. Şotland koloniyasında qalan almanlara sonralar Saratov quberniyasından gələn yeni kolonistlər əlavə edildilər[89]. General Yermolovun etirazlarına baxmayaraq, çar hökumət dairələri Rusiyada fəaliyyət göstərən xristian missionerlərə hər vasitə ilə yardım edirdi. Hətta 1820-ci ildə Rusiya mərkəzi hakimiyyət orqanları ölkədə başqa bir missioner təşkilatının İsveçrə Bazel cəmiyyətinin fəaliyyətinə rəsmi icazə verdi. İlk öncə Sankt-Peterburqa gələn missionerlərin əsas məqsədi imperiyanın müsəlman, yəhudi, bütpərəst əhalisi, həmçinin ənənəvi protestantizmin doğmalarını inkar edən protestant sektaları arasında yevangelizm təlimini yaymaqdan ibarət idi. Daxili İşlər Nazirliyində öz məktəblərini açmaq, dini ədəbiyyat çap etmək, nəşriyyat yaratmaq hüquqları alan missionerlər fəal işə

başladılar və öz emissarlarını, ilk növbədə Qafqaza göndərdilər. Qeyd etmək lazımdır ki, Bazel missionerlərinin nəşr fəaliyyətinə birbaşa Daxili İşlər Nazirliyi nəzarət edirdi.

1821-ci ilin oktyabrında tərkibi 5 nəfərdən ibarət missioner nümayəndələri Qafqaza yola düşdülər. Onların hamısı milliyyətcə alman idi və Bazel yevangelist cəmiyyətinin «cəmiyyətin ərazilərində» məskunlaşmaq tapşırığını yerinə yetirirdilər. «Cəmiyyətin əraziləri» dedikdə, missionerlər Xəzər və Qara dəniz arası əraziləri, yəni Qafqazı nəzərdə tuturdular[90]. 1825—1826-cı illərdə bütün şotland missionerləri koloniyanı tərk etdilər. Bunun bir neçə səbəbi vardı. Əvvəla, dağlı xalqları arasında aparılan missionerlik fəaliyyəti nəticəsiz qaldı. 20 ildən artıq bir dövr ərzində heç bir müsəlmanı və yaxud yəhudini xristianlığa döndərməyə nail ola bilmədilər. Əksinə, protestantizm ideyaları Şimali Qafqazın provoslav əhalisi arasında yayılmağa başladı ki, bu da Qafqazda mülki və hərbi hakimiyyət funksiyalarını yerinə yetirən, general A.P.Yermolovun reformatorlar cərəyanına münasibətinin dəyişməsinə səbəb oldu. Generalın fikrincə, Qafqazda yalnız provoslav dini təbliğ edilməli və pravoslav kilsəsi hakim mövqeyə malik olmalı idi.[91] Edinburq missioner cəmiyyəti Şotland koloniyasının əmələ gəlməsinə, inkişafına əhəmiyyətli dərəcədə maddi vəsait sərf etmişdi və koloniyanı asanlıqla əldən vermək niyyətində deyildi. Koloniya icmasının qərarı ilə rəsmi hökumət dairələrinə müraciət edildi və bu müraciətdə Şotland koloniyasının bütün əmlakının Bazel missioner cəmiyyətinə verilməsi xahiş olunurdu. Rəsmi dövlət orqanlarına göndərilən çoxsaylı xahişnamələrdən sonra 1828-ci ilin dekabrında çar I Nikolayın fərmanı ilə Bazel missionerlərinə Kavminvodda məskunlaşmağa icazə verildi. Fərmanda, həmçinin bu məsələnin Şotland koloniyasında yaşayan alman kolonistləri ilə də razılaşdırılması mütləq şərt kimi göstərilirdi[92]. Şotland koloniyası ilə yanaşı, sonralar daha iki koloniya—Novo-Nikolayevsk və Konstantinovsk koloniyaları yarandı. Bu yeni koloniyaların yaranma tarixi haqqında da tədqiqatçılar arasında müxtəlif fikirlər mövcuddur. Yuxarıda adı çəkilən tarixçilər Y.Veydenbaum və İ.Apuxtinin nəticələri tamamilə bir-birinə ziddiyyət təşkil edir. Y.Veydenbaum hesab edir ki, Konstantinovsk koloniyasını Saratov quberniyasından gələn köçkünlər yaratmışlar. Onun fikrincə, Saratov kolonistləri əvvəlcə Şotland koloniyasında yerləşmiş, sonralar Svyatoy Krest şəhərinə köçmüş və nəhayət, Lisaya Qora yaxınlığında, Kavminvodda məskunlaşmışlar[93]. İ.Apuxtin isə hesab edir ki, Konstantinosk koloniyası 1819-cu ildə Şotland koloniyasının torpaqlarında yaradılmışdır[94]. Stavropol diyarının arxivlərində saxlanılan sənədlərə müraciətən deyə bilərik ki, Novo-Nikolayevsk və Konstantinovsk koloniyaları XIX əsrin 30-40-cı illərində yaranmışlar[95]. Arxiv materiallarına əsaslanaraq bu iki koloniyanın yarandığı tarixləri dəqiqliyi ilə deyə bilərik: Novo-Nikolayevsk koloniyası — 1835-ci, Konstantinovsk koloniyası — 1837-ci ildə yaradılmışdır[96]. Tədqiqatçıların göstərdiyi tarixlə arxiv sənədlərində göstərilən tarixlər arasında böyük zaman fərqinin olmasını onunla izah etmək olar

ki, bəzən koloniyanın faktiki yaranmasından onun rəsmi olaraq koloniya statusu almasına qədər uzun dövr keçirdi və bəzən bu illərlə yox, on illərlə ölçülürdü. Arxiv sənədlərinə əsaslanaraq deyə bilərik ki, Şotland koloniyası yeni yaranmış Novo-Nikolayevsk və Konstantinovsk koloniyaları üçün «ana koloniya» rolunu oynamışdı.

Məlumdur ki, 1802-ci ildə Kavminvodda məskunlaşan şotland mənşəli kolonistlərə çar I Aleksandrın 25 dekabr 1806-cı il tarixdə imzaladığı xüsusi fərmanla geniş imtiyazlar verilmişdir. Bu sənədin müddəalarının birində deyilirdi ki, fərman verildiyi tarixdən sonra bu koloniyada məskunlaşan hər kəs göstərilən imtiyazlardan istifadə etmək hüququna malikdir. Bu müddəaya əsasən, sonradan Şotland koloniyasında məskunlaşan Saratov almanları da dini etiqad azadlığı və 30 il ərzində bütün vergilərdən, müxtəlif mükəlləfiyyətlərdən azad olma hüququ əldə etdilər[97]. Şotland koloniyası ətrafında yaranan və tarixi ədəbiyyatda «qız koloniyalar»ı adlandırılan Novo-Nikolayevsk və Konstantinovsk koloniyaları cəmi 5 il müddətinə vergilərdən azad edilmişdilər. Bu müddət keçdikdən sonra kolonistlərin dövlət kəndliləri ilə hüquqları eyniləşdi və onlar yalnız rekrut mükəlləfiyyətindən azad olunurdular.

Dövlət torpaqlarında məskunlaşan kolonistlərin torpaqdan istifadə hüququ nəsildən-nəslə ötürülə bilərdi. Torpaq sahəsinin özününküləşdirilməsi, icarəyə verilməsi qadağan olunmuşdu. Koloniyalara ayrılan torpaq sahəsinin miqdarı torpaq fondunun vəziyyətindən və əhalinin sıxlığından asılı idi. Məsələn, Şotland koloniyasına əvvəlcə 7000 des. torpaq sahəsi ayrılmışdı. Lakin sonralar, onun yaxınlığında yeni koloniyaların yaranması ilə əlaqədar bu koloniyanın ixtiyarında cəmi 2500 des. torpaq sahəsi saxlanıldı[98]. XIX əsrin ortalarında torpaqların yenidən bölüşdürülməsi zamanı Şotland koloniyasına kəsiklərin hesabına əlavə torpaq sahələri verildi və onun torpaq fondu 3534 des. təşkil edirdi. Yeni yaradılmış Konstantinovsk koloniyasına 3180 des.,[99] Novo-Nikolayevsk koloniyasına isə 3143 des. torpaq sahəsi ayrılmışdı,[100] II Yekaterina dövrü qəbul edilmiş qanunvericiliyə əməl edərək, hökumət dairələri Svyatoy Krest və Şotland koloniyasında məskunlaşan hər alman ailəsinə 60 des. torpaq ayırmışdı[101]. Novo-Nikolayevsk və Konstantinovsk koloniyalarında torpaq sahələrinin genişliyinə görə adambaşına hər kolonistə 30 des. torpaq ayrılması nəzərdə tutulurdu, ancaq koloniyalarda əhalinin sıxlığı səbəbindən hər ailəyə 60 des. torpaq verilməsi qərara alındı. XIX əsrin ortalarında Volqaboyunda yaranmış sosial problemlərdən ən vacibi torpaq problemi idi. 1844-cü ildə Qafqaz vilayətinin Kizlyar-Mozdok dairəsində 180 alman ailəsi məskunlaşdı və onlar burada Kanovo (Kanı) koloniyasının əsasını qoydular. Qafqaz Dövlət Əmlak palatasının 1844-cü ilə aid hesabatında bu koloniyanın adı çəkilsə də, burada yaşayan əhalinin sayı göstərilmir və qeyd olunur ki koloniyanın hüquqi cəhətdən sənədləşdirilməsi tam başa çatmadığından kolonistlərin ümumi sayını göstərmək mümkün deyildir. Sənəddən görünür ki, Qafqaz Dövlət Əmlak palatası bir neçə il Saratov əcnəbi kolonistlərə

qəyyumluq kontoru ilə yazışmalar aparmış, Kanovoda məskunlaşan kolonistlərin dəqiq siyahısını tərtib etməyə çalışmışdır.[102] Məskunlaşmanın ilk ili buraya 180 ailə köçmüşdür. Lakin Saratov Kontorunun məlumatına görə rəsmi olaraq 169 ailənin Stavropol quberniyasına köçməsinə icazə verilmişdi. Qeyd edək ki, yaşayış yerini dəyişmək istəyən ailə tabe olduğu əcnəbilərə qəyyumluq kontorlarından azad olma haqqında bilet əldə etməli və yalnız bundan sonra başqa bir yerə köçə bilərdi. Aparılan yoxlamalar göstərdi ki, 11 ailə icazə biletləri almadan, özbaşına Qafqaza köçmüşdülər. Qanunu pozmuş bütün ailələr cinayət məcəlləsinin I hissəsinin 1215-ci maddəsinə görə məsuliyyətə cəlb edilmiş və bu maddəyə uyğun olaraq ailə başçılarına qarşı 15-dən 30-a qədər ağacla zərbə vurmaq kimi bədən cəzası tətbiq edilmişdi. Saxta icazə biletləri əsasında yaşayış yerini dəyişənlərin işləri ilə məhkəmə məşğul olurdu və onları daha ağır cəzalar gözləyirdi[103]. İcazə bileti olmadan Stavropolda məskunlaşan bir çox kolonist ailələri geri—Saratov quberniyasına qayıtmağa məcbur oldular. Kolonistlərin Volqaboyu ərazisinə qayıtmasının başqa bir səbəbi Stavropolda onlar üçün ayrılan ərazinin iqlim şəraiti ilə izah olunur. Dövlət Əmlak Nazirliyinin birinci departamenti tərəfindən Kavminvoddan cənubi—şərqdə yerləşdirilən Saratov kolonistlərinin isti yayı, soyuq küləkli qışı ilə xarakterizə olan, içməli su qıtlığı və suyun keyfiyyətinin aşağı olduğu bir ərazidə məskunlaşması onlara baha başa gəldi. Arxiv sənədlərindən göründüyü kimi, yarandığı gündən sonra 23 il ərzində bu koloniyada 747 sakin müxtəlif xəstəliklərdən vəfat etmişdir[104]. Qafqaz müharibəsinin getdiyi bir vaxtda almanlar çalışırdılar ki, daha çox şəhərlər ətrafında və kompakt şəkildə məskunlaşsınlar. Bu həm lazım gəldikdə müdafiə xarakterli tədbirlərin operativliyini artırırdı, həm də şəhər ətrafında məskunlaşma, bazarlara yaxınlıq kolonistlərin təsərrüfat inkişafını sürətləndirən amillər idi. Müxtəlif dövrlərdə Saratov quberniyasından Nikolayev koloniyasına köçən kolonistlərin 1848-ci ilin martında Qafqaz canişininin Dəftərxanasına göndərdikləri məktuba nəzər salsaq, görərik ki, adı çəkilən koloniyada məskunlaşan bu kolonistlər hələ də torpaqla təmin olunmamış və kolonist statusuna daxil edilməmişlər. Torpaqsız qalan və yaşamaq üçün lazım olan bütün vasitələrdən məhrum olan kolonistlər rəsmi hökumət dairələrindən onları Stavropol şəhəri ətrafında, boş qalmış dövlət torpaqlarında yerləşdirməyi xahiş edirdilər[105].

Kolonistlərin xahişi ilə bağlı Qafqaz canişininin Dəftərxanası Stavropol Dövlət Əmlak palatasına müraciət etdi və Əmlak palatasından alınan cavabda qeyd olunurdu ki, göstərilən ərazilər hələ 1843-cü ilin sentyabrından Yekaterinoslavdan Qafqaz vilayətinə köçmüş 13 kolonist ailəsi və Prussiyadan gəlmiş 9 ailə üçün nəzərdə tutulmuşdur. Aparılan yoxlamalar zamanı məlum olmuşdur ki, Stavropol ətrafında 30 ailə məskunlaşmışdır ki, onlardan 9 ailə, həqiqətən, Prussiyadan gələnlər idi. Yuxarıda adı çəkilən 13 Yekaterinoslav alman ailəsi onların sırasında qeydə alınmamışdır. Beləliklə, 21 kolonist ailəsinin haradan və nə vaxt gəldiyini ayırd etmək üçün Cənub diyarının əcnəbi kolonistlərinə Qəyyumluq komitəsi,

Qafqaz və Stavropol Dövlət Əmlak palatalarının birgə səyləri nəticəsində bu məsələyə aydınlıq gətirmək mümkün olmuşdur[106]. Adı çəkilən orqanların yazışmalarından məlum olur ki, kolonist ailələri Stavropol quberniyasına 1844-cü ilin aprelində köçmüşlər. Onların hansı ərazidə məskunlaşdırılmasını dəqiqləşdirmək məqsədilə Stavropol Dövlət Əmlak palatası Dövlət Əmlak Nazirliyinin Birinci Departamentinə sorğu göndərir. Birinci Departamentin cavabında sərəncam verilir ki, yeni alman koloniyaları yalnız artıq mövcud koloniyaların qonşuluğunda salına bilər. Bundan savayı, sərəncamda qeyd olunurdu ki, kolonistlər yeni ərazidə məskunlaşmaq üçün mütləq şəkildə köhnə yaşadıqları koloniyanı tərk etmələri haqqında icazə biletləri təqdim etməlidirlər. Əgər kolonist yeni yaşayış yerinə qohumlarının və əzizlərinin yanına gəlmişsə, yaxud yeni koloniyada sənətkarlıqla məşğul olacaqsa onun məskunlaşmasına icazə verilə bilərdi. Bütün bu göstərilən şərtləri sənədlə və qabiliyyətlə sübut etmək tələb olunurdu[107].

Beləliklə, Birinci Departamentin sərəncamına əsasən, kolonistlər yalnız Kavminvodda mövcud olan köhnə koloniyaların qonşuluğunda məskunlaşa bilərdilər. Yeni miqrantlar Kavminvodda məskunlaşmaqdan imtina etdilər. Onların fikrincə, orada mövcud olan koloniyalar Pyatiqorsk şəhərini kənd təsərrüfatı məhsulları ilə təmin edirdilər və bu səbəbdən yeni koloniyalar öz məhsullarının realizə edilməsində çətinlik çəkəcəklər. Kolonistlər onlara torpaq sahələrinin Stavropol şəhəri ətrafında və yaxud Tuquluk yaxınlığında verilməsini xahiş etdilər. Məlumat üçün qeyd edək ki, Stavropol ətrafında 1409 des., Tuqulukda isə 2000 des., əksinə, yararlı torpaq sahəsi vardı və burada kolonistlərin fikrincə, kənd təsərrüfatında yüksək nailiyyətlər qazanmaq mümkün olardı[108].

Birinci Departamentin göstərişi ilə yeni gəlmiş kolonist ailələrinə Stavropol şəhəri ətrafında torpaqlar ayrıldı və bu zaman o fakt da nəzərə alınırdı ki, gələcəkdə bu koloniyanın qonşuluğunda yeni-yeni koloniyalar yaratmaq mümkün olsun. Bu səbəbdən şəhərətrafı torpaq fondunda ehtiyat torpaq sahələri saxlanılırdı. Yekaterinoslavdan gəlmiş 13 kolonist ailəsi məskunlaşma prosesində nəzarətin zəifliyindən istifadə edərək özbaşına Tuquluk kəndi yaxınlığında məskunlaşdılar. Sonralar onlara «İsxod hərəkatının» tərəfdarları da qoşuldular və Stavropol şəhəri ətrafında yaranan yeni koloniya Yohannesdorf adlandırıldı. Kolonistlərin maddi durumu çox zəif idi və bu səbəbdən Qafqaz canişini general-mayor Nordenstam Stavropol Dövlət Əmlak palatasının fondundan yoxsul kolonistlərə maddi yardım göstərilməsi haqqında göstəriş verdi. Əcnəbi kolonistlər haqqında Nizamnamənin XII cildinin 316 maddəsini əsas tutaraq Stavropol Dövlət Əmlak palatası 1847-ci ilin payızında hər kolonist ailəsinə 28 rubl 57 qəpik gümüş pul ayırdı. Pul vəsaitinin düzgün paylanması və məqsədyönlü istifadə olunmasına koloniya icması elliklə cavabdeh idi [109].

Beləliklə, XIX əsrin I yarısında Şimali Qafqazda almanların məskunlaşması tarixini tədqiq etdikdən sonra belə qənaətə gələ bilərik ki, bu regionda almanların

məskunlaşması prosesi kütləvi xarakter almamışdı: 1850-ci ilə qədər Şimali Qafqazda cəmi 5 alman koloniyası yaranmışdı. Tədqiqatçı S.A.Çekmenyevin fikrincə, Şimali Qafqazda, baxdığımız dövrdə almanların məskunlaşmasına maneə törədən əsas amil Qafqaz müharibəsi idi. Şübhəsiz, Qafqaz xalqları ilə çar Rusiyası arasında gedən bu qanlı müharibədə istənilən kolonist çar hökumətinin tərəfdarı kimi qəbul edilirdi və hər yaranan yeni yaşayış məntəqəsi — kazak stanitsası, kəndlər və yaxud əcnəbi koloniyaları dağlı xalqlarının ərazilərində salınırdı. Təbii ki, dağlı xalqları yeni məskunlaşan əhaliyə mənfi münasibət bəsləyir, onların yaşayış məntəqələrinə hücumlar edir və hətta bir çox məskənlərin ləğv edilməsinə belə nail olurdular.

Lakin bu regionda alman koloniyalarının yaranma prosesinin inkişaf etməməsinin əsas səbəbini Rusiyanın apardığı məskunlaşma siyasətinin mahiyyətində axtarmaq lazımdır. Şimali Qafqazda hərbi-siyasi vəziyyətin qeyri-sabitliyi məskunlaşma siyasətinin məzmununa böyük təsir göstərirdi. Belə ki, çar hökuməti bu ərazilərdə daha çox slavyan mənşəli əhalinin yerləşdirilməsində maraqlı idi. Yeni işğal edilmiş ərazilərə Don, Volqa və Zaparojye kazakları, dövlət kəndliləri, ordudan təxris olunmuş zabitlər, əsgərlər və sair kateqoriyadan olan slavyan mənşəli əhali köçürülürdü. 1835-ci ildə Şimali Qafqazda 405,5 min, 1858-ci ilin məlumatlarına görə 780,4 min slavyan əhalisi yaşayırdı. Nəzərə alaq ki, Şimali Qafqazda rus işğalına qədər 1200 nəfər slavyan yaşayırdı[110].

Qafqaz müharibəsi dövründə slavyanların müharibə zonasında yerləşdirilməsi həm siyasi, həm də iqtisadi baxımdan çar hökumətinin dövlət siyasətinə uyğun gəlirdi. Belə ki almanlardan fərqli olaraq, rus, ukraynalı kəndlilər, kazaklar məskunlaşma üçün büdcədən vəsait gözləmirdilər, bu da hokumətə imkan verirdi ki, maliyyə vəsaitini başqa problemlərin həllinə yönəltsin.

Bundan savayı, kazaklar həm də hərbi əməliyyatlarda iştirak edir, Rusiyanın cənub hüdudlarının qorunmasında sərhədçi funksiyasını da yerinə yetirirdilər. Bütün bunlar çar hökumətinin işğal edilmiş ərazilərin etibarlı qorunmasına ümidlərini artırır və hərbi xərclərin azalmasına xidmət edirdi.

XIX əsrin ortalarına qədər Şimali Qafqazda almanların məskunlaşmasının ləng getməsinin səbəblərinə, şübhəsiz, bu işdə dəqiq təşkilatçılığın olmaması, kolonistlərin yeni miqrasiyası ilə bağlı zəif maarifləndirilməsi, Şimali Qafqazın mülki və hərbi dövlət orqanlarının bu regiona almanların köçürülməsinə mənfi münasibəti və sair kimi amilləri aid etmək olar. Ancaq bütün bu sadaladıqlarımız ikinci dərəcəli məsələlər idi. Qeyd etdiyimiz kimi, Qafqaz müharibəsi dövründə çar hökuməti Şimali Qafqaza, əsasən slavyanların kütləvi şəkildə yerləşdirilməsi xəttini həyata keçirirdi.

XIX əsrin əvvəllərində Şimali Qafqazın dağlı xalqları hələ tam tabe etdirilməmişdilər və böyük bir ərazi — Dağıstan və Çeçenistanın dağlıq əraziləri hələ Rusiyanın nəzarətində deyildi. Şimali Qafqazın tamamilə işğalı o vaxt mümkün olardı ki, bu region hər tərəfdən, əsasən də cənubdan xarici aləmdən

təcrid edilmiş olsun. Bu vəzifənin həyata keçirilməsi Rusiyanı Cənubi Qafqazda fəal olmağa sövq edirdi. Cənubi Qafqazın Rusiyaya birləşdirilməsi, nəinki Şimali Qafqazın ram edilməsinə xidmət edər, həmçinin Rusiyaya Mərkəzi Asiya və Ön Asiyada bir sıra geosiyasi üstünlüklər qazandırardı.

XIX əsrin əvvəllərindən çar hökuməti Cənubi Qafqaza dair Rusiyanın hakim dairələrində son 100 il ərzində müzakirə olunan planları praktiki olaraq həyata keçirməyə başladı və bunun üçün həm ölkə daxilində, həm də beynəlxalq münasibətlər sistemində münbit şərait yaranmışdı.

XVIII əsrin sonu — XIX əsrin əvvəllərində Cənubi Qafqazda bir-birindən mədəniyyətinə, dilinə, dininə, sosial-iqtisadi inkişaf səviyyəsinə görə fərqlənən müxtəlif xalqlar yaşayırdılar.

Cənubi Qafqazın böyük hissəsində müxtəlif inkişaf mərhələsində olan feodal münasibətləri hökm sürürdü. Bu regionda ən çoxsaylı avtoxton əhali azərbaycanlılar və gürcülər idi ki, onlar da, əsasən əkinçilik və heyvandarlıqla məşğul olurdular. Təsərrüfatın natural xarakter daşıması aqrotexnikanın aşağı səviyyəsi və heyvandarlığın ekstensivliyi ilə səciyyələnirdi. Manufaktura istehsalı hələ yaranma ərəfəsində idi, kəndli sənətkarlığı, əsasən kənd təsərrüfatının tələbatına işləyirdi. Məhsuldar qüvvələrin inkişafındakı ləngimə daxili bazarların məhdudluğu, regionda mövcud siyasi pərakəndəliklə əlaqəli idi. Şimali Azərbaycan ərazisində 10 müstəqil xanlıq və 11 xırda vassal sultanlıqlar, məlikliklər mövcud idi. Gürcüstan iki çarlıqdan — Kaxetiya və İmeretiya çarlıqlarından ibarət idi. Qərb knyazlıqları — Quriya, Minqreliya, Svanetiya və Abxaziya Gürcüstandan vassal vəziyyətində idilər. Feodallararası müharibələr, xarici işğalçıların dağıdıcı yürüşləri məhsuldar qüvvələrin inkişafına mənfi təsir göstərir, regionda siyasi sabitliyin bərqərar olmasına mane olurdu.

Gürcülər xristian dininə etiqad edən xalq kimi hələ XVIII əsrin 80-ci illərində könüllü olaraq Rusiya imperiyasına daxil olmaq niyyətlərini bildirmişdilər. Bu addım onların daxili çəkişmələrinə son qoymaq və xarici təcavüzdən yaxa qurtarmaq zərurətindən irəli gəlirdi. 1801-ci ilin sentyabrında rus çarı II Aleksandrın dekreti ilə Şərqi Gürcüstan Rusiyaya birləşdirildi və Qafqazın Baş komandanı general-leytenant P.D.Sisianovun rəhbərlik etdiyi gürcü hökuməti yaradıldı. Bu dövrdə Qazax və Şəmşəddil sultanlıqları Gürcüstandan asılı vəziyyətdə olduğundan Şərqi Gürcüstanla birlikdə Rusiyaya birləşdirildilər. Bununla Azərbaycan ərazilərinin zorla Rusiyaya birləşdirilməsi prosesi başladı. Silah gücünə və diplomatik yolla 1804—1813-cü illərdə Rusiya Naxçıvan və İrəvan xanlıqlarından savayı bütün Şimali Azərbaycanı və 1804—1810-cu illərdə Qərbi Gürcüstanı, Abxaziyanı öz tərkibinə qatdı. 1813-cü ildə bağlanmış Gülüstan sülh müqaviləsi ilə Rusiya Cənubi Qafqazda ərazi işğallarının beynəlxalq aləmdə tanınmasına nail oldu.

İstər İran, istərsə də Türkiyə Qafqazın Rusiyanın tərkibinə qatılması faktı ilə razılaşa bilmir və Rusiya ilə yeni müharibəyə hazırlaşırdılar. 1826-1828-ci illərdə

II rus-iran və 1828-1829-cu illərin II rus-türk müharibələri Rusiyanın qələbəsi ilə başa çatdı. Nəticədə Rusiyanın Qafqazdakı işğal ərazilərinə Naxçıvan və İrəvan xanlıqları, Mesxet — Cavaxetiya, Axaltsix əraziləri əlavə edildi.

Beləliklə, XIX əsrin ilk otuzilliyində Rusiya bütün Cənubi Qafqazı özünə tabe etdi və gündəmdə yeni işğal edilmiş ərazilərin imperiyaya daha sıx birləşdirilməsi, onu Rusiyanın bölünməz və ayrılmaz bir hissəsinə çevirmək məsələsi dururdu ki, bu da regionda fəal məskunlaşdırma siyasətinin aparılmasını zəruri edirdi. Hələ Cənubi Qafqaz uğrunda mübarizənin I mərhələsindən sonra, yəni 1813-cü il Gülüstan sülhündən dərhal sonra burada əcnəbi təbəələrin yerləşdirilməsinə başlandı. Almaniyanın bir çox regionlarında Cənubi Qafqaza köçmək arzusunda olan qruplar bu məsələnin həllinin diplomatik, hüquqi yollarını araşdırırdılar və bu işdə pietizm cərəyanının daha geniş yayıldığı Baden-Vürtemberq krallığında canlanma vardı.

Çar hökumətinin 1804, 1810, 1817-ci illərində qəbul etdiyi və ölkəyə əcnəbi kolonistlərin gəlişinə məhdudiyyətlər qoyduğu qanunların[111] müddəalarına zidd olaraq Baden-Vürtemberq almanlarının Gürcüstana, o cümlədən Cənubi Qafqaza köçməsinə icazə verilməsi faktı haqqında tarixi ədəbiyyatda müxtəlif fikirlər söylənilmişdir.

Bu məsələ ilə maraqlanan tədqiqatçıların əksəriyyətinin fikri belədir ki, çar hökumətinin alman kolonistlərini Cənubi Qafqaza dəvət etməsi bu regionda işçi qüvvəsinə olan ehtiyacdan irəli gəlmişdir[112].

XIX əsrin əvvəllərində Cənubi Qafqazın etno-demoqrafik tarixinin təhlili yuxarıda söylənilən fikirlərlə razılaşmamağa əsas verir.

Məlumdur ki, əcnəbi kolonistlərin Rusiya imperiyasına dəvət olunması zərurəti Volqaboyu, Novorossiya diyarı, Şimali Qafqaz kimi təbii sərvətlərlə zəngin, lakin insan resurslarının azlıq təşkil etdiyi regionların sosial-iqtisadi inkişafındakı ziddiyyətlərin aradan qaldırılması məsələsini həll etməklə bağlı yaranmışdır. Qeyd edək ki, problem təkcə insan resurslarının çatışmazlığında deyil, azad işçi qüvvəsinin azlığında idi. Rusiyada mövcud olan təhkimçilik münasibətləri ölkə əhalisinin 90 faizdən artıq bir hissəsini mülkədarların köləsinə çevirmişdi. Təhkimçilik sistemi mütləqiyyətin sosial-siyasi dayağını təşkil edirdi və bu münasibətlər sisteminin liberallaşmasına atılan hər hansı bir addım çar hakimiyyətinin saxlanmasına, bütün siyasi sistemin dəyişməsinə gətirə bilərdi. Bu səbəbdən nə mülkədarlar, nə də çar hökumət dairələri imperiyanın geniş, əhalisiz ərazilərinin təhkimçilikdən azad edilən kəndlilərin hesabına məskunlaşmasında maraqlı deyildilər. Rusiya mülkədarları yeni işğal olunmuş regionlarda torpaq sahələri əldə edir və bu torpaqlarda işçi qüvvəsi kimi daha çox xaricdən gəlmiş kolonistlərdən istifadəyə üstünlük verirdilər.

Apardığımız araşdırmalardan aydın olur ki, Volqaboyu, Novorossiya diyarı, Şimali Qafqaz kimi regionlardan fərqli olaraq, Cənubi Qafqazda əhali azlığı hiss olunmurdu və regionun əlavə işçi qüvvəsinə ehtiyacı yox idi. Bundan savayı,

Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrindən sonra İrandan və Türkiyədən Cənubi Qafqaza təqribən 130 min erməni, 27 min kürd, 16 min aysor (assiriyalı) və sair etnosun nümayəndələri köçürüldü.[113]

Gülüstan sülh müqaviləsindən sonra Cənubi Qafqaza köçürülən etnoslardan biri də almanlar olmuşlar. Erməni, kürd, aysor mənşəli köçkünlərə nisbətən almanların sayı çox deyildi. Cənubi Qafqazda Baden-Vürtemberq krallığından təqribən 2650 alman kolonisti məskunlaşmışdı. Çarizmin Cənubi Qafqazda məskunlaşma siyasətinin uzaq məqsədləri nə idi və bu məqsədlərin həyata keçirilməsində azsaylı alman mühacirlərinə hansı siyasi missiya təyin olunmuşdu?

Qeyd etdiyimiz kimi, Qafqazda öz iqtisadi, siyasi mövqelərini möhkəmlətməklə Rusiya «Şərq məsələsinin» həllində daha fəal rol oynamaq məqsədləri güdürdü. Əsasən Avropanın aparıcı ölkələrinin iştirak etdiyi və Osmanlı imperiyasının parçalanmasına yönələn bu siyasi oyunda Rusiya «erməni elementindən», «erməni kartından» istifadə edirdi.

XVIII əsrin II yarısında Rusiyanın həm dünya, həm də Avropa siyasətində nüfuzu güclənirdi və bu erməni diasporunu fəallaşdırdı. Hələ I Pyotrun dövründən Rusiyanın hakim dairələrində cızılan Qafqazın işğal edilməsi planlarından bəhrələnən ermənilər Şərqi Anadolu, Azərbaycan və Gürcüstan ərazilərində erməni dövlətinin yaradılması kimi bir xülyaya uydular. Rusiya işğalına qədər ermənilər Qafqazda dispers halda məskunlaşmış, heç bir inzibati ərazi vahidinə malik deyildilər. Ermənilərin Cənubi Qafqaza nisbətən kompakt yaşadıqları Naxçıvan və İrəvan xanlığının əraziləri idi ki, burada da onlar ümumi əhalinin təqribən 10-13% -ni təşkil edirdilər[114].

Beləliklə, tarixdə heç vaxt Qafqazda dövlət qurumuna malik olmayan ermənilər Qafqazın Rusiya imperiyasına qatılmasında özləri üçün yeni perspektivlər görürdülər.

Cənubi Qafqazın avtoxton əhalisi — azərbaycanlılar və gürcülərin rus işğalına münasibəti eyni deyildi. Gürcülər hələ XVIII əsrin sonlarından Rusiyanın tərkibinə qatılmaq arzusundaydılar və bunun bariz nümunəsi kimi 1783-cü ilin Georgiyevsk traktatının müddəalarını göstərə bilərik. Gürcüstan Rusiyanın tərkibinə qatılmaqla ictimai-siyasi həyatını normaya salmaq üçün sabitlik əldə etdi. Ədalət naminə qeyd etməliyik ki, çar hökumətinin pravoslav gürcü əhalisinə münasibətində, Gürcüstana aid apardığı daxili siyasətində ögey yanaşma müşahidə olunmurdu.

Azərbaycanlılar, Qafqazda dominant xalq kimi rus işğalından daha çox ziyan çəkdilər: ayrı-ayrı türk xanlıqlarının simasında Azərbaycanın müstəqilliyinə son qoyuldu və Azərbaycan xalqının tarixində ən faciəli hadisə baş verdi - ölkə, xalq çar Rusiyası və İran tərəfindən iki hissəyə parçalandı.

İşğal zamanı rus ordusuna göstərilən müqavimət və çoxsaylı xalq üsyanları onu göstərirdi ki, Azərbaycan xalqı rus işğalı ilə, müstəqilliyinin itirilməsi ilə barışmaq niyyətində deyildi.

Beləliklə, Cənubi Qafqazın xristian əhalisindən fərqli olaraq, çar hökumət dairələri müsəlman dininə və türk dil qrupuna aid olan azərbaycanlıların timsalında potensial düşmən qüvvə görürdü. Bu qüvvə çarizmin istər Qafqaz, istərsə də Yaxın Şərqə dair ekspansionist siyasətinin həyata keçirilməsində maneə amillərindən biri ola bilərdi. Bu səbəbdən, Rusiyanın Cənubi Qafqazda əsas strateji vəzifəsi qeyri-rus xalqlarını ruslaşdırmaq, bu regionda türk-müsəlman amilini zəiflətmək və bu diyarı Rusiya imperiyasının ayrılmaz hissəsinə çevirməkdən ibarət idi. XIX əsrin mənbələrinə istinadən demək olar ki, çar Rusiyasının Cənubi Qafqazda apardığı miqrasiya, demoqrafiya siyasəti azərbaycanlıların bir etnos kimi tamamilə məhv edilməsinə yönəlməsə də, ən azından onların sayının azalmasına, azərbaycanlıların bu regionda etnik dominantlığına son qoymaq kimi mənfur vəzifələrin həyata keçirilməsinə xidmət edirdi. Azərbaycanlıların tərk etdikləri ərazilərdə xristian dininə etiqad edən xalqların məskunlaşdırılması həyata keçirilirdi[115].

Qeyd edək ki, çarizmin planlarına görə Cənubi Qafqazın xristianlaşdırılmasında ermənilər əsas rol oynamalı idilər və hökumət dairələrinin bu fikri bir neçə faktla əsaslandırılırdı. Rusiya rəsmi dairələrində hesab edirdilər ki, tarixən daimi coğrafi areala malik olmayan, türklərə, azərbaycanlılara, gürcülərə qarşı əsassız ərazi iddiaları irəli sürən ermənilərdən siyasi, konfessional alət kimi istifadə etmək olardı. Bundan savayı, ermənilər uzun müddət İran və Türkiyə müsəlmanları ilə birgə yaşayaraq onların dilini, mədəniyyətini, adət və ənənələrini, həyat tərzlərini öyrənmiş və bu amilləri nəzərə alaraq çar hökumət dairələri Cənubi Qafqazda müstəmləkə siyasətini həyata keçirməkdə ermənilərin xidmətindən istifadə edirdilər.

Cənubi Qafqaza ermənilərdən savayı, qədim nestorian kilsəsinə aid olan aysorlar da dəvət olunmuşdular. 1804-cü ildə 16 min aysor əhalisini Şimali Azərbaycana dəvət edən general-leytenant P.D.Sisianovun müraciətində aysorlara ermənilərlə birləşmək, birlikdə müsəlmanlara qarşı mübarizə aparmaq tövsiyə edilirdi[116]. Monoqrafiyanın tədqiqat obyekti Qafqazda ermənilərin məskunlaşması məsələsi deyil. Ancaq bu qısa tarixi ekskursu etmədən almanların Cənubi Qafqazda məskunlaşdırılması səbəblərinin bütöv mənzərəsini təsəvvür etmək çətin olardı. Minlərlə erməni, rus və sair mənşəli köçkünlərin Cənubi Qafqazda məskunlaşdırıldığı şəraitdə uzaq Baden-Vürtemberq krallığından almanların bu regiona dəvət olunması hansı zərurətdən doğmuşdu? Almanların Cənubi Qafqazda məskunlaşması öz məzmununa görə erməni, rus, aysor və sair xristian xalqlarının məskunlaşmasından nə ilə fərqlənirdi? Çar hökumət dairələrinin fikrincə, ermənilərin Cənubi Qafqazda yerləşdirilməsi bu diyarın xristianlaşdırılması və yeni işğal ərazilərində hökumətə sadiq sosial dayağın formalaşdırılmasına xidmət etməli idi. Çarizm üçün Qafqazda həyata keçiriləcək ən vacib vəzifələrdən biri yeni iqtisadi sahələrin inkişaf etdirilməsi, ən başlıcası yeni dünyagörüşünə malik olan, Avropa-xristian dəyərlər sistemini qavrayan «Avropa mədəniyyətinə» uyğun vətəndaşların tərbiyə edilməsi məsələsi idi. Çar məmurlarının qənaətinə görə

ermənilər bu vəzifənin öhdəsindən gələ bilməzdilər, belə ki, onlar əsasən xırda ticarət və sənətkarlıqla məşğul olurdular. Əsrlərlə, müxtəlif dövlətlərin tərkibində yad, aşağı statuslu, azlıq təşkil edən və iqtisadi ixtisaslaşması «xırda ticarətlə» məhdudlaşan, marginal psixologiyaya malik olan ermənilər Cənubi Qafqazın avtoxton əhalisi — azərbaycanlılar və gürcülər üçün istər təsərrüfatçılıq, istərsə də mədəni baxımdan nümunə rolu oynaya bilməzdilər. Bu cür dəyərlər sisteminin daşıyıcıları və yerli xalqlar üçün nümunə ola biləcək xalq yalnız Avropa mədəniyyətinə mənsub əhali ola bilərdi. Bu nöqteyi-nəzərdən çar hökuməti almanların Cənubi Qafqaza köçmək haqqında xahişlərinə böyük şövqlə cavab verdi.

Alman kolonistlərinin Gürcüstana köçürülməsi təşəbbüsü ilə ilk dəfə çıxış edən Qafqaz ordusunun Baş komandanı, general A.P.Yermolov oldu. Lakin almanların Qafqaza köçməsinin obyektiv səbəbləri XVIII əsrin II yarısı—XIX əsrin əvvəllərində Avropada baş verən tarixi proseslər nəticəsində formalaşmışdı.

XVIII əsrin II yarısı — XIX əsrin əvvəlləri bu yeni formalaşmış kapitalist münasibətləri ilə köhnə feodalizm qaydaları arasında kəskin mübarizə dövrüdür. Köhnə ictimai formasiyanın yenisi ilə əvəz olunması dövlətlərarası ziddiyyətlərin kəskinləşməsi ilə, müharibələrlə, sosial inqilablarla, sərhədlərin dəyişdirilməsi ilə, Avropanın siyasi xəritəsindən bəzi dövlətlərin silinib əvəzində yenilərinin yaranması ilə müşayiət olunurdu. XVIII əsrin sonu — XIX əsrin əvvəllərində Avropada baş verən siyasi, sosial, dini kataklizmlər Almaniyadan, o cümlədən Qafqaz almanlarının əksəriyyətinin tarixi vətəni olan Baden-Vürtemberq krallığından da yan keçmədi.

XIX əsrin astanasında alman millətinin Müqəddəs Roma imperiyası adlanan Almaniya bir-birilə siyasi cəhətdən real əlaqələrə malik olmayan 300 dünyəvi və dini knyazlıqlardan, çoxsaylı müstəqil imperiya statuslu şəhərlərdən, 1500-ə yaxın heç bir qüvvəyə tabe olmaq istəməyən cəngavər malikanələrindən ibarət idi[117]. Ümumi əhalisi 30 mln. nəfərə çatan bu cırtdan dövlətlərdə sosial və dini toqquşmalar səngimək bilmirdi: protestant knyazlıqlarda katoliklər, katolik knyazlıqlarda protestantlar təqib olunur, bəzən protestantizmə aid olan cərəyanlar arasında «dini təmizlik» uğrunda mübarizə gedirdi.

Siyasi və dini dağınıqlıq sənətkarlığın, ticarətin, sənayenin inkişafına mənfi təsir göstərirdi. Kənd təsərrüfatı məhv olmaq həddinə çatmışdı.

XV əsrdən krallıq kimi tanınan Vürtemberq dövlətində vəziyyət daha acınacaqlı idi. Prussiya kralı II Fridrixin yetirməsi, Vürtemberq kralı Karl Yevgeninin dövründə krallıqda sosial-siyasi, konfessional vəziyyət daha da mürəkkəbləşdi: Karl Yevgeni və ondan sonra gələn krallar Fransaya daha çox meyil edir, kübarlıqda və təmtəraqlıqda fransız kralları ilə bəhsə girirdilər ki, bu da vergilərin tez-tez artmasına, şəhər əhalisinin, kəndlilərin müflisləşməsinə gətirib çıxarırdı.

Almanların Qafqazda məskunlaşma tarixinə həsr olunmuş bəzi əsərlərdə alman kolonistlərinin guya ki, Qafqazın geridə qalmış təsərrüfat həyatına, daha mütərəqqi təsərrüfatçılıq metodları, yeni iqtisadi münasibətlər gətirməsi haqqında fikirlər əks olunmuşdur. Faktlara nəzər salsaq bir qədər fərqli mənzərənin şahidi olarıq. Məlumdur ki, gürcü kəndlilərinin feodallardan asılılığı olsa da, Gürcüstanda təhkimçilik qaydaları Avropa ölkələrində olduğu kimi feodal özbaşınalığının kobud formalarına məxsus olmamışdır. Azərbaycan kəndliləri isə demək olar ki, təhkimçiliyin nə olduğunu, ümumiyyətlə, bilməmişlər. Azərbaycanda kəndlinin torpaq sahibindən iqtisadi asılılığı mövcud olmuşdur və qeyd edək ki, torpaq sahibi rolunda dövlət, ayrı-ayrı feodallar və yaxud dini təşkilatlar çıxış edə bilərdi.

Ancaq alman dövlətlərində kəndlilərin torpaq sahiblərindən həm iqtisadi, həm hüquqi, həm də şəxsi asılılığı qalmaqda davam edirdi. XIX əsrin əvvəllərində Almaniya üçün feodalizmin konservasiyası səciyyəvi hal idi və XVII əsrdən başlamış bu prosesi F.Engels «təhkimçiliyin ikinci nəşri» adlandırmışdı.

1801-1811-ci illərdə Prussiyada, Bavariyada, Qessen-Darmştatda, o cümlədən Baden-Vürtemberq krallığında aqrar islahatlar aparılsa da, kəndliləri düşündürən torpaq məsələsi həll edilmədi. Əksinə, yarımçıq xarakter daşıyan islahatlar feodal münasibətlərinin yeni formada bərqərar olmasına gətirdi. Nəticədə, alman kəndliləri, nəinki yeni torpaq sahələri əldə etdilər, əksinə, əllərində olan torpaqların xeyli hissəsinin itirilməsi ilə üzləşdilər. İslahatın şərtlərinə görə kəndli torpaq sahibindən torpaq almaq hüququna malik olsa da, maddi vəziyyətinin ağırlığına görə bu hüquqdan istifadə edə bilmirdi və nəticədə kəndli pay torpağını öz sahibinə satmağa məcbur olurdu.

Beləliklə, aqrar islahatlar alman kəndlilərinin təbəqələşməsini daha da sürətləndirirdi: iri torpaq sahiblərinin torpaq mülkləri genişləndiyi halda, aztorpaqlı və torpaqsız kəndlilərin sayı daha da artırdı.

Rəsmi hakimiyyət feodal qayda-qanunlarının tam ləğvində maraqlı deyildi, çünki özü feodal mütləq monarxiyasının xüsusiyyətlərinə malik idi. Bu səbəbdən hökumət aqrar islahatların keçirilməsində qətiyyət nümayiş etdirmir, qəbul edilmiş qərarların əksəriyyəti kağız üstündə qalırdı[118].

Kral Fridrix IV Vilhelmin xalqa zidd siyasəti aclıq və səfalətə gətirdi və alman kəndliləri kütləvi şəkildə şəhərlərə miqrasiya etməyə başladılar. Lakin zəif inkişaf etmiş sənayenin işçi qüvvəsinə ehtiyacı yox idi. Çıxılmaz sosial-iqtisadi vəziyyətdə qalan alman kəndliləri, yoxsul sənətkarlar xarici ölkələrə üz tutmağa məcbur olurdular.

Bir sıra əsərlərdə almanların Baden-Vürtemberqdən Cənubi Qafqaza köçməsinin əsas səbəbi kimi Avropada gedən Napoleon müharibələri göstərilir. Qeyd etməliyik ki, Baden-Vürtemberq krallığı Napoleon imperiyasının tərkibinə qatılmışdı və krallığın əhalisi Napoleon Bonaparta, ümumiyyətlə, inqilabçı Fransa respublikasına böyük ümidlə baxırdı. Fransa işğalı krallığa yeni burjua qayda-qanunları gətirdi: əhali Napoleon hakimiyyətindən siyasi stabillik və alman

torpaqlarındakı pərakəndəliyə son qoymağı gözləyirdi. Lakin Napoleon Bonapartın müttəfiqlərə məğlub olması ilə bütün bu yeni başlanğıclara son qoyuldu. Beləliklə, deyə bilərik ki, əslində Napoleonun apardığı hərbi əməliyyatlar deyil, onun məğlubiyyəti, Fransada Burbonların, Baden-Vürtemberqdə isə kral hakimiyyətinin, onun soldafon siyasətinin bərpa edilməsi şvab əhalisinin gələcəyə olan son ümidlərini heçə endirdi və əhalini kütləvi şəkildə ölkəni tərk etməyə sövq etdi. Təsadüfi deyil ki, şvabların Baden-Vürtemberq krallığından Qafqaza mühacirəti Napoleon müharibələrindən çox-çox sonra 1817-ci ildə başlamışdır.

XVIII əsrin II yarısından başlayan almanların Rusiyaya kütləvi mühacirəti tarixinin təhlili göstərir ki, əcnəbi kolonistlərin böyük əksəriyyəti Rusiyanın müxtəlif regionlarına sosial-iqtisadi səbəblərdən köçmüşlər. Ancaq mühacirlərin müəyyən bir hissəsinin Almaniyanı tərk etməsi siyasi və dini amillərlə şərtləndirilmişdir. Almaniyanı dini səbəblərdən tərk edən mühacirlərə, əsasən çox tanınmış mennonit sektası və separatizm sektalarının tərəfdarları aid olmuşlar. Məlumdur ki, XVIII əsrin sonları - XIX əsrin əvvəllərində sonuncuların—yəni müxtəlif separatist sektaların sayı sürətlə artmışdı ki, bu da bəzi alman krallıqlarında Ausburq dini etiqadına aid bir sıra kilsə qaydalarına edilən ciddi dəyişikliklərin nəticəsi idi[119]. Separatizmin ən çox yayıldığı alman torpaqlarından biri Baden-Vürtemberq krallığı idi və təsadüfi deyil ki, Cənubi Qafqazın alman əhalisinin əksəriyyəti məhz bu krallıqdan köçüb gəlmişdilər.

Cənubi Qafqaz almanlarının dini-separatizmi özünü pietizm formasında büruzə verirdi. Protestantizmə aid bu cərəyan XVII əsrdə Almaniyada yaranmışdır və mistik bir dini cərəyan kimi xiliaizm təbliğ edirdi. Pietizm təliminə görə həqiqi dini hisslər və öz mənəvi daxilində Allahı yaşatmaq hər hansı bir kilsə doqmalarından yüksək sayılırdı, yəni daha vacib hesab olunurdu. XIX əsrin əvvəllərində Avropada baş verən «humanitar fəlakəti», dini təqibləri pietistlər dünyanın sonunun yaxınlaşdığını göstərən bir əlamət kimi qiymətləndirir və hesab edirdilər ki, tezliklə qiyamət günü gələcək, antixristlər öz cəzalarını alacaq. Yer üzündə əbədi sülh bərqərar olacaq və Müqəddəs İsanın minillik çarlıq dövrü başlayacaqdır. Pietizm cərəyanın ideoloqları sayılan İ.A.Benqel (1687-1725) və İ.Q.Yunq - Ştillinqin (1740-1817) əsərlərinə görə «ex oriente lux», yəni «işıq Şərqdən gəlirdi». Separatçıların fikrincə, İsa peyğəmbərin ikinci gəlişi və minillik çarlığın yaranması Allahın müqəddəs torpaqlarında — Fələstində və yaxud Qafqazda baş verməli idi. Hətta «qiyamət günü»nün dəqiq tarixi kimi 1836-cı il göstərilirdi[120]. Bu səbəbdən pietistlər kütləvi şəkildə Cənubi Qafqaza can atırdılar ki, «qiyamət günündə müqəddəs torpaqlarda yerləşsinlər və İsanın minillik çarlığında yaşamaq onlara nəsib olsun».

Göründüyü kimi, almanların Baden-Vürtemberqdən Qafqaza köçməsində bir sıra amillərin təsiri olsa da, dini amillər bu prosesdə əsas rol oynamışlar və bu fakt həm köçmə prosesinin təşkil olunmasında, həm də kolonistlərin gələcək həyatında dərin iz buraxmışdır. Təsadüfi deyil ki, köçkünlərin ilk qrupu dini

etiqadları hələ də köhnə qaydada yerinə yetirən konservator xristianlardan təşkil olunmuşdur. Kral II Fridrix Vürtemberqskinin apardığı kilsə islahatlarını qəbul etməyənlər müxtəlif təqiblərə məruz qalırdılar: onları lüteran icmaları sıralarından xaric edir, əmlakları müsadirə olunur, bəzən həbs edilib zindana salınırdılar. İldən-ilə vəziyyəti pisləşən Vürtemberq pietistləri xarici ölkələrdə mövcud olan pietist qrupları ilə əlaqə yaradaraq onların köməyi ilə müxtəlif ölkələrə mühacirətə başladılar. Daha praqmatist düşüncəli pietistlər təsərrüfat fəaliyyəti üçün nisbətən əlverişli ərazilərə üstünlük verdilər: yüzlərlə pietist ailələri Şimali Amerikaya, Qərbi və Cənubi Ukraynanın sulu və meşəli qara-torpaq zonalarına köçməyə başladılar. Cənubi Qafqaza yola düşənlər üçün öz dini etiqadına sədaqət hər hansı maddi nemətdən üstün idi və deyə bilərik ki, pietistlərin ən konservativ, ən fanatik hissəsi Qafqaza köçməyi qət etdi.

Çar I Aleksandr alman pietistlərinə rəğbətlə yanaşırdı və bu cür münasibətin formalaşmasında onun məşuqəsi, əslən Baden-Vürtemberq krallığından olan baronessa V.Kürdenerin böyük rolu olmuşdur. Bundan savayı, qeyd etməliyik ki, çar I Aleksandr Vürtemberq krallığı ilə qohumluq əlaqəsində idi. Belə ki, çarın anası Sofiya-Doroteya Vürtemberq şahzadəsi idi ki, bu da onun pietistlərə xoş münasibətinə təsir etməyə bilməzdi. Beləliklə, çar I Aleksandr alman separatistlərinin Cənubi Qafqazda məskunlaşmasına icazə verdi və dərhal, artıq 1816-cı ilin sentyabrında 40 ailədən ibarət qrup Fridrix Fuksun başçılığı ilə Şvaykgel kəndindən Cənubi Qafqaza — Gürcüstana yola düşdülər[121]. Onlar Vyanadan Dunaya çıxaraq İzmailə, sonra isə Akkermana gəldilər. 1816-cı ilin dekabrında məlum oldu ki, Rusiya hökuməti, daha dəqiq desək Qafqaza yenicə Baş komandan təyin olunmuş A.P.Yermolov yalnız 30 alman ailəsinin yerləşdirilməsini təmin edə bilər: onlar Gürcüstanda məskunlaşaraq nümunəvi təsərrüfatçılıq nümayiş etdirərək Qafqaz xalqları üçün «kulturtregerlik» funksiyasını yerinə yetirməli idilər. 40 ailədən 9-u Odessa yaxınlığındakı Qrosliben koloniyasında məskunlaşmağı qərara aldılar — yerdə qalan 31 ailə yol xərclərini aldıqdan sonra Starşina Qotlib Leflerin başçılığı ilə 1817-ci ilin baharında Gürcüstana səfərlərini davam etdirdilər. Odessa — Xerson — Taqanroq - Stavropol — Mozdok marşrutu ilə hərəkət edən köçkünlər 21 sentyabr 1817-ci il tarixdə son məntəqə — Tiflisə çatdılar. 148 nəfərdən ibarət 31 alman ailəsi Tiflis şəhərindən 38 km. aralı, İori çayı sahillərində, azərbaycanlıların yaşadığı Sartiçala kəndi yaxınlığında yerləşdirildilər[122]. Beləliklə, Cənubi Qafqazda ilk alman koloniyası yarandı ki, o da çar I Aleksandrın anası, Vürtemberq şahzadəsi Mariya Fyodorovnanın şərəfinə Marinenfeld adlandırıldı. A.P.Yermolovun göstərişi və çar hökumətinin qərarlarına əsasən, hər kolonist ailəsinə 35 des. torpaq sahəsi ayrıldı. Koloniyada əkinçiliyin inkişafı nəzərdə tutulmuşdu.

Kolonist icmasına hökumət tərəfindən yardım məqsədilə 16 kotan, 35 at, həmçinin basqınlardan qorunmaq məqsədilə 31 tüfəng verildi[123]. Hökumətin yardımı kolonistlərin ehtiyaclarını tam ödəmirdi və o dövrün tanınmış şəxsləri

könüllü olaraq almanlara yardım əli uzatdılar. Məsələn, general-mayor İsmayıl xan Şəkinski kolonistlərə 30 inək, 27 dana və 200 qoyun bağışlamışdı[124]. Əsgərlərin köməyi ilə kolonistlər üçün yaşayış evlərinin tikintisi başladı. Tarixi mənbələrdən görünür ki, 1817-ci ilin payızında kolonistlərin mənzil məsələsini tam həll etmək mümkün olmadı və qışın yaxınlaşması ilə bağlı alman mühacirləri qonşu Şartiçala kəndində, yerli əhalinin mənzillərində yerləşdirildilər[125].

Kolonistlərin ərzaq məhsulları ilə təminatında da çatışmazlıqlar var idi və bu çətin vaxtda Tiflis qəzasının azərbaycanlı əhalisi Şvab köçkünlərinə yardım əlini uzatdı. Kolonistlərin birinci qrupunun Gürcüstanda məskunlaşmasından sonra Baden-Vürtemberqdə başqa bir mühacir qrupunun formalaşması prosesi başladı. Bu işdə Marbaxlı Kox qardaşları daha çox fəallıq göstərirdilər. Hələ 1817-ci ilin əvvəllərində onlar «Allah övladlarının mühacirlər birliyi» yaratmaq təşəbbüsü ilə çıxış etdilər və aprel-avqust ayları ərzində 1500 ailə onların çağırışına cavab verdi[126]. Onlar 15 qrupa bölünərək Rusiyaya yollanmağı qərara aldılar. 6 minə yaxın köçkün Reyer və Frikin rəhbərliyi ilə Vyana səhərinə gəldilər və Rusiya səfirliyinin təklif etdiyi Qalitsiya marşrutundan imtina edərək Macarıstan-Valaxiya-İzmail marşrutuna üstünlük verdilər: qənaətcil almanların fikrincə, quru marşrutuna nisbətən (Qalitsiyadan keçərək), su marşrutu (Dunay çayı vasitəsilə) daha ucuz başa gəlirdi. İzmailə çatdıqdan sonra köçkünlər Qara dənizin şimal sahilləri boyunca şərqə hərəkət edərək Qafqaza çatmalıydılar.

Özbaşına, hazırlıqsız şəkildə köçə başlayan almanlar artıq Ulm şəhərindən İzmailə çatınca müxtəlif xəstəliklər üzündən 1000 nəfər itirdilər[127]. Sağ qalanlar keyfiyyətsiz yemək, antisanitariya, həmçinin iqlimin dəyişməsi nəticəsində yaranan müxtəlif xəstəliklərdən əziyyət çəkirdilər: alman köçkünləri üçün cənubun isti iqliminə uyğunlaşmaq ən böyük problemlərdən biri idi. Yeni iqlim şəraitinə uyğunlaşmaq və miqrantların sağlamlığının möhkəmləndirilməsi məqsədilə onların İzmaildə 40 günlük karantin rejimində saxlanılması qərara alındı.

Almaniyalı tədqiqatçı M.E.Auxun araşdırmalarına görə 40 günlük karantin rejimi dövründə daha 1100 nəfər vəfat etdi[128].

Bu fakt onu göstərir ki, miqrantlar arasında epidemiya olmuşdur. Sağ qalmış köçkünlər 1817-ci ilin payızında Odessaya gətirildilər və qışı keçirmək məqsədilə yerli əhalinin mənzillərində yerləşdirildilər. Yuxarıda qeyd etdik ki, almanların qışlama məqsədilə yerli əhalinin mənzillərində yerləşdirilməsi hələ XVIII əsrin II yarısından tətbiq olunurdu və bu aksiya dövlət tərəfindən maliyyələşdirilirdi və köçkünlərin yeni Rusiya şəraitinə uyğunlaşmasını yüngülləşdirmək məqsədinə xidmət edirdi.

Odessada köçkünlər bir sıra problemlərlə üzləşdilər. Əvvəla, köçmə hərəkatı üçün mühacir icmasının topladığı vəsaitin bir hissəsi köçmə prosesinin təşkilatçıları tərəfindən oğurlanmış, bir hissəsi isə müxtəlif məqsədlərlə sərf edilmişdir. Bundan savayı, Odessada, qışlama zamanı mühacirlərin müxtəlif xəstəliklərdən ölüm hadisələri davam edirdi. Mühacirlərin vəziyyəti kritik nöqtəyə

çatmışdı. Vurğulamaq lazımdır ki, mühacirlərin bu ikinci qrupu Qafqaza köçmək haqqında heç bir rəsmi icazə almamışdı. Bu məsələnin həlli mühacirlər üçün çox vacib olduğundan Odessada qışladıqları dövrdə 3 nəfərdən — Yohann Georq Frik, Yohann Yakov Kox və Yohannes Mayerdən ibarət deputat qrupu Moskvaya yola düşdü[129]. Onların əsas məqsədi bahara qədər Vürtemberq mühacirlərinin sərbəst olaraq Cənubi Qafqazda məskunlaşmaq və onlara dövlət himayəsinin göstərilməsi hüququ ilə təmin edilməsinə nail olmaqdan ibarət idi. Bu məsələni bahara qədər həll etmək nəzərdə tutulurdu. Tiflis quberniyasının rəhbərliyinə çoxsaylı alman mühacirlərinin özbaşına Cənubi Qafqaza köçmə hərəkatı barədə məlumat çatdırılmışdı. Quberniya rəhbərliyi almanların bu regionda kütləvi məskunlaşmasının tərəfdarı deyildi. Rəsmi dairələrin fikrincə, çoxsaylı alman mühacirlərinin Cənubi Qafqazda yerləşdirilməsi gələcəkdə sosial-siyasi, mədəni-dini xarakterli problemlərin yaranmasına gətirib çıxara bilərdi. Tiflis quberniya rəhbərliyinin mövqeyi Odessada müvəqqəti saxlanılan mühacirlərə məlum idi və bu səbəbdən almanlar Odessadan Tiflisə yollanmadan öncə mərkəzi hakimiyyət orqanlarının razılığını almaq niyyətində idilər. Moskvaya gələn alman deputat qrupu hakimiyyət orqanlarında görüşlərdən sonra Cənubi Qafqazda məskunlaşmaq hüququ əldə etdilər. Bu işdə mənşəcə alman olan və çar ailəsi yanında böyük nüfuza malik olan qraf Nesselrodenin xidmətləri az olmamışdır. Qraf Nesselrode Qafqazın Baş komandanı general A.P.Yermolova 20 fevral 1818-ci il tarixdə göndərdiyi müraciətində mühacirlərin kolonist silkinə qəbul olunması və onlara Cənubi Qafqazda məskunlaşmaq hüququnun verilməsi haqqında yazırdı.

Nəzərə alaq ki, Rusiyanın hərbi xərclərinin artması və dövlət torpaq fondunun azalması ilə bağlı 1810-cu, 1816-cı illərdə Nazirlər Kabineti əcnəbi mühacirlərin dövlət büdcəsi hesabına məskunlaşdırılmasına qarşı yönələn qərarlar qəbul etmişdi. Beləliklə, deyə bilərik ki, Vürtemberq mühacirlərinə çar hökumətinin xüsusi yanaşması vardı və bu siyasət Rusiyanın Cənubi Qafqaza dair strateji planlarının həyata keçirilməsinə xidmət edirdi.

1818-ci ilin baharına Vürtemberq mühacirləri Cənubi Qafqazda məskunlaşmaq hüququ aldıqdan sonra Odessadan Tiflisə yollanmağa hazırlıq gördülər. Kolonistləri Şimali Qara dəniz sahilləri ilə, hələ mənimsənilməmiş ərazilərlə uzun, yorucu miqrasiya gözləyirdi. Köçmənin çətinliklərini nəzərə alan 300 kolonist ailəsi səfəri davam etdirməkdən imtina etdilər və Odessa yaxınlığında məhsuldar torpaqlarda məskunlaşaraq Hofnunqstal koloniyasının əsasını qoydular[130]. Sonralar bu koloniya Xerson quberniyasının tərkibinə daxil edilmişdir. Kolonistlərin Odessadan Tiflisə köçməsi ilə bağlı yarana biləcək bütün məsələləri həll etmək «Cənub diyarı əcnəbi mühacirlərə Qəyyumluq komitə»sinin sədri, general İ.N.İnzova həvalə edilmişdi. General İnzovun göstərişi ilə Cənubi Qafqaza köçmək istəyən 500 kolonist ailəsi qruplara bölünmüşdü və onların hərəkət marşrutu dəqiqləşdirilmişdi: İnzovun planına görə kolonist qrupları Xerson — Taqanroq — Stavropol — Mozdok — Tiflis marşrutunu pozmamaq şərtilə

mərhələ-mərhələ, növbə ilə şərq istiqamətində hərəkət etməliydilər. Yola düşməzdən əvvəl hər kolonist ailəsinə dövlət büdcəsindən yardım verildi[131].

1816-cı ilin oktyabrında Qafqaz ordusunun Baş komandanı təyin olunan general A.P.Yermolov Almaniyadan gələn mühacirlərin birinci qrupunun Tiflis ətrafında yerləşdirilməsində fəal iştirak etsə də, daha 500 kolonist ailəsinin Cənubi Qafqaza köçürülməsinə verilən razılığı etirazla qarşıladı[132]. Yermolovun fikrincə, 1818-ci ildə regionda hərbi-siyasi vəziyyət mürəkkəbləşmişdi və belə bir şəraitdə yeni mühacirlər qrupunun qəbul edilməsi, yerləşdirilməsi mümkün deyildi. Ancaq mühacirlər Cənubi Qafqaza köçmək planlarından əl çəkmək niyyətində deyildilər və 1818-ci ilin 11 may tarixində alman kolonistləri yenidən çar I Aleksandra müraciət etdilər. Bu müraciətnamədə almanlar çardan onların tezliklə Qafqaza yollanmasına icazə verməsini xahiş edir və çarı əmin edirdilər ki, köçürmə ilə bağlı Rusiya hökuməti üçün heç bir problem yaratmayacaq, hökumətə qarşı iddia irəli sürməyəcək, məskunlaşma yerində yaranan bütün maliyyə və sair məsələləri mühacirlərin daxili resursları hesabına həll edəcəklər[133].

Çar I Aleksandr Vürtemberq mühacirlərinin Qafqaza köçməsinə icazə verdi və məsləhət gördü ki, mühacirlər məskən salacaqları diyar haqqında qabaqcadan məlumat toplasınlar. Bu məqsədlə almanlar üç nəfərdən ibarət nümayəndə qrupu seçdilər və onlar 1818-ci ilin iyulunda Tiflisə gəldilər. İ.Barta, İ.Q.Frik və Kindlendən ibarət olan nümayəndə heyəti gələcək məskunlaşma ərazilərinə baxış keçirdilər. Kolonist nümayəndə heyətinin üzvləri iqlim və torpaq şəraiti ilə bağlı məsələlərdə ümumi rəyə gəlməsələr də, hökumət tərəfindən təklif olunan ərazilərdə — Tiflis və Yelizavetpol dairələrində məskunlaşmağı qərara aldılar[134].

Qeyd etməliyik ki, mərkəzi hakimiyyət orqanları Baden-Vürtemberq almanlarının Cənubi Qafqazda məskunlaşmasını dəstəkləsələr də, Qafqaz yerli hakimiyyət orqanları bu prosesə bir qədər soyuq yanaşırdılar. Əslində general Yermolov «əməksevər almanların» Qafqazda yerləşdirilməsinin əleyhinə deyildi. Onun fikrincə, almanların «yaxşı nümunəviliyi və təsərrüfatda əldə etdikləri xeyir yerli əhalidə onlara bənzəmək arzusu oyada bilərdi»[135]. Ancaq o, bu əhəmiyyətli, vacib işdə kortəbiiliyin, lüzumsuz tələsmənin yolverilməz olduğunu söyləyirdi. 1818-ci ildə Rusiya Cənubi Qafqazda hələ xəzinə torpaqlarına malik deyildi. Çar hökumətinin alman kolonistləri üçün ayırdığı torpaqlar Qafqazda rus işğalına qarşı çıxmış knyazlara, xanlara, bəylərə, müsəlman dini təşkilatlarına məxsus torpaqlar idi. Gülüstan sülhündən sonra sahibsiz qalan bu torpaq sahələrinin hüquqi statusu hələ aydınlaşdırılmamışdı.

Beləliklə, almanların Cənubi Qafqaza köçürülməsi məsələsi Sankt-Peterburq, Odessa, Tiflis üçbucağında bir neçə ay müzakirə olundu. Son qərarı Qafqaz yerli hakimiyyət orqanları verməli idi və qərar qəbul edilincə, alman mühacirləri 1818-ci ilin avqustunda Odessadan Cənubi Qafqaza doğru hərəkətə başladılar. Sentyabrda mühacirlər Mozdoka çatdılar və Qafqaz inzibati orqanlarının səylərinə baxmayaraq, onların hərəkətini dayandırmaq mümkün

olmadı — 1818-ci ilin sentyabrın sonunda mühacirlərin böyük hissəsi Tiflisə gəldi. Yuxarıda qeyd etmişdik ki, Odessadan almanlar kolon şəklində yola düşmüşdülər: hərəsi 50 ailədən ibarət olan 10 kolonun Tiflisə çatması 1818-ci il noyabrın sonlarında başa çatdı. Bəzi mənbələrə görə 500 ailədən yalnız 486-sı Tiflisə sağ-salamat gələ bilmişdi[136]. Almanların Cənubi Qafqaza köçməsini şərtləndirən amillərlə bağlı mühacirlərin sosial tərkibi müxtəlifliyi ilə xarakterizə olunurdu: onların arasında kəndlilərə, sənətkarlara, təxris olunmuş hərbçilərə, Napoleon ordusunda xidmət edənlərə, fərarilərə və sair kateqoriyadan olan şəxslərə rast gəlmək olardı.

30 kolonist ailəsi Tiflisdə qalmağı qərara aldı və şəhər yaxınlığında Noy-Tiflis (Yeni Tiflis) koloniyasının əsasını qoydular. Başqa cür bu koloniya çar I Aleksandrın qardaşı Mixail Pavloviçin şərəfinə Mixaelsdorf kimi də adlandırılırdı. Yeva-Mariya Auxun tədqiqatlarına görə burada 30 deyil, 60 alman sənətkar ailəsi məskunlaşmışdı[137]. Məşğuliyyət xüsusiyyətlərini nəzərə alaraq, yerli hakimiyyət orqanları hər sənətkar ailəsinə yaşayış evi və həyətyanı təsərrüfat üçün 1 des. torpaq sahəsi ayırdı. Getdikcə böyüyən şəhər koloniyaya yaxınlaşaraq onu öz tərkibinə qatdı və XIX əsrin ortalarında Mixaelsdorf koloniyası Tiflisin Mixaylovsk prospektinə çevrildi.

Qalan mühacirlər Kür çayının sol sahilində iki koloniyanın əsasını qoydular: Aleksanderdorf və Yekaterinenfeld. Birinci koloniya çar I Aleksandrın, ikinci isə I Aleksandrın vəfat etmiş bacısı, Vürtemberq kraliçası, kral I Fridrix Vilhelmin həyat yoldaşı Yekaterina Pavlovnanın şərəfinə adlandırılmışdılar. 19 noyabr 1818-ci il tarixində yaranan daha bir koloniya çar I Aleksandrın bacısı Yelizavetanın şərəfinə Yelizavettal, Aşureti çayı yaxınlığında əsası qoyulan koloniya isə çar I Pyotrun xatirəsinə Petersdorf adlandırıldı.

Gördüyümüz kimi, Qərbi və Cənubi Ukrayna, Volqaboyu, Şimali Qafqaz və sair regionlarda olduğu kimi, Gürcüstanda da alman koloniyaları rus imperator sülaləsinin üzvlərinin şərəfinə adlandırılırdı və qeyd edək ki, heç də həmişə bu ənənə kolonistlərin həqiqi istəklərinə uyğun gəlmirdi. Rusiya rəsmi dairələrinin fikrincə, ölkədə yaranan əcnəbi koloniyaları ya Romanovlar sülaləsinin üzvlərinin adlarını daşımalı, ya da bu koloniyaların adlarında rus xalqının 1812-ci ilin Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq əbədiləşməli idi.

Beləliklə, 1818-ci ilin payızında Tiflis ətrafında aşağıdakı 6 alman koloniyası fəaliyyət göstərirdi və onlar coğrafi lokallaşma, təsərrüfat vərdişləri, düşdükləri etno-demoqrafik mühitə görə bir-birindən fərqlənirdilər:

1) Marinenfeld koloniyası — 1817-ci ildə Tiflis şəhərindən 38 km aralıda, azərbaycanlıların yaşadığı Sartiçala kəndi yaxınlığında salınmışdır. Əhalisi 148 nəfər idi. Əsas məşğuliyyətləri əkinçilik olmuşdur;

2) Noy — Tiflis koloniyası — 1818-ci ildə yaranmışdır, Tiflisdən 3 km aralıda yerləşirdi. Koloniyada 200 nəfər yaşayırdı və hamısı sənətkarlıqla məşğul idilər;

3) Katerinenfeld koloniyası — 1818-ci ildə azərbaycanlıların kompakt şəkildə yaşadığı Borçalıda yaranmışdı. Koloniyada 350 nəfər yaşayırdı və əsas məşğuliyyətləri əkinçilik idi;

4) Yelizavettal koloniyası - 1818-ci ildə Somxitidən 38 km aralı, Alqeti çayı yaxınlığında, gürcülərin kompakt yaşadığı bir ərazidə yaranmışdır. Əhalisi 307 nəfər idi və əsasən əkinçiliklə məşğul olurdular;

5) Aleksandersdorf koloniyası — 1818-ci ildə Tiflisdən təqribən 10 km şimalda, Diduba rayonunda yaranmışdır. Bu koloniya da azərbaycanlıların qonşuluğunda yaranmışdı və əhalisi cəmisi 98 nəfər idi. Əsasən, əkinçiliklə məşğul olurdular;

6) Petersdorf koloniyası — 1818-ci ildə Tiflisdən təqribən 15 km aralıda salınmışdır və burada cəmi 17 ailə məskunlaşmışdı. Qonşuları gürcü əhalisi kimi onlar da əkinçiliklə məşğul olurdular.

Hökumət dairələrində alman kolonistlərinə böyük ümidlər bəslənirdi. Belə ki, onlar məskunlaşdıqları ərazilərdə yeni təsərrüfatçılıq metodları tətbiq edərək, «qabaqcıl» Avropa mədəniyyəti gətirərək «kulturtregerlik» missiyasını yerinə yetirməli idilər. Buna görə də çar hökuməti mühacirlərin yeni ərazilərdə yerləşməsi məqsədilə o dövrün ölçülərinə görə çox böyük maliyyə vəsaiti ayırmışdı. Arxiv sənədlərindən gorünür ki, Cənubi Qafqaz almanlarının təmin edilməsi üçün dövlət xəzinəsindən 697,428 rubl gümüş pul xərclənmişdi[138]. Mühacirlərin Baden-Vürtemberqdən tutmuş Tiflisə qədər uzun miqrasiya prosesində bütün xərclər Rusiya hökuməti tərəfindən maliyyələşdirilmişdi. Qeyd etməliyik ki, mühacirlərə xərclənən pul vəsaiti ciddi şəkildə hesaba alınırdı və gələcəkdə kolonistlər mərhələ-mərhələ onlara çəkilən xərcləri xəzinəyə ödəməli idilər.

1818-ci ilin payızı Cənubi Qafqaza gələn kolonistlərin hamısı Gürcüstanda məskunlaşmağı planlaşdırırdılar. Boş torpaq sahələrinin qıtlığı səbəbindən mühacirlərin sonuncu kolonlarını Tiflis ətrafında yerləşdirmək mümkün olmadı və onlara Azərbaycan ərazisində Yelizavetpol şəhəri ətrafında məskən salmaq təklif olundu. Azərbaycanda məskunlaşan alman kolonistlərinin xatirələrindən görünür ki, onları Yelizavetpol ətrafına istəklərinə zidd olaraq silahlı kazak dəstələrinin müşayiəti ilə gətirmişlər[139]. Yuxarıda qeyd etmişdik ki, Cənubi Qafqaza köçməmişdən öncə kolonistlərin göndərdikləri nümayəndə heyəti məskunlaşma əraziləri ilə tanış olmuş, almanların bu ərazilərə köçürülməsinə razılıq vermişdilər. Fikrimizcə, mühacirlərin Yelizavetpola köçməkdə tərəddüd etmələrinin səbəbini onların hər hansı bir regionda kompakt şəkildə məskunlaşmaq arzusu ilə izah edə bilərik. Bu hal alman kolonistlərinin Volın, Novorossiya, Volqaboyu və sair yerlərdə məskunlaşması zamanı da müşahidə olunmuşdu. Almanlar yaxşı başa düşürdülər ki, kompakt məskunlaşma onların assimilyasiya proseslərindən qorunmasının əsas şərtlərindən biridir. Mühacirlərin Yelizavetpol ətrafına köçürülməsi zamanı onların silahlı kazak dəstələri tərəfindən müşayiət olunması məskunlaşmanın məcburi xarakter daşımasına sübut deyil. Qeyd etdiyimiz kimi,

1818-ci ildə Şimali Azərbaycanın böyük bir hissəsi Rusiya imperiyasına qatılsa da, faktiki olaraq çar hökuməti bu əraziləri hələ tam nəzarətə ala bilməmişdi. Gürcüstandan fərqli olaraq, Azərbaycanda almanlara ayrılan torpaq sahələri yerli torpaq sahiblərindən müsadirə edilmişdi və bu torpaqların hüquqi statusunda boşluq yaranmışdı. Bu torpaqlarda məskunlaşan mühacirlər, çar hökumət dairələrinin fikrincə, müəyyən problemlərlə üzləşə bilərdilər və bu səbəbdən onların hərbi müdafiəsi təşkil edilmişdi.

1818-ci ilin sonlarına 209 alman ailəsinin Yelizavetpol dairəsində, Şamxor çayı ətrafı ərazilərdə məskunlaşması nəzərdə tutulmuşdu. Qışın düşməsi ilə kolonistlərin müvəqqəti qazma evlərdə, çadırlarda yaşaması mümkün olmadı və alman ailələri təcili şəkildə Yelizavetpol şəhəri və onun ətraf kəndlərində yaşayan azərbaycanlı ailələrində yerləşdirildilər. Qeyd etmək yerinə düşərdi ki, o vaxt rəsmi sənədlərdə «tatar» kimi adlandırılan azərbaycanlı əhalisi alman mühacirlərini 3 aya yaxın bir müddət ərzində öz evlərində saxladılar. Bu birgə yaşayış almanların sosial-mədəni uyğunlaşmasına müsbət təsir göstərdi, azərbaycanlılarla almanlar arasında dostluq münasibətlərinin təməlini qoydu. 1819-cu ilin baharında alman kolonistləri yerli əhalinin evlərini tərk etdilər və kazak dəstələrinin nəzarəti altında Gəncə çayının sağ sahilində Yelenendorf koloniyasının əsasını qoydular. Çar I Aleksandrın bacısı Yelena Pavlovnanın şərəfinə adlandırılan bu koloniya Yelizavetpol şəhərindən 7 verst aralıqda, keçmiş Xanlıqlar kəndinin ərazisində yerləşirdi. Bu koloniyada 127 alman ailəsi məskunlaşmışdı və onlara 2600 des. torpaq sahəsi ayrılmışdı[140]. Azərbaycana gətirilmiş mühacirlərin qalan hissəsi Şəmkir ərazisində, Yelizavetpoldan 25 verst, Tiflisdən 155 verstlik məsafədə yerləşdilər və koloniya Niderland kraliçası, çar I Aleksandrın bacısı Anna Pavlovanın şərəfinə Annenfeld adlandırıldı. Annenfelddə məskunlaşan alman ailələrinin sayı barədə müxtəlif fikirlər söylənilmişdir: bəzi tədqiqatçılar burada 67, başqaları isə 90-na yaxın ailənin məskunlaşdığını göstərirlər[141]. Hesab etmək olar ki, bu o qədər də prinsipial əhəmiyyət kəsb edən məsələ deyil — arxiv sənədlərinə əsaslanaraq deyə bilərik ki, Annenfeld koloniyasında 84 alman ailəsi məskunlaşmışdı. Gürcüstan və Azərbaycan ərazilərində alman mühacirlərinin yerləşdirilməsi müxtəlif xristian missionerlərinin fəaliyyəti üçün geniş imkanlar açırdı. Əsasən protestantizmə mənsub olan əcnəbi xristian missionerlərin Qafqazda fəaliyyət göstərməsi bu regionda müstəmləkəçilik və qeyri-xristian xalqların xristianlaşdırılması siyasəti yeridən çar Rusiyasının geosiyasi maraqlarına cavab verirdi.

Roma katolik kilsəsi ilə Rus pravoslav kilsəsi arasında yaşanan ideoloji mübarizə Rusiyada katoliklərin təqib olunması ilə nəticələndi və XVIII əsrin sonlarında Baltikyanı ərazilərdə yaşayan alman-katoliklərin bir qismi Gürcüstanda sığınacaq tapdılar. Gürcüstanda XIX əsrdə məskunlaşan almanlar isə əsasən, protestantizmin adeptləri olduğundan onlarla alman-katoliklər arasında dini zəmində ixtilaflar baş verirdi.[142]. Katolik kilsəsinə nisbətən çar hökuməti

protestantizmə loyal münasibət bəsləyirdi və hətta protestant missionerlərin Rusiyada fəaliyyətinə həm maddi, həm də mənəvi dəstək verirdi.

Yuxarıda qeyd etdiyimiz kimi, ilk missionerlər qrupu Rusiyaya 1802-ci ildə Şotlandiyadan gəlmişdi və Volqaboyundan Şimali Qafqaza köçən 20 alman ailəsi ilə birlikdə müasir Pyatiqorsk yaxınlığında Karras və yaxud Şotland koloniyasının əsasını qoymuşdular[143]. Ancaq bu koloniya uzun müddət mövcud ola bilmədi. Şotlandiyalı missionerlərlə alman reformatorları arasında dini zəmində baş verən münaqişələrin nəticəsi kimi koloniya 1816-cı ildə ləğv olundu və əhalisi Şimali Qafqazın müxtəlif şəhərlərində yerləşdi. Vurğulamaq lazımdır ki, Şotland koloniyasının ləğv edilməsində dağlı xalqlarının əcnəbilərin məskunlaşmasına və xristian missionerliyinə qarşı apardığı mübarizənin də təsiri olmuşdur.

Sonralar, 1820-ci ildə Rusiya rəsmi hökumət orqanlarının icazəsi ilə Sankt-Peterburqa İsveçrə Bazel cəmiyyətinin missionerləri gəldilər. Çar hökuməti tərəfindən onlar qarşısında Rusiyanın bütpərəst, yəhudi, müsəlman xalqları, o cümlədən ənənəvi protestantizmin doqmalarını qəbul etməyən protestant-sektantlar arasında yevangelizmin yayılması vəzifəsi qoyulmuşdu. 1821-ci ilin oktyabrında Bazel missionerlərindən 5 nəfərlik nümayəndə heyəti Cənubi Qafqaza göndərildi. Onların hamısı alman mənşəli idi və Bazel yevangelizm cəmiyyətinin tapşırığını yerinə yetirərək Qara və Xəzər dənizləri arasındakı ərazilərdə məskunlaşmalı və yerli xalqlar arasında protestantizmin təbliği ilə məşğul olmalı idilər[144].

Sankt-Peterburqdan başlayaraq missionerlər bir sıra şəhərlərdə yolüstü təbliğat kampaniyası keçirərək 1822-ci ildə Azərbaycana çatdılar və Qarabağda, Şuşa şəhərində məskən saldılar. Burada onlar dini kitabların erməni dilinə tərcüməsi ilə məşğul olur, erməni əhalisi arasında protestantizm təliminin təbliği ilə məşğul olurdular.

Bazel missionerləri Şuşada 13 il fəaliyyət göstərsələr də çar hökumətinin onlar qarşısında qoyduğu vəzifələrin heç birini yerinə yetirə bilmədilər: fəaliyyət dövründə missionerlər istər koloniya yaratmaqda, istərsə də əhali arasında yevangelizmin yayılmasında müsbət nəticə əldə etmədilər. Əcnəbi missionerliyin faydasızlığını və bəzən də nüssionerlərin çar hökumətinin siyasətinə zidd olaraq pravoslav əhali arasında protestantizm yaydığını nəzərə alaraq 1835-ci ildə çar I Nikolayın fərmanı ilə Rusiyada əcnəbi nüssionerlər təşkilatlarının fəaliyyətinə qadağa qoyuldu. Bu fərmandan sonra Bazel missionerləri Cənubi Qafqazı tərk etməli oldular.

Cənubi Qafqaza almanların köçürülməsinə növbəti cəhd 1842-ci ildə edildi. Həmin il Tavriya quberniyasından Kaspi vilayətinə 70 alman kolonisti gətirildi. Əvvəlcə, onlara Mərəzə yaxınlığında məskunlaşmaq təklif olundu. Yarımsəhra ərazidə məskunlaşmaqdan imtina edən almanlara başqa ərazi Şamaxı yaxınlığında Pirsaat çayı boyunca ərazilər təklif olundu. Yerli iqlim şəraitinə uyğunlaşa bilməyən alman kolonistləri onların köhnə yaşayış yerlərinə — Tavriya

quberniyasına qaytarılmasını xahiş etdilər. Hökumət dairələri onların xahişini yerinə yetirdi[145].

Beləliklə, XIX əsrin I yarısında Gürcüstanda, o cümlədən bütün Cənubi Qafqazda alman məskənləri meydana gəldi və onların hamısı Şimali Qafqazdan fərqli olaraq, xarici məskunlaşma prosesinin nəticəsi idi. Yaranan koloniyaların sayı barədə tarixi ədəbiyyatda ziddiyyətli rəqəmlərə rast gəlinir. Məsələn, XIX əsrdə yaşamış rus müəllifi Basixin qeyd edir ki, artıq 1818-ci ildə Cənubi Qafqazda 9 alman koloniyası mövcud idi[146]. Bu rəqəm həqiqəti əks etdirmir, çünki 1818-ci ildə almanların Cənubi Qafqaza mühacirəti hələ başlanğıc mərhələsində idi. Tarixi ədəbiyyatı və arxiv mənbələrini təhlil etdikdən sonra belə nəticəyə gələ bilərik ki, XIX əsrin I yarısında Cənubi Qafqazda 8 alman koloniyası yaranmışdı: onlardan 6 koloniya müasir Gürcüstan, 2-si isə Azərbaycan ərazisində yerləşirdi[14] . Cənubi Qafqazda yaranan alman koloniyaları haqqında hərtərəfli məlumat aşağıdakı cədvəldə əks olunmuşdur.

***Cədvəl 1. Cənubi Qafqazda alman koloniyaları 1817—1819-cu illərdə***

| № | Koloniyaların adı | Yaranma tarixi | Yarandığı yer | Yaranma vaxtı əhalisinin sayı | Əsas məşğuliyyəti |
|---|---|---|---|---|---|
| 1 | Marinenfeld | 1817 | Müasir Gürcüstan | 148 | Əkinçilik |
| 2 | Noy-Tiflis | 1818 | Müasir Gürcüstan | 200 | Sənətkarlıq |
| 3 | Katerinenfeld | 1818 | Müasir Gürcüstan | 350 | Əkinçilik |
| 4 | Yelizavettal | 1818 | Müasir Gürcüstan | 307 | Əkinçilik |
| 5 | Aleksandersdorf | 1818 | Müasir Gürcüstan | 99 | Əkinçilik |
| 6 | Petersdorf | 1818 | Müasir Gürcüstan | 60 | Əkinçilik |
| 7 | Yelenendorf | 1819 | Müasir Azərbaycan | 600 | Üzümçülük |
| 8 | Annenfeld | 1819 | Müasir Azərbaycan | 501 | Üzümçülük<br>Əkinçilik |

Beləliklə, Cənubi Qafqazda yaranan koloniyaların coğrafi lokallaşma xüsusiyyətlərinə əsaslanaraq deyə bilərik ki, regionda alman məskunlaşmasının iki mərkəzi vardı: ilk 6 koloniya bilavasitə Tiflis şəhəri ətrafında cəmləşmişdilər və onlar gələcəkdə Gürcüstan ərazisində yaranan yeni koloniyalar üçün «ana koloniya» rolunu oynayırdılar.

Sonuncu iki koloniya — Yelenendorf və Annenfeld həmvətənlərinin kompakt yaşadıqları Gürcüstandan uzaqda, tamamilə fərqli coğrafi, etnik və konfessional mühitdə yaranmışdılar.

Təkcə Cənubi Qafqazda deyil, ümumiyyətlə, bütün Rusiyada alman koloniyalarına xas olan xüsusiyyətlərindən biri onların əhalisinin azlığı olmuşdur:

orta hesabla, alman koloniyalarında 100 nəfərdən 300 nəfərədək əhali yaşayırdı. Gürcüstanda yaranan 6 koloniyadan əhalisinə görə ən irisi Katerinenfeld (350 nəfər) və Yelizavettal (307 nəfər) idi. Azərbaycanda yaranan iki koloniyada birlikdə 1100 nəfər yaşayırdı ki, bu da Yelenendorf və Annenfeldin, nəinki Qafqazda, o cümlədən Rusiyada ən iri koloniyalardan olduğuna sübutdur. Gürcüstanda yaranan 6 koloniyada ümumilikdə 1165 nəfər məskən salmışdı ki, onların 715 nəfəri Tiflis quberniyasında, 450 nəfəri Borçalı distansiyasında yaşayırdılar[148].

1819-1820-ci illərdə Cənubi Qafqazda ümumilikdə 2265 alman kolonisti məskunlaşmışdı ki, onların yarıdan çoxu azərbaycanlıların məskunlaşdığı ərazilərdə yerləşdirilmişdilər.

XIX əsrin 30-cu illərində Cənubi Qafqazın bəzi koloniyalarında əhalinin sayının nəzərəçarpacaq dərəcədə azalması müşahidə olunmuşdu. Mənbələrdən görünür ki, 1836-cı ildə Annenfelddə cəmi 185 kolonist yaşayırdı, baxmayaraq ki, 1819-cu ildə burada 501 kolonist məskunlaşmışdı. Yelenendorfda əhalinin sayı faciəli şəkildə azalmışdı: 1819-cu ildə 600 nəfərin məskunlaşdığı koloniyada 1832-ci ildə cəmi 301 nəfər qalmışdı. Beləliklə, məskunlaşmanın başlanğıc dövründə Azərbaycanda 1101 kolonist yaşayırdısa, 1836-cı ildə bu rəqəm 686-ya qədər azalmışdı[149]. Azərbaycanın alman koloniyalarında əhalinin azalmasının əsas səbəbləri kimi II rus-iran və II rus-türk müharibələri zamanı koloniyaların yerləşdiyi ərazilərdə hərbi əməliyyatların aparılmasını, yeni iqlim şəraitinin yaratdığı çətinlikləri, müxtəlif epidemiyaları, xəstəlikləri və bütün bunların nəticəsində kolonistlərin qismən öz koloniyalarını tərk edib Gürcüstana köçmələrini göstərə bilərik.

Ümumilikdə götürdükdə, 1819-cu ildən 1836-cı ilə qədər Cənubi Qafqazın alman əhalisinin sayı əhəmiyyətli dərəcədə olmasa da, artmışdı: əgər 1819-cu ildə regionda 2265 alman kolonisti yaşayırdısa, 1836-cı ildə onların sayı 2650-ə çatmışdı[150]. Alman əhalisinin sayının artması Gürcüstandakı koloniyaların hesabına təmin edilmişdi.

Əcnəbi koloniyalar xüsusi idarəetmə sisteminə malik idi və onların quberniya hökumət orqanlarına tabeçiliyi formal xarakter daşıyırdı.

Qeyd etdiyimiz kimi, əcnəbi koloniyaların idarə edilməsi sistemində nizam-intizam yaratmaq məqsədilə hələ 1763-cü ildə «Əcnəbilərə Qəyyumluq Dəftərxanası» yaradılmışdı. Bu Dəftərxananın fəaliyyət dairəsi, vəzifələri II Yekaterina tərəfindən 22 iyul 1763-cü il tarixində imzalanan fərmanla müəyyənləşdirilmişdi[151]. Rusiya ərazisində alman məskunlaşmasının coğrafi arealı genişləndikcə, əcnəbi koloniyaların idarəetmə sistemində də əhəmiyyətli dəyişikliklər baş verdi və idarəetmə sistemində şaxələnmələr yarandı ki, bu da müəyyən mürəkkəbləşmələrə, anlaşılmazlıqlara gətirib çıxardı. Əcnəbi koloniyaların idarəetmə sistemində baş verən bütün mürəkkəb şaxələnmələri aydın

təsəvvür etmək üçün xronoloji cəhətdən bu sistemdə baş verən dəyişikliklərin ümumi mənzərəsinə nəzər salmaq məqsədə uyğun olardı:

— 1763-1775-ci illər koloniyalar «Əcnəbilərə Qəyyumluq Dəftərxanası» tərəfindən idarə edilirdilər;

— 1775-1781-ci illər - «Əcnəbilərə Qəyyumluq Dəftərxanası»nı yerlərdə yaradılan qəyyumluq kontorları əvəz etdi. Rusiyada iki qəyyumluq kontoru fəaliyyət göstərirdi: Saratov və Yekatirinoslav (indiki Dnepropetrovski, Ukrayna) kontorları;

— 1781—1797-ci illərdə əcnəbi koloniyaların idarəedilməsində desentralizasiya baş verdi və koloniyaların idarəedilməsi yerlərdə fəaliyyət göstərən «evdarlıq direktorları»na tapşırıldı;

— 1797—1802-ci illərdə əcnəbi koloniyalar Dövlət təsərrüfatı, əcnəbilərə qəyyumluq və kənd evdarlığı üzrə Ekspedisiyaya tabe edildilər (1800-cü ildə bu Ekspedisiyanın tərkibində Novorossiya kolonistlərinə Xüsusi Qəyyumluq kontoru yaradılmışdı);

— 1802-ci ildən Dövlət təsərrüfatı, əcnəbilərə qəyyumluq və kənd evdarlığı üzrə Ekspedisiya Rusiyanın Daxili İşlər Nazirliyinə tabe etdirildi;

— 1818-ci ildən əcnəbi koloniyaların idarəedilməsi Qəyyumluq komitələrinə həvalə edildi və bu komitələr ayrı-ayrı kontorlara bölünürdülər.

Qeyd edək ki, imperiyada mövcud olan bütün əcnəbi koloniyalar Dövlət təsərrüfat Ekspedisiyasına, 1837-ci ildən isə Dövlət Əmlak Nazirliyinə tabe olsalar da, yerli idarəetmə sistemlərində nəzərəçarpacaq dərəcədə fərqlər vardı və bu fərqlər regional xüsusiyyətlərdən irəli gəlirdi. Məsələn, cənub regionların koloniyaları «Cənub diyarının əcnəbi koloniyalarına Qəyyumluq komitəsi» tərəfindən, «Volqaboyu regionun koloniyaları» isə Saratov əcnəbilərə qəyyumluq kontoru tərəfindən idarə olunurdular. Şimali Qafqazın ayrı-ayrı quberniyalarında yerləşən əcnəbi koloniyalar Dövlət Əmlak Palatasının öhdəsində idi.

Gürcüstana, ümumilikdə Cənubi Qafqaza gəldikdə, burada mövcud olan əcnəbi koloniyaların idarəedilməsi sistemi bir sıra regional xüsusiyyətlərə malik idi.

Yarandığı vaxtdan 1837-ci ilə qədər Cənubi Qafqazın alman koloniyaları Gürcüstan mülki qubernatorluğu nəzdində yaradılan Xüsusi kontor tərəfindən idarə olunmuşdur. 1837-ci ildə Dövlət Əmlak Gürcü-İmeretiya Palatası yaradıldıqdan sonra Xüsusi kontor onun tərkibinə qatıldı. 1849-cu ildə bütün Rusiya üzrə əcnəbi koloniyaların idarəedilməsi Dövlət Əmlak Ekspedisiyasına həvalə edildi. Bu Ekspedisiyalardan biri də Qafqaz canişininin Baş idarəsi nəzdində yaradılmışdı. 1859-cu ildə Ekspedisiya Dövlət Əmlak Departamenti ilə əvəz olundu: kənd təsərrüfatı və əcnəbi koloniyaların idarəedilməsi ilə adı çəkilən Departamentdə Xüsusi idarə yaradıldı. Bu orqan qısa müddət ərzində - 1860-cı ildən 1863-cü islədək fəaliyyət göstərdi və özünü doğrultmadığından ləğv edildi. 1864-cü ildə ləğv olunmuş Xüsusi idarənin səlahiyyətləri yenə Dövlət Əmlak Departamentinə

qaytarıldı. Departamentdə əcnəbi koloniyaların işləri ilə məşğul olmaq üçün yeni vəzifə—Xüsusi nəzarətçi vəzifəsi təsis edildi. Onun ilk vəzifəsi—koloniyalar üzərində nəzarəti həyata keçirməkdən ibarət idi.

1871-ci ildə çar II Aleksandrın fərmanı ilə əcnəbi koloniyaların idarəedilməsində islahatlar keçirildi. Həmin ilin 04 iyun tarixində Ali Senatın qəbul etdiyi qərarda deyilirdi: «Sankt-Peterburq, Novqorod, Samara, Saratov, Voronej, Çerniqov, Poltava, Yekaterinoslav, Xerson, Tavriya quberniyalarında və Bessarabiya vilayətində xəzinə torpaqlarında məskunlaşdırılan, Dövlət Əmlak Nazirliyinin tabeçiliyində olan, həmçinin onun tabeçiliyindən çıxarılan, Saratov quberniyasının Sarepta koloniyasının Yevangelistlər cəmiyyəti istisna olmaqla, bütün sahibkar kəndlilər (keçmiş kolonistlər) ümumi quberniya və qəza, həmçinin kəndli məsələləri üzrə yerli orqanlara tabe edilirlər»[152].

Beləliklə, 1871-ci ildə yuxarıda adı çəkilən quberniyalarda alman koloniyalarına hələ II Yekaterina tərəfindən bəxş edilən yerli özünüidarə hüququ ləğv edildi. Koloniyalar Ümumrusiya bürokratiyasının rəhbərliyinə keçdilər və müvafiq olaraq kargüzarlıq rus dilində aparılmağa başlandı ki, bu da alman kolonistlərinə xas olan milli xüsusiyyətlərin silinməsinə xidmət edirdi.

Bütün bu dəyişikliklər hələ Cənubi Qafqaz almanlarına aid edilməmişdi: 1874-cü ilə qədər burada əcnəbi koloniyaların məsələləri ilə Xüsusi nəzarətçi məşğul olurdu. Həmin il Xüsusi nəzarətçi vəzifəsi ləğv edildi və kolonistlərə sahibkar kəndli statusu verildi. Beləliklə, yuxarıda adı çəkilən 04 iyun 1871-ci il fərmanının müddəaları artıq Cənubi Qafqaz kolonistlərinə də aid edildi və onlar ümumikəndli məsələləri üzrə quberniya və qəza orqanlarının tabeliyinə keçdilər. Qafqaz canişinliyinin mülki idarələrində aparılan ümumi dəyişikliklərdən sonra, 1883-cü ildə Cənubi Qafqaz koloniyalarının idarəedilmə sistemində növbəti dəyişiklik baş verdi və koloniyalar Dövlət Əmlak Nazirliyinin yerli idarələrinə tabe etdirildilər[153].

Cənubi Qafqazın alman koloniyalarının idarəetmə sistemində son islahat 1903-cü ildə keçirildi və koloniyalar əvvəlki dövrlərdə olduğu kimi, kəndli məsələləri üzrə ümumi və qəza, həmçinin yerli orqanlara tabe etdirildilər[154]. Gördüyümüz kimi, Rusiyada alman koloniyalarının idarəedilməsi sistemi dəfələrlə dəyişikliklərə məruz qalmışdı. Bu dəyişikliklər çox hallarda əsassız yerə aparılırdı və əcnəbi koloniyaların azad inkişafı üçün müxtəlif bürokratik əngəllərin yaranmasına gətirib çıxarırdı.

Bu əcnəbi koloniyaların dövlət tərəfindən idarəsində yaranan problemlər idi. Koloniyaların özünüidarə sisteminə gəldikdə burada da vəziyyət oxşar xarakter daşıyırdı. Senat 1797, 1800-1805, 1812, 1817, 1833-1849-cu illərdə və ondan sonrakı dövrlərdə kolonistin statusu, koloniyalarda daxili özünüidarə sisteminə aid müxtəlif qanunlar qəbul etmişdi. Müzakirə olunan məsələ ilə bağlı dövlət qanun aktlarının çoxluğu koloniyalarda daxili özünüidarə sisteminin optimal fəaliyyətinə maneçilik törədirdi. Buna görə 1857-ci ildə əcnəbi koloniyaların daxili həyat

fəaliyyətini tənzimləyən qanunlar toplusu qəbul edildi və Rusiya imperiyasında yaşayan əcnəbi koloniyalar haqqında Nizamnamə təsdiq edildi[155]. Bu sənəddə xırda incəliklərinə qədər kolonistlərin hüquq və vəzifələri göstərilmiş, onların koloniyadaxili həyatına aid məhdudiyyətlər və qaydalar təyin edilmişdir. Bu Nizamnamə — koloniyaların daxili özünüidarə sistemini əks etdirən model rolunu oynayırdı və demək olar ki, Rusiyada mövcud olan bütün əcnəbi koloniyalara aid edilirdi.

Qeyd edək ki, koloniyaların hökumət tərəfindən idarəedilməsi sistemindən, yəni xarici idarəetmədən fərqli olaraq, koloniyadaxili idarəetmədə əsaslı dəyişikliklər baş verməmişdi.

Alman mühacirləri ənənəvi olaraq kənd yerlərində kompakt şəkildə məskunlaşaraq koloniya yaradırdılar. Bu koloniyalar yerli xalqların əhatəsində adda-budda yerlərdə yaransalar da lokal kompaktlıq saxlanılırdı. Şəhərdə isə almanlar dispersiya şəklində yaşayırdılar. Yerli özünüidarəetmə sistemində əsas subyekt kənd icması idi ki, bir qayda olaraq əsas ərazi vahidi olan koloniya ilə üst-üstə düşürdü. Kənd icması «həyətyanı təsərrüfat-koloniya» sxemi üzrə formalaşırdı.

Hələ 22 iyul 1763-cü ildə II Yekaterina tərəfindən imzalanmış fərmanda alman kolonistlərinə daxili özünüidarə azadlığı verilmişdi. Qafqazda mövcud olan əcnəbi koloniyalar da yaranma tarixindən asılı olmayaraq, bu hüquqdan istifadə edərək öz daxili idarəetmə sistemini yaratmışdılar. Bu sistemə görə koloniyada dəqiq səlahiyyət bölgüsü mövcud idi və qərarların qəbulunda hər hansı bir tərəfin özbaşınalığı istisna olunurdu. Başqa sözlə desək, alman koloniyalarının idarəetmə sistemi demokratik prinsiplərə əsaslanırdı və müxtəlif hakimiyyət subyektləri arasında balanslaşma gözlənilirdi.

Koloniyalarda daxili idarəetmə orqanları yerinə yetirdikləri funksiyalara uyğun olaraq 3 yerə bölünürdülər:[156]

1) kənd (icma) ümumi iclası;
2) kənd (koloniya) prikazı;
3) koloniya starostası (starşinası).

Kənd (koloniya) iclası bütün koloniyada mövcud olan fərdi təsərrüfat nümayəndələrinin iştirakı ilə keçirilirdi və hər fərdi kolonist təsərrüfatından ən azı 1 nümayəndə iclasda iştirak etməli idi. İcma iclası yalnız ən mühüm məsələlərin həlli üçün çağırılırdı: kənd prikazlarının, şultsun seçilməsi və təsdiq olunması, koloniya üzvlərinin başqa silkə keçməsi, vergi və mükəlləfiyyətlərin ödənilməsi, koloniyada ictimai, siyasi, mədəni tədbirlərin keçirilməsi, daxili yaşayış qaydalarını ciddi şəkildə pozanların koloniya icmasından xaric edilib-edilməməsi və sair vacib məsələlər müzakirə olunur və müvafiq qərarlar qəbul edilirdi.

Gündəlik idarəetməni həyata keçirmək üçün icma iclasında koloniyanın şultsu (starostası), onun 2 müavini (beizitser) seçilirdi. İki il müddətinə seçilən şults və beizitserlər koloniya büdcəsindən maliyyələşdirilirdilər.[157] Şults

koloniyada inzibati-icra hakimiyyətini təmsil edirdi və onun səlahiyyətinə aşağıdakı məsələlərin həlli aid idi: vergi və mükəlləfiyyətlərin vaxtlı-vaxtında yerinə yetirilməsi, koloniyada əmin-amanlığın, asayişin qorunmasına nəzarət etmək, əhalinin sağlamlığının qorunması, onun müxtəlif epidemiyalar və xəstəliklərə yoluxmasının qarşısını almaq, ehtiyacı olan kolonist ailələrinə, əlillərə, yetimlərə, kimsəsiz qocalara yardımı təşkil etmək, koloniyada əxlaq normalarının pozulmasının qarşısını almaq, ticarət obyektlərinin, ictimai qurumların fəaliyyətinə nəzarət etmək, koloniyanın memarlıq nöqteyi-nəzərdən abadlaşmasına diqqət yetirmək, ümumiyyətlə, koloniyanın daxili həyatına aid bütün məsələlərin həlli şultsun vəzifə səlahiyyətinə aid idi.

Şults, həmçinin kolonistlərin həyat tərzinə də müdaxilə edir, tənbəllik edən, təmtəraqlı həyat sürən, maliyyə vəsaitini yararsız işlərə sərf edən, xarici görünüşündə qəbul edilmiş normaları pozan, əyyaşlığa meyil edən kolonistlərlə iş aparır, onları düzgün yola qaytarmaq üçün pul cəriməsi, əlavə ictimai işlər və sair cəza metodlarından istifadə etmək hüququna malik idi. Hətta bazar günləri ibadətdən yayınanlar belə, şults tərəfindən pulla cərimələnirdilər. Koloniyada çox sərt rejim yaranmışdı. Şultsun yazılı icazəsi olmadan heç kəs koloniyanı müvəqqəti də olsa — bir neçə günlüyə belə, tərk edə bilməzdi[158].

Şults və onun müavinləri tanınmış, nüfuzlu kolonistlərdən seçilirdilər və onların borcu icma iclasının qəbul etdiyi qərarların dəqiqliyi ilə və nöqsansız yerinə yetirilməsindən ibarət idi.

Ağır cinayətləri çıxmaq şərti ilə (adam öldürmə, oğurluq, soyğunçuluq və s.) xırda qanun və yaxud əxlaq pozuntularına yol vermiş kolonistlərin işi koloniyada müzakirə olunurdu. Lakin yalnız şults və onun müavinləri bu məsuliyyətli işin öhdəsindən gələ bilməzdilər və kənd məhkəməsinin çıxardığı qərarların daha obyektiv xarakter alması üçün koloniyada daha bir orqan-kənd prikazı yaradılırdı. Kənd prikazına şults, onun müavinləri, mirzə və hər 10 təsərrüfatdan 1 nəfər desyatnik daxil edilirdi. Qeyd edək ki, kənd prikazının da tərkibi icma iclasında təsdiqlənirdi. Kənd prikazı şultsun təqdimatı ilə çağırılırdı və əsasən məhkəmə-araşdırıcı orqan rolunu yerinə yetirirdi. Bütün məhkəmə-araşdırma proseslərinin nəticələri Prikaz kitablarında qeydiyyata alınır və qayda pozana qarşı hansı cəza tədbirlərinin tətbiq edilməsi bu kitabda əks olunurdu. Kənd prikazının qəbul etdiyi qərarla razılaşmayan kolonist yuxarı instansiyalara şikayət etmək hüququna malik idi[159]. Beləliklə, deyə bilərik ki, şults icraçı kimi koloniyada mövcud məsələlərin əksəriyyətini həll etsə də, məhkəmə məsələlərində kənd prikazının verdiyi qərarlarla razılaşır, onların icrasına nəzarət edirdi.

Görürük ki, koloniyaların həm xarici, həm də daxili idarəetmə sistemində xüsusiyyətlər var idi: Rusiyanın yerli əhalisi ilə müqayisədə alman koloniyalarına özünüidarəetmə sahəsində daha çox azadlıqlar verilmişdi.

Beləliklə, XIX əsrin ortalarınadək alman mühacirlərinin Qafqazda məskunlaşma prosesini tədqiq etdikdən sonra belə bir qənaətə gələ bilərik ki, bu

Rusiyada hələ XII—XIII əsrlərdən başlayan alman məskunlaşması prosesinin bir qolu idi və çarizmin əvvəl Şimali, sonra isə Cənubi Qafqazı işğal etməsi bu regionda alman məskənlərinin yaranmasına zəruri şərait yaratdı. XVIII əsrin əvvəllərindən Qafqaz siyasətini fəallaşdıran Rusiya, Türkiyə, İran və Krım xanlığı ilə apardığı uzunmüddətli mübarizədə qalib çıxdı və silah gücünə Qafqazı özünə tabe etdi. Qafqazda hərbi-siyasi sabitliyə nail olan Rusiya üçün daha vacib məsələ — bu regionda imperiyanın sosial-iqtisadi, dini, mədəni dayaqlarını möhkəmləndirmək, Qafqazı Rusiya dövlətinin ayrılmaz hissəsinə çevirmək məsələsi idi. Bu strateji vəzifənin yerinə yetirilməsində Rusiya üçün əngəllər yaradan əsas amil — həm Şimali, həm Cənubi Qafqazda yaşayan avtoxton müsəlman əhali idi ki, onlar rus işğalı ilə barışmaq istəmir, azadlıq mübarizəsini davam etdirir və bu səbəbdən də Rusiya rəsmi dairələrində dövlətin potensial düşmənləri, Türkiyənin, İranın müttəfiqləri kimi qiymətləndirilirdilər. Elə buna görə çarizmin Qafqazda apardığı milli siyasət regionda mövcud etnik mənzərənin pozulmasına, etnik, konfessional cəhətdən Qafqazda Rusiyanın əbədi dayaqlarının yaranmasına xidmət etməli idi. Bunun üçün, ilk növbədə Qafqazın müsəlman əhalisinin sayının azaldılmasına, regionda Rusiyaya sadiq slavyan mənşəli və xristianlığa sitayiş edən xalqların yerləşdirilməsinə nail olmaq, Qafqazı Rusiyanın «təbii» ərazisinə çevirmək planları qurulurdu. Bu niyyətlərin həyata keçirilməsində çar hökuməti hər vasitədən istifadə edirdi: Şimali Qafqazda yaşayan yüzlərlə xalqlar - noqaylar, çərkəzlər, abazinlər, adıqeylər, kabardinlər, qaraçaylılar, balkarlar, çeçenlər, Dağıstan xalqları hərbi əməliyyatlar nəticəsində kütləvi şəkildə məhv edilir, açıq və yaxud dolayı yollarla mühacirətə sürüklənirdilər[160]. Dağlı xalqlarına qarşı siyasi, dini təzyiqlər göstərilir, dağlı cəmiyyətinin sosial ierarxiya qaydaları ləğv edilir, zor metodları fayda vermədikdə isə Şimali Qafqaz xalqlarının mühacirəti üçün pulsuz nəqliyyat ayrılır, mühacirliyə görə pul vəsaiti paylanılırdı. Vətənini tərk etməyənlər yararsız torpaqlara köçürülür və yaxud dağlara sıxışdırılırdılar. Təkcə onu qeyd etmək kifayətdir ki, 100 minlik abazin xalqından XIX əsrin ortalarında Rusiyada cəmi 10 min nəfər qalmış, qalanları Türkiyəyə köçməyə məcbur olmuşdular[161]. Rus işğalı Şimali Qafqaz xalqlarının etnik birliyinə zərbə vurdu, onların əsrlərlə yaratdıqları təsərrüfat həyatı, mədəniyyətləri məhv edildi. Hələ XVII əsrin II yarısında Şimali Qafqaza səyahət etmiş türk tarixçisi Övliya Çələbinin «Səyahətnamə» əsərindən görürük ki, rus işğalına qədər Şimali Qafqaz «mənimsənilmiş ərazi» kateqoriyasına aid idi və burada onlarla iri şəhərlər, minlərlə kəndlər mövcud olmuş, region əhali azlığı cəhətdən əziyyət çəkməmişdir[162]. Şimali Qafqaz işğal edildikdən sonra və çarizmin məqsədyönlü siyasəti nəticəsində yerli xalqların sayı faciəli şəkildə aşağı düşmüş, onların boş qalmış torpaqlarına slavyan xalqları, ermənilər, almanlar, yunanlar, aysorlar, bolqarlar, çexlər və sair xristian xalqları köçürülmüşlər.

Cənubi Qafqazda da buna oxşar vəziyyət yaranmışdı: müsəlman-türk əhali rus ekspansiyasını qəbul etməyərək kütləvi şəkildə Türkiyəyə və İrana köçür,

onların ərazilərində ermənilər, aysorlar, ruslar, ukraynalılar, almanlar yerləşdirilirdilər.

XIX əsrin ortalarında çarizmin demoqrafiya siyasəti nəticəsində Qafqazın etnik xəritəsində əsaslı dəyişikliklər baş verdi: təkcə slavyan mənşəli əhalinin sayı Şimali Qafqazda 780,4 min nəfərə çatdı ki, bu da adı çəkilən regionun əhalisinin təqribən 35% demək idi[163]. Müqayisə üçün qeyd edək ki, 1795-ci ildə Şimali Qafqaz əhalisinin 35%-ni təşkil edən adıgeylər XIX əsrin ortalarında müvafiq olaraq 1,2% təşkil edirdilər. Rusiya tarixçilərinin Şimali Qafqaz xalqlarının sayının azalmasını təbii artımın aşağı olması ilə izahı, fikrimizcə, əsassızdır. Mənbələrdən görünür ki, Şimali Qafqazın xristian xalqları arasında (məsələn, osetinlər—*İ.A.)* əhalinin sayının azalması müşahidə olunmamışdır[164].

Rus işğalı nəticəsində Qafqazda əsrlərlə mövcud olan etnik xəritə pozuldu, sabitləşən təsərrüfat, ticarət sistemi ləğv edildi. Çar hökuməti bu regionda yeni etnik durum, yeni təsərrüfat həyatı qurmaq və öz etnik-sosial dayaqlarını möhkəmləndirmək məqsədilə slavyanlaşdırma, xristianlaşdırma siyasəti aparırdı.

Bütün bu geosiyasi oyunlarda alman mühacirlərinə hansı rol ayrılmışdı? Almanlar çarizmin siyasi planlarından xəbərsiz idilər və onları Qafqaza gətirən obyektiv səbəblər vardı. Şimali Qafqazda daxili məskunlaşma prosesi gedirdi və almanları bu regiona çəkən onların əvvəlki məskunlaşdıqları yerlərdə rastlaşdıqları sosial çətinliklər idi. Şimali Qafqazda məskunlaşan almanların bir qismi — xaricdən gələn missionerlər idi ki, onların əsas məqsədi «müqəddəs Qafqaz torpağında» protestantizm təlimini yaymaqdan ibarət idi. Əgər Volqaboyu və Ukraynadan gələn kolonistlər Şimali Qafqazda sosial həyatın təşkilinin daha sadə formasını seçir və dağlı xalqlarının suverenliyinə xələl gətirə biləcək fəaliyyətindən uzaq dayanırdılarsa, protestant missionerləri dağlılara qarşı dini, mədəni ekspansiyada iştirak edir və bu səbəbdən də yerli müsəlman xalqları ilə normal münasibət qura bilmirdilər. Nəticədə, missionerlərin yaratdığı koloniyalar iflasa uğradı, onların fəaliyyəti dayandırıldı.

Almanların Cənubi Qafqazda yerləşməsinin əsas xüsusiyyəti onların kompakt məskunlaşmaya olan meyilləridir. Bu həm mühacirlərin eyni ərazidən— Baden-Vürtemberq krallığından gəlmələri və eyni dini cərəyana məxsus olmaları, həm də lokal ərazidə məskən salaraq milli xüsusiyyətlərin qorunmasına şərait yaratmaq istəklərindən irəli gəlirdi. Almanların Azərbaycan ərazisinə zorla gətirilməsi və keçmiş xan, bəy torpaqlarında yerləşdirilməsi onu göstərir ki, alman mühacirləri hüquqi statusu müəyyənləşməyən əraziyə köçərək yerli əhali ilə qarşıdurma yaratmaq niyyətində deyildilər.

XIX əsrin ortalarında Qafqazda cəmi 13 alman koloniyası yaranmışdı ki, onlarda da təqribən 5 minə yaxın əhali yaşayırdı. Təbii ki, slavyan və yaxud ermənilərin məskunlaşması ilə müqayisədə alman əhalisinin demoqrafik proseslərə təsiretmə qabiliyyəti o qədər də əhəmiyyətli deyildi. Lakin almanların Qafqaza köçürülməsinin siyasi, dini əhəmiyyəti olduqca yüksək qiymətləndirilirdi: alman

kolonistlərinə xüsusi missiya — «kulturtregerlik» missiyası ayrılmışdı. Onlar məskən saldıqları ərazilərdə həm yerli xalqlar, həm də gəlmə mühacirlər arasında yeni təsərrüfatçılıq vərdişləri yaymalı, Avropa mədəniyyətinə uyğun insanların yetişməsinə öz töhfələrini verməli idilər.

## 1.3. QAFQAZ ALMAN KOLONİYALARININ SOSİAL-İQTİSADİ HƏYATININ TƏŞƏKKÜLÜ

XVIII əsrin sonu — XIX əsrin I yarısında Rusiya imperiyasının sosial-iqtisadi həyatı feodal quruluşunun dağılması və eyni zamanda yeni — kapitalist münasibətlərinin formalaşması ilə səciyyələnirdi. Kapitalizmin təşəkkülü və inkişafı üçün zəruri olan ən vacib şərtlərdən biri azad işçi qüvvəsinin olması idi və təhkimçilik qaydalarının hökm sürdüyü Rusiyada bu problem daha qabarıq hiss olunurdu. Çar hökuməti mütləqiyyətin siyasi və iqtisadi dayaqlarını təmin edən feodal-təhkimçilik qaydalarının ləğvinə yönəlmiş hər hansı bir addım atmaqdan çəkinir, bununla da yeni, tərəqqipərvər burjua münasibətlərinin formalaşmasına əngəllər yaradırdı. Mütləqiyyət Rusiyada mövcud olan siyasi və iqtisadi münasibətlər sisteminə xələl gətirmədən yaranmış problemi həll etməyə çalışırdı və bu məqsədə çatmaqda əcnəbi kolonistlərin ölkəyə cəlb edilməsi, onların köməyi ilə azad işçi qüvvəsinə olan tələbatın ödənilməsi və yeni iqtisadi münasibətlərin inkişaf etdirilməsinə böyük ümidlər bəsləyirdi.

Rusiya imperiyası siyasi stabillik və iqtisadi potensial cəhətdən əcnəbi, o cümlədən alman mühacirləri üçün əlverişli, cəlbedici ölkə idi. Geniş, mənimsənilməmiş torpaq sahələri, hələ tədqiq olunmamış təbii sərvətləri, yeni texnologiya və yüksəkixtisaslı kadrlara ehtiyacı olan sənaye sahələri — bütün bunlar əcnəbi ustalara, ticarət adamlarına, əkinçilərə əhəmiyyətli iqtisadi mənfəət vəd edirdi. Bu baxımdan Qafqaz regionu istisna təşkil etmirdi.

XIX əsrin I yarısında Qafqaz almanlarının iqtisadi həyatının təşəkkülü Qafqaz regionunun iqtisadi və siyasi həyatında baş verən hadisələrlə sıx əlaqəli olmuşdur. Hələ Qafqaz Rusiya tərəfindən işğal edilməmişdən öncə bu regionun təbii sərvətlərinin ələ keçirilməsi və istismar olunması, ümumiyyətlə, Qafqazın Rusiya sənayesi üçün xammal bazasına çevrilməsi kimi ideyalar irəli sürülmüş, hətta bu istiqamətdə praktiki addımlar atılmışdı.[165]

XIX əsrin 20-ci illərində Cənubi Qafqazın işğalının başa çatması ilə Qafqazda nisbi siyasi stabillik yarandı. Dağıstanın dağlıq ərazilərini çıxmaq şərtilə Şimali və Cənubi Qafqazda iqtisadi yüksəliş üçün münbit şərait yarandı. Şovinist rus hərbçilərindən fərqli olaraq, Rusiyanın işgüzar dairələrində Qafqazın inkişafı perspektivləri haqqında mütərəqqi fikirlər irəli sürülürdü. Tanınmış publisist N.S.Mordvinov, yazıçı və Rusiyanın İrandakı gələcək səfiri A.S.Qriboyedov, Tiflis mülki qubernatoru P.D.Zavileyski Qafqazın iqtisadi inkişafına dair konkret təkliflərlə çıxış edir, Qafqazın silah gücünə fəth edilməsinə nisbətən onun

Rusiyanın iqtisadi həyat orbitinə cəlb edilməsinin, siyasətdə ağırlıq mərkəzinin bu diyarın iqtisadi istilasına keçirilməsinin strateji əhəmiyyətini vurğulayırdılar.[166]

A.S.Qriboyedov və P.D.Zavileyski 1828-ci ilin sentyabrında Rusiya Zaqafqaziya ticarət kampaniyasının layihəsini hazırladılar.[167] Bu layihənin ideyasının mahiyyəti ondan ibarət idi ki, Cənubi Qafqazda emal tipli fabrik və zavodlar şəbəkəsi yaradılmalı və paralel olaraq üzümçülük, şərabçılıq, ipəkçilik, tütünçülük və sair strateji təsərrüfat sahələri inkişaf etdirilməli idi. İşçi qüvvəsi kimi kampaniyanın təsərrüfatlarında təhkimçilikdən azad edilmiş rus kəndlilərindən istifadə edilməsi nəzərdə tutulurdu. Başda Qafqazın baş komandanı baron Q.V.Rozen olmaqla rəsmi dairələr bu proyektə düşməncəsinə yanaşdılar.[168]

Beləliklə, XIX əsrin 20-ci illərində çar hökumətinin Qafqaza qarşı apardığı iqtisadi siyasətin əsas istiqamətləri müəyyənləşdi: əsas məqsəd Qafqazı «Rusiyadan manufaktura məmulatları alan» və Rusiya «fabrikləri üçün xammal verəcək müstəmləkəyə» çevirməkdən ibarət idi. Bu siyasət sonralar Qafqazdakı iqtisadi dəyişikliklərin, o cümlədən çoxsaylı alman-kolonist təsərrüfatlarının inkişaf istiqamətlərini müəyyənləşdirdi. Qeyd etdiyimiz kimi, alman kolonistlərini Rusiyada, o cümlədən Qafqazda yerləşdirməklə çar hökuməti onların vasitəsilə sənətkarlığın, ticarətin, ayrı-ayrı kənd təsərrüfatı sahələrinin inkişafına nail olmaq, kolonistlərin simasında xüsusi mülkiyyətçi təbəqəsini formalaşdırmaq, yeni təsərrüfatçılıq metodlarını tətbiq etməklə cəmiyyətə Avropa mədəniyyətini aşılamaqdan ibarət idi. Hələ 12 dekabr 1801-ci il tarixində çar I Aleksandrın imzaladığı fərmana görə dövlət kəndlilərinə, o cümlədən əcnəbi kolonistlərə xüsusi mülkiyyətə torpaq sahəsi almaq üçün geniş imkanlar açıldı.[169] Çarın 20 fevral 1803-cü il tarixində imzaladığı «Azad əkinçilər haqqında» fərmanı da kəndlilər və kolonistlər arasında xüsusi mülkiyyətçilərin formalaşmasına xidmət edirdi.[170]

Çar hökumətinin siyasəti əcnəbi kolonistlərin dövlət torpaqlarında yerləşdirilməsinə yönəlmişdi ki, onlar iqtisadi, hüquqi, şəxsi cəhətdən daha çox sərbəst olsunlar, mülkədarlardan asılı vəziyyətə düşməsinlər. Ancaq Rusiyaya axışan kolonist kütlələrinin sayının artması dövlət torpaq fondunda defisit yaratdı və yeni köçmüş mühacirlərin torpaqla təmin olunması məqsədilə 25 avqust 1817-ci il tarixdə I Aleksandr «Əcnəbi kolonistlərin xüsusi mülkiyyət torpaqlarında yerləşdirilməsinə yardım haqqında» fərman imzaladı.[171]

Bu fərmana görə II Yekaterina tərəfindən əcnəbi kolonistlərə verilən bütün hüquqlar və imtiyazlar bir daha təsdiq olundu.

Qeyd etmək yerinə düşərdi ki, Qafqazda məskunlaşan kolonistlər Rusiyanın cənub-Qara dəniz sahili regionlarında məskunlaşan kolonistlərlə müqayisədə o qədər də geniş hüquqlara malik deyildilər. Məsələn, Novorossiyada 15 iyun 1764-cü il fərmanına əsasən, hər kolonist ailəsinə 60 des. torpaq verilirdi. Bundan savayı, hər koloniyanın ixtiyarında «ehtiyat sahələr» var idi ki, bu rezevr sahələrin hesabına gələcəkdə yaranacaq torpaq çatışmazlığı aradan qaldırılmalı idi.[172] Ancaq nə Şimali, nə də Cənubi Qafqazda kolonistlərin torpaqla təminatı məsələsində

vahid yanaşma yox idi. Burada koloniyaya ayrılan torpağın sahəsi koloniyada yaşayan əhalinin sayından deyil, ayrı-ayrı təsərrüfatların sayından asılı idi. Bundan savayı, hər ailəyə ayrılan pay torpağının miqdarı koloniyanın yerləşdiyi regionun coğrafi xüsusiyyətlərindən, burada mövcud olan dövlət torpaq ehtiyatının miqdarından asılı olurdu. Hər ailəyə ayrılan torpağın sahəsi yerli hakimiyyət orqanları tərəfindən təyin edilir və koloniyanın hüquqi tərtibi zamanı qeydə alınırdı. Regiondan asılı olaraq kolonist ailələrinə 30, 35, 60, 65 desyatin ölçüdə pay torpağı ayrıla bilərdi. Məsələn, 1840-cı ildə Kizlyar — Mozdok dairəsində, Kanovo koloniyasında məskunlaşan 180 kolonist ailəsinin hər birinə 60 des. torpaq ayrıldığı halda, Azov dənizinin sahillərində, 1852-ci ildə yaranan Mixelstal koloniyasında hər ailəyə 30 des. torpaq payı ayrılmışdı.[173]

Cənubi Qafqazda yaranan 8 koloniyanın hamısı dövlət torpaqlarında salınmışdı. Volqaboyu və Novorossiya regionlarından fərqli olaraq, çar hökuməti Cənubi Qafqazın alman kolonistlərinin dövlət torpaqlarında məskunlaşmasını həyata keçirərək onların yerli torpaq sahiblərindən mümkün asılılığının qarşısını almağa çalışırdı.

XIX əsrin ortalarında Cənubi Qafqazda mövcud olan koloniyaların ixtiyarında aşağıdakı miqdarda torpaq sahəsi vardı:

1) Tiflis quberniyasının Tiflis qəzasında salınan Petersdorf koloniyası 711, 26 des., Freydental koloniyası - 393, 95 des., Marienfeld - 1341, 83 des. və Aleksandersdorf koloniyası 1636, 06 des. torpaq sahəsinə malik idi.

2) Həmin quberniyanın Borçalı qəzasında mövcud olan Aleksandersqilf koloniyası 2126, 39 des., Yekaterinenfeld - 4199, 94 des.

3) Yelizavetpol quberniyasının Yelizavetpol qəzasında yaranan Yelenendorf koloniyası 8445, 75, des. və Annenfeld koloniyası 4272 des. torpaq sahəsinə malik idilər.[174]

Bundan savayı, bəzi kolonistlər şəxsi mülkiyyətə torpaq sahəsi əldə edirdilər.

İxtiyarında lazımi qədər dövlət və şəxsi mülkiyyət torpağı olan Cənubi Qafqaz kolonistlərinin torpaq sahiblərindən icarəyə torpaq götürməyə ehtiyacları yox idi. Gürcüstanda mövcud olmuş koloniyalardan Petersdorfda, Marienfelddə və Azərbaycan ərazisində salınan Annenfelddə heç bir koloniya üzvü icarəyə torpaq götürmədi. Yerdə qalan koloniyalarda da icarə təsərrüfatlarının sayı o qədər də çox deyildi və icarə ilə əsasən torpaqsız kolonistlər — «beyzatslar» məşğul olurdular. Ayrı-ayrı koloniyalarda icarənin formaları və şərtləri müxtəlif idi. Məsələn, Yelizavettal kolonistləri qonşu kəndlərin mülkədarlarından hər il 20 des. bostan üçün və 100 des. əkinəyararlı sahə icarəyə götürürdülər. Yekaterinenfeld kolonistləri qonşu azərbaycanlı kəndlilərdən və mülkədarlardan hər il 60 des., Aleksandersqilf kolonistləri isə 200 desyatinə yaxın torpaq icarəyə götürürdülər. Tiflis şəhəri yaxınlığında yerləşən Aleksandersdorf koloniyasının əsas məşğuliyyəti heyvandarlıq olduğundan onlar hər il əlavə olaraq yerli gürcü knyazı

F.Quramovdan və Kuki kəndinin sakinlərindən ümumilikdə 250 des. otlaq sahəsi icarəyə götürürdülər.[175] Yelenendorfun və Freydentalın aztorpaqlı kolonistlərinin götürdüyü icarə torpaqlarının ümumi sahəsi ayrı-ayrılıqda 10-15 desyatindən artıq olmurdu. İcarə haqqı heç də bütün koloniyalarda eyni deyildi və torpağın keyfiyyətindən və istifadə formasından asılı idi. Məsələn, Yelizavettal, Freydental koloniyalarında bostan üçün icarə olunan torpağın hər desyatininə görə 20-24 rubl, buğda əkilmiş sahəsinin hər desyatininə görə isə 4 rubl ödəyirdilər. Otlaq sahəsinin hər desyatini üçün Aleksandersdorf kolonistləri 5-7 rubl, kartof əkilmiş sahə üçün isə yelenendorflular 10 rubl ödəyirdilər.[176] Bəzən icarədar-kolonist icarə haqqını natural formada, yəni məhsulla ödəyirdi.

Məsələn, Yekaterinenfeld sakinləri icarəyə götürdükləri əkin sahəsinə görə icarə haqqı kimi yığılmış məhsulun torpaq sahibinə 25%-ni və yaxud Aleksandersdorf kolonistləri gürcü kəndlərindən icarəyə götürdükləri ot sahəsinə görə yığılmış otun 50%-ni ödəyirdilər.[177]

Ümumiyyətlə götürdükdə, Cənubi Qafqazın alman koloniyalarının Qərbi Ukraynadan, Şimali Qafqazdan fərqli olaraq, heç biri bütövlükdə icarədarlar koloniyası (das Zinskolonie) xarakteri daşımırdı.

Cənubi Qafqazda kolonistlərin icarədar kimi fəaliyyəti müvəqqəti və mövsümi xarakter daşıyır, icarə ilə bütövlükdə bütün koloniya deyil, onun aztorpaqlı və torpaqsız üzvləri məşğul olurdular və bu fəaliyyət əsas təsərrüfata yardımçılıq məzmunu daşıyırdı.

Kolonistlərin məskunlaşma xüsusiyyətləri müxtəlif kateqoriyalı koloniyaların yaranması ilə yanaşı, həm də koloniyalarda torpaqdan istifadə formalarının da müxtəlifliyini şərtləndirirdi. Rusiya almanlarının tarixinə dair çoxsaylı arxiv sənədlərinin və xüsusi ədəbiyyatın təhlili əsasında deyə bilərik ki, Cənubi Qafqaz koloniyalarında torpaqdan istifadə Volqaboyu, Novorossiya, Volın kimi regionlardan əsaslı fərqlənirdi.[178] Məsələn, bütün Rusiya imperiyasında olduğu kimi, Volqaboyu koloniyalarında da torpaq bütün icmaya məxsus idi və icma torpaqları 2-3 il intervalla cana görə icma üzvləri arasında vaxtaşırı paylaşdırılırdı. Novorossiyada, əsasən həyət təsərrüfatı, Qərbi Ukraynada isə xutor təsərrüfat formaları daha çox yayılmışdı. Cənubi Qafqazın alman koloniyalarında torpaqdan istifadənin özünəməxsus forması mövcud olmuşdu. Koloniyaya məxsus torpaqlar icma üzvləri arasında bölüşdürülmüşdü və bu bölgü bərabər olmadığına görə ayrı-ayrı kolonist təsərrüfatları müxtəlif miqdarda torpaq sahəsinə məxsus olduğuna görə belə torpaqdan istifadə icma xarakteri daşımırdı. Hər kolonist ailəsi uzun müddətə konkret torpaq sahəsi ilə təmin olunduğundan, torpaqdan bu cür istifadə həyətyanı təsərrüfata oxşasa da, ayrı-ayrı torpaq sahələrinin daimi sərhədlərinin olmaması, zərurət yarandıqda koloniyaya məxsus torpaqların yenidən bölüşdürülməsi onu göstərirdi ki, Cənubi Qafqaz koloniyalarında torpaqdan istifadə «qarışıq formaya» məxsus idi.[179] Yəni, burada biz həm Volqaboyu koloniyalarına xas olan icmaçılar, həm də Novorossiyaya aid olan həyətyanı

təsərrüfatçılıq elementləri görürük və buna görə Cənubi Qafqazda kolonistlərin torpaqdan istifadə formasını «həyət təsərrüfatı—icma» adlandırmaq olar.

Rusiyanın müxtəlif regionlarında alman kolonistlərinin torpaqdan istifadəsinin bu cür müxtəlifliyinin səbəbi nə idi?

Məlumdur ki, əcnəbi kolonistlərin köməyi ilə çar hökuməti kənddə fermer təsərrüfatlarını və sənayedə manufakturaların inkişafına nail olmaq istəyirdi. Ancaq Volqaboyu regionunda Volın, Qafqaz və Novorossiyadan fərqli olaraq, kənd təsərrüfatında əmtəə istehsalının inkişafı mümkün olmadı və bu, ilk növbədə Volqaboyunun təbii-iqlim şəraiti ilə izah olunur. Quraqlıq şəraitində Volqaboyu kolonistləri, nəinki əlavə məhsul əldə edə bilmir, hətta koloniyaların daxili tələbatını ödəmək üçün çox vaxt dövlət büdcəsindən yardım alırdılar.[180] Qeyri-qaratorpaq regionlarında ümumi hal bundan ibarət idi ki, yaxşı halda koloniyalar yalnız öz daxili tələbatlarını ödəməyə nail olurdular. Ağır iqlim şəraiti, kənd təsərrüfatı texnikasının aşağı səviyyəsi şəraitində ayrı-ayrı kolonist təsərrüfatlarının inkişafı mümkün deyildi və adı çəkilən amilləri nəzərə alaraq Volqaboyunda bütün Rusiyada olduğu kimi torpağın becərilməsində icma formasına daha çox üstünlük verildi. Bundan savayı, məsələnin sosial tərəfini də nəzərə almamaq olmaz. Volqaboyu şəraitində «həyət-təsərrüfat» formasının tətbiqi çoxsaylı kolonist təsərrüfatlarının müflisləşməsinə və beləliklə, «sosial fəlakətə» gətirib çıxara bilərdi.

Qeyd etmək yerinə düşər ki, torpaqdan istifadənin icma forması Volqaboyu kolonistlərini də qane edirdi, belə ki, bu regionda minorat sistemi tətbiq olunmur, ailənin bütün oğulları icma torpaqlarından pay alırdılar. Nəticədə, ildən-ilə torpaqdan istifadə edən ailələrin sayı artır və müvafiq olaraq hər təsərrüfata düşən torpaq sahəsi azalırdı. Dövr aşırı icma torpaqlarının icma üzvləri arasında bölüşdürülməsi Volqaboyu kolonistlərinin təsərrüfat fəaliyyətinə mənfi təsir göstərirdi. Belə ki, onlar torpaq sahələrində meliorasiya və sair torpağın keyfiyyətinin yaxşılaşdırılmasına yönələn tədbirlər aparmırdılar, çünki növbəti bölgü zamanı bu torpaq sahəsi başqa kolonistə verilirdi.

Cənubi Qafqazda isə torpaq sahəsi icma mülkiyyətində olsa da, hər kolonist ailəsinin öz torpaq sahəsi, öz təsərrüfatı vardı və bu torpaq sahəsi onlara koloniya yarandığı vaxtdan etibarən daimi istifadəyə verilmişdi və nəsildən-nəslə ötürülə bilərdi. Cənubi Qafqaz koloniyalarında da torpaqların yerindən bölüşdürülməsi baş verirdi və bu haqda qərar koloniyanın ümumi iclasında qəbul edilirdi.

Torpağın yenidən bölüşdürülməsi müxtəlif koloniyalarda müxtəlif müddətdən sonra keçirilirdi. Məsələn, Annenfeld və Yelenendorf koloniyalarında torpaqların bölüşdürülməsi hər il payız aylarında keçirilirdi.

Yekaterinenfeld, Yelizavettal, Marienfeld, Petersdorf və Freydental koloniyalarında torpaqların bölüşdürülməsi, bunun üçün zərurət yarandıqda, müxtəlif vaxtlarda, Aleksandersdorf və Aleksandersqilf koloniyalarında isə 8-10 ildən bir həyata keçirilirdi.[181]

Vurğulamaq lazımdır ki, Gürcüstan və Azərbaycanda mövcud olan koloniyalarda yalnız əkin və biçənək sahələri bölüşdürülürdü: həyətyanı torpaqlar və bağ sahələri (üzüm, tut və s.) kolonist ailəsinin daimi istifadəsində idi və nəsildən-nəslə ötürülürdü. Otlaq sahələri ümumi icmanın istifadəsində olduğundan bölüşdürülmürdü.

Qafqazda yaranan koloniyaları kənd təsərrüfatı məşğuliyyəti spesifikasına görə 3 kateqoriyaya bölmək olar.

Birinci qrupa əkinçiliklə məşğul olan koloniyalar aiddir. Bunlara Gürcüstanda yaranan Marienfeld, Petersdorf, Aleksandersdorf və 1842-ci ildə yaranan Freydental koloniyalarını göstərmək olar. Bu koloniyalarda əkinçiliklə yanaşı, üzümçülük və şərabçılıq, bağçılıq, heyvandarlıqla da məşğul olurdular, lakin bu sahələr yalnız daxili tələbatın ödənilməsinə xidmət edirdi. Koloniyaların əsas gəlir mənbəyi əkinçilik idi. Bu sahədə əldə edilən nailiyyətlər həm koloniyalara məxsus torpaq sahələrinin münbitliyi, həm də bu koloniyaların Qafqazın inzibati mərkəzi Tiflisin yaxınlığında yerləşməsi ilə izah olunurdu. Belə ki, kolonistlər yetişdirdikləri məhsulu şəhər bazarlarına çıxarmaq imkanına malik idi.

Adı çəkilən koloniyalarda, əsasən payız buğdası, arpa, yulaf, qarğıdalı və kartof yetişdirilirdi.

Kənd təsərrüfatı bitkilərinin əkinini bioloji və texnoloji cəhətdən düzgün planlaşdıraraq kolonistlər hər ildə iki dəfə məhsul götürməyə müvəffəq olurdular.

Əkinçilik koloniyalarında təsərrüfatlarda perelojna sistemi, yəni sahələrdən növbəli istifadə sistemi tətbiq olunurdu. Müasirlərin yazdığına görə, adı çəkilən koloniyaların yerləşdiyi ərazilərdə torpaqlar o qədər münbit idi ki, hətta eyni sahədən fasiləsiz 6-8 il istifadə etmək mümkün olurdu.[182] Qafqazda mövcud olan əkinçilik koloniyalarında məhsuldarlıq torpaqla yanaşı, ilk növbədə əkin sahələrinin su təchizatı ilə sıx bağlı idi.

Marienfeld və Petersdorf koloniyalarında əkinçilik suvarma xarakteri daşıdığından bu koloniyaların sakinləri su çatışmazlığından daha çox əziyyət çəkirdilər. Üzümlüklərin, bostanların və qarğıdalı sahələrinin suvarılması üçün koloniya ərazisində su mənbələri olmadığından bu koloniyalara İori çayından su kanalının çəkilməsinə zərurət yaranmışdı.

1840-cı ilin aprelində Gürcü-İmeretiya qubernatoruna Marienfeld və Petersdorf kolonistlərinin ünvanladıqları xahişnamədə İori çayından suvarma kanalının çəkilişinə icazə istəyirdilər.[183] Kolonistləri narahat edən əsas məsələ kanalın keçəcəyi Sartiçala kəndinin əhalisini razı salmaq idi.

Bu məsələ ilə bağlı Sartiçalanın azərbaycanlı əhalisi ilə kolonistlər arasında münaqişələr yaranırdı, çünki kanalın əsas hissəsi azərbaycanlıların torpaqlarından keçdiyi üçün onların əkin sahələrinə ziyan dəyirdi, kanalın çəkilişi ilə sahələr yararsız hala salınırdı.

1842-ci ilin fevralında Gürcü-İmeretiya Dövlət Əmlak palatası kolonistlərin xahişini nəzərə alaraq onlara İori çayından kanal çəkilişinə icazə verdi və sənəddə göstərilirdi ki, «kanal ondan istifadə edənlərin öz şəxsi hesablarına çəkilməlidir».[184]

Kanalın çəkilişi 1843-cü ildə başa çatdı və kanal azərbaycanlıların yaşadığı Sartiçala kəndindən keçdiyi üçün suyun 5/10 hissəsindən azərbaycanlılar, 4/10 hissəsindən Marienfeld və 1/10 hissəsindən Petersdorf kolonistləri istifadə etmək hüququna malik idilər.

Ayrı-ayrı kolonist təsərrüfatları arasında su saat hesabı bölüşdürülürdü. Bir desyatin sahənin suvarılmasına 10 saat tələb olunduğundan kolonist təsərrüfatları su sarıdan əziyyət çəkirdilər və bu yeni su kanalının çəkilməsi məsələsini gündəmə gətirirdi. 1849-cu ildə Qafqaz canişini knyaz Vorontsovun göstərişi ilə hələ XVIII əsrin sonlarında çar İrakli tərəfindən çəkilən köhnə su kanalı bərpa edildi. Tədqiqatçı Nikiforovun yazdığına görə, bu kanalın bərpasına «dövlət xəzinəsindən on minlərlə rubl vəsait xərclənsə də, qısa bir müddətdən sonra dağılaraq itib batdı».[185]

Gürcüstanda mövcud olmuş digər alman koloniyalarında su problemi bu qədər kəskin olmasa da, kolonistlər su sarıdan müəyyən sıxıntılar keçirirdilər.

İkinci kateqoriyaya üzümçülük və şərabçılıq koloniyaları aid idi. Bu təsərrüfat sahəsi daha çox Gürcüstandakı Yelizavettal, Yekaterinenfeld və Azərbaycanda yaranan Yelenendorf, Annenfeld koloniyalarında inkişaf etmişdi. Üzümlüklər, əsasən dəmyə ərazilərində salındığından onların su ilə təchizatında problemlər yaranmırdı.

Onlar həm təbii, həm də süni şəkildə suvarılırdılar. Üzümçülük bu koloniyalarda hələ 1820-ci illərdən başlamışdı və ilk illər kolonistlər yerli—Qafqaz üzüm sortlarının yetişdirilməsi ilə məşğul olurdular. XIX əsrin I yarısında Cənubi Qafqaz koloniyalarında ən çox yayılan üzüm sortu ənənəvi olaraq Kaxetiyada yetişdirilən Tarkveri sortu idi. Bu sortdan alınan qatı, qırmızı şərab Qafqaz bazarlarında yüksək qiymətləndirilirdi.[186]

Məskunlaşdıqları ilk illərdə kolonistlərin üzümçülük və şərabçılıqda nailiyyətləri o qədər də nəzərəçarpacaq deyildi: məhsuldarlıq çox aşağı idi, məhsul yetişməmiş quruyur və yaxud yetişmə prosesi yarımçıq qalırdı. İldən-ilə bu halın təkrarlanması kolonistlərin maddi durumuna mənfi təsir etdi və yalnız yerli azərbaycanlı əhalinin köməyi ilə kolonistlər bu problemi həll etdilər: azərbaycanlıların tətbiq etdiyi çiçəklənmə dövrü cır üzüm (qora) çiçəyi ilə üzümün tozlandırılması metodu alman koloniyalarında məhsuldarlığın artmasına müsbət təsir göstərdi.[187]

Üzümçülüklə məşğul olan koloniyalarda əlavə təsərrüfat növləri ilə də məşğul olurdular — əkinçilik, arıçılıq, heyvandarlıq koloniyaların daxili tələbatının ödənilməsinə xidmət edirdi. Bəzi epizodik hallarda kolonistlər artıq məhsullarını qonşu kəndlərin sakinlərinə satırdılar.

Ümumiyyətlə, XIX əsrin I yarısında Qafqazın alman koloniyalarında təsərrüfat həyatı təşəkkül mərhələsində idi: koloniyalarda məqsədyönlü şəkildə əmtəə istehsalı yox dərəcəsində idi, bazarla əlaqələr müvəqqəti, fraqmentar xarakter daşıyırdı. Bir çox koloniyalar nəinki artıq məhsul istehsal edir, hətta özləri yoxsulluqla yaşayır və tez-tez rəsmi dövlət orqanlarına maddi yardım göstərilməsi xahişi ilə müraciət edirdilər.

Üçüncü qrupa — heyvandarlıqla məşğul olan koloniyalar daxildir. Cənubi Qafqazda heyvandarlıq üzrə ixtisaslaşan yeganə koloniya — Aleksandersqilf koloniyası idi. Bütün koloniyalardan ayrıca yerləşən bu koloniya «törəmə» koloniya kateqoriyasına aid edilir. XIX əsrin ortalarında Yelizavettal koloniyasında əhalinin torpaq təminatı ilə bağlı yaranan problemin həlli 38 kolonist ailəsinin Tsalka adlı yerə köçürülməsi ilə nəticələndi.[188] Çoçian adlı bu sahədə torpaq əkinəyararlı olmadığından Aleksandersqilf kolonistləri heyvandarlıqla məşğuliyyətə üstünlük verdilər. Əlavə təsərrüfat sahəsi kimi çox məhdud miqyasda əkinçiliklə, bostançılıqla, bağçılıqla məşğul olurdular və bu sahələr onların daxili tələbatının ödənilməsinə yönəlmişdi. Bu koloniyalarda üzümçülük, ümumiyyətlə, inkişaf etməmişdi. Həm Şimali Qafqaz, həm də Gürcüstandakı alman koloniyalarında heyvandarlığın inkişafı XIX əsrin II yarısı, XX əsrin əvvəllərinə təsadüf edir.

Çar hökuməti alman kolonistlərini Qafqazda yerləşdirməklə ölkə sənayesi üçün vacib xammal istehsalına yönələn sahələrin inkişafına müəyyən ümidlər bəsləyirdi. İnkişafda olan toxuculuq sənayesində maşın istehsalına keçid yuna nisbətən pambığa və xam ipəyə tələbatı artırdı. Təkcə 1806-cı ildə Rusiya xaricdən, əsasən də İtaliya və Fransadan 13554 pud xam ipək idxal etmişdi.[189] XIX əsrin əvvəllərində xam ipəyin alınmasına dövlət büdcəsindən 0,5 mln. qızıl rubl sərf edilmişdi ki, bu da XVIII əsrin ortalarından Rusiyanın apardığı merkantilizm siyasəti ilə uzlaşmırdı.

Rusiya çarları hələ XVII əsrdən başlayaraq Həştərxan, daha sonralar isə Ön Qafqaz ərazilərində ipəkçiliyin yayılmasına yönələn addımlar atmışdılar və 1798-ci ildə, hətta çar I Parel ipəkçiliyin inkişafına aid fərman imzalamışdır.[190] Amma əhalinin tarixi təsərrüfat vərdişləri və iqlim şəraiti ilə bağlı bu mühüm sahə Rusiyada geniş yayılmadı.

Qədim zamanlardan ipəkçiliyin mərkəzlərindən biri kimi tanınmış Cənubi Qafqazın işğalı hələ başa çatmamış çar hökuməti bu regionda ipəkçiliyin vəziyyətini öyrənmək və lazımi tədbirlər planının tərtib edilməsi məqsədilə Peterburqdan ipəkçilik üzrə baş müfəttiş baron Biberşteyni Cənubi Qafqaza ezam etdi. Qafqaz Xüsusi korpusunun Baş komandanı, general Knorinq Gürcüstan quberniyasının rəisi P.Kovalenskiyə baron Biberşteynə hərtərəfli yardım edilməsi haqqında göstəriş verdi.[191] Bir qədər sonra ipəkçiliyin təşkilində mühüm təşkilati dəyişikliklər baş verdi: Cənubi Rusiya və Gürcüstan üzrə ipəkçilik müfəttişliyi yaradıldı, ipəkçilik məktəbləri açıldı və əhali arasında ipəkçilik məşğuliyyətinin

təbliğinə başlandı.[192] 1836-cı ildə «Zaqafqaziyada ipəkçiliyin və ticarət sənayesinin yayılması üzrə cəmiyyət» yaradıldı.[193] Cəmiyyətin təşkil etdiyi 4 illik təcrübə məktəblərində dövlət kəndliləri və rəncbər uşaqları təhsil alırdılar. Dövlət Əmlak palatasının tabeliyində olan bu məktəblərdə alman kolonistləri sırasından çıxmış yeniyetmələrin də oxumasına diqqət yetirilirdi. Bu məqsədlə 1841-ci ildə Nuxa şəhərindəki təcrübə ipəkçilik məktəbinə 5 nəfər alman mənşəli yeniyetmə göndərilmişdi və təhsili başa vurduqdan sonra onlar öz doğma koloniyalarında ipəkçiliyin yayılmasında əhəmiyyətli rol oynadılar.[194] Belə ki, 1845-ci ildə təkcə Yelenendorf koloniyasında 40 alman ailəsi ipəkçiliklə məşğul olurdu və bu məqsədlə 14 min ağacdan ibarət tut bağları salınmışdı.[195]

Kolonistlər 1845-ci ildə 4,5 pud ipək xammalı əldə etdilər və 1846-cı ildə ipəkçiliyə marağı daha da artırmaq məqsədilə çar hökuməti kolonistlərə 250 rubl mükafat ayırdı[196].

XIX əsrin 40-cı illərində ipəkçilik Cənubi Qafqazda sürətlə inkişaf edərək regionun iqtisadi həyatının əsas sahələrindən birinə çevrilmişdi. 1846-cı ildə Qafqaz canişini M.Vorontsov öz fəaliyyəti haqqında hesabatda yazırdı ki, «İpəkçilik Zaqafqaziyanın kənd təsərrüfatının ən əhəmiyyətli sahəsidir» (38). 1848-ci ildə Cənubi Qafqazda barama istesalı 21456 pud təşkil etmişdir ki, bu məhsulun da 60%-i Şamaxı və Nuxa qəzalarının payına düşürdü[197].

Ümumi regionda ipəkçilik yüksək templərlə inkişaf etsə də, alman koloniyalarında ildən-ilə barama istehsalı aşağı düşür, tut bağları məhv edilir, əvəzinə üzümlüklər salınırdı.

Kolonistlərin fikrincə, ipəkçilik daha çox əmək tələb edir və üzümçülükdə az əmək sərf olunmaqla yanaşı, həm də daha çox gəlir götürmək mümkün idi[198]. Bu səbəbdən, alman koloniyalarında tədricən tut bağları üzüm plantasiyaları ilə əvəz edildi.

1840-cı ildən tütünçülük də əmtəə istehsalı sahəsinə çevrilmişdi və Cənubi Qafqazda bu sahə ilə məşğul olan qəzaların sayı artırdı. Rusiya bazarlarında yüksək keyfiyyətli tütün növlərinə tələbatın artması xaricdən Havana, Alban və Perqam tütün növlərinin Cənubi Qafqazda becərilməsinə marağı artırırdı.

1848-ci ildə çar hökumətinin təşəbbüsü ilə alman koloniyalarında da tütünçülüyün inkişaf etdirilməsinə cəhd edildi. Tədqiqatçı Nikiforovun əsərlərinə istinadən demək olar ki, koloniyalarda tütün sortları yaxşı məhsul versə də, kolonistlər bu təsərrüfat sahəsi ilə də məşğul olmaqdan imtina etdilər, çünki onların fikrincə, tütün «çox qulluq tələb edir, gəliri isə çəkilən əməyə dəymirdi»[199].

Sonrakı illərdə alman koloniyalarında tütünün də becərilməsi dayandırıldı. 1849-cu ildə Çindən 1,25 pud çəkidə yüksək göstəricilərə malik saraçin buğda sortu gətirildi[200]. Buğda sahəsinin suvarılmaması ucbatından yüksək məhsul almaq mümkün olmadı. Elə həmin il İrəvandan yonca toxumu gətirilsə də, kolonistlər onun səpilməsinə maraq göstərmədilər. Çünki bunun üçün suvarıla biləcək boş torpaq sahələri yox idi.

Nəhayət, 1863-cü ildə Hindistandan tezyetişən Tibet düyü sortu gətirildi və koloniyalarda onun becərilməsinə başlandı.

Düyünün becərilməsi çox əmək tələb edirdi və məhsuldarlıq sahələrin su ilə təchizatından asılı olduğundan kolonistlər bu sahəyə də maraq göstərmədilər.[201]

Beləliklə, koloniyalarda yoncanın, saraçin buğda və Tibet düyü sortlarının yetişdirilməsinə edilən cəhdlər praktiki nəticə vermədi və hökumət dairələrinin alman koloniyalarında strateji xammal istehsalının həyata keçirilməsi planları baş tutmadı.

XIX əsrin 40-cı illərində Cənubi Qafqazın alman koloniyalarında torpaq çatışmazlığı yarandı.

Bununla bağlı Gürcüstan Mülki Qubernatoru 24 dekabr 1840-cı il tarixində «Gürcüstanda məskunlaşan Vürtemberq kolonistlərinin hər təsərrüfatına 50 desyatin torpaq sahəsinin ayrılması» haqqında 476 saylı qərar qəbul etdi[202].

Koloniyalardan torpaq çatışmazlığı ilə bağlı şikayətlərin davam etməsi bu tipli qərarların yerlərdə yerinə yetirilməməsindən xəbər verirdi. Belə ki, 1842-ci ilin 1 aprel tarixində Aleksandersdort koloniyasının sakinləri Gürcüstan-İmeretiya mülki qubernatoruna müraciətdə onların torpaq qıtlığından əziyyət çəkdikləri və onlara əlavə torpaq sahəsinin ayrılmasını xahiş edirlər. Kolonistlərin müraciəti ilə tanış olan qubernator Gürcüstandakı alman koloniyalarının nəzarətçisinə Aleksandersdorf koloniyasının torpaqla təminatı barədə məlumat toplanması haqqında göstəriş verdi.[203]

Zaqafqaziya diyarı Baş rəisinin 30 may 1843-cü il tarixli sərəncamı ilə aztorpaqlı 2 kolonist ailəsinin Yekaterinenfelddən və 30 ailənin Yelizavettaldan Annenfeld koloniyasına köçürülməsinə icazə verildi[204]. Sənədlərdən göründüyü kimi, bu koloniyada 1750 des. əlavə torpaq sahəsi var idi.

Pyatiqorsk şəhəri yaxınlığında yaranan Nikolayevsk koloniyasında məskunlaşdırılan bir qrup Saratovdan köçmüş alman kolonistlərinin 15 aprel 1848-ci il tarixdə Qafqaz canişininə göndərdikləri məktubda göstərilirdi ki, adı çəkilən koloniyada məskən salsalar da, onların kolonist cəmiyyətinə qəbul edilməsi baş tutmadı və bunun da səbəbi «kolonistlərin qabaqcadan təyin edilmiş proporsiyalarda torpaq payı ilə təmin edilməsi üçün şəraitin olmaması idi»[205].

Nəticədə ağır maddi duruma düşən 18 kolonist ailəsi 17 mart 1848-ci il tarixində Stavropol Mülki Qubernatoruna və Qafqaz Canişininə müraciət edərək onların Stavropol şəhəri yaxınlığındakı «boş qalmış xəzinə torpaqlarında» məskunlaşdırılmasını xahiş edirlər. Məktubda qeyd olunur ki, əgər onlar tez bir zamanda torpaqla təmin edilməsələr 18 ailəni bədbəxtlik və dilənçilik gözləyir.[206]

Artıq XIX əsrin ortalarında «Stavropol ətrafında məskunlaşma və təsərrüfat fəaliyyəti üçün boş torpaq sahələri qalmamışdı» və buna görə 18 ailənin Stavropol ətrafında məskunlaşmasına icazə verilmədi[207]. Stavropol quberniyasında, ümumiyyətlə, bütün Qafqazda kənd təsərrüfatı və əcnəbi koloniyalarda məşğul olmaq üçün xüsusi idarə yaradılmışdı.[208]

Xüsusi idarənin rəisinin Stavropol Dövlət Əmlak palatasına göndərdiyi məktubda «ona həvalə edilən idarənin işlərində Stavropolda mövcud olan əcnəbi koloniyalar haqqında məlumatların» olmamasından şikayətlənir və xahiş edir ki, palata tez bir zamanda hər koloniya haqqında, onların təsərrüfat həyatı, fəaliyyətlərindəki çatışmazlıqlar haqqında tələb olunan formada məlumat versin[209]. 1840-cı illərdə kolonistlərlə yerli knyaz nəsilləri arasında yaranan münaqişələrin əsas səbəbi kolonistlərin məskunlaşdığı dövrdə onlara knyaz torpaqlarının paylanması və knyazların bunun əvəzində hökumətdən heç bir kompensasiya almaması olmuşdur. 6 iyun 1842-ci il tarixdə dövlət müşaviri Rozenin ünvanına knyaz Baratov, saray müşaviri Dolinskaya və sairlərinin adından şikayət göndərilirdi və bu şikayətnamədə 1820-ci ildə onlardan alınaraq Yelizavettal koloniyasının kolonistlərinə paylanan torpaq sahələrinin əvəzinə «eyni ölçüdə xəzinə torpağının» ayrılması tələb olunurdu[210].

30 noyabr 1842-ci il tarixdə Ali Senat Baraton, Dolinsnaya və sair şəxslərə dövlət torpaq fondundan müvafiq ölçüdə sahələrin ayrılması haqqında qərar qəbul etdi[211].

XIX əsrin I yarısında Cənubi Qafqazın alman koloniyalarında sənətkarlıq da geniş yayılmağa başlamışdı. Yeganə sənətkar koloniyası 1818-ci ildə Tiflis şəhəri ətrafında yarandığından o Tiflis koloniyası adlandırıldı.

XIX əsrin əvvəllərindən çar hökumətinin məskunlaşdırma siyasətində müəyyən dəyişikliklər baş vermişdi və bu dövrdən etibarən çar hökuməti əkinçi məskunlaşdırılmasına nisbətən sənətkarların Rusiyaya köçməsinə daha çox önəm verdi. 30 sentyabr 1825-ci il tarixdə I Aleksandr «Əcnəbilərə Rusiya imperiyasının bütün şəhərlərində sənətkarlıqla məşğul olmağa icazə verilməsi haqqında» fərman imzaladı[212].

Bu fərmana görə yəhudilərdən savayı, bütün əcnəbi sənətkarlara sexlər açmaq hüququ verildi. Fərmana görə bütün sex təşkilatlarının Dövlət Əmlak palatasında qeydiyyatdan keçməsi və əcnəbi sənətkarlar tərəfindən Rusiya sənətkarlarına aid olan bütün mükəlləfiyyətlərin yerinə yetirilməsi, Ümumrusiya qaydalarına riayət olunması nəzərdə tutulurdu. Əcnəbi kolonistlər güzəşt kimi yalnız hərbi mükəlləfiyyətdən azad olunurdular[213].

Gürcüstandakı çar hökuməti orqanları şəhər sənətkarlığının inkişafında maraqlı idi və bu məqsədlə Rusiyanın başqa regionlarından sənətkarlar dəvət olunurdular.

Rusiya imperiyasında fabrik-zavod sənayesinin ləng inkişafı səbəbindən əhalinin sənaye malları ilə təminatında çətinliklər yaranırdı və çar hökuməti idxala üstünlük verməyə məcbur olurdu.

Bu isə öz növbəsində ölkənin qızıl ehtiyatlarının azalmasına gətirirdi ki, bu hal rəsmi dairələri narahat edirdi. Rusiyada sənaye cəhətdən inkişaf etmiş regionlar, əsasən qərb regionları — Polşa çarlığı, Baltikyanı quberniyaları, Cənubi-Qərb və Şimali-Qərb diyarları (indiki Qərbi Ukrayna və Qərbi Belorusiya) Qara

dəniz sahili quberniyaları sayılırdı. Mərkəzi quberniyalarda, o cümlədən Qafqazda sənayenin, sənətkarlığın inkişaf etdirilməsi çar hökumətinin prioritet vəzifələrindən biri idi.

Tiflis koloniyalarında yaşayan sənətkarların hüquqi status məsələsində bir qədər qeyri-müəyyənlik vardı. Yarandığı vaxt koloniya kimi fəaliyyət göstərən bu məntəqə Tiflis şəhəri böyüdükcə onun aqlomeratına çevrildi və bu da, öz növbəsində kolonistlərə qarşı vergi qanunlarının tətbiqində anlaşılmazlıqlara gətirdi. Gürcüstan Mülki Qubernatoru Poavandrovun adına Tiflis koloniyasında məskunlaşan sənətkarların göndərdiyi şikayətnamədən görünür ki, Tiflis şəhər polisi 11 sənətkar ailəsindən toxuculuqla məşğul olduqlarına görə vergi ödənilməsini tələb edir[214]. Şikayətnamədən görünür ki, kolonistlər toxuculuqla məşğul olsalar da, hüquqi statusa görə kənd sakinləri sayılırlar və kənd prikazına vergi ödəyirlər. Eyni zamanda şəhər büdcəsinə də vergi ödəyən sənətkarlar 1834-cü ilə görə tələb olunan 102 rublu ödəməkdə çətinlik çəkdiklərini, «hökumət və polis orqanlarına itaət etmək arzusunda ola-ola, bu tələbi yerinə yetirməkdə imkansız olduqlarını» vurğulayırlar[215]. Kolonistlər qubernatordan xahiş edirlər ki, «onları şəhər vergiləri ödəməkdən xilas etsin» və hüquqi əsas kimi «onlara şəhərdə sənaye ilə məşğul olmaq üçün yazılı icazə versin»[216].

Mənzil mükəlləfiyyəti kolonistlər üçün ağır yük olmuşdu. Bu məsələ ətrafında tez-tez rəsmi orqanlarla koloniyalar arasında münaqişələr baş verirdi. 07 iyun 1830-cu il tarixli Gürcüstan mülki qubernatorunun adına göndərilən raportda Tiflis mənzil komissiyası Tiflis alman koloniyasının mənzil mükəlləfiyyətini yerinə yetirməkdən boyun qaçırması faktı göstərilir və bu məsələyə aydınlıq gətirilməsini xahiş edir[217].

Gürcüstan mülki qubernatorunun 8357 saylı qərarında deyilir ki, kolonist kontoru göstəriş verməlidir ki, kolonistlər yerinə yetirmədikləri mənzil mükəlləfiyyətinin əvəzini nağd pulla Komissiyaya ödəsinlər, yəni onlar bütün Tiflis şəhərinin sakinləri kimi mənzil mükəlləfiyyətini yerinə yetirməlidirlər[218].

XIX əsrin I yarısında Qafqaz almanları, o cümlədən bütün Rusiya almanlarının xarici ticarət sahəsində fəaliyyətinə müəyyən məhdudiyyətlər qoyulmuşdu. Belə ki, 01 yanvar 1807-ci il tarixdə çarın imzaladığı Manifestə və 20 avqust 1820-ci il tarixli Senatın qərarına görə Rusiya təbəəliyini qəbul etməyən əcnəbilərin tacir silkinə qəbul edilməsinə qadağa qoyulmuşdu. Onlara yalnız dənizkənarı və sərhədyanı ərazilərdə «əcnəbi qonaq» kimi topdan ticarətlə məşğul olmaq hüququ verilmişdi və qərara görə «əcnəbi qonaqlar» I kateqoriyaya aid tacirlərlə eyni miqdarda vergi ödəməli idi[219].

Ancaq 27 fevral 1825-ci il tarixdə Rusiya ilə Prussiya arasında «Ticarət və gəmiçilik» haqqında dövlət konvensiyasının bağlanmasından sonra situasiya əsaslı şəkildə dəyişdi. Bu konvensiyaya görə «Prussiya təbəələri ilə Rusiyada və Polşada ticarət münasibətlərində yerli əhali ilə davranıldığı kimi davranılacaqdır»[220]. Bu

sənəd bütün Rusiya, o cümlədən Qafqaz almanlarının həm daxili, həm də xarici ticarət fəaliyyətinin canlanmasına təkan verdi.

XIX əsrin I yarısında Qafqazda xarici ticarətlə məşğul olan alman firmaları çox deyildi. Daxili ticarət şəhərlərdə və qəsəbələrdə cəmləşmişdi və əsasən bazar və yarmarkalar vasitəsilə həyata keçirilirdi. Daxili bazarlarda alman kolonistlərinin payı o qədər də böyük deyildi. Satılan malın xüsusiyyətlərindən asılı olaraq ticarətçilər bir neçə kateqoriyaya bölünürdülər. Kolonistlərin böyük əksəriyyəti kənd təsərrüfatı məhsullarının və gündəlik tələbat mallarının satışı ilə məşğul olurdular.

Ümumilikdə, XIX əsrin I yarısında həm daxili, həm xarici ticarət sahələrində alman iş adamlarının rolu nəzərəçarpacaq dərəcədə olmamışdır.

Kənd sənətkarları həm alman kolonistlərini, həm də yerli azərbaycanlı, gürcü əhalisini kənd təsərrüfatı alətləri ilə arabalarla təmin edir, onlar üçün təsərrüfat obyektləri, at tövlələri, anbarlar inşa edirdilər. Alman tarixçisi Yozef Vayz kənd sənətkarlarının rolunu vurğulayaraq yazır ki, «məhz alman sənətkarların əməyi sayəsində koloniyalar alman simasına düşmüşdülər»[221].

Bütün sənaye sahələri arasında almanların daha çox nailiyyət qazandığı üzümçülük və şərabçılıq olmuşdur. Şərabçılıq alman koloniyalarında onların məskunlaşdığı ilk illərdən əsas məşğuliyyət sahəsinə çevrilmişdi. Bu sahə çox gəlirli olduğundan, bir çox kolonist ailələri onunla çox maraqla məşğul olurdular.

Dünyada şərabçılıq məhsullarına tələbin get-gedə artması daha çox kolonist təsərrüfatlarının bu sahəyə üz tutmasına gətirdi.

XIX əsrin ortalarında şərabçılıq sənayesində, hətta işçi qüvvəsinə ehtiyac yarandı və bunları nəzərə alaraq 18 oktyabr 1838-ci il tarixdə Rusiyanın Daxili İşlər Nazirliyi ixracat məhsullarının istehsalı ilə məşğul olan firmalara yerli kəndliləri muzdla işə götürməyə icazə verdi[222].

Sənətkarlıq şəhərlə yanaşı, həmçinin koloniyalarda, yəni kəndlərdə də geniş yayılmışdı. Kənddə sənətkarlar təbəqəsinin yaranması, əsasən iki amillə izah olunurdu: 1) quberniyaların şəhərlə kəndləri arasında nəqliyyat kommunikasiyalarının yarıtmaz vəziyyətdə olması; 2) bəzi kolonist ailələrinin torpaq sarıdan çətinlik çəkməsi. Kolonistlər kənd təsərrüfatı alətləri almaq üçün şəhərə gedə bilmirdilər, çünki bu böyük maddi və fiziki məhrumiyyətlərə başa gəlirdi. Koloniyalarda kənd təsərrüfatı alətlərinə daim ehtiyac olduğundan bəzi kolonistlər onların hazırlanması ilə məşğul olmaqda ixtisaslaşır, əkinçiliklə yanaşı, sənətkarlıqla da məşğul olurdular.

XIX əsrin ortalarında koloniyalarda sənətkarlıqla məşğul olan kolonistlərin sayı əhəmiyyətli dərəcədə artdı ki, bu da həm torpaqsız və aztorpaqlı kolonistlərin sayının artması, həm də sənətkarlığın gəlirli bir sahəyə çevrilməsi ilə izah olunur. Koloniyalarda sənətkarlığın inkişafı koloniyadaxili sənətkarlar məhəlləsinin yaradılması kimi təkliflərin irəli sürülməsinə gətirdi. Məsələn, Yekaterinoslav quberniyasının Moloçansk koloniyasının sakini İvan Kornis Rusiyanın bütün iri

koloniyalarında xüsusi sənətkarlar məhəlləsinin yaradılması proyekti ilə çıxış etdi.[223] Onun fikrincə, hər kolonist-sənətkar ailəsi 3 des. torpaqla təmin olunmalı idi ki, onlar həm də əkinçilik və heyvandarlıqla da məşğul ola bilsinlər. Lakin İ.Kornisin proyekti koloniyalar tərəfindən qəbul edilmədi, çünki heç bir koloniya sənətkarlara torpaq sahəsi ayırmağı arzulamırdı.[224] Qeyd edək ki, İ.Kornisin proyektinin yaranması koloniyalarda çoxsaylı sənətkar sexlərinin mövcudluğundan doğmuşdu. XIX əsrin ortalarında böyük alman koloniyalarında 50-yə yaxın sənətkar peşəsinə rast gəlinirdi. Onlar arasında ağac və metal üzrə tokar, dəri aşılayan və sair nadir sənətkarlıq peşələrinə rast gəlinirdi.

Alman kolonistlərinin Cənubi Qafqazda məskunlaşdırılması dövlət büdcəsinə baha başa gəldi. Tarixi mənbələrdən göründüyü kimi, alman əhalisi Almaniyadan Rusiyaya yollandığı andan çar hökuməti tərəfindən maliyyələşdirilmişdir. Kolonistlərin Gürcüstana gəlişinə qədər hökumət tərəfindən onlara 488 min 342 rubl 32 qəpik xərclənmişdir.[225] Gürcüstana çatdıqdan sonra da kolonistlərin ərzaqla təminatı təsərrüfat həyatını qurmaq üçün onların sağlamlığının qorunması, Aleksandersdorf, Marienfeld və Yelizavettal koloniyalarında dəyirmanların inşası üçün daha 434 min 687 rubl 13 qəp. sərf edilmişdir.[226]

1822-ci il sentyabrın 1-də kolonistlərə maddi yardım göstərilməsi dayandırıldı. Bu vaxta qədər artıq dövlət büdcəsindən onlara 923 min 029 rubl 45 qəp. pul xərclənmişdi.[227]

Kolonistlər Vürtemberqdən İzmailə çatanadək—57918 rubl 78 qəpik, İzmail və Odessada qışladıqları dövrdə isə 84694 rubl 55 qəp. pul vəsaiti almışlar. Ümumiyyətlə, Almaniyadan köçüb Gürcüstanda məskunlaşdıqları, yəni 1817-1823-cü illər ərzində çar hökumətinin büdcəsindən kolonistlərə ümumi hesabla 1 mln. 065 min 642 rubl 78 qəpik vəsait ayrılmışdır ki, bu da o dövrdə çox böyük məbləğ idi.[228]

Qeyd edək ki, çar hökumətinin alman kolonistlərinə maddi yardımı sonrakı dövrlərdə də davam etmişdir. Məsələn, 1826-1828-ci illərin II rus-iran müharibəsi illərində Cənubi Qafqazın alman koloniyaları talanlara məruz qaldılar, xüsusən Borçalıda yerləşən Yekaterinenfeld koloniyasının itkiləri daha ağır idi: 20 nəfər öldürülmüş, 76 nəfər itkin düşmüşdü.[229] Bütün bunları nəzərə alaraq çar hökuməti Cənubi Qafqazda məskunlaşan hər alman ailəsinə yenidən 172 gümüş rubl civarında ssuda ayırdı və ümumilikdə Cənubi Qafqaz kolonistlərinə 201, 830 gümüş rubl borc ayrıldı.[230]

Gürcüstan Mülki Qubernatoru alman kolonistlərinə maddi vəsaitlərin ayrılması məsələsində sərt mövqedə dayanırdı. Onun fikrincə, sosial-iqtisadi sahədə kolonistlərin üzləşdiyi problemlər kolonistlərin rasional təsərrüfat apara bilməməsindən yaranırdı.[231] Məsələn, Yelenendorf və Yekaterinenfeld kolonistlərinin 1829-cu ilin yanvarında onlara maddi yardım edilməsi haqqında Gürcüstan Mülki Qubernatoruna ünvanladıqları xahişnaməyə cavabda göstərilirdi

ki, «kolonistlər artıq iki mövsüm səpin etmişlər, lakin yenə yardım kimi pul xahiş edirlər və bununla da, öz tənbəlliklərini və təsərrüfat apara bilməmələrini büruzə verirlər». Kolonistləri yerli kəndlilərlə müqayisə edən Qubernator ədalətli olaraq vurğulayır ki, kolonistlər «maddi rifah hallarını yaxşılaşdırmaq üçün vəsait alır və bunun müqabilində heç bir mükəlləfiyyətlər yerinə yetirmirlər. Yerli kəndlilər onlardan da acınacaqlı vəziyyətdə olsalar da, müxtəlif mükəlləfiyyətlər yerinə yetirirlər və xəzinədən heç bir kömək almırlar»[232].

Gürcüstan qubernatorunun fikrincə, kolonistlərə heç bir maddi yardım göstərilməməlidir, «kolonistlər əməksevərliyi sayəsində öz rifah halını yaxşılaşdırmalıdırlar»[233].

Cənubi Qafqaz kolonistləri 10 il müddətinə, yəni 1822—1832-ci illər ərzində vergilərdən, mükəlləfiyyətlərdən və ümumiyyətlə, hər hansı bir ödənişlərdən azad olmuşdular. Çar hökumətinin kolonistlərə ayırdığı maddi vəsait iki kateqoriyaya bölünürdü: pulun bir hissəsi təmənnasız yardım kimi, qalan hissəsi isə ssuda kimi borca verilmişdi. Ssudanın qaytarılması üçün kolonistlərə 20 il, yəni 1832-ci ildən 1851-ci ilədək müddət təyin olunmuşdu.

Kolonistlər üçün çar hökuməti tərəfindən yaradılan əlverişli şəraitə baxmayaraq, ayrılan 20 il ərzində Cənubi Qafqaz almanları büdcəyə borclarını tam şəkildə qaytara bilmədilər. 1851-ci ildə Cənubi Qafqaz kolonistlərinin borclarının qaytarılması ilə bağlı vəziyyətə aydınlıq gətirmək üçün hökumət tərəfindən xüsusi komissiya yaradıldı və komissiyanın araşdırmalarından sonra koloniyalara ayrılan maddi yardımın və ssudanın tam miqdarı kolonistlərin qaytaracağı borcun məbləği aydınlaşdırıldı.

***Cədvəl 2. 1851-ci ilin məlumatlarına görə, Cənubi Qafqazın alman koloniyalarının dövlətə borcları***[234]

| № | Koloniyaların adı | Qaytarılmayacaq borclar | | Qaytarılmalı borclar | |
|---|---|---|---|---|---|
| | | rubl | qəpik | rubl | qəpik |
| 1. | Tiflis koloniyası | 8042 | 30 | 3412 | 55 |
| 2. | Aleksandersdorf | 6822 | 94 | 3890 | 10 |
| 3. | Yelizavettal | 19291 | 17 | 12387 | 2 |
| 4. | Yekaterinenfeld | 24401 | 62 | 10424 | 99 |
| 5. | Marienfeld | 11960 | 37 | 1681 | 3 |
| 6. | Petersdorf | 6315 | 31 | 2538 | 11 |
| 7. | Annenfeld | 11882 | 64 | 7064 | 32 |
| 8. | Yelenendorf | 29006 | 94 | 19345 | - |
| 9. | Ümumi: | 117703 | 32 | 60743 | 12 |

Xüsusi komissiyanın araşdırmalarının nəticələri əsasında hazırlanan cədvəldən görünür ki, 1851-ci ildə Cənubi Qafqazın 8 koloniyası üzrə qaytarılmayacaq borcun miqdarı 117703 rubl 32 qəp., büdcəyə qaytarılması mütləq borcun miqdarı isə 60743 rubl 12 qəp. bərabər idi.

Qeyd edək ki, borcun tam ödənilməsi vaxtını çar hökuməti 1874-cü ilə qədər uzatdı və bu müddətə qədər kolonistlər büdcəyə olan bütün borclarını tam ödədilər.

Beləliklə, XIX əsrin birinci yarısında Qafqaz almanlarının sosial-iqtisadi həyatına aid mənbələri və ədəbiyyatı təhlil etdikdən sonra belə qənaətə gələ bilərik ki, bu dövrdə kolonistlər iqlimə, təsərrüfata, etno-konfessional mühitə uyğunlaşma ilə bağlı yaranan problemlərin həlli ilə məşğul olmuşlar.

Kolonistlərin iqtisadi həyatı təşəkkül mərhələsində idi və almanlar daha optimal təsərrüfat sisteminin axtarışındaydılar. İqtisadi yüksəlişə uyğunlaşma imkanlarının çatışmazlığı ilə yanaşı, onların mənəvi-dini həyatındakı daxili ixtilaflar da öz təsirini göstərirdi.

## 1.4. XIX ƏSRİN BİRİNCİ YARISINDA QAFQAZ ALMANLARININ MƏNƏVİ-DİNİ HƏYATI

XVIII-XIX əsrlərdə Almaniyadan əhalinin mühacirətinə təsir göstərən amillər sırasında dini amillər çox böyük rol oynamışdır. Bir sıra mühacir axını üçün dini amil əsas olmuşdur və Rusiyada, o cümlədən Qafqaz regionunda almanların məskunlaşma prosesinin bəzi xüsusiyyətlərini şərtləndirmişdir.

22 iyul 1763-cü il tarixdə II Yekaterina tərəfindən imzalanmış «Rusiyaya köçüb gələn bütün əcnəbilərə istənilən quberniyada məskunlaşmağa icazə verilməsi və onlara bəxş edilən hüquqlar haqqında» Manifestdə Rusiya imperiyasında məskunlaşmaq məqsədilə köçən hər kəsə «maneəsiz, öz Nizamnaməsi və ayinlərinə əsasən, dini etiqadlarını yerinə yetirmək azadlığı vəd olunurdu. Bu sənəd Rusiya dövlətinin dini dözümlülüyünü bəyan etdi: Manifestdə dini etiqadlara azadlıq verilməklə yanaşı, «monastrların yaradılması və xristianlığa etiqad edənlər arasında missionerlik fəaliyyətinin aparılmasına» qadağa qoyulurdu[235]. Nəticədə, Rusiya imperiyasına əhəmiyyətli sayda katoliklər köçdü. Qeyd edək ki, almanların Rusiyaya mühacirəti müxtəlif müstəqil protestant konfessiyaları formasında özünü büruzə verirdi: yevangelist-lüteran, reformator, mennonit, baptist, ştundist və sair protestant cərəyanlarının müəyyən mənada inkişafı və bir-birləri ilə birləşməsi prosesi Rusiya şəraitində davam etmişdir.

Alman əhalisinin Rusiyaya köçməsi və məskunlaşması prosesində Rusiya pravoslav kilsəsinin protestantizmə münasibəti mühüm rol oynamışdır. Məlumdur ki, protestantizm qərb xristianlığında yaranan Reformasiya hərəkatının nəticəsi kimi, qərb xristianlığının birliyini parçalamış və dini subyektivizmin əsasını qoymuşdur. Pravoslav kilsəsi İncilin yayılması faktına əsaslanaraq protestantizmin

orqanik əmələ gəlməsini inkar etsə də, protestantizm təlimi katolisizim dünyagörüşünə müxalif baxışlardan yarandığı üçün pravoslav kilsəsi onu özünə həmişə «müttəfiq» saymışdır. Rusiyada əcnəbi kolonistlərin məskunlaşdırılması prosesində çar hökumətinin qanunpərəst və əməksevər protestantlara daha çox üstünlük verməsində bu səbəb əhəmiyyətli rol oynamışdır.

Təsadüfi deyil ki, Qafqaz quberniyasında ilk müstəqil alman koloniyasının yaranması məhz dini amillə bağlı olmuşdur. Hələ 1802-ci ilin yayında Edinburq missioner cəmiyyətinin direktorları Rusiya hökumətinə müraciət edərək imperiyanın cənub hüdudlarında protestant missionerliyini təsis etməyə icazə istəmişdilər. Bu vəzifənin həyata keçirilməsi şotland mənşəli missionerlər Henri Brontona və Aleksandr Patersona həvalə edilmişdi[236]

Yaradılan missionerliyin əsas məqsədi islam dininə və bütpərəstliyə etiqad edən dağlı xalqları arasında xristianlıq haqqında biliklərin təbliği və onların, tədricən xristianlaşdırılmasından ibarət idi. 22 iyul 1763-cü il Manifestində əcnəbi kolonistlərə xristian dininə etiqad edən xalqları başqa cərəyanlara yönəltmək qadağan edilsə də, müsəlman xalqlarını, nəinki «xristian qanunlarına cəlb etmək», hətta onlardan təhkimli kimi istifadə etməyə də icazə verilirdi. Şimali Qafqazın xristian olmayan əhalisi arasında protestantizmin reformatorluq cərəyanının təbliği nəzərdə tutulurdu[237]. Reformatorluq ortodoksal protestantizmin cərəyanlarından biri kimi kontinental Avropadakı kalvinist kilsələrin tərəfdarlarını birləşdirirdi. Bu cərəyanın banisi və təşəbbüskarı Kalvin olmuşdu. Onun təlimi Cənubi-Qərbi Almaniya və Hollandiyada — «refarmatorluq», Fransada — «quqenotçuluq», Şotlandiyada, İngiltərədə, Şimali Amerikada — «presveterianlıq» adı ilə yayılmışdı və yalnız Şotlandiyada kalvinizm hakim mövqe tuta bilmişdi. Şotland koloniyası öz xüsusi mətbəəsinə məxsus olan böyük missioner mərkəzi kimi Qafqazda reformatorluğun yayılmasında mühüm rol oynamalı idi.

Şotland koloniyasının təşəkkül tapmasında Volqaboyunda artıq fəaliyyət göstərən Sarepta kolonistlərinin böyük rolu oldu.[238] Belə ki, Sarepta koloniyasında məskunlaşmaq istəyən 23 şotland missionerindən 10 nəfəri müxtəlif xəstəliklərdən vəfat etdikdən sonra yerdə qalanlara Şimali Qafqaza köçməyə icazə verildi və onlar Şotland koloniyasında məskunlaşdılar. 1813-cü ildə reformatorlardan ibarət bu koloniyada artıq 123 nəfər yaşayırdı.[239]

Dağlı xalqları arasında xristianlığın yayılması məqsədilə əcnəbi missionerlərə yerli əhali arasından gənclərin, hətta köləliyə alınmasına da icazə verilmişdi. Köləliyə alman gəncin yaşı 16-dan yuxarı olmamalı idi və 7 ildən sonra, yəni 23 yaşında həmin şəxs azadlığa buraxıla bilərdi. Əgər köləliyə götürülən gənc 16 yaşdan kiçik olardısa, yenə onun 23 yaşı tamam olana qədər koloniyada saxlanılması mütləq idi. Bu yaş həddinə çatanlar və koloniyada kölələrdən doğulan uşaqlar azad sayılırdılar. Alınmış kölələrin üçüncü bir şəxsə satılması qadağan edilirdi[240].

Baxmayaraq ki, Şotland koloniyasının sakinləri çətin maddi şəraitdə yaşayırdılar və təsərrüfat həyatının qurulması hələ başa çatmamışdı, onlar əsas məqsədlərinin—dağlı xalqları arasında xristianlığın yayılmasına bütün qüvvələrini və vaxtlarını, bəzən maliyyə vəsaitlərini sərf edirdilər: yerli xalqlarla yaxınlıq əlaqəsi yaratmaq məqsədilə missionerlər onlara maddi yardım göstərirdilər. Missioner Henri Brontonun ərəb dilini bilməsi onun yerli xalqlarla və əsasən islama etiqad edən əhali arasında nüfuz qazanmasına köməklik etdi. Hətta koloniyanın mətbəəsində ərəb-tatar şrifti ilə tatar dilində İncil çap edilərək Şimali Qafqazın türkdilli xalqları arasında yayıldı.[241]

1828-ci il qanununa görə lüteran kilsəsi rəsmi status alaraq pravoslav kilsəsi kimi dövlət kilsəsinə çevrildi. Lüteran kilsəsi Rusiyada rəsmi dövlət statusu olan ilk əcnəbi kilsə oldu. Bu məzmunlu qanunun qəbul edilməsində və ümumiyyətlə, XIX əsrin I yarısında çar hökumətinin yevangelist-lüteran kilsəsinə münasibətinin müsbət cəhətdən dəyişməsində, lüteranlığın və pravoslav kilsəsinin bərabər tutulmasında, şübhəsiz, I Nikolayın həyat yoldaşı, Prussiya kralı III Fridrix Vilhelmin qızı Frederika — Luiza Şarlotta — Vilhelminanın az təsiri olmamışdır.[242]

1828-ci il qanununa görə bütün yevangelist təşkilatların birləşməsinə imkan yaradılsa da başqa bir tərəfdən yalnız lüteran kilsə qaydalarına əməl olunması tələb edilirdi.[243]

İmperiyanın cənubunda, o cümlədən Qafqazda bu qanun münaqişə ocağı yaratdı. Coğrafi xüsusiyyətlərindən asılı olaraq Qafqazdakı alman koloniyaları dispersiya və təcrid olunmuş şəkildə mövcud olduqlarından müxtəlif konfessiyaların bir-biri ilə birləşməsi üçün münbit şərait yaranırdı. Bu birləşmələr müxtəlif konfessiyaların könüllü razılığı əsasında baş verirdi və hər bir konfessiyanın özünəməxsus xüsusiyyətləri saxlanılırdı. Qəbul olunmuş qanuna görə yalnız lüteran doqmalarına və ayinlərinə əməl edilməsi tələb olunurdu.

Bu dövrdə yeni koloniyaların yaranması faktına rast gəlinmir, yalnız Yekaterinoslav quberniyasından bir neçə alman ailəsinin Stavropol diyarının boş torpaqlarında məskunlaşmaq arzusu ilə rəsmi dövlət orqanlarına müraciət etməsi məlumdur [244].

1828-ci il qanunu Qafqazda lüteranlığın yayılmasına münbit şəraitin yaradılmasına xidmət etsə də, onun konkret nəticələri o qədər də əhəmiyyətli deyildi.

Missionerlərin Şimali Qafqazda 30 illik fəaliyyəti əsaslı nəticələr vermədi: 1834-cü ilin məlumatlarına görə Şotland koloniyasında xristianlığı qəbul etmiş cəmi 9 dağlı ailəsi və 6 kabardin yaşayırdı ki, onlar da alman qızları ilə evlənərək xristianlığı qəbul etmişdilər.[245]

Şotland missionerlərinin dağlı xalqlarına qarşı dini ekspansiyası onlarla münasibətlərin korlanmasının əsas səbəblərindən biri idi. XIX əsrin əvvəllərindən

Şotland koloniyası dəfələrlə qonşu kabardin əhalisinin hücumlarına məruz qalmışdı.[246]

1835-ci ildə Nazirlər komitəsinin Əsasnaməsinə görə Şotland koloniyasında çox ciddi dəyişikliklər baş verdi: koloniya sakinlərinə missionerlik fəaliyyəti qadağan edildi. Çar hökumət dairələri başda Bronton və Paterson olmaqla missionerləri dini təbliğat pərdəsi altında Rusiyaya qarşı casusluqda günahlandırdılar. Qeyd edək ki, hələ koloniya yarandığı dövrdə missionerlərin Böyük Britaniyanın xeyrinə kəşfiyyatçılıq etmələri haqqında general Sisianov fikir söyləmişdi[247].

Fikrimizcə, Şotland kolonistlərinin missionerlik fəaliyyətinin dayandırılmasının əsas səbəblərindən biri 1832-ci il tarixdə Rusiya yevangelist-lüteran kilsə Nizamnaməsinin qəbul edilməsi oldu[248].

Reformatorluq və yevangelist-lüteran cərəyanlarının birləşməsi nəticəsində spesifik «uniatlar» meydana gəldi və bu «uniatlar» özlərində hər iki konfessiyanın xüsusiyyətlərini birləşdirirdi. Ancaq 1832-ci il Nizamnaməsinə görə yalnız lüteran doqmalarına və ayinlərinə əməl olunması tələb olunurdu. Şotland koloniyasının yevangelist-reformator icması inzibati cəhətdən Pyatigorsk yevangelist-lüteran prixoduna tabe etdirildi.

Beləliklə, hələ təşəkkül mərhələsini yaşayan Şimali Qafqazın yevangelist-lüteran və Reformator kilsələri dövlət siyasəti nəticəsində birləşdirildilər. Ancaq situasiya dramatik hal almadı. Pyatiqorsk yevangelist-lüteran prixoduna inzibati cənətdən tabe etdirilən reformator icması ayrıca məbədə məxsus idi və burada dini mərasimlər reformator adətlərinə uyğun aparılırdı.[249]

Yeni Nizamnaməyə görə reformator icmasının başında seçilmiş presviter deyil pastor durmalı idi. Cənubi Qafqazın separatçılarından fərqli olaraq, Karras (Şotland) koloniyasında bu yeniliyə qarşı narazılıq müşahidə olunmadı. Bunu missionerlərin əvvəlki illərdə çar hökumətindən aldıqları dəstəyə görə güzəştə getmələri kimi qiymətləndirmək olar. Bundan başqa, Karras missionerləri Cənubi Qafqaz separatçıları qədər öz dini təlimlərinin saflığı uğrunda fanatik şəkildə mübarizə aparmırdılar.

Qeyd edək ki, çar hökuməti bütün protestant konfessiyaları arasında yevangelist-lüteran konfessiyasına xüsusi diqqətlə yanaşırdı. Məhz 22 may 1828-ci il və 28 dekabr 1832-ci il qərarları yevangelist-lüteran konfessiyasının güclənməsinə və bütün əcnəbi dini konfessiyalar içində xüsusi mövqe tutmasına xidmət edirdi. Bu qanunların müddəaları əsasında yevangelist-lüteran kilsəsinin doqmalarına tam və toxunulmaz şəkildə uyğun gələn yeni Nizamnamə hazırlandı. Bu qanunlardan sonra yevangelist-lüteran kilsəsi Rusiyada Pravoslav kilsəsi ilə bərabər rəsmi dövlət statusu aldı.

Pravoslav və yevangelist-lüteran kilsələri arasında mövcud olan dərin və mühüm doqmatik ziddiyyətlərə baxmayaraq, bütün protestant konfessiyaları arasında çar hökuməti yevangelist-lüteran kilsəsinə üstünlük verdi. Fikrimizcə, bu,

ilk növbədə lüteranlığın kvietizmliyi ilə izah oluna bilər. Məlumdur ki, kvietizm əxlaqi passivliyi təbliğ edir, yəni xristian Allah və insan qarşısında passivdir; bir tərəfdən o passiv şəkildə qəbul edir, digər tərəfdən passiv əziyyət çəkir. Kvietizmə görə xristianın azadlığı daxili olmalıdır, xarici davranışında lüteran dünyanı idarə edənlərin tabeliyində olmalıdır[250]. Bu müddəa yevangelist-lüteran təlimini başqa protestant konfessiyalarının təlimlərindən, dini təsəvvürlərindən fərqləndirirdi.

Bəzi protestant konfessiyaları şərə zorla müqavimət göstərməmək haqqında xristian vəsiyyətini əsas tutaraq özləri üçün məhdud hüquq səlahiyyəti tələb edirdilər, yəni hərbi və mülki xidmətdən, dünyəvi məhkəmədən və sair dövlət institutlarından azad olmağa, dövlətin təsirindən çıxmağa çalışırdılar.

Lüteranlıq Rusiyada etnik almanların kompakt yaşadığı Pribaltika, Volqaboyu, Novorossiya regionlarında geniş yayılmışdı və burada onlar sayca üstünlük təşkil edirdilər. Bu baxımdan Şimali Qafqaz istisna təşkil edirdi: burada lüteranların sayı yerdə qalan protestant konfessiyalarının ümumi sayından az idi. Sankt-Peterburqda yerləşən Baş konsistoriyanın statistik məlumatlarına görə XIX əsrin ortalarında Şimali Qafqazda lüteranlar ümumi protestantların 40-50%-ni təşkil edirdilər.[251]

Yevangelist-lüteran icmaları prixodlar vasitəsilə idarə edilirdilər. Şimali Qafqazda ilk yevangelist-lüteran prixodu 1835-ci ildə yaranmışdı ki, o da Pyatiqorsk-Karras prixodu idi. Regionda mövcud olan reformator və yevangelist-lüteran icmaları bu prixoda tabe idi. Qeyd edək ki, Pyatiqorsk-Karras və ondan sonra yaranan prixodlar Moskvada yerləşən yerli konsistoriyaya aid idi. Ali inzibati kilsə orqanı Baş konsistoriya sayılırdı və o, Sankt-Peterburqda yerləşirdi.

Yevangelist-lüteran kilsəsinin idarə olunmasının əsasında lüteran təliminə xas olan din xadimlərinin miryanlara qarşı qoyulmaması prinsipi dururdu. Kilsə idarəçiliyi dini icma üzvlərinin ümumi iclası tərəfindən həyata keçirilirdi. Volqaboyu və sair regionlarda idarəetmədə əsas həlqə prixodlar olduğu halda, Şimali Qafqazda kənd dini icmalarının dispers şəkildə mövcudluğu səbəbindən burada kilsələrin idarə edilməsi Kilsə şurasına həvalə edilmişdi.

Kilsə şurasına hər kənd dini icmasından 3-4 nəfər, şəhər icmalarından isə 1 nəfər nümayəndə daxil edilirdi. Kilsə şurasının bütün üzvləri ildə 1 dəfə, əsasən yanvar ayında toplaşır və burada təftiş komissiyasının hesabatı dinlənilir, kassanın hesabatı yoxlanılırdı. Cari məsələləri həll etmək üçün kilsə şurası öz üzvlərindən idarə heyəti seçirdi ki, bura prezident, onun köməkçisi, kassir, katib və iki üzvü daxil idi. Kilsə Şurasının idarə heyəti zərurət yarandıqda toplaşırdı. Kilsə Şurasının iclasları protokollaşdırılırdı və seçilmiş təftiş komissiyası hesab kitabçasının cari və illik yoxlanışını aparırdı. Kassanın hesabatı yazılı şəkildə hər dini icmaya təqdim olunurdu. Bundan savayı, icmanın kapitalı və maddi vəziyyəti haqqında hesabat Baş konsistoriyaya göndərilirdi. Hesabata raport da əlavə edilirdi və bu raportda hesabatın Kilsə şurasında müzakirə olunması və qəbul edilməsi göstərilirdi.[252]

Şimali Qafqazda mövcud olan lüteran prixodlarının xüsusiyyətlərindən biri ucqar kənd icmalarında küsterlehlerin (kilsə müəllimi) fəaliyyət göstərməsi idi. Kilsə müəllimi pastor tərəfindən təyin edilirdi və onun əmək haqqı icma tərəfindən ödənilirdi. O, gənclərin dini tərbiyəsi ilə məşğul olur, onları maarifləndirir, lüteranlığa aid olan adətləri - konfirmasiyanı yerinə yetirir, dəfn mərasimləri, xaça salma və sair mərasimlərdə pastor vəzifəsini icra edirdi. Belə ucqar kəndlərdə pastor ildə bir dəfə olurdu və küsterlehlərin yerinə yetirdiyi dini adətləri rəsmiləşdirirdi.[253]

Pastorlar adətən şəhərdə yaşayırdılar və ildə 3 dəfə kənd icmalarını gəzərək dini mərasimləri yerinə yetirirdi. Onlar ildə 6000 rubl məvacib alırdılar və bu icma üzvləri hesabına ödənilirdi. Şəhər icmaları üzvlərinin sayından asılı olmayaraq 1000 rubl ödəyirdilər. Kənd icmalarının ödənişləri üzvlərin sayından asılı idi və ödəniş ildə 3 dəfə — fevralın, mayın və oktyabrın birinci günləri hissə-hissə yerinə yetirilə bilərdi.[254] Məsafə uzaqlığına baxmayaraq, prixodlar həm yerli konsistoriya, həm də Baş konsistoriya ilə mütəmadi əlaqələr saxlayırdılar. Konsistoriyalar yerlərdə dini etiqadlara dəqiq əməl olunmasına, bir konfessiyadan başqasına keçid prosesinə nəzarət edir, Rusiyanın tarixi və yaxud siyasi həyatı ilə bağlı təntənəli duaların oxunmasını təmin edirdilər[255]. Baş konsistoriya prixodlar, kilsələr, kilsənin şuraları tərəfindən yevangelist-lüteran kilsəsi Nizamnaməsinə dəqiq əməl olunmasına ciddi nəzarət edirdi. İnzibati cəhətdən birləşmiş yevangelist-lüteranlardan və reformatorlardan savayı Şimali Qafqazda XIX əsrin 30-cu illərindən «İsxod hərəkat»ının tərəfdarları məskunlaşmağa başladılar. Bu hərəkat XIX əsrin əvvəllərində Almaniyada protestantizmin transformasiyası nəticəsində formalaşmışdı. «İsxod hərəkatı» nəzəri əsaslarını mistik dini cərəyan olan pietizmdən alırdı. Pietizmin banisi alman teoloqu, frankfurtlu F.Şpener dini hisləri dini doqmalardan üstün tutur, kilsə mərasimlərini rədd edir, dindar üçün Allahı özündə yaşatmağın zəruriliyini qeyd edərək bunun yüksək həyat prinsiplərinin formalaşmasında və «İlahi Nemət»in əldə edilməsində hansı rol oynadığını göstərirdi.[256]

XIX əsrin əvvəllərində Qərbi Avropada sosial-iqtisadi situasiyanın mürəkkəbləşməsi yeni dini iqlimin yaranmasına, esxatoloji təsəvvürlərin yayılmasına və yeni «İsxod hərəkat»ının yaranmasına gətirdi. Bu hərəkatı təşkil edən və maliyyələşdirən Yuliya fon Kürdener olmuşdur. O, Bengelin, Yunq — Ştillinqin, Şpenerin əsərlərinə istinadən tezliklə 1836-cı ildə Ağrı dağında İsa Məsihin ikinci gəlişi haqqında fikirlər söyləyərək, burada minillik çarlığın yaranacağını təsdiqləyirdi.

1817—1818-ci illərdə konkret fəaliyyətə başlayan bu hərəkatın nəticəsi Cənubi Qafqazda 8 alman koloniyasının yaranması oldu.

Alman əhalisinin, o cümlədən separatçıların Qafqaza köçmə prosesi ilə biz əvvəlki fəsillərdə tanış olduğumuzdan bu məsələ üstündə dayanmağa ehtiyac yoxdur. Bir faktı qeyd etmək yerinə düşərdi ki, separatçılar Rusiya imperiyasına

köçməyə icazə almaq üçün çar I Aleksandrın adına xahişnamə göndərmişdilər və bu xahişnamədə onların nə səbəbdən separatizm yoluna düşmələri, Almaniyada hansı təqiblərə məruz qalmaları ilə yanaşı Rusiyada məskunlaşdıqdan sonra «kilsə və məktəblərdə hər şeyin İisus Xristos və onun apostollarının təliminə uyğun olaraq qurulacağı» haqqında vəd verirdilər. Çar hökuməti separatçıların istəklərini nəzərə alaraq onlara dini etiqadlarının yerinə yetirilməsində tam azadlıq veriləcəyi haqqında zəmanət verdi.[257]

Yeni yaşayış yerində separatçılarla rəsmi dövlət orqanları arasında ilk ziddiyyət 1819-cu ildə yarandı. Gürcüstan mülki qubernatoru general-mayor Xoven Peterburqa göndərdiyi hesabatlarında separatçı cəmiyyətində özbaşınalığın hökm sürdüyünü, onların heç bir hakimiyyəti tanımadıqlarını göstərir və separatçılara pastorların təyin olunmasını, separatçıların and qəbul etməsini təklif edirdi. Bu məzmunlu təkliflə, həmçinin general-leytenant Velyaminov da çıxış etdi. Rusiyanın Daxili İşlər Naziri knyaz Koçubey 22 iyul 1763-cü il Manifestinin və 1804-cü ildə qəbul edilmiş «Kolonistlər haqqında qaydalar»dakı müddəaları əsas gətirərək «separatçılar»dan and içmənin tələb olunmamasını və bunun onların dini etiqadlarına uyğun şəkildə həyata keçirilməsini «tövsiyə etdi».[258]

Cənubi Qafqaz koloniyalarında geniş yayılan separatizm ideyalarına qarşı mübarizə aparmaq, separatçıları vahid lüteran kilsəsi ətrafında birləşdirmək üçün çar hökumətinin alman dili bilən missionerlərə ehtiyacı vardı. Bu məqsədlə 1820-ci ildə İsveçrənin Bazel missioner cəmiyyətindən Rusiyaya bir qrup missioner dəvət edildi. Çar hökuməti tərəfindən onlar qarşısında Rusiyanın bütpərəst, yəhudi, müsəlman xalqları, o cümlədən ənənəvi protestantizmin doqmalarını qəbul etməyən protestant — sektalar arasında yevangelizmin yayılması vəzifəsi qoyulmuşdu. Bazel missionerlərinə öz koloniyalarını yaratmaq, təbliğat məqsədilə məktəblər açmaq, öz mətbəəsində dini ədəbiyyat çap etmək və yaymaq kimi hüquqlar verilmişdi və təbii ki, bütün bu fəaliyyət istiqamətləri Daxili İşlər orqanlarının nəzarətində idi.

1821-ci ilin oktyabrında Bazel missionerlərindən 5 nəfərlik nümayəndə heyəti rəsmi orqanlar tərəfindən təlimatlandırıldıqdan sonra Cənubi Qafqaza yola düşdülər. Onların hamısı alman mənşəli idi və Bazel yevangelizm cəmiyyətinin tapşırığını yerinə yetirərək Qara dəniz və Xəzər dənizi arasındakı ərazilərdə məskunlaşmalı və yerli xalqlar arasında protestantizmin təbliği ilə məşğul olmalı idilər. A.Ditrix, F.Zaremba, Q.Bents, R.Ferdinand və İ.Lanqdan ibarət missioner qrupunun ilk 3 üzvü 1823-cü ildə Tiflisdən keçərək Azərbaycanın Şuşa şəhərinə gəldilər.[259] Tezliklə missionerlər burada dini məktəbin və mətbəənin əsasını qoyaraq bütün Cənubi Qafqaz üzrə fəal təbliğat kampaniyasına başladılar. Qeyd edək ki, missionerlərin ərəb, türk, erməni, fars dillərini bilməsi onların təbliğat fəaliyyətində effektləşdirici amil rolunu oynamalı idi. Təsadüfi deyil ki, Qarabağda missionerlərin fəaliyyəti nəticəsində erməni - qriqoryan kilsəsinin xeyli tərəfdarları, xüsusən də gənclər yevangelizmə meyil etməyə başladılar. Hadisələrin

bu cür inkişafı Cənubi Qafqazın yerli hakimiyyət orqanlarını narahat etməyə bilməzdi və 1823-cü ildə general Yermolov 25 dekabr 1806-cı il qanununu əsas tutaraq missionerlərə milliyyətindən və dini mənsubiyyətindən asılı olmayaraq, Rusiya təbəələri arasında dini təbliğatın aparılmasını qadağan etdi.[260] Nəticədə, alman missionerlərinə yalnız xarici ölkə təbəəliyində olan qaçqın erməni əhalisi, rus sektantları və alman separatçıları arasında yevangelizmin təbliğinə icazə verilirdi. Separatistlərlə eyni etnik mənsubiyyətə malik olan missionerlərin yevangelizm təlimini təbliğ etməsi separatçı — kolonistlərin yevangelist-lüteran kilsəsinə müqavimətini daha da gücləndirirdi. Separatçıların ümumi yaşayış qaydalarına və dini qaydalara tabe etdirilməsi vəzifəsində israrlı olan Velyaminov 1824-cü ildə yeni Daxili İşlər Naziri V.S.Lanskoya müraciət etdi və Cənubi Qafqaz separatçılarına yevangelist pastorun təyin olunmasını xahiş etdi. 1825-ci ildə Daxili İşlər Naziri general Yermolova separatizmin nəzəriyyəçilərindən biri, Sarepta koloniyasında yaşayan Pastor Qannın Gürcüstana göndərilməsi haqqında məlumat verdi.[261] Kənardan pastorun təyin olunması Cənubi Qafqaz separatçılarının narazılığına səbəb oldu.

Qann Bazel missionerləri ilə birlikdə Cənubi Qafqazın kolonist dini icmalarının daxili idarəedilməsinin proyektini hazırladı və bu sənədin əsasını lüteran kilsələrinin Kilsə nizamnaməsi təşkil edirdi. Ober — pastor vəzifəsinə başqa bir namizəd Tiflis və Aleksandersdorf koloniyalarının pastoru Zaltet idi. Separatçıların fikrincə, Zaltet «ikiüzlülərə rəğbət bəsləyir və müdrikləri təqib edirdi». Bunlara baxmayaraq, Cənubi Qafqaz koloniyalarının dini idarəetmə məsələsində Zaltet daha çox Ausburq kilsə ayinlərinə əməl olunmasını əsas tuturdu ki, bu amil, Qannla müqayisədə, separatçılar arasında onun nüfuzunu daha da gücləndirirdi. Pastor Qann separatizmin mərkəzi sayılan Yekaterinenfeld koloniyasında fəaliyyətə başlamalı idi. Lakin naməlum səbəblərdən Pastor Qannın qəflətən vəfat etməsi çar hökumət dairələrinin separatçıları nəzarətə almaq planlarını pozdu.

Çar hökumətinin əsas məqsədi bütün alman kolonistlərini vahid Lüteran kilsəsi ətrafında birləşdirmək və bununla müxtəlif protestant konfessiyaları arasındakı ziddiyyətlərə son qoymaq, onların yerli əhaliyə təsir gücünü zəiflətməkdən, kolonist icmasının rolunun azadılması və onların daha çox kilsə tərəfindən nəzarətdə saxlanılmasına nail olmaqdan ibarət idi.

Tarixi mənbələrdən göründüyü kimi, 1820-ci illərdə rəsmi dövlət orqanlarını ən çox narahat edən məsələ separatçı kolonistlərin çoxluq təşkil etdiyi koloniyalara pastorların təyin olunması idi ki, «onlar kolonistlərə Allahın kəlamını çatdıralar, mövhumatı dağıdalar, mənəvilik və mütiliyə ibrətamiz nümunə göstərələr».

1826-cı ildən başlayaraq Cənubi Qafqazda separatizmin dayaqları zəiflədi. Fikrimizcə, bu 1826—1828-ci illərin II rus-iran müharibəsinin başlanması, müharibə dövründə alman koloniyalarının və ilk növbədə separatçıların daha çox

məskunlaşdığı Yekaterinenfeld koloniyasının fəlakətə məruz qalması ilə bağlı idi. Belə ki, 26 avqust 1826-cı il tarixdə Yekaterinenfeld koloniyası 1000 nəfərlik kürd hərbi dəstələrinin hücumuna məruz qaldı, nəticədə 70 nəfər öldürüldü, 140 nəfər əsir götürüldü. Hücumdan sonra koloniyada cəmi 240 sakin sağ qalmışdı ki, «onların da evləri yandırılmış, əmlakları məhv edilmişdi.»[262]

Separatçıların ağır sosial vəziyyətindən istifadə edən missionerlər fəaliyyətlərini daha da optimallaşdırdılar. Qeyd edək ki, Bazel yevangelist missionerləri qonaq adı ilə bir çox alman koloniyalarında məskunlaşmışdılar və Yekaterinenfelddə onların sayı daha çox idi. Missionerlərin təbliğatı nəticəsində separatizmdən lüteranlığa keçənlərin sayı durmadan artırdı və artıq 1827-ci ildə koloniyada lüteranlığı qəbul edənlər sayca separatçıları üstələməyə başladılar. Separatçılar arasında parçalanma yenidən kolonist cəmiyyətlərində ictimai stabilliyin pozulmasına gətirdi. Problemi həll etmək üçün general-qubernator Sipyaqinin təklifi ilə Tiflisdə alman koloniyalarının vəziyyətinin yaxşılaşdırılması və bunun üçün vəsait axtarışı ilə məşğul olacaq komitə yaradıldı. Komitə qərara aldı ki, Gürcüstandakı koloniyalara pastorun təyin olunması konfessional birliyin əldə edilməsində mühüm rol oynaya bilər. Komitənin təklifi ilə keçmiş missioner Zaltet Gürcüstan koloniyalarına ober — pastor təyin olundu və bu təyinat separatçıların narazılığına səbəb oldu. Separatçıların fikrincə, missionerlər «imansızlar arasında xristianlığı təbliğ etmək əvəzinə xristianlar arasında qarışıqlıq yaradırlar».[263]

Qeyd edək ki, qonaq kimi separatçılar arasında məskunlaşan missionerlər istər mənəvi cəhətdən, istərsə də dini lider kimi separatçılara nümunə olmağı bacarmırdılar. Müxtəlif manipulyasiyalar yolu ilə separatçıları yevangelist-lüteran kilsəsinə cəlb etmək istəyən 20 yaşlı missionerlərin varlığı separatçıları qıcıqlandıran, «onlar arasında paxıllıq, ixtilaflar və düşmənçilik yayan» amil kimi səciyyələndirilirdi.

Ancaq adı çəkilən komitə öz qərarında israrlı idi və 1827-ci ildə separatçılar arasında heç bir nüfuza malik olmayan, keçmiş missioner Zaltet Gürcüstandakı alman koloniyalarının ober — pastoru təyin edildi. Gürcüstan separatçılarının kilsə idarə təşkilatını təkmilləşdirmək məqsədilə o, yeni kilsə Nizamnaməsinin hazırlanmasına başladı və Nizamnamə 1829-cu ildə təsdiq edildi.[264] Bundan savayı, Zaltet Gürcüstandakı separatçıların nümayəndələrinin də daxil olduğu Kolonist sinodunun yaradılmasına nail oldu: Sinod koloniyalarda dini — əxlaqi durumla bağlı məsələlərin müzakirəsi və həlli ilə məşğul olmalı idi.

Çar hökuməti yevangelist-lüteran təliminin separatçılar arasında təbliği məqsədilə o dövr üçün böyük məbləğdə vəsait ayırdı. Məsələn, ober — pastor Zaltetə Bazel missionerlər məktəbindən yeni pastorlar dəvət etmək hüququ verilmişdi və hər pastora dövlət büdcəsindən illik 1000 rubl gümüş pul ayrılmışdı. Ober — pastor eyni zamanda Tiflis və Aleksandersdorf koloniyalarının pastoru vəzifəsini də yerinə yetirirdi və onun illik məvacibi 1500 gümüş rubl təşkil edirdi.

Yelizavettal, Yekaterinenfeld, Marienfeld Aleksandersqilf və Yelenendorf (həm də Annenfeld) pastorları ildə 700 rubl məvacib alsalar da, əlavə olaraq kolonist icması tərəfindən mənzil, torpaq sahəsi, odun, buğda, quru ot və şərabla təmin olunurdular. Rəsmi dövlət orqanlarını narahat edən məsələlərdən biri də «koloniyalarda kilsələrin necə tikilməsi və onların lazımi sayda pastorlarla təmin olunması idi». [265]

Məsələ onda idi ki, bir çox koloniyalarda kolonistlər daxili sərbəstliyi saxlamaq məqsədilə kilsə tikintisində dövlətin köməyindən imtina edir və kilsənin kolonist icmasının hesabına inşa edilməsinə üstünlük verirdilər. Buna görə Tiflis hərbi qubernatoru üçün çox vacib idi ki, «pastorlar və koloniya starşinaları kilsə tikintisinə icazə versinlər».[266]

Artıq 1829-cu ildə koloniyalarda kirxaların tikintisi məsələsi gündəmə gətirildi və inşa ediləcək kirxaların planının smetasının tərtib olunması məqsədilə memar Demidov Tiflisə dəvət olundu. Gürcüstanda məskunlaşan kolonistləri idarə Kontorunun Gürcüstan mülki Qubernatoruna 23 avqust 1829-cu il tarixdə göndərdiyi raportda «tezliklə memar Demidovdan alınan tikinti planlarının Gürcüstan mülki Qubernatoruna təqdim olunacağı» göstərilir [267].

Koloniyalarda kilsələrin, dua evlərinin və pastoratların inşası üçün 1830-cu ildə xəzinədən 27,839 rubl 55 qəpik vəsait ayrılmışdı. Bu vəsait hesabına 1830-cu illərdə Yelizavettal, Yekaterinenfeld Marienfeld, Yelenendorf və Tiflis koloniyalarında kilsələr və pastoratlar tikildi. Zaltetin fəaliyyəti alman koloniyalarına müəyyən stabillik gətirsə də, 1830-cu ildə onun ölümündən sonra yenə kolonist cəmiyyətlərini konfessional ixtilaflar bürüdü. Bunun səbəbi çar hökumət dairələri tərəfindən koloniyalara pastorların təyin olunması oldu[268]. Qeyd edək ki, rəsmi təyin olunan pastorlar Bazel missionerlər cəmiyyətinin yetirmələri idi və onlar separatizmə düşmən münasibət bəsləyirdilər. Rus taxt-tacına and içən missioner — pastorlar kilsə kafedralarından separatizm təlimini məsxərəyə qoyur, ictimai yerlərdə separatçıları təhqir edirdilər.[269] Nəticədə, separatizm Gürcüstanın alman koloniyalarında nəinki zəiflədi, əksinə, 1826—1830-cu illər ərzində lüteranlığı qəbul edən separatçılar yenidən köhnə dini təlimə qayıtdılar. Separatizm hərəkatına başçılıq etmək məqsədilə «onlar öz sıralarından üç starşina seçdilər: qoca yaşlı Kauter «Ata — Allah», gənc Orillenborser «Allahın oğlu» və üçüncü şəxs Leybsle familiyalı qoca bir qadın «müqəddəs Ruh» adlandırılırdı[270]. Kilsəni «şərəfsizlər yığınağı» adlandıran separatçılar uşaqların xaç suyuna salınmasına, etiqad zamanı orğan çalınmasına, yetkinlik yaşına çatmayan uşaqların konfirmasiyaya məruz qalmasına, rəsmi nikahların bağlanmasına qarşı çıxdılar».[271]

Koloniyalara təyin edilmiş pastorların tələblərinə baxmayaraq, separatçılar lüteran kilsə qaydalarına əməl etmək niyyətində deyildilər və 1836-cı ildə, yəni separatçıların proqnozlarına görə qiyamət gününün baş verəcəyi il onların radikallığı daha qabarıq şəkildə özünü büruzə verdi.

Yaranmış mürəkkəb vəziyyət haqqında pastorlar Tiflisə - Komitəyə raport təqdim etdilər və kolonist icmalarından 20 nəfər nümayəndə izahat vermək üçün Tiflisə çağırıldılar[272]. Kolonistlərin Komitəyə verdikləri izahatdan görünür ki, onlar 1823-cü ilə qədər, yəni Bazel missionerlərinin Gürcüstandakı koloniyalarda məskunlaşdıqları dövrə qədər sülh və əmin-amanlıqla yaşamışlar. Separatçıların fikrincə, koloniyaların daxili həyatına pozuculuq gətirən amillərdən ən başlıcası pastor—missionerlərin separatizmə qarşı fanatik dərəcədə dözülməzliyi və kilsə nizamnaməsində missioner—pastorlara həddən artıq geniş səlahiyyətlərin verilməsidir. Həqiqətən, 1829-cu il kilsə nizamnaməsinə görə pastor kolonistin ailə və şəxsi həyatının bütün məsələlərinə müdaxilə etmək hüququna malik idi.[273]

Bazel missionerlərinin mübarizə apardığı başqa bir sekta Yelizavettal koloniyasında yaranmışdı və bu sekta pepplean sektası adlanırdı. Sektanın adı onun dini lideri Adam Pepplenin adından götürülmüşdü. Sekta hələ koloniya yarandığı vaxtdan mövcud idi və ona kolonist Stefan Şmidt başçılıq edirdi. 1826-cı ildə əxlaqsızlığa görə S.Şmidt koloniyadan qovulur və hökumət dairələrinin təzyiqləri nəticəsində sekta öz fəaliyyətini dayandırmalı olur. 1832-ci ildən A.Pepplenin təşəbbüsü ilə sekta yenidən bərpa olunur. Qeyd edək ki, A.Pepplenin fəaliyyətində şəxsi motivasiyalar da böyük rol oynamışdı. Belə ki, əvvəl kilsə starşinası və kənd müəllimi vəzifələrini yerinə yetirən A.Pepple ober—pastor Zaltetin ən yaxın silahdaşlarından biri kimi, separatizmə qarşı fəal mübarizə aparsa da, 1832-ci ildən, yəni koloniyalara pastor — missionerlərin təyin edilməsindən və koloniyada tutduğu bütün vəzifələrdən məhrum edildikdən sonra o, kilsədən üz döndərdi və lüteran kilsə doqmalarına qarşı açıq çıxışlara başladı.

Pepplean sektasının əsasını qoyan adam Pepple fəaliyyətinə görə Yelizavettal kolonist icmasından xaric edilmiş və koloniyanı tərk etməyə məcbur olmuşdu ki, bununla bağlı 1885-ci ildə Yelizavettal kolonist icması Gürcüstandakı alman koloniyalarının nəzarətçisi Forostovskiyə öz etirazlarını bildirmişdi.[274]

Arxiv sənədlərindən göründüyü kimi, Yelizavettalda Beppleanizmin yayılması, nəinki kolonist icmasında, «hətta ayrı-ayrı ailələrdə münaqişələrə, çəkişmələrə» səbəb oldu.[275]

Komissiya missioner — pastorların separatistlər və peppleyanistlər haqqında şikayətlərini təhlil etdikdən sonra separatistlərin və peppleyanistlərin kolonist cəmiyyətindən uzaqlaşdırılması haqqında qərar qəbul etdi[276] və bu qərarın qəbulu aşağıdakı səbəblərdən irəli gəlirdi:

1) «alman koloniyalarında sakitliyin və ümumi qayda-qanunun yenidən bərpa edilməsi üçün»;

2) lüteran-yevangelistlərin separatizmə cəlb olunmasının qarşısını almaq üçün;

3) koloniyalarda separatizmin daha da güclənməsinin qarşısını almaq, separatistlərin klassik separatizmə qaytarılması üçün;

4) koloniyaların idarə edilməsini yüngülləşdirmək üçün belə ki, «kolonistlər vahid bir konfessiyanı qəbul etsələr, onların idarə edilməsi hökumət üçün daha rahat olardı».

Separatçıların koloniyalardan uzaqlaşdırılması məqsədilə Komissiya aşağıdakı tədbirlərin həyata keçirilməsini qərara aldı:

1) onların yerdə qalan kolonistlərlə əlaqələrini kəsmək;

2) separatçılara qarşı qəbul edilən tədbirlərin həyata keçməsi zamanı onların əmlakına ziyan vurmamaq;

3) kilsəyə qayıtmaq istəyən separatçıları öz yaşayış yerlərində saxlamaq;

4) kilsə nizamnaməsindən dini etiqad və dini mərasimlərə aid maddələri saxlamaqla, qalanları xaric etmək;

5) mistik və zərərli kitabları separatistlərdən müsadirə etmək, pastorların və hakimiyyət orqanlarının icazəsi olmadan dua etmə yığıncağı keçirməmək, yalnız kilsədə və evdə dua etmək;

6) separatistlər arasında 1832-ci il Nizamnaməsini tətbiq etmək, separatçıları peppleyanistlərdən ayırmaq, A.Pepple və həyat yoldaşını xaricə sürgün etmək.

Qafqazın Baş idarə rəisi Komissiyanın qərarları ilə razılaşmadı: onun fikrincə, məsələnin həlli üçün daha optimal variant koloniyalardakı Bazel missionerlərinin «ostzey» quberniyalarından dəvət olunmuş pastorlarla əvəz olunması idi. Baş idarə rəisi hesab edirdi ki, separatçılara və peppleyanistlərə qarşı təqiblərin güclənməsi, əksinə, «onların sayının artmasına gətirib çıxaracaqdır».[277]

Beləliklə, separatistlər və peppleyanistlər öz koloniyalarında qaldılar: yalnız bir nəfər separatist hökumət və kilsə orqanlarına fəal müqavimət göstərdiyinə görə həbs edildi. Bu hadisədən sonra separatçılar belə nəticəyə gəldilər ki, onları təqib edirlər və bu «Məsihin öz xalqını xilas edəcəyi vaxtın gəlib çatdığını göstərən əlamətdir».[278]

Separatistlərin böyük əksəriyyəti təsərrüfatla məşğul olmaqdan əl çəkərək tərki-dünya əhvali-ruhiyyəsinə qapıldılar. Qiyamət gününün yaxınlaşdığını bəyan edən «separatçılar öz əmlaklarını ətrafdakılara paylayır, koloniyadan koloniyaya köçərək səfil həyat sürür, uşaqlarını məktəbə yollamayaraq onlarla ev şəraitində məşğul olur, vergi ödəməkdən və sair mükəlləfiyyətləri yerinə yetirməkdən boyun qaçırırdılar».[279]

Yuxarıda göstərilən hadisələr 1836-cı ildə, yəni separatizm təliminə görə dünyanın sonunun yetişdiyi ildə baş vermişdi. 1836-cı ildən sonra separatistlərin emosiyaları səngidi və onlar yenidən normal təsərrüfat həyatına qayıtdılar.

1836-cı ildə İsa Məsihin «gəlişinin» baş tutmaması «İsxod hərəkatı» tərəfdarlarının bir qisminin yevangelist-lüteran kilsəsinə üz tutması ilə nəticələndi[280]. Elə o vaxt Cənubi Qafqaz separatçılarının bir qismi Pyatiqorsk və Mozdok — Kizlyar qəzalarına köçdülər[281]. Separatçılar arasında dini əsasda fikir müxtəlifliyinin artması məişət səviyyəsində münaqişələrə səbəb olurdu.

Qeyd edək ki, missionerlərlə separatçılar arasındakı konfliktlərlə yanaşı, bəzən missionerlərlə kolonist rəhbərlərlə də münaqişələr yaranırdı. Arxiv mənbələrindən görürük ki, 1839-cu ilin yanvarında Yelizavettal və Yekaterinenfeld kolonist məhkəmələrinə dini şəxslər tərəfindən şikayətnamələr daxil olmuşdu.[282]

Bu şikayətnamələrdə Gürcüstandakı alman koloniyalarının Nəzarətçisinin missionerlərlə hörmətsiz davranışı, missionerləri «bu adamlar» adlandırması faktları göstərilir.[283]

Çar hökuməti pastorların maddi durumunun yaxşılaşdırılması məsələsini daim diqqətdə saxlayırdı, çünki onların fəaliyyətinin səmərəliliyi və uzunmüddətliliyi çox vaxt gündəlik məişət həyatının necə təşkilindən asılı olurdu. 1837-ci ilin mayında Çarın fərmanı ilə «Gürcüstan separatçılarının alman koloniyalarında Yelizavettalda, Yelenendorfda, Yekaterinenfelddə, Marinenfelddə pastorlar təyin edildi və xəzinədən onlara 1000 rubl məvacib ayrıldı». Assiqnasiyalarla məvacibin miqdarı 350 gümüş rubl təyin edilmişdi.[284]

Gürcüstan-İmeretiya Mülki qubernatoru 24 dekabr 1840-cı il tarixdə «Gürcüstandakı alman koloniyalarının pastorlarının təminatının yaxşılaşdırılması haqqında» 475 saylı qərar qəbul etdi.[285] Bu qərara görə Zaqafqaziyada bahaçılığı və aldıqları məvacibin yetərincə olmadığını nəzərə alaraq «Gürcüstandakı alman koloniyalarının pastorlarına kolonist cəmiyyətlərindən bəzi mənfəət» alınmasına icazə verilirdi.[286]

Pastorların müəyyən dərəcədə koloniyaların hesabına təminatına kolonistlər müsbət yanaşırdılar, çünki onların fikrincə, pastorlar maddi cəhətdən nə qədər hökumətdən az asılı olsalar, bir o qədər dini məsələlərdə kolonist icması sərbəst hərəkət edə bilərdi.

Hökumət orqanları koloniyaların konfessional cəhətdən monolitliyinə nail olmaq məqsədilə Kolonist sinodunun kilsə nizamnaməsini dəyişdirmək təklifinə yenidən qayıtdı və bu təklif bəyənildi. Artıq 1839-cu ilin yanvarında Rusiya Daxili İşlər Nazirliyi Gürcüstandakı alman koloniyalarını idarə etmək üçün kilsə idarəsinin yaradılması haqqında məsələ qaldırmışdı.[287] Bunun reallaşdırılması üçün ilk növbədə Cənubi Qafqaz alman koloniyalarındakı kilsənin fəaliyyətini 1832-ci il Ümumrusiya yevangelist-lüteran kilsəsinin Nizamnaməsi əsasında qurmaq, 1829-cu il xüsusi kilsə Nizamnaməsindəki bəzi dini azadlıqları saxlamaq şərtilə bütün dini həyatın yevangelist-lüteran kilsəsinin doqmaları əsasında qurulması əhəmiyyət kəsb edirdi. Sənədlərdən göründüyü kimi, rəsmi dövlət orqanları bu addımın atılmasının kolonistlər arasında anlaşılmazlığa gətirəcəyindən ehtiyatlanır, «Nəzarətçilərin, vasitəçilərin köməyi ilə koloniyalarda müşahidə aparılmasının zəruriliyini vurğulayırdılar»[288]. Artıq bir çox müddəaları zamanın tələbinə cavab verməyən 1829-cu il lüteran kilsə Nizamnaməsi 1841-ci ildə yenisi ilə əvəz edildi.[289]

Bu Nizamnamə məzmun etibarilə 1832-ci il Rusiya yevangelist-lüteran kilsə Nizamnaməsindən əsaslı şəkildə fərqlənməsə də bəzi xüsusiyyətlərə malik

idi. Bununla bağlı öz münasibətini bildirən Zaqafqaziya diyarı Baş rəisi Gürcüstan-İmeretiya mülki qubernatoruna məktubunda yazırdı ki, «Gürcüstanın alman koloniyalarında separatizmin kəsilməsi çox böyük əhəmiyyətə malikdir və bu istiqamətdə atılan addımlardan biri «1829-cu il xüsusi kilsə nizamnaməsinin icrasının dayandırılması və onun əvəzinə 1832-ci ildə qəbul olunmuş Rusiya yevangelist-lüteran kilsəsinin ümumi Nizamnaməsinin qəbul edilməsidir». Bununla yanaşı, məktubda göstərilir ki, məskunlaşdıqları vaxt Gürcüstan kolonist icmalarına dini məsələlərdə edilən və 1829-cu il Nizamnaməsində əks olunan bir sıra güzəştlər «əlavə qaydalar kimi yeni Nizamnaməyə daxil edilmişdir».[290]

«Ümumi lüteran kilsə Nizamnaməsinin qəbul edilməsi separatistlər tərəfindən dəstəklənmədi və onlar öz dini təlimlərinə sadiq olduqlarını nümayiş etdirdilər».[291]

Qeyd edək ki, hələ kilsə Nizamnaməsinin qəbuluna qədər, 1840-cı ilin dekabr raportunda nəzarətçi A.Zikelman «sektantların qəti şəkildə kilsəni və bütün kilsə təşkilatlarını rədd etdikləri» haqqında məlumat vermişdir. 1841-ci ildə Cənubi Qafqazın alman koloniyaları üçün yeni kilsə Nizamnaməsinin qəbul olunmasına baxmayaraq, koloniyalarda dini parçalanma davam edirdi və bu məsələ ən yüksək dövlət orqanları səviyyəsində diqqət mərkəzində saxlanılırdı. Bununla bağlı 5 noyabr 1842-ci il tarixdə Gürcüstan-İmeretiya mülki qubernatoru Gürcüstandakı alman koloniyalarının nəzarətçisi A.Zikelmana göndərdiyi sərəncamda «regionda yaşayan bütün sektaçıların siyahısının təqdim olunması» əmr edilirdi.[292] A.Zikelmanın 15 dekabr 1842-ci il tarixdə Qubernatora təqdim etdiyi raportdan görünür ki, Tiflis koloniyasında 32 nəfər (7 ailə), Marienfelddə 33 nəfər (5 ailə), Aleksanderdorfda 59 nəfər (10 ailə), Yekaterinenfelddə 65 nəfər (13 ailə) və Yelizavettalda 135 nəfər (28 ailə) separatist və peppleanist yaşayır.[293] Gördüyümüz kimi, yeni Nizamnamə qəbul edildikdən sonra da koloniyalarda separatçıların sayı nəzərəçarpacaq dərəcədə azalmamışdır: adı çəkilən 5 koloniyada onların sayı 327 nəfər təşkil edirdi.

Separatistlərin «Müqəddəs Ruh» adlandırdığı Leybele vəfat etdikdən sonra onu Yekaterinenfelddə yaşayan, arabaçı arvadı Varvara Şpon əvəz etdi. Bütün «İncil»i əzbərdən bilən bu qadını kolonistlər «Bebele» adlandırırdılar və separatçılar arasında böyük nüfuza malik idi. Şpon özünü günahsız sayır və ona müraciət edən bütün kolonistlərin günahlarını bağışlamaqla özünü peyğəmbərlik səviyyəsinə qaldırırdı. Kolonistlərin fikrincə, V.Şpon Allahla birbaşa təmasda olmağa qadirdir və bu görüşlər zamanı ona Tanrıdan ilahi vəhlər gəlir. Şponun sözlərinə görə ona birinci vəh 1842-ci ilin əvvəllərində gəlmiş və bu zaman Allah ona separatistlərin tezliklə «hökumət tərəfindən təqib olunacağını, onların evlərindən qovulacağını və başqa yerə köçməyə məcbur ediləcəkləri» haqqında xəbər vermişdi.[294] «İncildəki 90-cı psalma əsaslanaraq separatçılar tezliklə xiliadanın, yəni İsa Məsihin 1000 illik çarlığının bərqərar olacağına inanır, hətta bu çarlığın 1846-cı ildən başlayacağını söyləyirdilər. 1843-cü ildə separatçılar

arasında xəbər yayılır ki, Allah Şpon qarının dili ilə «separatistlərin Müqəddəs torpağa köçməsini tələb edir»[295].

Separatçıların Yerusəlimə yürüşü haqqında məlumat hakimiyyət orqanlarını narahat olmağa vadar etdi, belə ki, rəsmi məlumatlara görə qul alveri ilə məşğul olan kürd dəstələri separatçıların səfər zamanı ələ keçirilməsini planlaşdırmışdılar.

Qafqazın Baş rəisi general Neyqard V.Şponu Tiflisə çağıraraq Yerusəlimə yürüş zamanı onları gözləyən təhlükə haqqında məlumat verərək bu niyyətdən əl çəkməyi tələb etdi, lakin separatçıların fanatik şəkildə öz məqsədlərinə çatmaq arzusunu görərək onları evlərinə — koloniyaya buraxdı.[296] Bununla yanaşı, kollegiya məsləhətçisi Kotsebuya qəti şəkildə separatçıların Yerusəlimə yürüşünün qarşısını almaq tapşırığı verilmişdi.

V.Şponun vəhinə görə bütün Cənubi Qafqaz separatçıları Tpoitsa günü — 1843-cü il 30 may tarixində Yekaterinenfeld koloniyasında toplaşmalı idi.

Hələ 1843-cü ilin mayın əvvəllərində separatçıların nümayəndə qrupu Qafqazın Baş rəisinin qəbuluna gələrək onların Gürcüstanı tərk etmələrinə maneçilik törətməməyi xahiş etdilər. Ancaq separatçılara qəti şəkildə bildirildi ki, dövlət borclarını ödəmədən onların Gürcüstanı tərk etməsi mümkün deyil. May ayı ərzində separatçıların nümayəndələri ilə Qafqazın Baş komandanı arasında danışıqlar davam etsə də, onlar nəticəsiz qaldı: son danışıqlar zamanı - 24 may 1843-cü il tarixdə separatçılar xəzinə borclarının əvəzi kimi bütün əmlaklarını, təsərrüfatlarını dövlətə verməyə hazır olduqlarını bildirdilər.[297]

Separatçıların Fələstinə yürüşünün qarşısının alınmasında Qafqazın Baş Komandanı israrlı idi, çünki separatçılara bu məsələdə edilən istənilən güzəşt və yaxud hakimiyyət orqanlarının səriştəsizliyi qonşu gürcü və azərbaycanlı əhalisini çar hökumətinə qarşı tabesizliyə təhrik edə bilərdi. Buna görə separatçıların yürüşünün qarşısını almaq üçün polkovnik M.N.Kotsebunun başçılığı ilə 119 nəfərlik kazak dəstəsi Yekaterinenfeld koloniyasına göndərildi[298]. 1843-cü ilin may ayının ikinci yarısında V.Şponun ətrafında Yekaterinenfeld, Marienfeld, Yelizavettal, Aleksandersdorf və Tiflis koloniyalarından 40 separatçı ailəsi və yaxud 368 nəfər toplaşdı.[299]

Polkovnik Kotsebuya separatçılara qarşı «qan tökəcək tədbirlərə əl atmamaq», «hər hansı təhqiredici sözlər işlətməmək» əmr edilmişdi.[300]. Əgər separatçılar zor tətbiq edərək koloniyanı tərk etməyə cəhd etsələr, onların ən fəallarının həbs edilərək məhkəməyə verilməsi nəzərdə tutulurdu. Qonşu gürcü kəndi Kveşidə cəmləşən kazak dəstəsi mayın 28-də Yekaterinenfelddə qərarlaşdı. Kazak dəstələrinin koloniya ətrafında cəmləşməsi separatçıların starşinaları arasında müəyyən narahatçılığa və fikir ayrılığına səbəb oldu. Qeyd edək ki, Cənubi Qafqaz separatçılarının «Yerusəlimə yürüş» hərəkatına 12 starşina — Pammer, Kutler, Herzinqer, Kozer, Kauter, Şpon, Bruker, Venneqel, Fixtner, Almendiqner, Kuşer və Mayer başçılıq edirdilər.[301]

Separatçılarla görüşdə polkovnik Kotsebu bir daha qayda-qanunlara tabe olaraq planlaşdırılan cəfəngiyatdan əl çəkməyi, əks halda onları zor gücünə «koloniyalarına qaytaracağını» söylədi. Uzun müzakirələrdən sonra separatçı-starşinalar 4 iyun tarixində «Yerusəlimə yola düşəcəklərini» bəyan etdilər.[302]

Təyin olunan gün separatçılar, başda V.Şpon və starşinalar olmaq şərtilə hərəkata başladılar. Ancaq Yekaterinenfeld koloniyasının astanasında onları silahlı kazak dəstələri dövrəyə aldı: separatçı fəallar həbs edildilər, qalanlar isə geri — koloniyaya qayıtdılar. Beləliklə, separatçıların Fələstinə yürüşünün qarşısı alındı.

1843-cü ilin sonunda separatçılar yerli hakimiyyət orqanlarının icazəsi ilə 3 nəfərdən — kolonistlər Yakov Palmer, Mixail Fixtner (Yekaterinenfeld sakinləri) və Yohann - Adam Herzinqerdən (Aleksandersdorf) ibarət nümayəndə qrupunu Yerusəlimə və İstanbula göndərdilər. Onların əsas vəzifəsi «Müqəddəs torpaqda» məskunlaşmaq üçün yararlı ərazi seçmək idi. 1843-cü ilin sonunda geri qayıdan kolonist nümayəndələri Fələstində məskunlaşmanın arzuolunmaz olduğu» haqqında xəbər verdilər. Bu hadisə bir çox separatçıların, o cümlədən V.Şponun dini baxışlarının dəyişməsinə böyük təsir göstərdi. 24 yanvar 1844-cü il tarixdə başda V.Şpon olmaqla 368 separatçı Gürcüstan Baş rəisinə göndərdikləri müraciətnamədə «həmişəlik olaraq Fələstinə köçmək niyyətlərindən əl çəkdiklərini və yenidən yevangelist-lüteran kilsəsinə qayıtdıqlarını», «sektaçılığı tərk etdiklərini bildirdilər».[303]

Sonrakı illərdə əsas məsələ separatçıların lüteran kilsəsinə daha da sıx birləşməsini təmin etmək olmuşdu ki, bu işdə çar hökumət dairələri yevangelist-lüteran kilsəsinə maddi və mənəvi dəstək verirdi. Nəticədə, onların böyük hissəsi yevangelist-lüteran kilsəsinə üz tutdular. Nəzərə alsaq ki, 1831-ci ildə Yekaterinenfelddə-60, Marienfelddə-20, Yelizavetpolda-45, Aleksandersdorfda-30, Tiflisdə-20 separatçı ailəsi yaşayırdı, məlum hadisələr nəticəsində onların ümumi sayı üç dəfə azalmışdı: XIX əsrin sonlarında bütün Cənubi Qafqaz alman koloniyalarında təqribən 60 separatçı ailəsi yaşayırdı.[304]

Peppleyanistlərə gəldikdə, alman səyyahı Kolenatinin yazdığına görə 1844-cü ildə o, peppleyanistlərin ümumi yığıncağında iştirak etmiş və onların sayı 22 nəfərdən artıq olmamışdır.[305] Yalnız Yelizavettal koloniyasında yayılan bu sekta separatçılara düşməncəsinə yanaşır, onların fanatik addımlarını tənqid edirdi.

Beləliklə, alman kolonistlərinin XIX əsrin I yarısında dini həyatını təhlil etdikdən sonra belə bir nəticəyə gələ bilərik ki, Cənubi Qafqaz koloniyalarında konfessional baxımdan stabillik olmamışdır. İstər dini təşkilatların yaranmasında, istər onların idarə olunmasında dağınıqlıq mövcud idi və fikrimizcə, bunun da əsas səbəblərindən biri çarizmin Qafqazda apardığı mürtəce milli və dini siyasət idi. Avropada siyasi hakimiyyət, ümumiyyətlə, cəmiyyət üçün müəyyən təhlükə mənbəyi kimi qiymətləndirilən separatçıların və sair sektant qrupların xristian olmayan xalqların xristianlaşdırılması məqsədilə Şotland, sonra isə Bazel missionerlərinin hökumət xətti ilə Rusiyaya dəvət edilərək Şimali və Cənubi

Qafqazda yerləşdirilməsi, nəinki xristianlarla başqa din tərəfdarları arasında, hətta xristian dininə aid olan müxtəlif cərəyanlar arasında ixtilaflara, konfliktlərə səbəb oldu, dini radikalizmin daha da güclənməsinə gətirdi.

Biz bunu Cənubi Qafqaz separatçılarının nümunəsində açıq-aşkar gördük. XIX əsrin ortalarında uzun müddət koloniyaların inkişafını ləngidən dini çəkişmələrin başa çatması XIX əsrin II yarısından onların inkişafı və möhkəmlənməsi üçün zəmin yaratdı.

# II FƏSİL

# XIX ƏSRİN II YARISI — XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ QAFQAZDA ALMANLARIN MƏSKUNLAŞMASININ YENİ MƏRHƏLƏSİ

## 2.1. XIX ƏSRİN İKİNCİ YARISI - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ QAFQAZDA ALMANLARIN KÜTLƏVİ MƏSKUNLAŞMASI

XIX əsrin 50-ci illərindən almanların Qafqazda məskunlaşmasının ikinci mərhələsi başlayır. Birinci mərhələdən fərqli olaraq, bu mərhələdə almanlar, əsasən Şimali Qafqazda məskunlaşmağa daha çox üstünlük verirdilər və bu proses kütləvi xarakter almışdı.

XIX əsrin 60—70-ci illərində Rusiya imperiyasının sosial-iqtisadi, siyasi həyatında baş verən dəyişikliklər alman kolonistlərinin Qafqazda məskunlaşmasının intensivliyi üçün zəruri şərait yaratdı. Bura, birinci növbədə Qafqaz müharibəsinin başa çatması, təhkimçilik hüququnun ləğv edilməsi və ictimai-siyasi həyatın müxtəlif sahələrində burjua islahatlarının aparılmasını aid etmək olar. Bütün bu sadaladığımız hadisələr bir-biri ilə sıx şəkildə əlaqəli idi: təhkimçiliyin ləğv edilməsi, burjua islahatlarının həyata keçirilməsi çarizmin daxili mürtəce siyasətinə qarşı İmperiya xalqlarının, o cümlədən Qafqaz xalqlarının apardığı azadlıq mübarizəsindən doğan zərurət idi. Bu səbəbdən, Qafqaz xalqlarının sosial-siyasi mübarizəsi burjua islahatlarının həyata keçirilməsinin şərtlərinə və tempinə əhəmiyyətli təsir göstərmişdi.

Tarixi mənbələrdən görünür ki, alman əhalisinin Şimali Qafqaza kütləvi axını 1860-cı illərdən başlamışdır. Bəzi Rusiya tarixçiləri bunu yalnız Rusiyada 1861-ci il 19 fevral Manifestinə görə təhkimçiliyin ləğv edilməsi və s. Burjua islahatlarının həyata keçirilməsi ilə izah edirlər.[1] Şübhəsiz, təhkimçiliyin ləğv edilməsi, aqrar və s. islahatların həyata keçirilməsi Rusiyanın kənd təsərrüfatında kapitalist münasibətlərinin formalaşmasına təkan verdi, sənayenin sürətli inkişafı üçün böyük imkanlar açdı. 1861-ci ilə qədər əcnəbi təbəələr şəxsi mülkiyyətə torpaq almaq hüququndan məhrum edilmişdilər. Əcnəbilərin şəxsi mülkiyyətinə yalnız sənaye obyektlərinin tikilişi məqsədilə 300 desyatinə qədər torpaq satıla bilərdi və o da bir şərtlə ki, əcnəbi təbəə 10 il müddətində Rusiya təbəəliyinə keçməli idi. Əgər göstərilən müddət ərzində əcnəbi Rusiya təbəəliyini qəbul etməzdisə, ona ayrılan torpaq sahəsi satışa çıxarılırdı. Bundan savayı, 19 fevral 1861-ci il Manifestində mülkədarlara torpağı icarəyə vermək hüququ əks olunmuşdu və icarədarlıq hüququndan bütün silklərin nümayəndələri, o cümlədən əcnəbi kolonistlər də istifadə edə bilərdilər.

1861-ci il Kəndli islahatı nəticəsində torpaq alqı-satqı obyektinə çevrildi və bu nöqteyi-nəzərdən Şimali Qafqazda işğal olunmuş yeni ərazilər imkanlı alman kolonistlərinin nəzərindən qaçmamışdı. Kolonistləri Qafqaza cəlb edən amillərdən biri də burada torpağın başqa regionlara nisbətən ucuz olması idi. Volqaboyu və Qara dəniz ətrafı quberniyalarda torpağın 1 desyatini 300-700 rubla satılırdısa, Şimali Qafqazda torpağın 1 desyatininin qiyməti təqribən 40-150 rubl arasında idi. Hətta Şimali Qafqazda torpağın qiymətinin nisbətən ucuzluğuna baxmayaraq, yerli əhali torpaq almaq üçün vəsaitə malik deyildi və bu səbəbdən satılan torpaqların potensial alıcısı əcnəbi kolonistlər ola bilərdi. Buna görə əcnəbi kolonistlərin Şimali Qafqaza köçməsində bu regionun siyasi-iqtisadi inkişafında maraqlı olan çar hökumət dairələri ilə yanaşı, həm də aqrar islahatlar nəticəsində ucuz işçi qüvvəsindən məhrum olan yerli mülkədarlar da maraqlı tərəf kimi çıxış edirdilər: təhkimli kəndlilərini itirmiş mülkədarlar muzdlu işçi və yaxud icarədar qismində kolonistlərdən istifadə etmək niyyətindəydilər. Bundan savayı, formalaşan yeni iqtisadi şərait bəzi mülkədarları sənaye istehsalı ilə məşğul olmağa sövq edirdi ki, bu da azad işçi qüvvəsi olmadan mümkün deyildi.

Yuxarıda qeyd etdiyimiz iqtisadi üstünlüklər Rusiyanın Volqaboyu, Krım, Cənubi Ukrayna, Bessarabiya və sair regionlarında torpaqsızlıqdan, torpaq qıtlığından əziyyət çəkən minlərlə alman kolonistinin Şimali Qafqaza köçməsinin əsas səbəblərindən biri idi. Rusiyanın müxtəlif regionlarında alman koloniyalarının yaranma tarixinin təhlili göstərir ki, məskunlaşma prosesində alman kolonistləri üçün ən başlıca şərt siyasi sabitlik amili olmuşdur. Hətta yüksək sənaye və kənd təsərrüfatı inkişafına nail olmuş alman sənayeçiləri, kolonistləri həm 1831—1832-ci illərin, həm də 1863—1864-cü illərin Polşa üsyanı zamanı öz yaşayış yerlərini tərk edərək imperiyanın stabil regionlarına köçməyi üstün tutmuşlar[2].

Bu nöqteyi-nəzərdən çıxış edərək deyə bilərik ki, əgər XIX əsrin I yarısında Şimali Qafqazda almanların kütləvi məskunlaşmasını ləngidən səbəb Qafqaz müharibəsi idisə, 1859-cu ildən, yəni Şeyx Şamilin əsir alınmasından sonra Çeçenistanda və Dağıstanda da bu müharibə, əsasən sona yetmiş oldu. İmamətin dağılmasından sonra imperiya qüvvələrinə qarşı ara-sıra çıxışlar davam etsə də, 1864-cü ildən dağlı xalqlarının milli-azadlıq mübarizəsi səngidi və Şimali Qafqazda siyasi sabitlik dövrü başladı.

Bütün Şimali Qafqazda öz siyasi hökmranlığını bərqərar edən çar hökuməti Qafqazda dayaqlarını möhkəmlətmək üçün köçürmə siyasətini davam etdirir, bu regionda özünə sədaqətli xalqların yerləşdirilməsinə çalışırdı. Belə xalqlardan biri də tarixin sınağından çıxmış, Volqaboyu, Novorossiya, Cənubi Qafqaz və sair regionlarda aparılan məskunlaşma siyasətində fəal iştirak etmiş almanlar idi. 14 mart 1865-ci il tarixdə çar hökumətinin qəbul etdiyi qərarla həm Rusiyanın müxtəlif bölgələrində məskunlaşan, həm də xaricdə yaşayan alman əhalisi Şimali Qafqaza dəvət olunurdu[3]. Beləliklə, çarizm Qafqazın mənimsənilməsində həm xarici, həm də daxili məskunlaşma resurslarından istifadə edərək iki mühüm

problemin həllinə nail olmaq istəyirdi: birinci, almanların və sair xristian xalqların qismində Qafqazda özünə sosial-etnik dayaq yaratmaq; ikinci, almanların hələ XVIII əsrdən məskunlaşdığı Volqaboyu, Volın, Novorossiya kimi regionlarda torpaq qıtlığı ilə bağlı yaranan sosial gərginliyi azaltmaq məqsədilə alman əhalisinin bir hissəsini Qafqazda yerləşdirmək. Almanların Şimali Qafqaza köçürülməsi haqqında fərman həm xarici ölkələrdə, həm də Rusiyanın müxtəlif bölgələrində, xüsusən də Volqaboyunda yaşayan almanlar arasında böyük maraq doğurdu.

Alman kolonistlərinin Volqaboyunda torpaq sarıdan ən çox əziyyət çəkdikləri quberniya — Saratov quberniyası idi.

Hələ XVIII əsrin sonlarından Volqaboyunda yaşayan alman kolonistləri arasında miqrasiyaya meyillilik əhvali-ruhiyyəsi hökm sürürdü. Əgər XVIII əsrdə Volqaboyu almanlarını məskunlaşdıqları regionu tərk etməyə sövq edən amil onların lazımi səviyyədə torpaqla təmin olunmamaları, ağır iqlim şəraiti idisə, XIX əsrdə Volqa almanları koloniyalarda əhali sıxlığı, kənd təsərrüfatının ekstensivliyindən əziyyət çəkirdilər və təsərrüfat fəaliyyəti üçün daha əlverişli ərazilərə köçməyə cəhd edirdilər. Kolonistlərin bir hissəsi bu problemi elə Volqaboyu regionu çərçivəsində həll edir, başqaları isə yeni regionlara — Sibirə və Qafqaza köçməyə üstünlük verirdilər. Almanların məskunlaşma xəritəsi çox geniş idi — Qara dəniz sahilləri, Azov, Don, Kuban ərazilərindən başlayaraq şərqə doğru Terek vilayəti, Stavropol quberniyasının şərq hüdudlarına qədər böyük ərazini əhatə edirdi. Məskunlaşma iki istiqamətdə daha intensiv gedirdi: a) Don, Kuban, Terek vilayətinin qərb hissəsi; b) Stavropol quberniyasının cənubi — şərq və Terek vilayətinin mərkəzi — şərq rayonları. Öz yararsız iqlim və torpaq şəraitinə görə kolonistləri az maraqlandıran Stavropol quberniyasının mərkəzi və şimal əraziləri bu iki istiqamətin aralığında yerləşirdi. Şimali Qafqazda almanların məskunlaşması qərb rayonlarının düzənlik ərazilərində daha fəal gedirdi.

XIX əsrin ortalarında Stavropol quberniyasında (quberniya 1848-ci ildə yaradılmışdır — *İ.A.)* almanların məskunlaşması prosesi davam edirdi. 1863-cü ildə Yekaterinoslav quberniyasından gəlmiş mennonitlər Stavropol quberniyasında Orbelianovka koloniyasının əsasını qoydular.

1867-ci ildə Bessarabiya quberniyasının Akkerman qəzasından Qafqaza köçən kolonistlərin bir qrupu Stavropol quberniyasında, dövlət müşaviri Martınovun torpaqlarında məskunlaşdılar. Mülk sahibi ilə kolonistlər arasında bağlanan 15 illik icarə müqaviləsinə görə almanlara 2000 desyatin torpaq ayrıldı[4]. Sonralar Martınovun torpaq mülkündə Xerson, Tavriya və Samara quberniyalarından gəlmiş almanlar yerləşdilər. Onların arasında xarici ölkə təbəələrinə də rast gəlinirdi. Müxtəlif quberniyalardan gələn və müxtəlif ölkə vətəndaşlığına aid olan kolonistlər birləşərək yuxarıda adı çəkilən Martınovdan şəxsi mülkiyyətə torpaq sahəsi aldılar. 1868-ci ildə Martınovun torpaq mülkündə

məskunlaşan kolonistlər Bessarabiyadan gələn kolonistlərlə birləşərək Stavropol qəzasında Martınsfeld koloniyasının əsasını qoydular[5].

Yuxarıda qeyd etmişdik ki, XIX əsrin ortalarından başlayaraq Volqaboyu almanlarının Qafqaza axını gücləndi. Kolonistlər Kuban və Azov sahili ərazilərə daha çox maraq göstərirdilər. 1860-cı illərin ortalarından adı çəkilən regionlarda almanların məskunlaşması ilə bağlı bir sıra obyektiv və subyektiv əngəllər yarandı və kolonistlərin bir hissəsi Stavropol quberniyasında məskunlaşmağı qərara aldılar. Stavropol ərazisi coğrafi cəhətdən Volqa regionuna yaxın yerləşsə də, iqlim şəraiti və torpağın, suyun keyfiyyətinə görə kolonistləri qane etmirdi və bu səbəbdən onların Qərbi Qafqaza meyilləri başa düşülən idi. Ancaq hökumət dairələri Qərbi Qafqazda məskunlaşa bilməyənlərin Stavropol quberniyasında yerləşdirilməsinə müsbət yanaşırdılar. 1866-cı ilin fevralında Stavropol Dövlət Əmlak palatası Saratov kontoruna yazdığı məktublarda Qafqaza köçmək istəyən kolonist qruplarının nümayəndələrinin yerli iqlim şəraiti ilə tanış olmaq üçün göndərilməsini tövsiyə edirdi. Almanların Stavropolda məskunlaşma dinamikası onu göstərirdi ki, onlar bu ərazilərdə uzunmüddətli kök salmaq niyyətində olmuşlar. 1868-ci ildə Samara və Saratov quberniyalarından 146 kolonist ailəsi Stavropolda məskunlaşmaq arzusu ilə müraciətnamə yazdılar. Müraciətnaməyə müsbət cavab alan kolonistlərdən 61 ailə sonradan Kuban vilayətində yerləşməyə cəhd etsə də, Kuban qubernatorundan imtina cavabı aldıqdan sonra bu kolonist qrupu da Stavropolda məskunlaşmağa məcbur oldu.

Alman ailələri 3 müxtəlif qruplardan ibarət idi və onların arasında çoxsaylı eston kolonistləri də var idi. Kolonistlərin həm dini, həm də etnik cəhətdən müxtəlifliyi onların konsolidasiyasına imkan vermədi və Stavropol qubernatorunun müsbət münasibətinə baxmayaraq, kolonistlər vahid koloniya yarada bilmədilər: onların əksəriyyəti icarədar kimi xutorlarda məskunlaşdılar, bəziləri isə Stavropolda artıq mövcud olan koloniyalara birləşdilər. Estonlardan ibarət 25 ailə Kuban vilayətində məskunlaşmağa müvəffəq oldu[6]. 1870-ci illərin sonlarında Şimali Qafqazda «İsxod dini hərəkatı»nın tərəfdarları bir sıra koloniyalar yaratdılar. Onlardan biri — Betel koloniyası 1878-ci ildə Stavropol quberniyasında yerləşirdi.

XIX əsrin 80-90-cı illərində kolonistlərin Şimali Qafqaza axını gücləndi ki, bu da Rusiyanın qərb və Qara dəniz sahili quberniyalarında alman əhalisinin hüquqlarının pozulmasına yönələn diskriminasiya xarakterli qanunların qəbul edilməsi ilə bağlı idi[7].

Bu dövrdə Şimali Qafqaza köçənlərin əksəriyyətini mennonit və sair protestant cərəyanlarının nümayəndələri təşkil edirdilər. Mennonitlər Terek vilayətinin Xasavyurt dairəsində 15 koloniya yaratsalar da, qonşu çeçen əhalisi ilə münasibətlər qura bilmədiklərinə görə XX əsrin əvvəllərində Stavropol quberniyasının sərhədyanı ərazilərinə köçməyə məcbur oldular. XX əsrin

əvvəllərində Stavropol ərazisində 20 kiçik mennonit koloniyası yarandı və onların əhalisinin ümumi sayı 3000 nəfər təşkil edirdi[8].

Beləliklə, nəticəyə gələ bilərik ki, almanların Qafqazda məskunlaşma prosesi Stavropol ərazisində (1847-ci ilə qədər Qafqaz vilayəti adlandırılırdı—*İ.A.*) başlasa da, XIX əsrin II yarısında kolonistlər bu ərazidə yalnız məcburiyyət qarşısında qalaraq məskunlaşırdılar: qonşu quberniyalarda məskunlaşmağa icazə ala bilməyən və yaxud yerli sosial-iqtisadi, etno-sosial şəraitə uyğunlaşa bilməyənlər Stavropol quberniyasında özlərinə məskən salırdılar.

Rusiyanın kənd təsərrüfatında kapitalist münasibətlərinin formalaşmağa başladığı və getdikcə kənd təsərrüfatı istehsalının əmtəə xarakteri aldığı bir şəraitdə tədbirli alman kolonistləri münbit torpaqlarla bol olan regionlara daha çox can atırdılar və bu baxımdan ən əlverişli bölgələrdən biri Kuban vilayəti idi.

XIX əsrin II yarısında Şimali Qafqazda almanların kütləvi məskunlaşdığı regionlardan biri də Kuban vilayəti idi. Bütün Şimali Qafqazda olduğu kimi, Kubanda da almanların məskunlaşmasının əsas xüsusiyyəti kolonistlərin bu əraziyə birbaşa Almaniyadan deyil, Rusiyanın müxtəlif quberniyalarından gəlməsində idi. Yəni, Kubanda alman məskunlaşmasını, məzmun etibarilə, daxili məskunlaşma prosesinə aid etmək olar.

Kubanda məskunlaşan alman əhalisinin böyük əksəriyyəti Bessarabiya, Qara dəniz sahili quberniyalardan və Volqaboyu regionundan gələnlər idi. Bessarabiya və Qara dəniz sahillərindən kolonistlərin Kubana köçməsi Krım müharibəsi (1853-1856) və onun nəticələri ilə bağlı olmuşdur. Qara dənizin şimal sahillərinin türk, ingilis, fransız gəmiləri tərəfindən mühasirəyə alınması, bu ərazilərin rəqib gəmilərdən top atəşinə tutulması Bessarabiya, Tavriya quberniyalarından alman əhalisinin kütləvi şəkildə Kubana köçməsi ilə nəticələndi.

Kubanda məskunlaşan kolonistlərin əhəmiyyətli hissəsini Volqaboyu quberniyalarından və xüsusən də Saratov quberniyasından gələnlər təşkil edirdilər.

XIX əsrin 50-ci illərində Volqaboyu koloniyalarında sosial gərginlik daha da artdı və vəziyyətdən çıxış yolu axtaran kolonistlər özbaşına, kortəbii şəkildə yeni regionlara, əsasən də Qafqaza və Volqadan şərq ərazilərə köçməyə daha çox üstünlük verirdilər. Volqaboyu kolonistlərinin Qafqaza, xüsusən də Kuban ərazisinə can atmalarına rəsmi dövlət dairələrinin reaksiyası eyni deyildi. Volqaboyu quberniyalarının başçıları, o cümlədən Əcnəbilərə Qəyyumluq üzrə Saratov Kontorunun rəhbərliyi almanların Volqaboyu regionunu tərk etməsinə mənfi yanaşır və bu yolda onlara müxtəlif maneələr yaradırdılar.

Bununla belə, Kubanda ilk alman koloniyalarının əsasını Volqaboyundan gəlmiş kolonistlər qoydular. 1852-ci ildə keçmiş Yeysk qəzasında yaranan koloniya Aleksanderfeld adlandırıldı. Çox keçmədi Azov dənizinin sahilində daha bir alman koloniyasının əsası qoyuldu. Almanca Mixelstal adlanan bu koloniya sonralar Voronsovskaya adlandırılmışdır[9]. Torpaq fondu 1000 des. olan bu koloniyada 30 alman ailəsi məskunlaşdı. Ümumiyyətlə götürdükdə, ilk yaranan bu

iki koloniyada 1113 nəfər əhali yaşayırdı ki, bu da koloniyaların çox böyük olmasını göstərirdi[10].

1860-cı ildə Kuban çayının sol sahilində, Qafqaz şöbəsinin (rayonunun—*İ.A..)* boş qalmış torpaqlarının məskunlaşdırılmasına başlandı. 1861-ci ildə Saratov quberniyasından özbaşına Kubana gələn 50 alman ailəsi polkovnik Krım-Girey-Qusarovun mülk torpaqlarında yerləşdirildilər. Kolonistlərə torpaqdan icarədar kimi istifadə etmək hüququ verilmişdi[11]. Rəsmi dövlət orqanlarının kortəbii şəkildə yaşayış yerini dəyişən kolonistlərə qarşı cəza tədbirləri getdikcə daha da sərtləşdirildi. 1861-ci il 14 oktyabr tarixində özbaşına yaşayış yerini tərk etmiş bütün kolonistlərin məcburi şəkildə öz köhnə yaşayış yerlərinə qaytarılması haqqında qərar qəbul edildi[12]. Əcnəbilərə Qəyyumluq üzrə Saratov Kontoru 04 noyabr 1861-ci il tarixdə bütün alman koloniyalarının özünüidarə orqanlarına təlimat göndərdi.[13]

Bütün bunlara baxmayaraq, Volqaboyu almanları arasında Qafqaza köçmək əhvali-ruhiyyəsi çox yüksək idi. Qısa bir müddət ərzində adı çəkilən Qusarovun mülkündə məskunlaşan alman ailələrinin sayı 100-ü keçdi. 1863-cü ildən mülk sahibi icarə haqqını artırdıqdan sonra kolonistlər icarədən imtina etdilər və onlara dövlət torpaq fondundan torpaq payının ayrılması xahişilə yuxarı instansiyalara müraciətnamə göndərdilər. Kuban vilayətində dövlət torpaqları kazak stanitsaları və yerli dağlı xalqları üçün nəzərdə tutulduğundan almanların müraciətnaməsindəki xahişlər nəzərə alınmadı. Kuban vilayəti hərbi komandanın göstərişi ilə alman kolonistlərinə müvəqqəti yaşayış üçün dövlət fondundan torpaqlar ayrıldı. Qafqaz canişininin əmrinə görə kolonistlərin tam məskunlaşmasına qədər onlardan heç bir ödəniş tələb olunmamalı idi[14].

Saratov kolonistlərinin məskunlaşma məsələsi açıq qalmışdı. Üst-Labinsk stansiyasında Kuban vilayət hərbi komandanı ilə kolonist nümayəndələrinin görüşündən sonra hər alman ailəsinə 30 des. torpaq sahəsi ayrıldı. Yeni yaranan koloniya Semyonovka adlandırıldı və burada 140 alman ailəsi məskunlaşdı[15]. Qeyd edək ki, Semyonovka kolonistlərinə torpaq tam mülkiyyətə verilmişdi. İlk 7 il ərzində almanlar istənilən vergi və mükəlləfiyyətlərdən azad olundular və bu səbəbdən də onlara dövlət tərəfindən heç bir maliyyə yardımı göstərilmirdi.

Qeyd edək ki, Semyonovka, nəinki Qafqazda, hətta Rusiyada ən böyük koloniyalardan biri idi: yarandığı vaxt burada 910 nəfər yaşayırdı. Əhalinin sayının artması nəticəsində Semyonovkanın qonşuluğunda yeni koloniyaların salınması zərurəti yarandı və Semyonovkanın əhalisi hesabına Batalpaşa şöbəsində Rojdestvenskaya (1864) və 1892-ci ildə Qafqaz şöbəsində Novo-Nikolayev koloniyaları meydana gəldi. Novo-Nikolayev koloniyasında 73 təsərrüfat vardı və burada 435 nəfər sakin yaşayırdı[16]. Semyonovka koloniyasının yaranma tarixindən görürük ki, Kuban rəsmi dairələri kolonistlərin vilayət ərazisində məskunlaşmasına müsbət yanaşır, onların problemlərinin həllində yardım edirdilər.

Volqaboyu regionundan kolonistlərin Kubanda və ümumiyyətlə, Qafqazda məskunlaşması məsələsində Volqaboyu rəsmiləri ilə Qafqaz dövlət orqanlarının maraqları ziddiyyət təşkil edirdi. Volqaboyu quberniyalarının rəhbərləri, həmçinin Əcnəbi Kolonistlərə Qəyyumluq üzrə Saratov kontorunun idarə heyəti tabeçiliklərində olan kolonist kütlələrinin Qafqaza köçməsindən narahatçılıq keçirirdilər. Rəsmi dairələrin fikrincə, ayrı-ayrı kolonistlərin Volqaboyunu tərk etməsi qismən sosial gərginliyi azaltsa da, digər tərəfdən köçmə prosesi kütləvi xarakter ala bilərdi ki, bu da regionun sosial-iqtisadi həyatının iflic vəziyyətə düşməsinə gətirərdi. Qeyd etmək yerinə düşərdi ki, Volqaboyu rəsmilərinin narahatçılığına obyektiv əsas vardı: Volqaboyu regionuna nisbətən Qafqazda iqlim şəraitinin, torpaqların keyfiyyətinin münasib olması, ən başlıcası isə torpağın qiymətinin aşağı olması, Volqaboyundan fərqli olaraq, Qafqazda koloniyaların daha mütərəqqi formada təşkil edilməsi - bütün bunlar Volqa kolonistlərinin Şimali Qafqaza kütləvi axınına səbəb olmuşdu. Arxiv sənədlərindən görürük ki, Qafqaz regionu Volqa almanları üçün o qədər cəlbedici olmuşdu ki, bəzən, hətta koloniya rəhbərləri icazəsiz olaraq bütün təsərrüfatları ilə yeni ərazilərə yollanırdılar[17].

Saratov kontoru kolonistlərin Qafqaza köçməsinin qanuni əsaslarla həyata keçirilməsinin tərəfdarı idi, çünki kolonistlərin kortəbii miqrasiyası Volqaboyunda mövcud olan yüzlərlə koloniyalarda daxili sabitliyin pozulmasına gətirib çıxarırdı. Əvvəlki illərdə almanların qanunsuz miqrasiyasına müəyyən dərəcədə loyal münasibət bəsləyən Qafqaz rəsmiləri də 1860-cı illərin ortalarından bu prosesin nəzarətə alınmasını tələb edirdilər[18].

Əhalinin Qafqaza miqrasiyasına planlı xarakter vermək məqsədilə 1865-ci il 14 mart tarixində qərar qəbul edildi. Qərara əsasən, Qafqazda məskunlaşmaq istəyən əcnəbi vətəndaş və yaxud Rusiya təbəəsi Rusiya Dövlət Əmlak Nazirliyindən icazə kağızı almalı idi[19].

Qeyd edək ki, Volqaboyu və sair regionlardan almanların Kubana, o cümlədən Qafqaza köçməsində ən böyük əngəl Dövlət Əmlak Nazirliyi və onun yerli orqanları tərəfindən yaradılırdı. Bürokratik əngəllər nəticəsində, bəzən kolonist azadolma bileti almaq üçün bir neçə il gözləməli olurdu və bu vaxt ərzində kolonistin məskunlaşmaq istədiyi regionlarda torpaq fondunun paylanmasında bir çox dəyişikliklər baş verirdi. Qanuni yolla yaşayış yerini dəyişə bilməyən kolonist kütlələri kortəbii şəkildə, özbaşına bu problemi həll etməyə üstünlük verirdilər. Rəsmi dövlət orqanlarının reaksiyası özünü çox gözlətmədi. Qanunsuz miqrasiyaya qarşı mübarizənin kulminasiyası 26 aprel 1865-ci il tarixində Senatın qəbul etdiyi «Kolonistlər haqqında Əsasnaməyə əlavələr» oldu.[20] 1865-ci ilin yayında bu qərar alman dilinə tərcümə edilərək bütün alman koloniyalarına göndərildi.

Qafqaz rəsmi dairələri regionun qısa bir müddətdə mənimsənilməsində maraqlı idilər və bu səbəbdən miqrasiya problemlərinin həllində Volqaboyu quberniya rəhbərləri, Saratov kontoru ilə sıx əməkdaşlığa can atırdılar. 1866-cı ilin aprelində Qərbi Qafqazın məskunlaşması məsələləri ilə bağlı yazışmalara Kuban

vilayətinin rəhbərliyi də qoşuldu ki, bu da Kubanda mövcud olan və yerli xalqların tərk etməsi nəticəsində kimsəsiz və istifadəsiz qalan ərazilərin məskunlaşdırılmasında onların maraqlı tərəf kimi çıxış etmələrindən xəbər verirdi.[21] Hətta kolonistlərin Kuban ərazisində yerləşdirilməsi şərtləri tərtib olunub Saratov kontoruna göndərildi. Onlar aşağıdakılardan ibarət idi:

— Saratov Əcnəbilərə Qəyyumluq Kontorunun icazəsi;

— Qafqaz inzibati orqanlarının kolonistin daimi məskunlaşmasına razılığı;

— kolonistin yalnız Lüteran dini etiqadına aid olması[22].

Qeyd edək ki, əvvəlki illərin çar fərmanlarından fərqli olaraq, 1865-ci il 14 mart fərmanına görə Qafqaza köçən kolonistlər «vergi ödəyən ümumi dövlət kəndli silki» kimi qəbul edilir və onlara keyfiyyətindən asılı olaraq 9-14 desyatin torpaq sahəsi verilirdi[23]. Kuban vilayəti rəisinin göstərişi ilə vilayət ərazisində katolik dini cərəyanına aid olan və köhnə yaşayış yerlərini qanunsuz tərk edənlərin məskunlaşmasına icazə verilmirdi. Ancaq faktiki olaraq vilayətdə məskunlaşanların arasında icazə kağızı olmadan məskən salanlara da rast gəlinirdi və çox vaxt yerli hakimiyyət orqanları bu cür hallara göz yumurdular[24].

1866-cı ilin mayında Dövlət Əmlak Nazirliyinin təlimatına əsaslanaraq Saratov Kontoru Volqaboyu kolonistlərinin Qafqaza köçməsini qadağan edən qərar qəbul etdi[25]. Kolonistlər Qafqaza köçməmək haqqında yazılı şəkildə vəd verirdilər və bu qərarı yerinə yetirməyənlərə qarşı müəyyən cəza tədbirləri görülür, hətta onları müəyyən müddət qapalı məkanda saxlayırdılar. Volqaboyunu özbaşına tərk edənlər kolonist silkindən məhrum edilirdilər. Məsələn, 1866-cı ildə Volqanın sağ sahil koloniyalarından 121 ailə kolonist statusunu itirdi və qeyd edək ki, onların yenidən bu statusa qayıtmaq istəyi nəticəsiz qaldı[18]. Beləliklə, görürük ki, Kuban vilayətinin hakimiyyət orqanları ilə Volqaboyu kolonist təşkilatları arasında ziddiyyətlər yaranmışdı: Kuban rəsmiləri öz ərazilərində Volqa almanlarının yerləşməsinə çalışdıqları zaman Saratov Kontoru hər vasitə ilə, hətta cəza tədbirləri ilə kolonistlərin Qafqaza axınının qarşısını almağa çalışırdı.[26]

Kuban rəsmilərinin kolonist nümayəndələrini Qafqaza dəvət etməsi, onlara dəvət haqqında şəhadətnamələrin paylanması — bütün bunlar Saratov Kontorunun apardığı xətlə ziddiyyət təşkil edirdi. Kolonistlərin kortəbii şəkildə Kubana köçməsi yerli hakimiyyət orqanları üçün müəyyən problemlər yaratmağa başladı. Dövlət Əmlak Nazirliyinin Qafqaz üzrə Baş idarəsi 1868-ci ildə qəbul etdiyi qərarla kolonistlərin Qafqazda məskunlaşmasına razılığını bildirdi, amma bunun üçün kolonist kontorunun razılığı və gələcək məskunlaşma yerinin əvvəlcədən seçilib razılaşdırılması əsas şərt kimi götürülürdü[28]. Qafqaz canişinliyinin Baş idarəsi bu məsələyə bir qədər fərqli yanaşırdı. 1870-ci ildə kolonistlərin kortəbii şəkildə Qafqaza köçməsi qəti qadağan edildi[29]. Bu qərarın qəbul edilməsinin əsas səbəblərindən biri bu idi ki, Volqaboyundan Qafqaza köçmək adı ilə yaşayış yerini tərk edənlərin əksəriyyəti müxtəlif şəhərlərdə məskunlaşır, təyin olunan koloniyalara getməkdən boyun qaçırırdılar. Volqaboyu quberniyalarından fərqli

olaraq, Bessarabiya və Qara dəniz sahili ərazilərdən gələn kolonistlərin qəbulunda, yerləşdirilməsində heç bir problem yaranmırdı, çünki onların Qafqaza köçürülməsində həm mərkəzi, həm də yerli dövlət orqanlarının maraqları üst-üstə düşürdü.

XIX əsrin 60-cı illərində Yekaterinoslav quberniyasından gələn kolonistlərin bir qrupu II Aleksandrın şəxsi göstərişi ilə Kuban vilayətinin Batalpaşa şöbəsində Kuban çayı ilə Zelençuk arası ərazilərdə məskunlaşdırıldılar. 1864-cü ildə mennonitlər tərəfindən əsası qoyulan bu koloniya Voldemfryüst adlandırıldı[30]. İndiki Nevinnomısk şəhərindən bir qədər aralıda yaranan bu koloniyanın adı sonralar dəyişdirilərək Velikoknyajeskaya olmuşdur. Koloniya sakinləri, əsasən qoyunçuluqla məşğul olurdular. 1866-cı ildə Yekaterinoslav mennonitləri Voldemfryüst koloniyası yaxınlığında daha bir koloniya — Aleksanderfeld koloniyasını yaratdılar[31].

1860-cı illərdə Bessarabiya quberniyasının Akkerman qəzasından 100-dən artıq alman ailəsi Kuban vilayətinə köçdü. Onlar Kuban çayının sol sahilində, şəxsi mülkiyyət torpaqlarında bir neçə koloniyanın əsasını qoydular: 1867-d ildə Eyqenfeld (Vannovskoye), 1869-cu ildə Rozenfeld (Şeremetyevskoye) və Bessarabiya kolonistlərinin üçüncü qrupu 1871-ci ildə Aleksanderfeld (Leonovskoye) koloniyasını yaratdılar[32]. Beləliklə, 1912-ci ilə qədər Kuban vilayətinin Qafqaz şöbəsində 335 alman təsərrüfatı fəaliyyət göstərirdi və burada 2088 nəfər kolonist yaşayırdı. Onların ixtiyarında olan torpaq sahələrinin miqdarı 7531 desyatinə çatırdı. Kompakt halda mövcud olan bu koloniyalar inzibati cəhətdən nahiyə mərkəzi olan Eyqenfeld (Vannovskoye) koloniyasına tabe idilər[33].

XIX əsrin sonu - XX əsrin əvvəllərində Kuban ərazisində əcnəbi koloniyaların yaranma prosesi davam etmişdir. Kuban vilayətinin Labinsk şöbəsində yaranan koloniyalar aşağıdakılar idi:

1) Fridental koloniyası — bu koloniyada 100-ə yaxın ailə yaşayırdı. Koloniya, «icarədarlar koloniyası» kateqoriyasına aid idi. Belə ki, kolonistlər tanınmış torpaq maqnatı baron R.V.Şteynqelin torpaqlarını icarəyə götürmüşdülər;

2) Kleopatrafeld koloniyası 108 ailəni birləşdirirdi. Bu koloniyada 740 sakin yaşayırdı və kolonistlər iri torpaq sahibi qraf Qrabbenin torpaqlarında icarədar kimi məskunlaşmışdılar;

3) Lilkenfeld koloniyası Qulkeviçi stansiyası yaxınlığında yaranmışdı. 1897-ci ilin statistik məlumatına görə koloniyada 282 nəfər yaşayırdı ki, onlar da 77 təsərrüfat yaratmışdılar;

4) Marienfeld koloniyası Konokovo stansiyası yaxınlığında yaranmışdı və 769 sakini olan koloniya 135 təsərrüfatdan ibarət idi[34];

5) Qeyd edək ki, Labinsk şöbəsində məskunlaşan kolonistlər arasında Bessarabiya, Tavriya quberniyaları ilə yanaşı, həmçinin Saratov və Samara quberniyalarından da gəlmiş kolonistlərə rast gəlinirdi. Yekaterinodar dairəsində Ponura çayının sağ sahilində Qnadentau koloniyası yarandı. 43 təsərrüfatdan ibarət

bu koloniyada 440 nəfər yaşayırdı. Vilayətin Taman şöbəsində iki alman koloniyası — Çiginsk (əvvəlki adı Mixaelsfeld olmuşdur — *İ.A.)* və Pilenkovo koloniyaları yaranmışdı. Çige və Kuban çaylarının sahilində yerləşən bu iki koloniyada 639 nəfər əhali yaşayırdı və 144 təsərrüfat fəaliyyət göstərirdi[36];

6) Yuxarıda adı çəkilən koloniyalardan savayı, Kuban vilayətində xırda xutorlar da mövcud idi. Bundan başqa, XX əsrin əvvəllərindən başlayaraq alman kolonistləri yeni torpaqlar icarəyə götürür və bir neçə ailə birləşərək bu torpaqlarda müvəqqəti məskunlaşırdılar. Əsasən belə xırda koloniyalara daha çox Urup çayının sağ sahilində rast gəlinirdi. Bəzən icarədarların sayı artır və müvəqqəti yaşayış məntəqəsi icarədarlar koloniyasına çevrilirdi. Buna misal olaraq Besskorbnaya stansiyası yaxınlığında yaranan, tədricən böyüyərək 162 təsərrüfatı birləşdirən Livental koloniyasını göstərə bilərik;

7) Sonda qeyd edək ki, Kubanda ən tanınmış alman torpaq mülkiyyətçisi baron R.V.Steyngel idi. Onun torpaq sahəsi 9000 desyatindən artıq idi və şəxsi torpaqlarında «Xutorok» adlı təsərrüfat yaratmışdı ki, o da Şimali Qafqazda ən inkişaf etmiş, nümunəvi təsərrüfat sayılırdı[36]. Hələ XX əsrin əvvəllərində Kubanda mövcud olan alman koloniyalarının tarixini tədqiq etmiş professor V.M.Qorodetskinin araşdırmalarına görə 1912-ci ildə Kuban vilayətinin 5 şöbəsində 13 alman koloniyası mövcud olmuşdur. Bu koloniyalarda 879 təsərrüfat fəaliyyət göstərir, əhalinin sayı isə 5972 nəfər təşkil edirdi. B.M.Qorodetskinin məlumatına görə alman kolonistlərinin ixtiyarında 22254 des. torpaq sahəsi vardı ki, orta hesabla hər kolonist ailəsinə 25,3 des. torpaq düşürdü[37];

8) Kuban vilayətində mövcud olmuş alman koloniyalarının tarixini tədqiq etdikdən sonra belə qənaətə gələ bilərik ki, XIX əsrin II yarısından I Dünya müharibəsi illərinədək Kuban ərazisində təqribən 20-yə yaxın alman koloniyası mövcud olmuşdur. Bu koloniyalarda yaşayan əhalinin və təsərrüfatların sayı V.M.Qorodetskinin göstərdiyi rəqəmlərdən bir qədər artıq olmuşdur.

XIX əsrin II yarısında almanların fəal məskunlaşdığı regionlardan biri Terek vilayəti idi. Bu vilayət 1860-cı ildə çarizmin Şimali Qafqazda apardığı inzibati islahatlar nəticəsində yaranmışdı. Belə ki, 1860-cı ildə Qafqaz hərbi xətti (liniya) ləğv edildi və əvəzində 3 vilayət — Terek, Kuban və Dağıstan vilayətləri yaradıldı.

Terek vilayəti Şimali Qafqazda mərkəzi mövqe tuturdu və onun tərkibinə 4 hissə (Pyatiqorsk, Mozdok, Kizlyar, Sunja) və 6 dairə (Kabarda, Vladiqafqaz, Çeçen, Arqun, İçkeriya, Kumık) daxil idi. 1865-1870-ci illərdə Şimali Qafqazda tətbiq edilən hərbi-xalq idarəetmə sistemi ilə əlaqədar, Terek vilayətinin ərazisi artıq Kabarda, Osetin, İnquş, Çeçen, İçkeriya, Arqun, Kumık və Dağlı kimi 8 dairəyə bölünürdü.[38]

1871-ci il inzibati bölgüsündən sonra Terek vilayətində 9 dairə yaradıldı: Georgiyevsk, Nalçik, Vladiqafqaz, Sunja, Qroznı, Arqun, Vedensk, Kizlyar və Xasavyurt. Vilayətin tərkibində son inzibati dəyişikliklər 1874-cü ildə edildi. Həmin il Pyatiqorsk ətrafı kəndlərin və əcnəbi koloniyaların vilayətə birləşməsi ilə

əlaqədar, Georgiyevsk dairəsi ləğv edilib əvəzində Pyatiqorsk dairəsi yaradıldı. Bundan savayı, Sunja dairəsi ləğv edilərək ərazisi Vladiqafqaz və Qroznı dairələrinə birləşdirildi. Beləliklə, 1874-cü ildən 1917-ci ilə qədər Terek vilayətinin tərkibində 7 dairə (Pyatiqorsk, Nalçik, Vladiqafqaz, Qroznı, Arqun, Vedensk, Kizlyar, Xasavyurt) mövcud olmuşdur.[39]

Terek vilayətində ilk məskunlaşan alman kolonistləri bura 1861—1864-cü illərdə Volqaboyu regionundan gəlmişlər. Onlar Vladiqafqazdan bir qədər şimalda Mixaylovsk, Pyatiqorsk şəhəri yaxınlığında Betaniya və Nikolayevka, Proxladnı yaxınlığında Kana, Nalçik ətrafında Aleksandrovka koloniyalarının əsasını qoydular. Qeyd edək ki, Volqaboyundan Sibirə, Urala köçmə prosesindən fərqli olaraq, onların Qafqaza köçməsi kortəbii xarakter daşıyırdı.

1850-ci illərdə Saratov kolonistləri Qara dənizin şimal-şərq sahillərinə, yəni Kuban vilayətinə köçmək niyyətlərində o qədər israrlı idilər ki, Əcnəbilərə qəyyumluq üzrə Saratov kontoru onların kortəbii yaranan təşəbbüslərinə planlı xarakter verməyə məcbur oldu. Saratov kontoru 593 alman ailəsinin Qafqaza köçmək arzusunu dəstəkləyərək Dövlət Əmlak Nazirliyinin Departamentinə onlara yardım edilməsi haqqında xahişlə müraciət etdi.[40] Qafqaz canişini Vorontsov dövlət fondunda boş torpaq sahələrinin çatışmazlığına istinadən Volqaboyu kolonistlərinin Qafqazda yerləşdirilməsini qeyri-mümkün sayırdı. Nəticədə, Saratov kontoru «Qafqaza köçmə» kampaniyasına qarşı mübarizə aparmağa başladı və müvəqqəti olaraq çoxsaylı kolonist kütlələrinin Qafqaza köçməsinin qarşısı alındı. Yalnız bir qrup kolonist 1852-ci ildə qanunsuz olaraq Nalçik ətrafında—Pyatiqorsk qəzasında məskunlaşmağa müvəffəq oldu.[41]

Qeyd etdik ki, çarizmin Qafqazda apardığı köçürmə siyasəti qonşu Volqaboyu regionunda böyük maraq doğurdu. Artıq 1850-ci illərin əvvəllərində torpaq sarıdan daha çox əziyyət çəkən Saratov kolonistləri Qafqaza köçməyi qət etdilər. Hətta kolonistlərə gələcək məskunlaşma yerini seçmək hüququ verilmişdi və konkret ərazi təyin olunduqdan sonra onlar çar hökumətinə məskunlaşma ilə bağlı müraciət edə bilərdilər.

Saratov quberniyasının Kamışinsk qəzasından gələn kolonist nümayəndələr Nalçik yaxınlığında, Böyük Kabardada məskunlaşmaq üçün münasib ərazi tapdıqdan sonra 1852-ci ilin fevralında Qafqaz Xətti Mərkəzi rəisinin adına müraciətnamə göndərdilər. Müraciətnamədə qeyd olunurdu ki, «Nalçik ətrafında əkinçiliyə yararlı torpaq sahələri vardır» və kolonistlər burada 30-60 alman ailəsinin məskunlaşmasına icazə verilməsini xahiş edirdilər. Bu vacib məsələnin həlli üçün Qafqaz Xətti Mərkəzinin rəisi, Qafqaz və Qara dəniz xətlərinin baş komandanları ilə apardığı məsləhətləşmələrdən sonra almanların məskunlaşmasına razılıq verdi.

Vurğulamaq lazımdır ki, Şimali Qafqazda koloniyaların yaranması proseduru başqa regionlara nisbətən öz mürəkkəbliyi ilə seçilirdi. Koloniya yaratmaq üçün bir sıra şərtlərə əməl olunması tələb edilirdi. Əvvəla, koloniyanın

ehtiyaclarını ödəyə biləcək boş torpaq sahələrinin və bu sahələrin dövlət fonduna aid olması mütləq şərt idi. İkinci vacib bir şərt ondan ibarət idi ki, koloniyanın yaradılacağı ərazi yerli dağlı xalqlarının kəndlərindən mümkün qədər uzaqda yerləşməliydi ki, yerli xalqların iqtisadi təsərrüfat maraqlarına xələl gətirməsin və nəhayət, salındığı ərazidə koloniya optimal təsərrüfat formasını seçərək konkret iqtisadi fayda verməli idi.

Nalçık ətrafında yaradılması planlaşdırılan koloniya bütün bu şərtlərə cavab verirdi, lakin bürokratik əngəllər ucbatından koloniyanın rəsmiləşdirilməsi bir qədər yubadıldı. Belə ki, Rusiya ərazisində bir koloniyadan başqasına və yaxud bir regiondan başqasına köçərək yeni koloniya yaratmaq üçün kolonistlər Dövlət Əmlak Nazirliyindən icazə vərəqəsi almalı idi. Nalçik ətrafında məskunlaşmaq istəyən Volqaboyu kolonistlərinin əksəriyyəti icazə vərəqəsi almamışdılar. Dövlət Əmlak Nazirliyi kolonistlərin kortəbii şəkildə Volqaboyunu tərk edərək Qafqazda məskunlaşmasına qarşı çıxırdı. Lakin Şimali Qafqaz ərazisi Müdafiə Nazirliyi tərəfindən idarə olunduğundan kolonistlərin məskunlaşması ilə bağlı məsələlərin həlli Müdafiə Nazirliyinin sərəncamına keçmişdi. Dövlət Əmlak Nazirliyi və Müdafiə Nazirliyi arasında davam edən uzun yazışmalardan sonra 1858-ci ildə Qafqaz Ordusunun baş komandanı Nalçik yaxınlığında alman koloniyasının yaranmasını rəsmiləşdirdi və kolonistlərin arzusu ilə yeni yaşayış məskəni Aleksandrovka adlandırıldı. Dövlət Torpaq fondundan koloniyaya ümumilikdə 1500 des., yəni hər ailəyə 35 des. torpaq sahəsi ayrıldı, kolonistlərin yerinə yetirəcəyi mükəlləfiyyətlər ayırd edildi.[43]

Mixaylovsk koloniyası 1861-ci ildə, müasir Şimali Osetiya ərazisində, Vladiqafqaz şəhərinin yaxınlığında salınmışdı və əhali arasında Vladiqafqaz koloniyası adı ilə tanınmışdı. Arxiv sənədlərindən görünür ki, ilk vaxtlar bu koloniyada 40 alman ailəsi məskunlaşmışdı. Kolonist ailələri müxtəlif regionlardan gəlmişdilər: 37 ailə Saratov, 1 ailə Samara, 1 ailə Novqorod quberniyasının sakinləri idi. Yalnız Avqust Brensin ailəsi xaricdən gələrək Vladiqafqaz koloniyasında məskunlaşmışdı. Bu fakt onu göstərir ki, bütün Şimali Qafqazda olduğu kimi, Terek vilayətində də məskunlaşma prosesi daxili xarakter daşıyırdı. Stavropol və Kuban vilayətlərindən fərqli olaraq, Terek vilayətində kolonistlərin məskunlaşması prosesi miqyasca çox da böyük əraziləri əhatə etmirdi və bunun əsas səbəbi vilayətdə əkinəyararlı torpaq sahələrinin azlığı ilə izah olunur.

Bununla yanaşı, Vladiqafqaz dairəsi alman kolonistləri üçün maraq doğuran bir ərazi idi: Vladiqafqaz kimi iri şəhərin ətrafında məskunlaşmaq, əsasən əkinçilik, heyvandarlıq, bağçılıq və arıçılıqla məşğul olan kolonistlərə öz məhsullarını şəhər bazarlarına çıxartmaq imkanı yaradırdı.

Vladiqafqaz koloniyası məhz belə əlverişli coğrafi mövqedə yerləşsə də, digər tərəfdən koloniyanın normal fəaliyyətinə mənfi təsir göstərən amillər də vardı. Koloniyaya ayrılmış torpaq sahəsində Petrapavlovsk əsgər qəsəbəsinin salınması, koloniyanın əsas nəqliyyat yollarının kəsişdiyi çevrədə yerləşməsi

nəticəsində ona müxtəlif ziyanlar dəyirdi. Əsasən də qış və yay mövsümlərində qoyun sürülərinin koloniyadan keçərək yaylağa, qışlağa aparılması zamanı alman təsərrüfatlarına dəyən ziyan dağıdıcı xarakter alırdı. Bütün bunları nəzərə alaraq Vladiqafqaz koloniyasının sakinləri koloniyanın başqa əraziyə köçürülməsi xahişi ilə rəsmi dövlət orqanlarına müraciət etdilər və müsbət cavab aldılar. 1867-ci ildə Vladiqafqaz koloniyası Vladiqafqaz şəhərindən 9 verst şimala köçürüldü. Şəhər ictimai idarəsinin qərarı ilə koloniyanın şəhərə olan 2200 rubl köhnə borcu silindi və alman kolonistləri onlara ayrılmış yeni ərazidə təsərrüfat fəaliyyətinə başladılar.[45]

1874-cü ilin statistik məlumatlarına görə Vladiqafqaz koloniyasında 297 alman yaşayırdı ki, onlar da 40 təsərrüfat yaratmışdılar. 21 may 1876-cı il tarixdə Vladiqafqaz koloniyasının sakinləri Terek vilayəti rəisinə ünvanladıqları müraciətdə koloniyanın adının dəyişdirilərək, ona çarın qardaşı Böyük knyaz Mixail Nikolayeviçin adının verilməsini xahiş edirdilər. Terek vilayətinin rəisinin 1876-cı il 26 sentyabr tarixdə kolonistlərə göndərdiyi cavab məktubunda onların xahişinin Qafqaz canişini tərəfindən dəstəkləndiyi bildirildi. Beləliklə, 1876-cı il 13 noyabr tarixdən kolonistlərin xahişi ilə Vladiqafqaz koloniyası Mixaylovskaya, və yaxud almansayağı Mixaelsdorf adlandırıldı.[47]

Mixaelsdorf koloniyası Qafqazda ən iri koloniyalardan biri idi. Burada 1889-cu ilin statistik məlumatlarına görə 513 sakin yaşayırdı. Koloniyada 83 təsərrüfat fəaliyyət göstərirdi ki, onların da ixtiyarına 1250 des. torpaq sahəsi ayrılmışdı. Qeyd edək ki, bu koloniya dövlət torpaqlarında yaranmışdı və əsas məşğuliyyəti əkinçilik və heyvandarlıq idi. Koloniyada mövcud olan sənətkar emalatxanaları — 3 dəmirçi sexi, 2 dəyirman və 1 zavod əsasən koloniyanın və ətraf kəndlərin daxili tələbatlarının ödənilməsi istiqamətində fəaliyyət göstərirdilər.[48]

1882-ci ildə Terek vilayətinin şimal düzəngah ərazilərində, Stavropol quberniyası ilə sərhəd zonasında, Qnadenburq alman koloniyası meydana gəldi (indiki Mozdok rayonu Vinoqradnoye kəndi). Vilayətdə yaranan başqa alman koloniyalarından fərqli olaraq, bu koloniya əcnəbi təbəələr tərəfindən salınmışdı. Koloniyanı səciyyələndirən xüsusiyyətlərdən biri də onun «Eigentumsdorf», yəni xüsusi mülkiyyət torpaqlarında yaranması idi. Almaniyadan gələn 40 mühacir ailəsi yerli torpaq sahibləri general-mayor Smekalov və general-mayor Zolotaryovdan 2000 des. torpaq aldılar.[49] Kolonistlərin hüquqi cəhətdən savadsızlığı və müdafiəsizliyi şəraitində torpağın kollektiv şəkildə şəxsi mülkiyyətə satın alınması ən münasib variant idi. Kolonist icması tərəfindən satın alınan torpaq sahəsi kolonist ailələri arasında bölüşdürüldü. 1882-ci ilin statistik məlumatlarına görə Qnadenburq koloniyasında 40 təsərrüfat fəaliyyət göstərirdi və əhalinin sayı 149 nəfər təşkil edirdi. Qeyd edək ki, Qnadenburq sakinləri Şimali Qafqaza öz təşəbbüsləri ilə köçdüklərindən Rusiya dövləti tərəfindən kolonist silki üçün nəzərdə tutulan güzəştlərdən məhrum olmuşdular. Öz maliyyə vəsaitləri

hesabına məskunlaşmaqda çətinliklərlə üzləşən kolonistlər 1888-ci ildə rəsmi dövlət orqanlarına müraciət edərək onlara da müəyyən güzəştlərin edilməsini xahiş etdilər. Kolonistlərin xahişini nəzərə alaraq çar hökuməti onları 1888-ci ildən başlayaraq 5 il müddətinə bütün dövlət və yerli zemstvo vergilərindən azad etdi. Bundan savayı, 1883-1888-ci illərdə kolonistlərin dövlətə ödədikləri torpaq vergisi və Almaniyadan gələrkən ödədikləri gömrük rüsumu (3446 rubl 93 qəpik) geri qaytarıldı, 1892-ci ilə qədər koloniyanın kişi əhalisi hərbi mükəlləfiyyətdən azad edildi. Bütün bu güzəştlərin müqabilində kolonistlərdən Rusiya təbəəliyinin qəbul edilməsi tələb olunurdu.[51] 1864-cü ildən qüvvəyə minən əsaslara görə əcnəbi kolonistin Rusiya təbəəliyini qəbul etməsi mütləq şərt kimi göstərilirdi. Əcnəbinin Rusiya təbəəliyini qəbul etməsi onun öz xahişi ilə və Rusiyada 5 il yaşadıqdan sonra mümkün ola bilərdi. Əgər əcnəbi Rusiya təəbəliyini qəbul etməzdisə, Rusiyanı tərk etmək məcburiyyətində qalırdı. Bundan əvvəl onun əmlakı Rusiya dövlətinin xeyrinə müsadirə olunurdu və əcnəbi kolonist hökumət tərəfindən ona xərclənən bütün maliyyə vəsaitini xəzinəyə qaytarmalı idi. Beləliklə, təbəəliyin «könüllü» qəbul edilməsi yalnız kağız üzərində qalırdı, əslində kolonistlər Rusiya təbəəliyini qəbul etməyə məcbur olurdular.

1888-ci ilin məlumatlarına görə Qnadenburqun əhalisi 120 nəfərədək azalmışdı: 12 ailə koloniyanı tərk edərək Almaniyaya və Rusiyanın müxtəlif quberniyalarına köçmüşdü.[52] Onların təsərrüfatları koloniyada yenicə məskunlaşan 14 alman ailəsi arasında bölüşdürüldü. 1889-cu ilin məlumatlarına görə Qradenburq koloniyasında 52 həyət qeydə alınmışdı və əhalinin sayı 290 nəfər təşkil edirdi. Koloniya bütövlükdə 1937 des. torpaq sahəsinə malik idi. Əsasən əkinçiliklə məşğul olan koloniyada ümumən 400 başa yaxın mal-qara, at qeydə alınmışdı.[53]

XX əsrin əvvəllərində koloniyanın inkişafı daha da sürətlənmiş, təsərrüfatların sayı 95-ə, əhalinin sayı isə 567 nəfərə çatmışdı.[54]

Terek vilayətində yaranan ən köhnə koloniyalardan biri, əsası 1887-ci ildə qoyulmuş, Novıy-Lars (Dzanxotov-Lars) koloniyası olmuşdur. Beslan şəhəri yaxınlığında əsası qoyulan bu koloniyanın sakinləri Bessarabiya, Tavriya və Stavropol quberniyasında torpaq qıtlığından əziyyət çəkən kolonistlər idi. Şəxsi mülkiyyətə torpaq ala bilməyən koloniya sakinləri yerli torpaq sahibi T.Dudarovdan 300 des. torpaq sahəsini icarəyə götürdülər və bunun müqabilində icarə haqqı olaraq məhsulun 25%-ni torpaq sahibinə verməli idilər. Əhalisinə görə koloniya o qədər də böyük deyildi — 1889-cu ilin statistik məlumatlarına görə burada cəmi 54 nəfər yaşayırdı və onlar 11 təsərrüfatda birləşmişdilər.[55] XX əsrin ilk illərinin məlumatlarına görə Novıy-Larsda 86 nəfər yaşayırdı. Təsərrüfatların iriləşməsi nəticəsində onların sayı 11-dən 5-ə düşmüşdü. Koloniyada, əsasən əkinçilik və heyvandarlıqla məşğul olurdular. XX əsrin əvvəllərinə aid mənbələrdən görünür ki, alman koloniyası qonşu rus və ukraynalıların kəndlərinə

nisbətən daha intensiv inkişaf edirdilər, təsərrüfatlardakı mal-qaranın sayına görə öz qonşularını 2-3 dəfə üstələyirdilər.[56]

1888-ci ildə indiki Şimali Osetiya ərazisində, Darqkox stansiyası yaxınlığında Emmaus koloniyası yarandı. Koloniya istefada olan çar generalı Eqlayın şəxsi torpaq sahəsində salınmışdı.[57] Torpaqlarında təsərrüfat həyatı qurmağı planlaşdıran general, Kuban vilayətində məskunlaşan alman kolonistlərinə müraciətində onlara icarədar qismində öz mülkündə məskunlaşmağı təklif etdi.[58] Saratov quberniyasından Kubana köçən və burada da torpaq məsələsini həll edə bilməyən 34 alman ailəsi general Eqlayın torpaqlarında məskən saldılar. İcarədarlardan ibarət olan Emmaus koloniyası inzibati cəhətdən yerli Zamangül kəndinə daxil idi və kolonistlər məhsulun 25%-ni torpaq sahibinə ödəyirdilər. 1889-cu ilin məlumatlarına görə koloniyada 23 təsərrüfat fəaliyyət göstərirdi və əhalinin sayı 186 nəfər idi.[59] Mövcud olduğu 1908-ci ilə qədər koloniyanın təsərrüfatları və əhalisinin sayında əsaslı dəyişikliklər baş verməmişdir. Kolonistlərin əsas məşğuliyyəti əkinçilik, bağçılıq, heyvandarlıq olmuşdur. Kolonistlər istehsal etdikləri kənd təsərrüfatı məhsullarını xammal və yaxud yarımfabrikat şəklində Vladiqafqazda təşkil edilən həftə bazarlarına çıxarırdılar. Kənd təsərrüfatının bazar tələbatlarına uyğun istiqamətləndirilməsi alman təsərrüfatlarının intensiv inkişafına təkan verən əsas amillərdən biri idi. 1902—1903-cü illərin statistik məlumatlarına görə Emmaus koloniyasında hər ailənin illik gəliri 350 rubl təşkil edirdi ki, bu da o zamanlar Rusiyada yüksək göstərici sayılırdı.[60] Emmuas koloniyası 1908-ci ildə öz fəaliyyətini dayandırmalı oldu və koloniya əhalisi qonşu alman koloniyası — Mixaelsdorfda yerləşdirildi. Emmaus koloniyası icarədarlar koloniyası olduğundan 1908-ci ildə onlarla icarə müqavilələri təzələnmədi və koloniya torpaqları Rusiya Kəndli Bankından maliyyə dəstəyi alan Kuratatın cəmiyyəti tərəfindən satın alındı. Sonralar boş qalmış alman təsərrüfatlarında osetin əhalisi yerləşdirildi.[61]

XX əsrin əvvəllərində Rusiyanın kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafı sürətləndi və əsasən də 1907-ci ildən həyata keçirilən Stolipin aqrar islahatı nəticəsində bu proses geniş miqyas aldı. Torpağın azad şəkildə alqı-satqı obyektinə çevrilməsi, yeni təsərrüfat formalarının — xutor təsərrüfatlarının yaranmasına şərait yaratdı. Qeyd edək ki, Şimali Qafqazda ilk xutor təsərrüfatlarını alman kolonistləri yaratmışdılar. 1895-1901-ci illər ərzində Terek vilayətinin Mozdok rayonunda Falman, Laşkaryov, Seler, Fişer, Svayger, Vobiy, Matis kimi xutorlar mövcud idi. Əhalisinin sayı 5-30 nəfərədək olan bu təsərrüfatların hər birinin ixtiyarında təqribən 70-150 des. torpaq sahəsi vardı.[62]

Xutorlarda, əsasən əkinçiliklə məşğul olurdular: heyvandarlıq daxili tələbatların ödənilməsinə xidmət edirdi. Xutor sakinlərinin əksəriyyəti Xerson, Tavriya və Yekaterinoslav (indiki Dnepropetrovsk) quberniyalarından gəlmişdilər. Kuban və Terek vilayətlərindəki alman koloniyalarında torpaq qıtlığından əziyyət çəkənlər də xutor təsərrüfatlarının yaradılmasına üstünlük verirdilər. Xutor

təsərrüfatları həm xüsusi mülkiyyətdə olan, həm də icarəyə götürülmüş torpaq sahələrində yaradılırdı. Bəzi xutorlar torpaq sahəsinə görə koloniyadan geri qalmırdılar. Məsələn, Laşkaryov xutorunda yaranan 4 təsərrüfatın ixtiyarında 693 des. xüsusi mülkiyyətə aid və 173 desyatin icarə torpaqları var idi ki, bu da 20-25 həyətdən ibarət orta alman koloniyasının torpaqlarına bərabər idi.[63]

XIX əsrin sonlarında Terek vilayətinə kolonistlərin köçməsi prosesi nisbətən zəiflədi ki, bu da həm çar hökumətinin apardığı daxili siyasətlə, həm də regionda dövlət fonduna aid boş torpaq sahələrinin azlığı ilə izah olunurdu. Mövcud koloniyalarda əhalinin sayının artması ilə əlaqədar koloniyadaxili sosial gərginlik getdikcə artırdı. Koloniya rəhbərliyi ümumi maliyyə vəsaitləri hesabına yaranmış torpaq problemini həll etməyə çalışırdı: ümumi kassadan ayrılan pullara yeni torpaq sahələri alınır, torpaqsız və aztorpaqlı kolonist ailələri bu torpaqlarda yerləşdirilirdilər. Belə koloniyaların yaranma mexanizmi tarixi ədəbiyyatda yetərincə işıqlandırılmışdır və bu cür koloniyalar «törəmə» koloniya adlanırdılar.

Koloniya rəhbərliyi özü maraqlı idi ki, «ana», yəni əsas koloniyanın xərcləri hesabına yeni torpaqlar əldə edilsin və torpaqsız koloniya üzvləri yeni ərazilərə köçürülsünlər.

XX əsrin əvvəllərində Terek vilayətində, indiki Kabarda-Balkariya ərazisində yeni «törəmə» koloniyalar və xutorlar meydana gəldi ki, onların əsasını Qnadenburq, Aleksandrovsk və Hofnunqsfeld koloniyalarından köçən kolonistlər qoymuşlar. 1908-ci ildə Emmaus koloniyasının bir neçə sakini birləşərək kabardin mənşəli knyaz İnalovun torpaqlarını satın aldılar və yeni koloniya yaratdılar. Eben-Etser adlanan bu koloniyanın sakinləri 4 təsərrüfatda birləşmişdilər və əsasən heyvandarlıqla, əkinçiliklə məşğul olurdular.[64]

Terek vilayətinin qərb rayonlarında, indiki Şimali Osetiya ərazisində inzibati cəhətdən Mixaylovsk koloniyasına aid torpaqlarda Zuyeviç xutoru yaranmışdı ki, buranın sakinlərinin təqribən yarısı alman idi. Adı çəkilən ərazidə almanlar, həmçinin Proxasko (20 həyət, 145 nəfər) Atabəyovlar (6 nəfər), Sorokoumovski (15 nəfər) xutorlarında, Yakovlev və Orlov adlı şəxslərin bağ evlərində də məskunlaşmışdılar.[65] Terek vilayətində yaranan «törəmə» koloniyaların əksəriyyəti Volqaboyu və Cənubi Ukrayna bölgələrindən gəlmiş kolonistlər tərəfindən salınmışdı.

1902-1909-cu illərdə Moloçansk rayonunda mövcud olan onlarla mennonit koloniyalarında əhali sıxlığı və bununla bağlı torpaq qıtlığı aktual məsələlərdən idi. Yeri gəlmişkən qeyd edək ki, mennonit dini cərəyanı protestantizmə aid idi və XVI əsrin I yarısında Almaniyada Reformasiya dövrü yaranmışdı. Simon Mennonun tərəfdarı olan mennonitlər protestantizmin başqa təriqətlərini, əsasən də lüteranlığı qəbul etmir, bu cərəyanlarla düşmən münasibətlər saxlayırdılar. Onlar özlərini «Allah tərəfindən seçilmiş insan» sayırdılar və ətraf — «günahlara batmış» cəmiyyətdən təcrid olunmuş şəkildə yaşayırdılar.

İndiki Ukraynanın cənubunda — Xortitsa və Moloçanskda mennonit icmaları hələ XVIII əsrin sonlarında məskunlaşmışdılar. Ənənəvi olaraq, mennonitlər əkinçiliklə məşğul olurdular və onların dini təlimi nöqteyi-nəzərindən əkinçilik Allaha xoş gələn ən optimal, ən şərəfli təsərrüfat forması kimi qiymətləndirilirdi. Mennonitlər təkcə dindarlıqları ilə deyil, həm də var-dövlətə, varlanmağa güclü meyilləri ilə tanınmışdılar. Kapitalizmin inkişaf etdiyi şəraitdə onlar öz təsərrüfat fəaliyyətlərindən maksimum gəlir əldə etməyə çalışırdılar.

XIX əsrin əvvəllərindən mennonit koloniyalarında kapitalist münasibətlərinin inkişafı icmalarda tarixən kök salmış ənənəvi sosial-iqtisadi qaydalara güclü zərbə vurdu.

Mennonit icmalarında mövcud olan minorat sisteminin dayaqları laxladı və ən əsas hüquq sayılan torpaq mülkiyyətinə varislik hüququna yenidən baxmaq zərurəti yarandı. Mennonit-kolonistlər arasında mövcud olmuş varislik hüququnun mahiyyəti alman müəllifi A.Klausun[66] əsərlərində geniş təhlil olunmuşdur və aşağıdakı prosedurlardan ibarət idi:

a) mennonit ailəsinin təsərrüfatı bütün kənd təsərrüfatı alətləri ilə birlikdə bölünmədən, tam şəkildə «təsərrüfatı daha müvəffəqiyyətlə davam etdirə biləcək varisin ömürlük istifadəsinə verilirdi»;

b) ənənəvi olaraq «təsərrüfatı daha müvəffəqiyyətlə davam etdirə biləcək varis» rolunda ailənin kiçik oğlu qəbul edilirdi;

c) əgər mennonitin bilavasitə varisi yoxdursa, onun əmlakı koloniya üzvlərindən birinə keçirdi;

d) mennonitin təsərrüfatı pulsuz verilmir, hərracda satış yolu ilə başqa kolonist tərəfindən alınırdı;

e) hərracda yalnız torpaq qıtlığı sarıdan əziyyət çəkən kolonist iştirak edə bilərdi. Qeyd edək ki, hər mennonit ailəsinə məskunlaşma zamanı 65 des. torpaq verilmişdi və bu göstəricidən az torpağı olan şəxs aztorpaqlı sayılırdı.

Beləliklə, gördük ki, mennonit icmalarında torpaq norması məsələsində formal da olsa bərabərlik hökm sürürdü. Koloniyadaxili münasibətlərin qorunub saxlanması üçün hökumət mennonit koloniyalarına «ovçarlanmış», yəni «ehtiyat üçün qorunub saxlanan» torpaqlar da ayırmışdı. Lakin XIX əsrin ortalarına Qara dənizin şimal sahillərində məskunlaşma prosesinin intensivləşməsi, koloniyalarda əhalinin sayının sürətlə artması nəticəsində (mennonit ailələrində uşaqların sayı təqribən 7-10 nəfərə çatırdı-*İ.A.*) mennonit koloniyalarında torpaq qıtlığı hiss olunmağa başladı. Sahəsi 65 des. olan təsərrüfatın qurulması təqribən 2-3 min rubla başa gəlirdi ki, bu səbəbdən də boş torpaqları yalnız zəngin kolonist ailələri əldə edə bilirdilər. A.Klausun yazdığına görə, artıq XIX əsrin 40-cı illərində Moloçansk rayonunda ehtiyat torpaq sahələri qalmamışdı.[67] Yaranmış torpaq qıtlığını həll etmək üçün mennonitlər ənənəvi varislik hüququnu pozmağa və təsərrüfata aid torpağı bütün ailə üzvləri arasında bölməyə məcbur oldular. Nəticədə, XIX əsrin II yarısında mennonit koloniyalarında sosial differensiasiya daha da gücləndi və

koloniyada 65 des. torpağa malik olanlarla yanaşı, aşağıdakı kateqoriya kolonistlərə də rast gəlinirdi:

a) yarım desyatin həyəti və 12 des. torpaq sahəsi olanlar;
b) yarım desyatin həyəti və torpaq sahəsi olmayanlar;
c) torpaqsız və kirayə evlərdə yaşayanlar.

Torpaq məsələsinin həllini mennonitlər yanlız başqa regionlara köçməkdə görürdülər.

Mennonitlər öz dini təlimlərindən irəli gələrək həyat üçün daha sadə, cəmiyyətdən nisbətən təcrid olunmuş yerlərə daha çox üstünlük verirdilər. Bu baxımdan Şimali Qafqaz, xüsusilə də Terek vilayəti onların nəzərindən qaça bilməzdi.

Beləliklə, XX əsrin əvvəllərində Moloçansk mennonitləri Terek vilayətinin dağlıq və dağətəyi ərazilərinə köçdülər. Öz təşəbbüsləri ilə Qafqaza gələn kolonistlər yerli rus generallarından və knyazlardan satın aldıqları torpaqlarda məskənlər yaratdılar. Məsələn, təkcə rus knyazı Lvovdan hər desyatini 40 rubl olmaqla 2400 des. torpaq alınmışdı.

Bu torpaqlarda 15 mennonit koloniyası yarandı ki, onlardan da ən inkişaf etmişi Lvov I və Lvov II koloniyaları idi.[68] Yeni iqlim şəraitinə uyğunlaşa bilməyən kolonistlər, hətta kömək üçün rəsmi hakimiyyət orqanlarına müraciət etməyə məcbur olmuşdular. 20 fevral 1909-cu il tarixdə Terek vilayəti rəisinə müraciətdə kolonistlər yeni məskunlaşdıqları ərazidə quraqlıqdan və süni suvarma üçün heç bir şsraitin olmamasından şikayətlənirdilər. Göstərilirdi ki, hətta su çatışmazlığı ucbatından 15 mennonit koloniyasından biri artıq öz fəaliyyətini dayandırmışdır. Müraciətnamədə mennonitlər kömək məqsədilə koloniyalara hidrotexnikanın göndərilməsini və su kanalının çəkilməsini xahiş edirdilər.

Qısa bir müddətdə alman koloniyaları üçün 100 kilometrlik Talma su kanalı çəkildi. Su kanalının çəkilməsi nəticəsində mennonit təsərrüfatlarında hər hektardan yığılan buğdanın məhsuldarlığı 50-80 sentnerə çatdı və əkinçiliyin inkişafı heyvandarlığın da inkişafı üçün baza yaratdı.

XIX əsrin 70-80-ci illərində Almaniyadan gələn «İsxod hərəkatı» dini təliminin tərəfdarları Şimali Qafqazda bir neçə koloniya yaratdılar. Bu koloniyalardan ikisi—Noydorf (1884) və Emmaus (1888) Terek vilayətində yaranmışdı.[69]

Qeyd etmək lazımdır ki, XIX əsrin sonlarında almanların Şimali Qafqaza axını bir qədər gücləndi ki, bu da 1880—1890-cı illərdə alman əhalisinin başqa regionlarda diskriminasiyaya məruz qalması ilə bağlı idi.

Rusiyanın rəsmi dairələri XIX əsrin 70-ci illərindən başlayaraq alman kolonistlərinin strateji regionlarda, əsasən də Qərb və Qara dəniz sahili quberniyalarda kütləvi məskunlaşmasından narahatlıq keçirirdi. Məsələn, 1865—1890-cı illər ərzində Avstriya-Macarıstanla həmsərhəd olan Volın quberniyasına

100 min alman kolonisti köçmüşdü ki, onların yarıdan çoxu sərhədyanı qəzalarda məskunlaşmışdılar.[70]

Rusiya imperiyası əhalisinin birinci ümumi siyahıya alınmasına görə 1897-ci ildə ölkədə 1 mln. 813 min. alman yaşayırdı ki, onların 1 mln. 600 mini, yəni 88,2% Almaniyadan köçüb gələnlər idi. Rusiya almanlarının böyük bir hissəsi Qərb və Qara dəniz sahili quberniyalarda yaşayırdılar.[71]

Bütün bunları nəzərə alaraq çar hökuməti 1880-ci illərdə adı çəkilən regionlarda almanların məskunlaşmasına və ümumiyyətlə, onların iqtisadi fəaliyyətini, siyasi təsirini zəiflətməyə yönələn qanunlar və qərarlar qəbul etdi.[72] Nəticədə, çar hökumətinin yeni qanunlarını qəbul etməyən kolonist təbəqələri yeni regionlara köçməyi üstün tutdular. Daşınmaz əmlak və ilk növbədə torpaq almaq hüququndan məhrum olan, müxtəlif mənəvi təzyiqlərə məruz qalan mennonitlər və protestantizm cərəyanına aid başqa konfessiyaların nümayəndələri Şimali Qafqaza, onun dağlıq və dağətəyi ərazilərinə can atırdılar. Onlar burada azad şəkildə öz dini tələbatlarını ödəmək və təsərrüfatla məşğul olmaq niyyətindəydilər.

Beləliklə, XIX əsrin sonu — XX əsrin əvvəllərində mennonitlər və başqa konfessiya nümayəndələri Terek vilayətinin dağlıq və dağətəyi ərazilərində Qartenfeld, Furstenhof, Marlen-bruni, Miropol, Olqinskaya, Romanovskaya, Peterstal, Ruental, Novıy Lars və sair xırda xutorlar yaratmışdılar.

Terek vilayətində mövcud olmuş alman koloniyalarının dəqiq sayını göstərmək mümkün deyil, belə ki, 1861-ci ildən vilayətin inzibati sərhədləri dəfələrlə dəyişikliyə məruz qalmış, müəyyən koloniyalar ərazi baxımından gah Terek vilayətinin, gah da qonşu inzibati vahidlərin tərkibində yerləşmişlər. Tədqiqatçı E.Y.Aqoyeva öz məqaləsində Terek vilayətində 53 koloniyanın olduğunu iddia etmişdir.[73] Təbii ki, bu rəqəmi mütləq qəbul etmək düzgün olmazdı. Çünki yuxarıda göstərdiyimiz səbəbdən savayı vilayətin daxili həyatı ilə bağlı yaranan səbəblərdən koloniyaların sayında dəyişikliklər baş verirdi. Yuxarıda qeyd etdik ki, kolonistlərin sosial-təsərrüfat, mədəni uyğunlaşması prosesi çox mürəkkəb şəraitdə gedirdi. Yeni iqlim və torpaq şəraitinə uyğunlaşa bilməyən və yaxud yerli dağlı xalqları ilə dostluq münasibətləri qura bilməyən koloniya sakinləri öz yaşayış yerlərini dəyişməyə məcbur olur, Terek vilayəti çərçivəsində, yeni ərazidə və yeni adda koloniya salırdılar. Məsələn, 1888-ci ildə Almaniyadan gəlmiş mühacirlərin yaratdığı Emmaus koloniyası dağlı xalqları ilə yaranan ədavət nəticəsində 1902-ci ildə ləğv olundu və 1904-cü ildə Nalçik yaxınlığında koloniya sakinləri yeni — Eben-Etser koloniyasının əsasını qoydular. XX əsrin əvvəllərində Terek vilayətinin Xasavyurt dairəsində yaranan 15 mennonit koloniyasının da sakinləri eyni problemlə üzləşdilər. Fridheym, Kronsfeld Şenfeld Ebenfeld və sair koloniyaların əhalisi ilə qonşu çeçen kəndləri arasında düşən ixtilaflar almanların öz yaşayış yerini tərk edərək Stavropol quberniyasına yaxın sərhədyanı ərazilərdə məskunlaşması ilə nəticələndi.[74] «İsxod hərəkatı»nın tərəfdarları tərəfindən 1900-cü ildə əsası qoyulmuş Hofnunqsfeld koloniyasının əhalisi əvvəllər Xasavyurt

ətrafında Yelizavettal koloniyasını yaratmış, sonralar Terek çayının şimal sahilinə köçməyə məcbur olmuşlar. Alman tədqiqatçıların məlumatına görə Hofnunqsfeld koloniyası Bessarabiyadan köçüb gəlmiş lüteranlar və reformotorlar tərəfindən salınmışdır və Xasavyurtun 9 kilometrliyində yerləşirdi.[75] Bütün bu söylənilənlərdən belə nəticə çıxarmaq olar ki, Terek vilayətində Hofnunqfeld adında iki koloniya mövcud olmuşdur ki, bu da müəyyən bir ərazinin toponimikasında rast gəlinən haldır.

Beləliklə, kolonistlərin «törəmə» koloniyalardan «ana» koloniyalara geri qayıtması, iqlim şəraitinin yaratdığı və sosial xarakterli problemlərlə bağlı, epizodik hallarda yerli əhali ilə münasibətlərin korlanması və sair səbəblərdən Terek vilayətinin alman kolonistlərinin üfüqi və şaquli mobilliyi vilayətdə movcud olan koloniyaların dəqiq sayı haqqında fikir söyləməyə imkan vermir. XIX əsrin 60-cı illərindən Terek vilayətində alman koloniyalarının yaranmağa başladığını və XX əsrin əvvəllərində də bu prosesin davam etdiyini nəzərə alaraq və apardığımız araşdırmaların nəticələrinə əsaslanaraq deyə bilərik ki, 1914-cü ilə qədərki dövrdə vilayətdə təqribən 50 alman koloniyası və xutoru mövcud olmuşdur.

Qafqazın başqa regionlarından fərqli olaraq, Don Hərbi Dairəsində alman koloniyalarının yaranma prosesi nisbətən gec — 1870-ci illərdə başlamışdı ki, bu da Don Hərbi Dairəsinin yaranma tarixinin spesifikliyi və bu ərazidə mövcud olan torpaq mülkiyyət formasının xüsusiyyətləri ilə izah olunur.

Hələ qədimdən müxtəlif türk dövlətlərinə məxsus olan Don ərazisi XVIII əsrdən tədricən Rusiya tərəfindən işğal olundu. Əhalisiz qalan bu geniş ərazi yarım hərbçi silk-kazaklar tərəfindən idarə olunurdu. Tezliklə burada Don Hərbi Dairəsi yaradıldı. Ərazinin müdafiəsi ilə məşğul olan Don kazakları, həmçinin təsərrüfat həyatı ilə də məşğul olurdular. Don ərazisində torpaq xəzinəyə məxsus idi. Lakin torpaqdan istifadə hüququ Don Hərbi Dairəsinə verilmişdi və bütün torpaqlar Hərbi qulluq prinsipi əsas götürülərək kazak ailələri arasında bölüşdürülmüşdü. Kazak torpaq payını satmaq və yaxud kiməsə bağışlamaq hüququndan məhrum idi. Əgər kazak öz qüvvəsi ilə torpağı əkib-becərə bilmirsə, onu yalnız icarəyə verə bilərdi. 1835-ci ildə «Don Hərbi Dairəsi haqqında Əsasnamə» qəbul edildi[76]. Bu əsasnaməyə görə Don ərazisində torpaqlar zadəganların şəxsi mülkiyyətinə verilirdi. Zadəgan öz torpaq sahəsini yalnız kazak silkindən olan şəxslərə sata bilərdi. Beləliklə, görürük ki, Don Hərbi Dairəsində torpaqların, nəinki əcnəbilərə, hətta yerli rus kəndlilərinə, mülkədarlarına satışı üçün süni maneələr yaradılmışdı. Bu səbəbdən XIX əsrin 70-ci illərinə qədər Don ərazisində heç bir əcnəbi, o cümlədən alman koloniyası yaranmamışdı.

1860—1870-ci illərdə Rusiyada aparılan islahatlar, xüsusən də aqrar islahat Don Hərbi Dairəsində torpaqdan istifadə sistemində inqilabi dəyişikliklərə gətirdi — torpaq azad şəkildə alqı-satqı obyektinə çevrildi.

Don vilayəti əkinəyararlı torpaq sahələrinə görə Rusiyanın ən əhəmiyyətli quberniyalarından biri idi. Burada hər adambaşına 7,1 des. əkinəyararlı torpaq

sahəsi düşürdü. XVIII əsrin sonu - XIX əsrin əvvəlləri ilə müqayisədə bu göstərici nisbətən aşağı düşmüşdü, lakin bununla bərabər baxdığımız dövrdə qonşu quberniyalar ilə müqayisədə bu rəqəm kiçik deyildi. Nəzərə alaq ki, Yekaterinoslav quberniyasında adambaşına 3,8 des., Voronej quberniyasında isə cəmi 2,2 des. əkinə yararlı torpaq sahəsi düşürdü[77]. Həm ölkədaxili, həm də xarici bazarlarda kənd təsərrüfatı məhsullarına və ilk növbədə buğdaya tələbatın artması kənd təsərrüfatı ilə məşğul olan iş adamlarını istehsalı genişləndirməyə, müvafiq olaraq yeni-yeni torpaq sahələri əldə etməyə sövq edirdi.

Torpaq bazarı müxtəlif yollarla formalaşırdı və onlardan ən başlıcası zadəgan torpaqlarının satışa çıxarılması idi. 1868-ci il qanununa görə bütün Rusiya zadəganlarına öz torpaq mülklərindən istədikləri kimi istifadə etmək hüququ verildi. Bir çox zadəganlar, əsasən də kiçik mülk sahibləri və yeni iqtisadi şəraitə uyğunlaşa bilməyənlər müflisləşir və öz torpaq sahələrini satmağa məcbur olurdular. Bu proses 1873-1882-ci illərdə daha intensiv gedirdi. Bir faktı qeyd edək ki, bu dövr ərzində satışa çıxarılan torpaqların 70%-i zadəganlara məxsus olmuşdu[78].

Torpaq bazarında satılan sahələrin əhəmiyyətli hissəsi kəndli torpaqları idi. 1861-ci il 19 fevral Əsasnaməsinə görə şəxsi azadlıq qazanmış kəndlilər Kəndli Torpaq bankının maliyyə yardımı vasitəsilə pay torpaqlarını və mükəlləfiyyətlərini satın aldıqdan sonra hökumətdən aldıqları ssudanı və onun faizini qaytara bilməyərək müflisləşirdilər. Artıq 1870-ci illərin sonunda bir çox kəndlilər öz pay torpaqlarını satmağa məcbur olmuşdular.

Kolonistlərin hüquqi savadsızlığı və sosial müdafiəsizliyi şəraitində torpağın şəxsi mülkiyyətə alınmasının ən optimal forması kollektiv forma idi. Torpaq sahəsi bir neçə zəngin kolonistin maliyyə vəsaiti hesabına alınır və gələcəkdə bu ərazidə koloniya meydana gəlirdi. Yeri gəlmişkən qeyd edək ki, 1871-ci il qanununa görə «kolonist» statusu, II Yekaterina və I Aleksandr tərəfindən onlara verilən bütün imtiyazlar ləğv edilmişdi. Bu səbəbdən artıq 1870-ci illərdən sonra yaranan alman məskənləri çox hallarda «koloniya» yox, «məskən» və yaxud «kənd» kimi adlandırılmışdı. Baxdığımız dövrə aid tarixi mənbələrdə həm «koloniya» həm də «məskən» anlayışlarına rast gəlinir[70] və bunun da səbəbi «koloniya» anlayışının ictimai fikirdə dərin iz salması idi. Buna görə alman yaşayış məntəqələrinə XIX əsrin 70-ci illərindən həm «koloniya», həm də «məskən» kimi müraciətlər olunmuşdur və bu ənənə bizim tədqiqatımızda da davam etdirilir.

Coğrafi cəhətdən alman koloniyaları Don Hərbi ərazisində bərabər paylanmamışdır. Alman koloniyalarının ən çox yayıldığı ərazilər Mius (Taqanroq) və Donetsk dairələri idi ki, bu da adı çəkilən dairələrdə kazak hərbi təsərrüfatlarına nisbətən kəndli torpaq sahibliyinin daha çox yayılması ilə izah oluna bilər — «kəndli» dairələrində torpağın alqı-satqı əməliyyatları daha sərbəst aparıldığından alman kolonistləri bu dairələrə daha çox maraq göstərirdilər.

Hüquqi cəhətdən varislərə keçə biləcək torpaqların Don dairələrində bölgüsü aşağıdakı kimi idi: Mius dairəsində bütün torpaq sahələrinin 51%-i, Donetsk dairəsində 28%, Xopyorda 9%, Ust-Medvedskda 5%, Çerkasskda 5%, 1-ci Don dairəsində 2% və 2-ci Don dairəsində 0,2% təşkil edirdi.[80]

Beləliklə, görürük ki, varisliyə verilə biləcək torpaqlara daha çox Mius, Donetsk dairələrində və Çerkassk dairəsinin bir hissəsində daha çox rast gəlinirdi.

Alman kolonistlərini adı çəkilən «kəndli» dairələrinə cəlb edən amillərdən biri də bu ərazilərin ticarət mərkəzlərinə və limanlara yaxınlığı idi ki, bu da kənd təsərrüfatı məhsullarının ixracı üçün əlverişli şərait yaradırdı. Adı çəkilən dairələrdə müvafiq olaraq torpağa tələbat da çox yüksək idi ki, bu da onun qiymətinin və icarə haqqının durmadan artmasına gətirib çıxarırdı. Məsələn, əgər 1881-ci ildə Donetsk dairəsində torpağın 1 desyatinin icarə haqqı ildə 73 qəpik olmuşsa, 1909-cu ildə bu rəqəm 4-6 rubla çatmışdı.[81]

XIX əsrin 80-ci illərindən Don Hərbi Dairəsində müxtəlif bankların — Kəndli Torpaq bankının, Zadəgan bankının filialları fəaliyyətə başladılar. Adı çəkilən banklar bütün Rusiya təbəələrinə, o cümlədən alman kolonistlərinə də kredit ayırır və nəticədə torpaq mülklərinin alqı-satqı əməliyyatları daha da intensivləşirdi. Məsələn, Donetsk dairəsində meydana gəlmiş 22 alman koloniyasının 13-ü banklardan ayrılan kredit hesabına yaranmışdı. Kreditin şərtləri kolonistlər üçün çox sərfəli idi: almanlar alman məbləği 40-60 il ərzində qaytarmalı idilər və illik faiz torpağın dəyərinin 4% civarında təyin edilmişdi[82].

Kolonist icması torpaq almaq məqsədilə bankdan ssuda götürürdü. Ssuda almaq üçün bank girov tələb edirdi və əksər hallarda kolonistin əldə etdiyi torpaq sahəsi özü girov qoyulurdu. Bankdan götürülən kreditin və faizinin qaytarılmasına koloniya icması elliklə cavabdeh idi. İcma daxilində isə hər kolonistin ödəyəcəyi məbləğ ayırd edilirdi. Əgər kolonist banka ödəmələri yerinə yetirə bilməzsə, bank onun torpaq sahəsini geri alır və hərraca qoyurdu.

Kreditin və faizlərin tam ödənilməsi üçün ayrılan vaxtın uzun müddətliliyi o demək deyildi ki, torpaq həmişə eyni kolonistin istifadəsində olurdu: 40-60 il ərzində torpaq sahəsi öz ödəmə borcları ilə bir neçə dəfə satıla bilərdi. Özgə xalqın nümayəndələrinin koloniyada məskunlaşmasının qarşısını almaq üçün almanlar torpaqlarını yalnız öz həmvətənlərinə satırdılar. Beləliklə, baxmayaraq ki, torpaq sahələri bankların girovundaydı, alqı-satqı əməliyyatları intensiv şəkildə davam edirdi. Girov qoyulmuş torpağı alan kolonist torpağın əvvəlki sahibinin bank qarşısında götürdüyü bütün öhdəlikləri boynuna alır və kolonist icmasına qəbul edilirdi[83].

Torpaqdan istifadənin başqa bir forması torpağın icarəyə götürülməsi idi. İcarə haqqında müqavilələr həm fərdi, həm də kollektiv şəkildə bağlanırdı. Don ərazisində icarənin ən geniş yayılmış forması artel icarəsi idi. Torpaq kollektiv şəkildə icarəyə götürülür və icarə haqqında müqaviləyə artelin hər üzvünün familiyası yazılırdı. İcarəyə götürülmüş torpaq artel üzvləri arasında paylanılır və

hər kolonistin torpaqdan istifadə üsulu ayırd edilirdi. İcarə müddəti 1 ildən 6 ilə qədər ola bilərdi və müddət başa çatdıqda müqavilə təzələnə bilərdi.

Qeyd edək ki, Donda icarə haqqı çox yüksək idi və torpağın, əksər hallarda icarədarlardan, yəni ikinci əllərdən icarəyə götürülməsi onun qiymətinin daha da artmasına gətirib çıxarırdı. Buna görə kolonistlər imkan daxilində torpağın şəxsi mülkiyyətə alınmasına daha çox önəm verirdilər.

1909-cu ilin məlumatlarına görə Donetsk dairəsində mövcud olan 29 koloniyadan yalnız 7-si və Taqanroq dairəsində mövcud olan 36 koloniyadan yalnız 3-ü icarə torpaqlarında yaranmışdı[84]. Taqanroq dairəsində 1888-ci ildə almanların istifadəsində 48658 des. torpaq sahəsi vardı və onların cəmi 12 %-i, yəni 6853 desyatini icarə edilmiş torpaqlara, qalan 41795 desyatini (88%) isə şəxsi mülkiyyətdə olan torpaqlara aid idi[85].

Beləliklə, Rusiyada XIX əsrin II yarısında aparılan islahatlar kənd təsərrüfatında kapitalizmin inkişafı üçün şərait yaratdı. Boş qalmış torpaqların mənimsənilməsi prosesi gücləndi və bu proses Don Hərbi Dairəsində geniş vüsət aldı. Belə ki, XIX əsrin ortalarında Donda çəmənlik ərazilərin sahəsi əkin sahələrindən 2,5 dəfə çox idi. Boş ərazilərdə yaranan koloniyalarda kənd təsərrüfatı əmtəə istehsalı xarakteri daşıyırdı və bu koloniyalar əsasən, buğda istehsalında ixtisaslaşmışdılar. Rusiyadan ixrac olunan buğdanın çox hissəsi Don vilayətinin, Yekaterinoslav, Xerson, Tavriya və sair cənub quberniyalarının payına düşürdü və Azov, Qara dəniz sahillərindəki limanlar vasitəsilə ixrac olunurdu. «Buğda həyəcanı» müxtəlif regionlardan cənub quberniyalara əhalinin axınına səbəb oldu: XIX əsrin sonuna Don Hərbi Dairəsində əhalinin sayı 2 dəfə artdı. Onların arasında almanlar əhəmiyyətli çəkiyə malik idi.

Qeyd edək ki, Don Hərbi Dairəsində məskunlaşma prosesi daxili rezervlər hesabına həyata keçirilirdi. Dairədə məskunlaşan alman kolonistlərinin hamısı Rusiyanın müxtəlif regionlarından köçüb gəlmişdilər. Don vilayətində yaranan koloniyaların əsasını qoyanlar əsasən Voronej, Tavriya, Yekaterinoslav, Saratov, Xerson quberniyalarından gələn kolonistlər idi. Təkcə Miussk dairəsində 1875—1887-ci illərdə alman kolonistləri tərəfindən kollektiv formada 40-dan artıq torpaq mülklərinin satın alınması faktı qeydə alınmışdı. Bu o demək idi ki, bu dövr ərzində 40-dan artıq koloniya meydana gəlmişdi[86]. Nəticədə, Don Hərbi Dairəsində almanların kütləvi məskunlaşması nəticəsində 1890—1915-ci illər ərzində alman məskənlərinin sayı 2 dəfə artdı[87].

Alman məskunlaşmasının ən intensiv getdiyi dairə Taqanroq dairəsi idi. Burada 1890-cı ildə 36 koloniya mövcud olmuşdusa, 1915-ci ildə bu rəqəm artıq 80-ə çatmışdı[88]. Köhnə koloniyalarda da əhalinin sayı sürətlə artırdı və bu koloniyalarda əhalinin artımı ilə bağlı yaranan torpaq çatışmazlığı yeni sahələrin alınması vasitəsilə həll edilirdi.

Arxiv sənədlərinə əsasən, Don Hərbi Dairəsində 1876—1916-cı illər ərzində katolik və protestant əhalinin sayının dinamikasını əks etdirən cədvəl

hazırlamaqla ayrı-ayrı dairələrdə bu prosesin spesifikliyini görə bilərik[89]. Təbii ki, bu cədvəl konfessional amilə görə tərtib olunmuşdur və Don ərazisində almanların dəqiq sayı haqqında məlumat mənbəyi ola bilməz. Fikrimiz ona əsaslanır ki, bu statistikaya Donun kiçik şəhərlərində yaşayan, həmçinin pravoslav və sair dinlərə keçən almanlar düşməmişlər. Eyni zamanda statistikada yalnız iki dini təriqətin — Katolisizmin və protestantizmin tərəfdarları göstərildiyinə görə güman etmək olar ki, onların içində alman etnosuna mənsub olmayan əhali də qeydə alınmışdır. Məsələn, Rostov dairəsində Zvoyniqt və Taurut adlı iki latış koloniyası vardı ki, onların da əhalisi katolik dininə etiqad edirdilər.

***Cədvəl 3. 1876-1916-cı illərdə Don Hərbi Dairəsində katolik və protestant əhalinin artım dinamikası***

| № | Şəhər və dairələr | 1876-cı il | | 1887-ci il | | 1909-cu il | | 1916-cı il | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Katoliklər | Protestantlar | Katoliklər | Protestantlar | Katoliklər | Protestantlar | Katoliklər | Protestantlar |
| 1 | Çerkassk dairəsi | 15 | 2 | 42 | 27 | 74 | 39 | 64 | 193 |
| 2 | Rostov | - | - | - | - | 117 | 2514 | 734 | 1123 |
| 3 | Taqanroq | 2587 | 1802 | 1945 | 3710 | 5350 | 13205 | 7122 | 15925 |
| 4 | I Don dairəsi | - | - | - | - | 90 | 2037 | 381 | 536 |
| 5 | II Don dairəsi | 11 | - | 2 | 45 | - | 6 | 101 | 58 |
| 6 | Ust-Medvejensk | 9 | - | 110 | 5 | 13 | 161 | 124 | 3497 |
| 7 | Xopyor | - | - | 1 | - | 7 | 115 | 136 | 638 |
| 8 | Donetsk | 48 | 32 | 142 | - | 2449 | 4104 | 4951 | 4728 |
| 9 | Selsk | - | - | - | - | 29 | 1544 | 447 | 1080 |
| 10 | Novoçerkask şəhəri | 96 | 94 | - | - | 334 | 436 | 362 | 193 |
| 11 | Aleksandrovsk-Qruşevsk şəh. | - | - | - | - | 53 | 35 | 16 | 16 |
| 12 | Azov şəhəri | . | - | - | - | 7 | 13 | 3993 | 829 |
| 13 | Taqanroq şəhəri | - | - | - | - | 1953 | 483 | 11 | 10 |
| 14 | Don Hərbi Dairəsi üzrə cəmi: | 2769 | 1934 | 2243 | 3787 | 10476 | 24692 | 18442 | 28826 |

Cədvələ görə 1916-cı ildə Don Hərbi ərazisində 47268 katolik və protestant yaşayırdı ki, onların da böyük əksəriyyəti alman milliyyətindən idi. Cədvələ düşməyən başqa dini cərəyanlara mənsub almanları da nəzərə alsaq, deyə bilərik ki, baxdığımız dövrdə Don Hərbi Dairəsində təqribən 50 min alman əhalisi yaşayırdı.

Don ərazisində yeni koloniyaların yaranma prosesi o qədər intensivləşmişdi ki, rəsmi hökumət orqanları onu nəzarətdə saxlaya bilmirdilər. Vəziyyəti nəzərə alaraq Don Hərbi Dairəsinin rəhbərliyi 1890-cı ildə vilayətdə mövcud olan alman koloniyaları haqqında hərtərəfli məlumat toplamaq sərəncamı verdi. Sərəncamda deyilirdi ki, koloniyaların yaranmasında nəzərə çarpan özbaşınalıqlara son qoyulmalı, hər bir koloniyanın yaranması yalnız quberniya rəsmi dairələrinin icazəsi ilə həyata keçirilməlidir. Hətta koloniyaların memarlıq planı belə, qubernator tərəfindən təsdiq olunmalı idi. Yeni yaranan koloniyalar idarəetmə cəhətdən yerli nahiyələrə tabe olmalı, daxili idarəetmə sistemi yerli rus kəndləri ilə eyniləşdirilməli idi.

Sərəncamda alman yaşayış məskənlərinə rus adlarının verilməsi məsələsi xüsusi vurğulanırdı[90]. Ancaq sərəncamda qoyulan vəzifələrin yerinə yetirilməsi bir sıra obyektiv və subyektiv xarakterli çətinliklərlə üzləşdi.

Ən birinci problem kolonistlərin böyük mobilliyə malik olması idi. Belə ki, Don ərazisində yaşayan almanların əksəriyyəti, əslində başqa quberniyaların kəndli cəmiyyətlərində qeydiyyatda idi və həmin quberniyalarda vergi ödəyir, müxtəlif mükəlləfiyyətlər yerinə yetirirdilər. Lazım gəldikdə kolonistlər qeydiyyatda olduqları quberniyalara qayıdırdılar.

Arxiv sənədlərindən görünür ki, Don vilayətində məskunlaşan almanların əksəriyyəti öz köhnə yaşayış yeri ilə sıx əlaqə saxlayır, Donda isə kəndlərdən aralı kiçik yaşayış məntəqəsi yaradır, bu məntəqələrdə qeydiyyata düşmür və torpağın ümumi məcburi sığortalanmasından boyun qaçırırdılar[91].

Donda mövcud olan koloniyalarda nizam-intizamın gücləndirilməsi, koloniyalar üzərində nəzarəti gücləndirmək məqsədilə rəsmi orqanlar koloniyaların planlarının tərtib edilməsinə böyük əhəmiyyət verirdilər və bu vəzifənin yerinə yetirilməsi Don vilayəti Torpaq işləri üzrə idarə komitəsinə həvalə edildi. Yerlərdə vəziyyətlə tanış olduqdan sonra adı çəkilən komitə hesabat hazırladı. Bu hesabatda göstərilirdi ki, Don vilayətində çoxsaylı məskənlər yaradan alman mənşəli kolonistlər yerli kəndlilərlə eyni kateqoriyaya aid edilə bilməzlər və onlardan zemstvo sığortası tələb etməyə heç bir əsas yoxdur. Hesabat müəllifləri deyilən fikri aşağıdakı faktlarla əsaslandırırdılar:

Birinci, alman kolonistləri Don vilayətində şəxsi mülkiyyətə torpaq əldə etsələr də, başqa quberniyalarda qeydiyyatda olan pasportlarla yaşayırlar və buna görə onların məskunlaşması daha çox müvəqqəti xarakter daşıyır;

İkinci, Don vilayətində alman məskənlərinin böyük bir hissəsi icarə torpaqlarında yaranmışdır və bu özü onların müvəqqəti xarakter daşıdığını göstərir;

Üçüncü, Don vilayətində yaranan koloniyaların xüsusiyyəti ondadır ki, onların yaranması ictimai hüquqlara tam söykənməmişdir. Klassik alman koloniyalarında kolonist icması elliklə əmlak məsuliyyəti daşıyırdısa, Don vilayətində yaranan koloniyalar daha çox kollektiv müqavilə hüququna əsaslanırdı

və müvafiq olaraq müqavilənin hər iştirakçısı qoyduğu kapitalın payına uyğun olaraq məsuliyyət daşıyırdı.

Dördüncü, heç bir kəndli icması öz pay torpağını ləğv edərək Don vilayətindən başqa bir quberniyaya köçmək hüququna malik olmadığı halda almanların yaratdığı kolonist cəmiyyəti istənilən vaxt təsərrüfatını sataraq başqa bir quberniyaya köçə bilərdi[92].

Hesabatda, həmçinin qeyd olunurdu ki, alman koloniyalarının planlarının tərtibinə heç bir ehtiyac qalmamışdır, belə ki, onlar artıq çoxdan yerləşmişlər.

Aşağıda gətirdiyimiz bəzi faktlar Donda mövcud olan koloniyaların əksəriyyətinin müvəqqəti xarakter daşıdığını göstərir. Məsələn, 1877-ci ildə Miusk dairəsində mövcud olan Felzenbax koloniyasının üzvləri dövlətdən 500 rubl məbləğində ssuda almış və polis orqanları ssudanın qaytarılmasını tələb etdikdə üzə çıxmışdır ki, adı çəkilən koloniya artıq ləğv edilmişdir[93]. Yəni, kolonistlər torpaqlarını satmış və öz köhnə yaşayış yerlərinə qayıtmışlar. Arxiv sənədlərindən görünür ki, Rusiyanın başqa regionlarından fərqli olaraq, Donda məskunlaşan almanların çoxu dəbdəbəli evlər tikməkdən yayınır, əsasən az xərc tələb edən, palçıqdan tikilmiş müvəqqəti evlərə üstünlük verirdilər[94].

Təbii ki, kolonistlərin öz yaşayış yerlərini tərk etməsi halları kütləvi xarakter daşımırdı, bu cür hadisələrə tək-tək rast gəlinirdi. 3 №-li cədvəldən göründüyü kimi, 1876-cı ildən 1916-cı ilə qədər, yəni 40 il ərzində Don Hərbi Dairəsində almanların sayı sürətlə artmışdı və bu bir daha sübut edir ki, alman əhalisi Donda daimi məskunlaşmağa daha çox üstünlük verirdi.

Alman koloniyalarının planlarının tərtibinə gəldikdə isə torpaq paylayan komitənin bu işdən imtina etməsindən sonra bu vəzifə kəndli işləri üzrə vilayət idarəsinə həvalə edildi. Rəsmi hökumət dairələrinin alman koloniyalarının planlarına marağı heç də koloniyaların daha optimal yerləşdirilməsi və onların daha da abadlaşdırılması istəklərindən irəli gəlmirdi.

Planlara olan diqqət azad, müstəqil alman icmalarının fəaliyyətindən doğan narahatçılığın nəticəsi idi. Məlumdur ki, 1890-cı illərdə «alman məsələsinin» müzakirəsi məişət səviyyəsindən ali dövlət səviyyəsinə qaldırılmışdı. Bu nöqteyi-nəzərdən Don kimi hərbi-strateji ərazidə onlarla əcnəbi koloniyaların nəzarətdən kənarda qalması yolverilməz idi. Don Hərbi Dairəsində mövcud olan koloniyalar üzərində nəzarəti gücləndirmək istiqamətində rəsmi dövlət orqanları tərəfindən müxtəlif təkliflər irəli sürülürdü. Məsələn, Rostov dairə rəisinin məruzəsində alman koloniyalarında «müstəqil kənd idarəetmə sisteminin» və yaxud koloniyalarda kənd starostası vəzifəsinin təşkil edilməsi təklif olunurdu. Dairə rəisinin fikrincə, bu vəzifəyə seçilən şəxs rəsmi dairələr tərəfindən təsdiqlənməlidir ki, o, xidməti vəzifəsinə görə özünün yuxarı instansiyalardan asılılığını dərk etsin[95]. Beləliklə, Don vilayət kəndli idarəsi koloniyaların azad kəndlərə çevrilməsi istiqamətində fəaliyyətini gücləndirdi. Koloniyalara kənd idarələrinə aid atributlar, müxtəlif nişanlar kənd starostası üçün möhürlər, qeydiyyat kitabları və

sair əşyalar göndərdilər. Rəsmi dairələrin koloniyaların ləğvinə yönələn bu addımları almanlar tərəfindən narazılıqla qarşılandı və vilayət kəndli idarəsinə kolonistlər tərəfindən, çoxsaylı şikayətnamələr göndərildi. Alman kolonistlərində narazılıq yaradan əsas səbəb koloniyalarda kənd icmalarının təşkil edilməsi idi. Bu halda koloniya üzvlərindən öz köhnə yaşayış yerlərini həmişəlik tərk etmək, yeni kənd icmasında qeydiyyata düşmək tələb olunurdu. Bütün bunlar kolonistlər üçün müxtəlif problemlər yaradırdı. Məsələn, Mariupol qəzasının Qrunaus nahiyəsindən gələrək Taqanroq dairəsinin Pisarevka kəndində məskunlaşan kolonistlər yuxarı instansiyalara yazdıqları xahişnamədə yeni yaşayış yerində azad kəndli cəmiyyətinin yaradılmasının mümkünsüzlüyündən danışırdılar. Xahişnamədən bu mümkünsüzlüyün səbəbi aydın olur. Belə ki, kolonistlərin Qrunaus nahiyəsindən qeydiyyatdan çıxmaları mütləq şərt sayılırdı. Bunun üçün kolonistlər əvvəlcə Qrunaus kolonist cəmiyyətinin ictimai kapitalından, rezerv ərzaq dükanlarından, ümumi torpaq mülkiyyətindən və müxtəlif ictimai binalardan onlara düşən payı almalı idilər[96].

Görürük ki, yeni yaşayış yerində kolonistlərin qeydiyyata alınması və onların vilayət kəndli idarəsinə tabe etdirilməsinin çox mürəkkəb mexanizmi var idi. Bu məsələnin həlli bir neçə on illiyə başa gələ bilərdi. Hüquqi nöqteyi-nəzərdən Don Hərbi Dairəsinin hökumət orqanlarının kolonistlərə qarşı iddiaları qeyri-qanuni xarakter daşıyırdı. Əvvəla, nəzərə alaq ki, kolonistlər müxtəlif silklərə aid idilər. Onların arasında kəndlilərdən savayı meşşanlara, əcnəbi vətəndaşlara və keçmiş əsgərlərə rast gəlinirdi. İkinci bir tərəfdən kolonistlər xüsusi mülkiyyətçilər kateqoriyasına aid idilər və onların könüllü razılığı olmadan koloniyalarda kənd idarəetmə sisteminin təşkili həyata keçirilə bilməzdi. Kolonistlərin rəsmi dairələrə göndərdikləri bütün şikayətlər nəticəsiz qaldı və yalnız Ali Senatın 1898-ci il tarixdə qəbul etdiyi qərarla kənd idarəetmə sisteminin yaradılması məsələsi gündəmdən çıxarıldı[97]. Ali Senatın qərarında qeyd olunurdu ki, «04 iyun 1871-ci il qanununa əsasən, kəndlilər kənd icmasının azad üzvləri kimi öz doğma koloniyalarındakı həyətyanı sahələrdən məhrum olmamaq şərti ilə qeydiyyatdan kənar istənilən yerdə yaşamaq və daşınmaz əmlak əldə etmək hüququna malikdirlər»[98].

Yuxarıda adı çəkilən qərarda vurğulanırdı ki, kolonistlər yeni yaşayış yerlərinə köhnə koloniyalarından azad olduqdan sonra təhkim edilə bilərlər və bu proses yalnız kolonistlərin şəxsi istəyi ilə həyata keçirilə bilər. Bütün bunlarla yanaşı, qərarda Don ərazisində, şəxsi mülkiyyət torpaqlarında məskunlaşan kolonistlərin vəzifələri göstərilir, yeni yaşayış yerində ümumi və kənd polis orqanlarına sözsüz tabe olmaq tövsiyə edilirdi.

Beləliklə, görürük ki, Don Hərbi Dairəsində alman koloniyalarının yaranma prosesi XIX əsrin 70-ci illərindən başlasa da, onların hüquqi statusu yalnız 1898-ci ildə təyin edildi — bu vaxta qədər Donun müxtəlif dairələrində yerli hakimiyyət orqanları kolonistlərlə fərqli münasibətlərdə olmuşlar. 1888-ci ilə aid arxiv

sənədlərindən görünür ki, Tarasov nahiyəsində yerli hakimiyyət orqanları qanunvericilikdəki boşluqdan və kolonistlərin hüquqi savadsızlığından istifadə edərək onları qeyri-rəsmi şəkildə kəndli icmalarına tabe etdirmiş, kolonistlər müəyyən vergilərin ödənilməsinə, mükəlləfiyyətlərin yerinə yetirilməsinə cəlb olunmuşlar. Ümumiyyətlə, götürdükdə, belə hallara az təsadüf edilirdi. Don ərazisində kolonistlərin əksəriyyəti heç bir kəndli icmasında qeydiyyata düşməmişdilər və burada özlərini çox azad, sərbəst hiss edir, heç bir kənar nəzarət olmadan öz təsərrüfat işləri ilə məşğul olurdular[99].

Hər hansı bir vacib məsələnin həlli üçün Don kolonistləri qeydiyyatda olduqları köhnə koloniyalara müraciət etməli olurdular ki, bu da, bəzən bir neçə ay çəkirdi. «Ostheym qəsəbəsində ictimai əsaslarla kənd təsərrüfatı idarəsinin yaranması haqqında» sənəddən görünür ki, Taqanroq dairəsinin Ostheym, Qrintal, Korntal, Ofelzental koloniyalarında 1883-cü ildə, hələ 1871-ci ilədək mövcud olmuş köhnə möhürdən, qeydiyyat kitabından istifadə etməklə özbaşına kənd idarəsi yaradıldı və qeyd edək ki, köhnə möhürlərdə «kənd prikazı» yazılırdı, 1871-ci il 04 iyun qanununa görə «kənd prikazı» «kənd idarəsi» ilə əvəz olunduğundan köhnə möhürdən istifadə qanun pozuntusu sayılırdı. Təqribən 10 ilə yaxın adı çəkilən koloniyalarda özbaşına yaranmış kənd idarəsi saxta möhürlə fəaliyyət göstərmiş və onların qanunsuz fəaliyyəti ifşa olunduqdan sonra kolonistlər öz problemlərini qanunla nəzərdə tutulan ümumi əsaslarla həll etməyə məcbur olmuşlar[100].

Don Hərbi Dairəsində alman koloniyalarının idarəedilməsi sistemi başqa regionlarla müqayisədə bəzi xüsusiyyətlərə malik idi. Qeyd etdiyimiz kimi, Don ərazisində yaşayan kolonistlər başqa quberniyalarda, köhnə koloniyalarında qeydiyyatda sayılırdılar, orada vergi ödəyir, mükəlləfiyyətlər yerinə yetirir, kənd starostasını seçir və orada pasport alırdılar. Donda seçilən starosta və şultsların heç bir əsaslı səlahiyyətləri yox idi. Əgər başqa regionlarda kolonistlərin seçdiyi şults, həm də koloniyada polis funksiyasını yerinə yetirirdisə, Don kolonistlərinin seçdiyi şultslar rəsmi dairələr tərəfindən təsdiqlənmədiyindən geniş səlahiyyətlərə malik olmur, yalnız bəzi təsərrüfat məsələlərinin həllində yerli orqanlara yardımçı funksiyasını yerinə yetirirdilər. Məsələn, müəyyən pul vəsaitinin yığılmasında və yaxud koloniyadaxili təsərrüfat məsələlərinin müzakirəsində şultsun rəyi nəzərə alınırdı. Bir sözlə desək, Don Hərbi Dairəsində koloniya kolonistlər tərəfindən seçilən və ictimai əsaslarla fəaliyyət göstərən şults tərəfindən idarə olunurdu. İnzibati cəhətdən alman yaşayış məskənləri yaxınlıqdakı nahiyələrə və kənd idarələrinə tabe etdirilmişdilər. Hər il koloniya sakinləri koloniya üzvlərindən «desyatski» və «sotski» kimi polis vəzifələrinə namizədlərini seçirdilər və onlar dairə polis rəisi tərəfindən təsdiq edildikdən sonra vəzifələrinin yerinə yetirilməsinə başlayırdılar[101].

Arxiv sənədlərində epistolyar materiallar saxlanılmışdı və kolonistlərin xatirə dəftərləri, məktubları ilə tanışlıq Donda mövcud olmuş koloniyaların xarici

görkəmi haqqında təsəvvür yaratmağa imkan verir[102]. Sənədlərdən görünür ki, alman koloniyaları səliqəli şəkildə salınırdı: evlər bir xətt boyu tikilir, küçələr genişliyi və düzgünlüyü ilə seçilirdi. Küçələrin və evlərin kənarında yaşıllaşma aparılırdı. Əsasən meyvə ağacları əkilirdi. XIX əsrin 70-ci illərində gildən tikilən daxmalar üstünlük təşkil edirdisə, Dünya müharibəsi ərəfəsində Don vilayətinin koloniyalarında evlərin böyük əksəriyyəti bişmiş kərpicdən inşa edilirdi. Koloniyalardakı evlər memarlıq cəhətdən rəngarəngliyi, təmizliyi və rahatlığı ilə seçilirdi. Koloniyalarda yüksək qonşuluq mədəniyyəti hökm sürürdü. Rəsmi dairələrin qadağasına baxmayaraq, almanlar öz koloniyalarına alman adları verirdilər[103]. Adların seçilməsində xüsusi bir yanaşma yox idi: koloniyalara ilk məskunlaşdıqları köhnə koloniyaların və yaxud hansısa bir tanınmış alman torpaq sahibinin adı verilirdi. Bəzi koloniyaların adları koloniyanın salındığı yerin coğrafi xüsusiyyətləri ilə bağlı idi. Məsələn, Blyümental («Çiçəkli dərə»), Ruental («Sakit dərə»), Qnadenfeld («Rəhmdil səhra») və sair adları göstərmək olar.

## 2.2. CƏNUBİ QAFQAZDA ALMAN MƏSKUNLAŞMASININ GENİŞLƏNMƏSİ VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

XIX əsrin II yarısı - XX əsrin əvvəllərində Şimali Qafqazdan fərqli olaraq, Cənubi Qafqaza əcnəbi miqrantların axını müşahidə olunmurdu. Bunun əsas səbəbi onunla izah olunur ki, Şimali Qafqaza nisbətən Cənubi Qafqazda əhali sıxlığı mövcud idi və region əhalisi torpaq çatışmazlığından əziyyət çəkirdi. Bundan savayı, çar hökuməti dairələrində tez-tez Cənubi Qafqazda aparılan miqrasiya siyasəti tənqid hədəfinə çevrilir, bu regionda əcnəbilərin deyil, rus, slavyan mənşəli əhalinin yerləşdirilməsinə daha çox diqqət yetirilməsi tələb olunurdu. 1870-80-ci illərdən başlayan «antialman» əhvali-ruhiyyəsi, ilk növbədə sərhədyanı quberniyalarda yaşayan alman əhalisinə qarşı yönəlmişdi və bu baxımdan çar hökuməti Cənubi Qafqaz quberniyalarında əlavə alman əhalisinin yerləşdirilməsinə mənfi yanaşırdı.

Çarizmin XIX əsrin əvvəllərindən apardığı xristianlaşma siyasəti və bu məqsədlə yüz minlərlə erməni əhalisinin Cənubi Qafqazda yerləşdirilməsi heç bir nəticə vermədi. Əksinə, XIX əsrin 80-ci illərindən Osmanlı imperiyasında siyasi fəallığını artıran erməni kütlələri tezliklə terror və separatizm mövqeyinə keçdilər və onlar, nəinki Osmanlı dövlətinin, həmçinin Rusiyanın dövlət təhlükəsizliyinə qarşı yönələn qüvvə kimi çıxış edirdilər. Bütün bunların fonunda Rusiya dövlətçiliyi mövqeyində dayanan məmurlar, publisistlər, tarixçilər və sair qəbildən olan şəxslər Cənubi Qafqazda rus elementinin güclənməsinə yönələn məskunlaşma siyasətinin aparılmasının zəruriliyi haqqında fikirlər söyləyirdilər. Çar hökumətinin Cənubi Qafqazda apardığı ruslaşdırma siyasətinin nəticələri özünü çox gözlətmədi.

XIX əsrin II yarısı — XX əsrin əvvəllərində Cənubi Qafqazda slavyan mənşəli xalqlara məxsus 200-ə yaxın kənd meydana gəldi[104].

XIX əsrin II yarısında Cənubi Qafqaza xaricdən alman mühacirlərinin axını, demək olar ki, kəsildi. Bu onunla izah olunur ki, Cənubi Qafqaz Rusiyanın başqa regionlarından fərqli olaraq, torpaq ehtiyatları nöqteyi-nəzərindən geniş məskunlaşma potensialına malik deyildi. XIX əsrin II yarısından başlayaraq almanların məskunlaşması daha çox Şimali Qafqazı, Qərbi Ukrayna, Ural və Sibir ərazilərini əhatə etmişdi. Bununla yanaşı, Cənubi Qafqazda yeni alman koloniyalarının yaranma prosesi davam edirdi və bu daha çox artıq mövcud olan koloniyaların daxili rezervləri hesabına gedirdi. Koloniyalarda əhalinin sayının artması, torpaq qıtlığının yaranması koloniya rəhbərliyini məcbur edirdi ki, problemin həlli üçün əlavə rezervlər axtarsın. Koloniyalarda mövcud olan ümumi xəzinənin vəsaitləri hesabına yeni torpaq sahələri əldə edilir və bu torpaqlarda köhnə koloniyaların əhalisi hesabına yeni koloniyalar yaradılırdı. Tarixşünaslıqda bu cür koloniyalar «törəmə» və yaxud «qız» («doçernie» koloni) koloniyalar adlandırılmışdı. Azərbaycanda «törəmə» koloniyaların yaranma prosesi XIX əsrin 80-ci illərinin ortalarından başladı.

Azərbaycan ərazisində yaranan ilk «törəmə» koloniyanın əsası 1888-ci ildə Yelenendorf kolonistləri tərəfindən qoyuldu. Hələ 1866-cı ildə dövlət yerli bəylərə məxsus olan və «Seyfəli bağları» adlı ərazinin bir hissəsini öz hesabına əldə edərək Yelenendorf koloniyasına vermişdi.

1888-ci ildə 1750 des. 1200 kv. sajen əraziyə malik olan bu torpaqlarda Yelenendorf koloniyasından 90 aztorpaqlı və torpaqsız alman ailəsi köçürülürdü və yeni Georqsfeld adlı koloniya meydana gəldi[105]. «Törəmə» koloniyaların yaranması prosesi sonrakı illərdə də davam etmişdi. Belə ki, 1902-ci ildə Alekseyevka[106], 1905-ci ildə Qryünfeld[107], 1907-ci ildə Ayqenfeld[108], 1912-ci ildə Traubenfeld[109] koloniyaları yarandı. Azərbaycan ərazisində sonuncu «törəmə» koloniya 1914-cü ildə indiki Ağstafa rayonu ərazisində yaradılan Yelizavetinka koloniyası olmuşdur[110]. Qeyd edək ki, bu koloniyalar indiki Azərbaycanın qərb rayonlarında Tovuz, Ağstafa, Qazax, Şəmkir rayonları ərazisində yaradılmışdılar və onların yaradılmasında, əsasən 1819-cu ildən bu regionda mövcud olmuş iki koloniya — Yelenendorf və Annenfeld koloniyalarının sakinləri iştirak etmişlər. Məsələn, Georqsfeld, Alekseyevka, Qrünfeld, Traubenfeld «törəmə» koloniyaları Yelenendorf kolonistləri tərəfindən 1907-ci ildə Şəmkir rayonunun indiki İrmaşlı kəndində əsası qoyulan Ayqenfeld isə Annenfeld kolonistləri tərəfindən yaradılmışdılar. Yelizavetinka koloniyasının yaradılmasında həm Azərbaycan, həm də Gürcüstan ərazisində mövcud olan «ana» koloniyaların sakinləri iştirak etmişlər.

Beləliklə, XX əsrin əvvəllərində daxili miqrasiya hesabına Azərbaycan ərazisində alman koloniyalarının sayı 8-ə çatdı. Bu koloniyalarda 9 min 971 nəfər alman əhalisi yaşayırdı[111].

Gürcüstan ərazisində yaranan ilk «törəmə» koloniya Aleksandersqilf koloniyası olmuşdur ki, onun əsası 1857-ci ildə qoyulmuşdur. Qafqazın canişini

olmuş Aleksandr Baryatinskinin şərəfinə adlandırılan bu koloniyanın əsasını Yelizavettal kolonistləri qoymuşlar. Arxiv sənədlərindən göründüyü kimi, Yelizavettal koloniyasının sakinləri XIX əsrin 40-cı illərində torpaq sarıdan əziyyət çəkirdilər və bu məsələ ilə bağlı dəfələrlə rəsmi dövlət orqanlarına müraciət etmişdilər[112]. Dövlət Əmlak Ekspedisiyası Yelizavettal koloniyasının torpaqla təchizatı məsələsini araşdırdıqdan sonra Qafqaz canişininə hesabat təqdim etdi. Hesabatda koloniyada hər kolonist ailəsinə düşən torpaq sahəsinin qanunla qəbul edilmiş 35 desyatindən aşağı olduğu göstərilirdi[113]. Canişinin göstərişi ilə Yelizavettal koloniyasının 38 aztorpaqlı ailəsi üçün Salka adlı ərazidə 1330 desyatində əkinəyararlı torpaq sahəsi ayrıldı. Yelizavettal kolonistlərinin yeni koloniyaya — Aleksandersqilfə köçməsi prosesi 1862-ci ildə tam başa çatdı[114].

1850-ci ildə Tiflisdən 19 verstlik bir məsafədə yerləşən Loçino adlı yerə Stavropol quberniyasından 9 alman ailəsinin köçməsi nəticəsində kiçik bir koloniya yarandı. Lakin bu koloniya uzun müddət mövcud olmadı: yeni iqlim şəraitinə uyğunlaşa bilməyən kolonistlər 1854-cü ildə geri— əvvəl yaşadıqları Yohannesdorf koloniyasına qayıtdılar[115].

1818-ci ildə Kuki qəsəbəsi yaxınlığında yaranmış Tiflis koloniyası şəhər böyüdükcə onun aqlomerasiyasına çevrildi və 1852-ci ildə Tiflis şəhərinə aid edildi. 1861-ci ildən Tiflisdə yaşayan bütün kolonistlərin ixtiyarında olan torpaq sahələri şəxsi mülkiyyət kimi tanındı[116].

Azərbaycanla müqayisədə Gürcüstanda «törəmə» koloniyaların yaranması prosesi o qədər də geniş vüsət almamışdır və fikrimizcə, bu onunla izah olunur ki, Gürcüstanda boş torpaq sahələri o qədər də çox deyildi. XIX əsrin sonu — XX əsrin əvvəllərində Tiflisdən cənuba, Kür çayının sağ və sol sahillərində yaranan Traubenberq və Qrüntal koloniyalarını nəzərə almasaq, baxdığımız dövrdə Gürcüstanda yeni koloniyalar meydana gəlməmişdir. Bunun səbəblərindən biri yuxarıda qeyd etdiyimiz kimi, boş torpaq sahələrinin qıtlığı idisə, digər tərəfdən başda gürcü pravoslav kilsəsi olmaqla, din xadimlərinin, kəndlilərin çarizmin məskunlaşdırma siyasətinə qarşı etiraz çıxışları olmuşdur.

Əslində Azərbaycan kəndliləri də torpaq çatışmazlığından əziyyət çəkirdilər. Lakin çar hökuməti buna məhəl qoymayaraq alman koloniyalarında yaranan torpaq çatışmazlığı məsələsini azərbaycanlı kəndlilərin hesabına həll edirdi. Tarixi mənbələrdən göründüyü kimi, Azərbaycan ərazisində yaranan «törəmə» koloniyaların hamısı Azərbaycan kəndlilərinin məskunlaşdığı ərazilərdə salınmışdılar[117]. Qeyd edək ki, həm Azərbaycanda, həm də Gürcüstanda yaranan «törəmə» koloniyalar «Qafqaz diyarının kolonistləri haqqında Qaydalara» görə deyil, «Zaqafqaziya diyarında kəndlərin ictimai idarəedilməsi haqqında Əsasnamə»yə görə idarə olunurdular. Yəni, rəsmi şəkildə yeni yaranan «törəmə» koloniyalar «koloniya» statusu almamışdılar[118], ancaq buna baxmayaraq, köhnə koloniyalarda mövcud olan sosial münasibətlər, bütün qayda-qanunlar yeni koloniyaların daxili həyatına transformasiya olunmuşdu.

Baxdığımız dövrdə Abxaziya ərazisində yaradılan bir neçə alman koloniyasını çıxmaq şərtilə Cənubi Qafqazda gəlmə alman əhalisi hesabına heç bir yeni koloniya yaradılmamışdı. 1870-1913-cü illərdə Cənubi Qafqazda əcnəbilərin ən çox məskunlaşdığı region Abxaziya ərazisi olmuşdu. Çar hökumətinin bu bölgəyə diqqətinin artması bir sıra siyasi səbəblərlə bağlı idi.

Yuxarıda qeyd etmişdik ki, Abxaziya knyazlığı 1810-cu ildə Rusiya imperiyasının tərkibinə qatılmışdı. Coğrafi mövqeyinə görə Abxaziya əhalisi uzun müddət xarici təsirlərdən kənarda qalmışdı və bu səbəbdən Abxaziyanın sosial-iqtisadi həyatında hələ də ibtidai-icma quruluşuna xas olan qaydalar hökm sürürdü. Təsərrüfatın natural xarakteri və əhalinin ucdantutma savadsızlığı buraya gələn səyyahları heyrətləndirirdi. Bu səbəbdən XIX əsrin I yarısında Rusiyanın Abxaziyada apardığı siyasət yerli əhalidə çar hökumətinə qarşı narazılıq yaratmadan, regionda sosial-iqtisadi, siyasi və xüsusən də mədəni tədbirlər həyata keçirmək, regionu inkişaf səviyyəsinə görə ümumi Rusiya səviyyəsinə yaxınlaşdırmaqdan ibarət idi. Cənubi Qafqazın Rusiya tərəfindən işğalı zamanı burada mövcud olan xanlıqlar, knyazlıqlar müəyyən müddət müstəqilliklərini saxlasalar da, Rusiyanın regionda siyasi dayaqları möhkəmləndikcə onların daxili müstəqilliyi ləğv edildi, həm Gürcüstan, həm də tarixi Azərbaycan torpaqları Ümumimperiya idarə sisteminə qatıldılar.

Etnik, coğrafi, mədəni inkişaf xüsusiyyətlərini nəzərə alaraq Rusiya yalnız Abxaziyanın daxili müstəqilliyinə toxunmadı və 1864-cü ilə qədər Abxaziya muxtariyyətə malik knyazlıq kimi mövcud olmuşdur. Abxaziyaya qarşı bu cür xüsusi həssaslıqla xarakterizə olunan siyasətin aparılması həm Qafqaz müharibəsi illərində çar hökumətinin Şimali Qafqazda mövqelərinin zəifliyi, həm də Abxaziyada əhalinin daha çox Tükiyəyə meyilliliyi ilə əlaqəli idi. Abxaziyanı Rusiyanın ayrılmaz bir hissəsinə çevirmək üçün çar hökuməti çox ehtiyatla davranırdı. Təsadüfi deyil ki, işğaldan sonra bura hərbi qüvvələrlə bərabər dövlət qulluqçuları, alimlər, səyyahlar göndərilirdilər və onların arasında alman mənşəli alimlər əhəmiyyətli yer tuturdular.

Alman mənşəli səyyahlar Abxaziya haqqında qiymətli əsərlər yazdılar ki, bu əsərlər müasir Abxaziyanın tarixinin öyrənilməsində böyük əhəmiyyət kəsb edir. XIX əsrin I yarısında alman mənşəli, alimlər — coğrafiyaçı M. Ballas, aqronomlar İ.Klinqer və E.İ.Ştillinq, etnoqraf V.Miller, A.D.Nordman, tarixçi-etnoqraflar Q.İ.Radde, N.B.Derviz, A.A.Miller, F.F.Tornau və sairləri Abxaziyanın kompleks şəkildə öyrənilməsində fəal iştirak etmişlər[119]. Abxaziyada yerləşən rus hərbi bölmələrində çoxsaylı alman mənşəli zabitlər xidmət edirdilər və onlar hərbi xidməti yerinə yetirməklə yanaşı, həm də Abxaziyanın mədəni həyatı üçün qiymətli materiallar toplayırdılar. Alman mənşəli hərbçilər — general İ.P.Anrep, Qara dəniz sahil xəttinin rəisi A.İ.Budberq, Suxumi dairəsinin rəisi general Qeyman, zabitlər Yogel, Karlhof, Q.İ.Filipson, Ensholm kimi hərbçilər Abxaziyanın adət-ənənələri, tarixi, məişəti, əhalisi haqqında əhəmiyyətli material

toplamışlar. Abxaziyanın Tsebelda kimi əlçatmaz rayonuna ilk ekspedisiya 1837-ci ildə Qafqazın Baş komandanı, milliyyətcə alman, baron Q.B.Rozen tərəfindən təşkil edilmişdi[120]. XIX əsrin 60-cı illərinə qədər Abxaziyada məskunlaşdırma siyasəti həyata keçirilməmişdir və çar hökumətinin müstəmləkə siyasətinin daşıyıcısı rolunu hərbçilər yerinə yetirmişlər. Onların əsas vəzifəsi hökumətin qəbul etdiyi qayda-qanunları yerli əhali arasında təbliğ etməkdən və onları imperiya tərkibində yaşayış tərzinə, dəyərlər sisteminə alışdırmaqdan ibarət idi.

Rus mənşəli hərbçilərin mərkəzə göndərdikləri hesabatlarda Abxaziya haqqında məlumatlar birtərəfli xarakter daşıyırdı: burada, əsasən abxaz knyazlarının özbaşınalığından, abxaz əhalisinin tənbəl, mövhumatçı, hər hansı bir tərəqqiyə mənfi münasibət bəsləməsindən danışılırdı. Abxaz xalqının Türkiyəmeyilli olması bu qeydlərdə xüsusi vurğulanırdı[121].

Təbii ki, hərbçilərin qeydləri birtərəfli xarakter daşımaya bilməzdi: 1810-cu ildə Rusiyanın tərkibinə qatılan Abxaziya öz daxili muxtariyyətini saxlamağa müvəffəq olmuşdu və bu Rusiyanın şovinist ruhlu siyasətçilərini, o cümlədən hərbçilərini qıcıqlandırmaya bilməzdi. Çar generallarının abxaz knyazları, onların qurduğu yerli idarə üsulu haqqında mənfi rəyləri mövcud abxaz muxtariyyətinin ləğv edilməsinə yönəlmişdi. Yuxarıda göstərdiyimiz faktlardan gördük ki, alman mənşəli Rusiya hərbçiləri Abxaziyada təkcə müstəmləkə siyasətinin daşıyıcıları kimi deyil, həm də abxaz xalqının mədəni səviyyəsinin yüksəlməsi yolunda çalışan şəxsiyyətlər kimi tanınmışlar.

Alman mənşəli hərbçilər Abxaziyada sənayenin, texniki tərəqqinin əhali arasında populyarlaşmasında böyük rol oynadılar. Məsələn, 1845-ci ildə Suxumidə, Mrambedə, Pitsundada kərpic zavodlarının tikilməsi alman mənşəli general Budberqin adı ilə bağlı idi. O, kərpic zavodu tikmək üçün ixtisaslı kadrlar tapmış və yerli mülk sahiblərini bu əhəmiyyətli işlə məşğul olmağa meyilləndirmişdi[122].

Alman mənşəli alimlər, maarifçilər Abxaziyanın mənəvi mədəniyyətinin inkişafına böyük töhfə verdilər. Yerli əhali arasında savadsızlığın ləğv edilməsində, elmi biliklərin yayılmasında alman mənşəli alimlər, maarifçilər, hərbçilər xeyli iş gördülər. Ədalət naminə qeyd etməliyik ki, almanların Abxaziyada mütərəqqi fəaliyyəti abxaz xalqı üçün müəyyən qazanclarla yanaşı, neqativ nəticələrə də gətirirdi. Abxaz cəmiyyətinin mənəvi birliyinin əksinə yönələn addımlardan biri onlar arasında xristianlığın təbliğ edilməsi idi ki, bu işdə almanlar xüsusi fəallıq göstərirdilər.

1860-cı ildə Tiflisdə «Qafqazda pravoslav xristianlığının bərpası cəmiyyəti» yarandı. Bu cəmiyyət qarşısına Qafqaz xalqları arasında savadsızlığın ləğv edilməsi kimi mötəbər vəzifə qoysa da islam dininə qarşı təbliğat aparır, müsəlman əhalisi arasında xristianlığın yayılması istiqamətində fəallıq göstərirdi. Cəmiyyətin təşəbbüsü ilə 1862-ci ildə xüsusi komissiya yaradılmışdı ki, bu komissiyaya alman Bartolomey sədrlik edirdi. Tərkibinə daha bir neçə alman və abxaz mənşəli

missionerlər daxil olan bu komissiyanın əsas məqsədi Abxaziyada xristianlığın yayılması üçün zəruri maddi və mənəvi şəraitin yaradılması idi[123].

Bütün bu yeniliklər yerli əhali tərəfindən, bəzən narazılıqla qarşılanırdı və xalq çıxışlarına səbəb olurdu. Abxaziya Rusiya imperiyasında ən qeyri-sabit regionlardan biri idi və buna görə burada çoxsaylı nizami ordu hissələri saxlanılırdı.

Abxaziyada ordu kontingentinin gücləndirilməsi, həm də ənənəvi olaraq müsəlman dininin daşıyıcıları olan abxaz xalqının dini, etnik, mədəni cəhətdən ona daha yaxın olan Türkiyəyə meyil etməsi ilə bağlı idi. XIX əsrin 60-cı illərindən Rusiya Abxaziyada intensiv məskunlaşma siyasəti yeritməyə başladı. Abxaziyaya qarşı daxili siyasətin dəyişdirilməsi üçün vacib olan bütün — iqtisadi, siyasi, sosial şərtlər yetişmişdi. Qafqaz müharibəsində qələbə çalan Rusiya dağlı xalqlarına qarşı sərt siyasətə keçdi və 1864-cü ildə Abxaziyanın muxtariyyəti ləğv edildi. 11 oktyabr 1866-cı il tarixli fərmanla bütün Şimali Qafqazda və Abxaziyada hərbi — xalq idarə üsulu bərqərar oldu. Əslində bu Abxaziyada faktiki olaraq hərbi-polis despot rejiminin yaranması demək idi. Çar hökumətinin apardığı xristianlaşdırma və ruslaşdırma siyasəti abxaz əhalisini kütləvi şəkildə Türkiyəyə üz tutmağa vadar etdi: XIX əsrin əvvəllərindən başlayan mühacirlik hərəkatı 1877-ci ildən sonra kütləvi xarakter aldı. Bu 1877-1878-ci illərin rus-türk müharibəsi dövründə Abxaziyada çarizmin müstəmləkə sisteminə qarşı başlayan xalq üsyanının məğlub olması ilə bağlı idi. Üsyan rus qoşunları tərəfindən amansızcasına yatırıldı və minlərlə abxaz ailələri qisasdan qorxaraq Türkiyəyə köçməyə məcbur oldular. Qeyd etmək yerinə düşərdi ki, Rusiya tarixşünaslığında abxazların kütləvi mühacirliyini Abxaziyada təbliğat aparan türk agentlərinin fəaliyyətinin nəticəsi kimi qiymətləndirirlər. Əslində Abxaziyanı tərk edənlər, əsasən düzənlik ərazilərin, yəni hərbi baxımdan müdafiəsiz ərazilərin əhalisi idi. Onların bir qismi vətəni tərk etməyə imkan tapmadığından knyazlığın dağlıq, rusların çətinliklə çata biləcəyi rayonlarına köçürdülər. Beləliklə, 1870-ci illərin sonuna Abxaziyanın dənizkənarı bir sıra rayonları, demək olar ki, əhalisiz qaldı və gündəmə bu ərazilərin məskunlaşdırılması məsələsi çıxdı.

Çar hökuməti Abxaziya kimi strateji bir regionda özünə siyasi baxımdan sadiq əhalinin yerləşdirilməsinə üstünlük verirdi. Bundan savayı, boş qalmış ərazilərdə təsərrüfat həyatının canlandırılması, Rusiyanın daxili bazarları üçün xammal istehsalı da dövlət əhəmiyyətli məsələlərdən idi. Beləliklə, 1870-ci illərin sonundan başlayaraq çar hökuməti Abxaziyada çox həssaslıqla köçürmə siyasəti yeritməyə başladı. Bu siyasətin hüquqi əsasları hələ 1870-ci illərdə qoyulmuşdu. Belə ki, 1871-ci ildə Abxaziyada torpaq islahatlarının aparılması haqqında «Əsasnamə» qəbul edildi. 1871-ci ildə qəbul edilmiş «Suxumi dairəsinin abazin olmayan, həmişəlik burada məskunlaşan və müvəqqəti burada yaşayan sakinləri haqqında Qaydalar» qəbul edildi. Bu sənəd torpaq islahatı haqqında «Əsasnamə»yə əlavə rolunu oynayırdı. «Qaydalar»a görə abxaz olmayan əhali iki kateqoriyaya

ayrılırdı. Birinci kateqoriyaya 1865-ci il yanvarın 1-dək Rusiyada məskunlaşmış, məskunlaşdıqları vaxtdan daimi yaşayış yerini dəyişməmiş və 19 fevral 1871-ci il tarixədək rus təbəəliyini qəbul etmiş əhali aid idi. Onlar «həmişəlik məskunlaşmış» əhali statusuna malik idi və onlara şəxsi mülkiyyətə torpaq almaq hüququ verilmişdi. İkinci kateqoriyaya isə Abxaziyada 1865-ci il 01 yanvar tarixdən sonra məskunlaşan və məskunlaşma tarixindən asılı olmayaraq, rus təbəəliyini qəbul etməyən əhali aid idi. Onlara «müvvəqəti məskunlaşanlar» statusu verilmişdi və onların şəxsi mülkiyyətə torpaq almaq hüquqları yox idi[124].

1880-ci illərdə Rusiyada başlayan «antialman» siyasəti çar hökumətinə köçürmə siyasətində müəyyən dəyişikliklər etməyə imkan verdi: hökumət daha çox slavyan və pravoslav dininə mənsub əhalinin yerləşdirilməsi xəttini götürdü. Bunun nəticəsidir ki, 1870-ci illərdən başlayaraq Abxaziyanın düzən ərazilərində, əsasən ruslar, moldovanlar, yunanlar, ermənilər, estonlar və az sayda almanlar yerləşdirilməyə başladılar. Abxaziyada köçkünlər üçün dövlət fondundan 23600 desyatin torpaq ayrılmışdı. Köçkünlərə verilən torpaq payı vərəsəlik hüququ üzrə nəsildən-nəslə ötürülə bilərdi. Bununla yanaşı, yeni məskunlaşan əhali 10 il müddətinə bütün vergilərdən azad olunmuşdu[125].

Çar hökumətinin apardığı siyasət nəticəsində Rusiya imperiyasının müxtəlif quberniyalarından köçkünlər Abxaziyaya axışdılar. Tarixi mənbələrə görə XIX əsrin sonu — XX əsrin əvvəllərində Abxaziyada 20 rus, 15 yunan, 6 moldovan, 10 erməni, 5 eston və 3 alman məskəni yaranmışdı[126]. 1879-cu ildə yaranan bu koloniyaların 3-ü də — Qnadenburq, Noydorf və Lindau Suxumi qəzasında yerləşirdilər. Bir faktı da qeyd edək ki, yuxarıda adı çəkilən etnoslardan savayı Abxaziyaya gürcü əhalisinin də kortəbii axını başlamışdı. Meqreliya Svanetiya, Quriya və sair qonşu əyalətlərdən torpaqsız kəndlilər Abxaziyada qanunsuz olaraq torpaq sahələrini ələ keçirir və məskənlər yaradırdılar.

XX əsrin əvvəllərində onların sayı 15-ə çatırdı[127]. Çar hökuməti Abxaziyada gürcülərin məskunlaşdırılmasını planlaşdırmasa da, pravoslav əhalinin burada qanunsuz yerləşməsinə barmaqarası baxırdı.

Almanların sayı çox deyildi. Təəssüflər olsun ki, Abxaziyada yaşayan alman kolonistlərinin sayı barədə dəqiq məlumat yoxdur. 1992-ci ilin Gürcüstan-Abxaziya müharibəsi zamanı Abxaziyanın arxivlərində bir çox mühüm sənədlər, o cümlədən alman koloniyalarına dair fondlar məhv edilmişdir. Bu səbəbdən, Abxaziyadakı alman koloniyalarının tarixini öyrənərkən, əsasən tarixi ədəbiyyata əsaslanmalı oluruq. Yazılı mənbələri təhlil etdikdə görürük ki, alman koloniyaları ənənəvi olaraq planlı şəkildə salınırdı. Əgər gürcü, yunan, erməni, moldovan yaşayış məntəqələri daha çox səpələnmiş, xutor şəklində mövcud idisə, rus, eston, o cümlədən alman koloniyaları böyük məntəqələr şəklində yaradılırdılar və hər məntəqədə ən azı 500-600 sakin yaşayırdı. Ekstropolyasiya metodundan istifadə edərək deyə bilərik ki, Abxaziyanın 3 alman koloniyasında 1500-2000 arası əhali məskunlaşmışdı.[128]

Yerli iqlim şəraiti alman əhalisinin məşğuliyyət formasına da təsir göstərdi. Kənd təsərrüfatı üçün az yararlı olan Suxumi qəzasında (almanlar bu qəzada məskunlaşdılar – *İ.A.)* alman əhalisi yeni bir iqtisadi sahənin — turizmin və onunla bağlı infrastrukturun yaradılmasına başladı. Bu işdə mənşəcə alman və çar ailəsilə qohumluq əlaqəsində olan Prins Qoldenburqskinin böyük xidmətləri olmuşdur. 1903-cü ildə o, Abxaziyada aristokratorlar üçün ilk kurort zonasının əsasını qoydu[129]. Getdikcə kurortrlar şəbəkəsi genişləndirilir, onlara xidmət göstərən onlarla xırda müəssisələr yaradılırdı ki, bunların da çoxu alman iş adamlarına məxsus idi. Məsələn, Suxumidə strateji cəhətdən ən vacib müəssisələrdən biri buz zavodunun əsasını almanlar qoymuşdur.

Kənd təsərrüfatı bütövlükdə kurort zonalarının təmin edilməsinə istiqamətləndirilmişdi. Çətin iqlim və torpaq şəraitində alman kolonistləri yeni texnika, texnologiya tətbiq edərək üzümçülükdə, tərəvəzçilikdə, meyvəçilikdə yüksək məhsuldarlıq əldə edirdilər.

Beləliklə, nəticəyə gələ bilərik XIX əsrin II yarısından başlayaraq çar hökuməti Cənubi Qafqazda daha çox slavyan — rus, pravoslav elementinin güclənməsində maraqlı idi və bu xətt özünü Abxaziyanın məskunlaşdırılmasında daha qabarıq büruzə verdi. 1870-ci illərdən sonra Cənubi Qafqazda gəlmə mühacirlər hesabına 3 yeni koloniya yaradıldı, qalanları isə artıq mövcud olmuş koloniyaların «törəmələri» idi.

# III F Ə S İ L

# QAFQAZ ALMANLARININ MƏDƏNİ VƏ DİNİ HƏYATI, KOLONİSTLƏRİN YERLİ XALQLARLA QARŞILIQLI MÜNASİBƏTLƏRİ

## 3.1. ALMAN KOLONİYALARINDA TƏHSİLİN İNKİŞAFI VƏ ONLARIN MƏDƏNİ-DİNİ HƏYATI

Alman əhalisinin Qafqazda yaşadığı müddət ərzində öz milli mədəniyyətini, dini və mənəvi dəyərlərini, onların öz milli xüsusiyyətlərini qoruyub saxlaması böyük maraq doğurur, çünki qloballaşma dövründə miqrasiya proseslərinin, dövlətlərarası, xalqlararası əlaqələrin intensivləşməsi maddi və mənəvi mədəniyyət sahələrində standartlaşma təhlükəsi yaradır. Qafqaz almanlarının milli mentalitetinin, mənəvi dəyərlərinin qorunub saxlanılmasında, ilk növbədə alman təhsil sisteminin və dini təşkilatların rolu danılmazdır.

Alman kolonistləri Almaniyadan Rusiyaya öz təsərrüfat metodları, adət-ənənələri ilə yanaşı, həmçinin xalq təhsili sistemini də gətirdilər. Alman milli məktəbləri Reformasiya hərəkatı nəticəsində yaranmışdı və bu tarixi xüsusiyyət alman məktəblərinin əsas xarakterini təyin edirdi. Ənənəvi olaraq alman kolonistləri harada məskunlaşmalarından asılı olmayaraq, dini məsələlərdən öncə məktəblə, təhsillə bağlı problemlərin həllinə çalışırdılar.

Qafqazın alman koloniyalarında təhsilin inkişafı bir neçə mərhələ keçmişdir və I mərhələ XIX əsrin I yarısını əhatə edir. Bu kolonistlər üçün ən ağır mərhələ olmuşdur.

XIX əsrin I yarısında məktəb, təhsil işini kilsə xadimləri öz çiyinlərinə götürdülər və kilsə, ümumiyyətlə, koloniyanın mənəvi həyatında aparıcı rol oynayırdı. Bu da onunla izah olunurdu ki, çar hökuməti hələ 22 iyul 1763-cü il Manifestində öz üzərinə götürdüyü «onları vicdan işində sıxışdırmamaq, onlara mənəvi tələbatlarının ödənilməsində rəhbərlik etmək» öhdəliyinə sadiq qalırdı.[1]

XIX əsrin I yarısında Şimali Qafqazın Karras, Novo-Nikolayevsk, Konstantinovsk, Kanovo, Svyatoy Krest koloniyalarında ibtidai məktəblər mövcud idi. Bu koloniyalarda məskunlaşmanın ilk illərindən məktəb tikintisinə başlanmışdı və məktəb binası tikilib qurtarana qədər uşaqlar evlərdə məşğul olmuşdular. Şimali Qafqazın ən böyük koloniyası — Karrasda əhalinin əksəriyyətini almanlar təşkil etsə də burada başqa xalqların nümayəndələri də yaşayırdı və koloniya icmasının vəsaiti hesabına məktəb binası tikilib başa çatdı ki, bu binadan sonralar kirxa kimi də istifadə olunurdu.

Koloniya əhalisi yüksək savad səviyyəsi ilə seçilirdi. Karras koloniyasını Rusiyada mövcud olan minlərlə alman koloniyasından fərqləndirən başqa bir cəhət koloniya sakinlərinin beynəlmiləlçilik şəraitində yaşaması idi. Belə ki, koloniyada

yaşayan almanlar, şotlandlar, tatarlar, çərkəzlər bir-biri ilə qohumluq əlaqələri yaradırdılar ki, bu başqa koloniyalarda müşahidə olunmurdu. Həm məktəbdə, həm də kirxada alman dilindən istifadə olunurdu.[2]

1818—1819-cu illərdən Cənubi Qafqazda məskunlaşan alman kolonistləri də maddi çətinliklər ucbatından xüsusi məktəb binası inşa etmək imkanından məhrum olsalar da uşaqların təhsili məsələsini diqqətdə saxlayırdılar. Hələ 1820-ci ildə Gürcüstandakı Yekaterinenfeld koloniyasında ikisinifli ibtidai məktəb təşkil edilmişdi ki, bu da Borçalıda yaranan ilk dünyəvi məktəb idi.[3] 1821-ci ildə Yelenendorfda dua evi tikildi və dərslər burada keçirilməyə başladı. Şagirdlərin hamısı dua evinə sığışmadığından dərslər, həmçinin Yelenendorfun ilk müəllimi və dini rəhbəri Yohan Krausun evində keçirilirdi.[4]

1820—1830-cu illərdə koloniyalarda təhsilin vəziyyətinə nisbətən almanların dini həyatında cərəyan edən hadisələr Çar hökumətini daha çox maraqlandırırdı: 1834-cü ildə Yelenendorfda dövlət hesabına pastorat inşa edilsə də, məktəb üçün müvəqqəti olaraq pristavın mənzili təyin edilmişdi.[5] 1842-ci ilə qədər, yəni məktəb binası inşa olunana qədər — Yelenendorf məktəbi kilsə-prixod xarakteri daşımışdır. Qızların və oğlanların birgə təhsil aldığı bu məktəbdə tədris alman dilində aparılırdı[6].

XIX əsrin I yarısında Qafqazın alman məktəblərində mövcud problemlərdən biri ixtisaslı müəllim kadrların çatışmazlığı problemi idi. Məskunlaşmanın ilk illərində koloniya məktəblərində müəllim vəzifəsini din xadimləri və yaxud Almaniyada təhsil almış savadlı kolonistlər yerinə yetirirdilər. Onların sayı çox deyildi, məktəblər primitiv xarakter daşıyırdı, bir çox müəllimlər özləri «ev şəraitində» müəllimlik öyrənmişdilər. Alman gəncləri rus dilini bilmədiyindən və onların Rusiyanın ali təhsil ocaqlarında təhsil alması mümkün olmadığından müəllim kadrların hazırlanması işini pastorlar öz üzərlərinə götürmüşdülər. Bu baxımdan pastor Rottun fəaliyyəti çox önəmli olmuşdur - Xristian Kox və Henrix Vuxrer kimi müəllimlərin hazırlanmasında o böyük əmək sərf etmişdir.[7] Alman dilində müəllim hazırlayan ali məktəblərin yoxluğu ucbatından bu cür müəllimlər iş qabiliyyətini itirdikdən sonra məktəblər, ümumiyyətlə, müəllimsiz qalırdılar ki, bu da koloniya məktəblərində mövcud təhsil səviyyəsinin itirilməsinə gətirib çıxarırdı.

Məktəb və kilsə fərqli institutlar olsalar da pastorun şəxsində onlar bir-birinə bağlanırdı və hər ikisində pastor tərbiyəvi funksiya yerinə yetirirdi.

Yelenendorfda təhsilin, elmin inkişafında pastor İ.Y.Ştuber xüsusi rol oynamışdır. Onun təşəbbüsü ilə koloniya gəncləri üçün din və dünya tarixinə aid mühazirələr oxunur, gənclərə rus dilinin öyrənilməsinin əhəmiyyəti izah olunurdu.[8] Uzun illər Yelenendorfda müəllim vəzifəsində X.Q.Kraus və Q.H.Hummel çalışmışlar. Koloniya məktəbinin ilk ixtisaslı müəllimi Albert Kirxhof olmuşdur.[9] Və o, xüsusi pedaqoji təhsil alan, ixtisasçı kimi Yelenendorf məktəbində dünyəvi ənənələrin əsasını qoymuşdu.

Alman məktəbi kolonist icmasının kilsə həyatı ilə sıx bağlı idi. Kolonist icması məktəbin fəaliyyəti üçün vəsait ayırırdı və onun daxili fəaliyyət planına təsir edirdi. XVIII əsrin sonu — XIX əsrin I yarısında alman məktəbləri xaçaçəkmə ilə konfirmasiya arasında keçici mərhələ rolunu oynayırdı, yəni uşağı dinin əsasları ilə tanış edir, onun icmaya, cəmiyyətə daxil olması üçün şərait yaradırdı. Kilsə-prixod məktəblərində şagirdlər İncildən parçalar oxuyur, yazmaq, hesablamaq öyrənir, İncildə və Yeni Zavetdə («Əhdi cədid») əks olunan tarixi hadisələrin mahiyyəti ilə tanış olurdular. Onların əsas məşğuliyyəti katexizisin, duaların, kilsə himnlərinin, İncildən ayrı-ayrı mətnlərin, dəyərli kəlamların əzbər öyrənilməsi idi.

Rusiyada, o cümlədən Qafqazda mövcud olan alman məktəblərində müşahidə olunan ən qabarıq xüsusiyyət ondan ibarət idi ki, əgər XIX əsrin ortalarında alman dövlətlərində məktəbin kilsədən ayrılması, məktəbin daha çox dünyəvi və milli xarakter alması prosesi gedirdisə, Rusiyada, əksinə, alman məktəbləri kilsə təşkilatlarının tam nəzarətində fəaliyyət göstərirdi.

Beləliklə, Qafqazın alman kolonistləri üçün məktəb və kilsə sinonim, eyni mənalı anlayış rolunu oynayırdılar. Buna baxmayaraq, kilsə-prixod məktəblərində uşaqlara həm də alman və rus dillərindən, hesabdan, coğrafiyadan dərslər keçirilirdi. Tədris planında kolonist uşaqlarını yaşadıqları regionun iqlim, təsərrüfat və mədəni şəraiti ilə tanış etmək məqsədilə ekskursiyaların keçirilməsi də nəzərdə tutulurdu. Dilin, adət və ənənələrin, dini dəyərlərin saxlanılmasında oynadığı müsbət rolu qeyd etməklə yanaşı, Qafqazın alman məktəblərinin mənfi xüsusiyyəti kimi onların çoxunda dərslərin gessen, şvab, bavar və sair dialektlərdə aparılmasını göstərmək olar. Yalnız Şimali Qafqazın mennonit koloniyalarında tədris alman ədəbi dilində aparılırdı, çünki mennonit dialektində yazı mövcud deyildi.

Məktəb və kilsəni bir-birinə bağlayan amillərdən biri də məktəb binasının ibadət evi kimi və yaxud, əksinə, ibadət evinin məktəb kimi istifadə olunması idi.

Məktəb binası, əsasən 3 otaqdan ibarət olurdu. Otaqlardan birindən sinif otağı, o birindən isə ibadət otağı kimi istifadə olunurdu. Üçüncü otaq müəllimin yaşayışı üçün nəzərdə tutulurdu. Dərs ilinin müddəti kolonistlərin ümumi yığıncağında müəyyən olunurdu.[10]

Bir çox məktəblərin kitabxanası olmadığından şagirdlərin bilik səviyyəsi müəllimin hazırlıq səviyyəsindən və maraq dairəsindən asılı idi. Dərslər, əsasən qış vaxtı — tarla işləri başa çatdıqdan sonra keçirilirdi. Məktəblərdə davamiyyət çox zəif idi. Siniflər, bəzən boş qalırdı, çünki məktəbyaşlı uşaqların 30%-i məktəbə, ümumiyyətlə, gəlmirdilər.[11] Kolonistlərin məskunlaşdığı ilk illər əsas məsələ təsərrüfat həyatının qurulması olduğundan daha çox ailənin maddi durumunun yaxşılaşdırılmasına diqqət yetirilirdi.

Bu səbəbdən uşaqlar əmək fəaliyyətinə cəlb edildiyindən onların bir çoxu məktəbə gedə bilmirdilər. Koloniyanın iqtisadi həyatı qapalı xarakter daşıdığından rus dilinin öyrənilməsinə ehtiyac yox idi. Koloniya daxilində bütün kargüzarlıq

işləri alman dilində aparılırdı. Yalnız vilayət səviyyəli sənədlər rus dilində tərtib olunurdu. Dövrün qabaqcıl kolonistləri hələ XIX əsrin əvvəllərində başa düşürdülər ki, rus dilini bilmədən alman kolonistlərinin Rusiyanın ictimai-siyasi, iqtisadi, mədəni həyatına inteqrasiya olması çətin olacaqdır. Hələ 3 sentyabr 1828-ci il tarixdə Dövlət Əmlakı Nazirliyi alman məktəblərində rus dilinin tədris edilməsi təklifi ilə çıxış etsə də, «bu dili (rus dilini—*İ.A.)* bilən qabiliyyətli şulmeysterlərin olmaması» səbəbi ilə təklif yevangelist-lüteran konsistoriyası tərəfindən qəbuledilməz sayılmışdı.[12]

Beləliklə, milli ibtidai məktəblər alman kolonistləri üçün minimum savad almaq imkanı yaradırdı. Bu məktəblərdə tədrisin yüksək səviyyəsi haqqında mühacirlərin az savadlılığı və yerli kəndlilərin ucdantutma savadsızlığı ilə müqayisə fonunda danışmaq mümkün olardı. Məktəblərin konfessional məzmunlu proqramı kolonist cəmiyyətinin inkişaf etməkdə olan iqtisadi həyatının tələblərinə cavab vermir, onlara gündəlik təsərrüfat həyatında qarşılaşdıqları problemlərin həllində köməklik göstərmirdi. Bu səbəbdən, valideynlərin əksəriyyəti yazmaq və oxumaq öyrəndikdən sonra uşaqlarını məktəbdən çıxarırdılar.

XIX əsrin ortalarına qədər alman koloniyalarında təhsil sistemi ənənəvi alman məktəblərinə xas olan xüsusiyyətlərə malik idi, yəni daha çox dini xarakter daşıyırdı və icma ilə sıx əlaqədə fəaliyyət göstərirdi.

Alman gəncləri dövlət dili — rus dilini bilmədiklərindən ali təhsil müəssisələrində oxuya bilmirdilər. Baxmayaraq ki, Rusiyada o vaxt mövcud təhsil qanununa görə 16 yaşına çatmış hər bir gənc ali təhsil almaq hüququna malik idi. Bu məsələdə dini və yaxud milli mənsubiyyət maneə ola bilməzdi.[13] Almanlara məxsus orta ixtisas məktəblərinə gəldikdə yalnız Peterburqda və Moskvada bir neçə alman orta məktəbi vardı. Volqaboyunda ilk alman peşə məktəbi 1835-ci ildə yaradılmışdı.[14] Bütün Cənubi Rusiya qubeniyalarında bu tipli məktəblərə rast gəlinmirdi.

Cənubi Qafqaz alman məktəblərində yeniyetmələri daha çox praktiki məşğələlərə cəlb edir, onların diqqəti yeni təsərrüfat sahələrinin öyrənilməsinə yönəldilirdi. Hətta koloniyalarda ipəkçiliyin inkişaf etdirilməsi məqsədilə Şəki təcrübə-ipəkçilik məktəbinə 5 nəfər alman gənci göndərilmişdi.[15]

Şəki təcrübə ipəkçilik məktəbində ipəkçiliklə bağlı bütün fəaliyyət kompleks şəkildə öyrədilirdi. Burada tut ağaclarını necə basdırmaq, ağaclara qulluq etmə, ipək qurdunun yedizdirilməsi, onlara düzgün qulluq olunması, temperatur rejiminin təmin edilməsi, baramanın təmizlənməsi və ipək sapın alınması, ipək sapı istehsal edən dəzgahlarla rəftar və sair kimi vacib vərdişlər və biliklər şagirdlərə aşılanırdı. 4 illik məktəbi başa vurduqdan sonra şagirdlər Dövlət Əmlak Palatası tərəfindən müxtəlif regionlara göndərilirdilər.[16]

Kilsə-prixod məktəblərində verilən təhsil səviyyəsindən narazı valideynlər alternativ təhsil formasına — ev təhsili formasına üstünlük verirdilər. Təhsilini gələcəkdə ali məktəblərdə davam etdirmək istəyən və rus dilinin öyrənilməsinə

ehtiyacı olan şagirdlər təhsilin ev şəraitində təşkilinə daha çox üstünlük verirdilər. Ev təhsili ilə əsasən əlavə haqqa görə boş vaxtlarında yerli məktəb müəllimləri məşğul olurdular. Daha imkanlı valideynlər Moskvadan, Pribaltikadan və sair yerlərdən dəvət olunmuş müəllimlərin xidmətindən istifadə edirdilər. Məhz ev təhsili koloniyalarda XIX əsrin II yarısından yayılmağa başlayan özəl təhsilin başlanğıcını qoydu.

Məktəb binasının tikilməsi, şagirdlərin məktəbə müntəzəm davamiyyətini təmin etmək, müəllim hazırlığı, müəllimlərin maddi təminatı, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi — XIX əsrin I yarısında Qafqaz alman kolonistləri qarşısında təhsil sahəsində bu məzmunlu problemlər dururdu.

XIX əsrin 60-cı illərində Rusiyada sosial-iqtisadi inkişafın təsiri ilə təhsil sistemində də bir sıra vacib dəyişikliklər baş verdi. Təhsilin silkli xarakteri ləğv edildi. Orta-ixtisas və ali təhsil cəmiyyətin bütün təbəqələri üçün açıq, mümkün oldu.

XIX əsrin II yarısında iqtisadi cəhətdən nisbətən möhkəmlənən koloniyalarda məktəb binalarının inşa edilməsi intensivləşdi. 1882-ci ildə Vladiqafqazda yevangelist-lüteran kilsə məktəbi açıldı.[17] Məktəb Vladiqafqazın alman cəmiyyətinin nəzdində yaranmışdı və cəmiyyətin hesabına inşa edilmişdi. Terek vilayətinin rəhbərliyi alman kolonistlərinə məktəb binası inşa etmək üçün vəsait təklif etsə də, kolonistlər məktəbi öz şəxsi vəsaitləri hesabına tikməyi qərara aldılar.[18] Bu hərəkətin əsas məqsədi o idi ki, kolonistlər xalq məktəbi direktorunun nəzarətindən kənarda qalmaq, öz təhsil sistemlərini qurmağa, təhsil məsələsində müstəqil qalmağa çalışırdılar. Hər kolonist ailəsi məktəb və kirxa tikintisi üçün pul ayırırdı və bu məbləğ hər min rublun 20-80 rublunu təşkil edirdi. Məktəbin nəzarətçisi general-leytenant Nikolay Ottoviç fon Duvl təyin olunmuşdu. Məktəbdə tədris rus və alman dillərində aparılırdı. 1891-ci ildə məktəbdə 1 sinif üzrə üç şöbə fəaliyyət göstərirdi. Məktəbdə cəmi 24 şagird (14 oğlan, 10 qız) təhsil alırdı: 4 şagird üçüncü şöbədə, 8-i 2-ci şöbədə və 12 şagird 1-ci şöbədə təhsil alırdı.[19]

XIX əsrin II yarısında Qafqazın alman koloniyalarında fəaliyyət göstərən məktəblər birsinifli və üçmərhələli olurdu. Bu məktəblərdə şagirdlərə oxumaq, yazmaq, hesab və Zakon Bojiy (dinin əsasları) öyrədilirdi. Əvvəllər müəllim çatışmazlığı ucbatından din xadimləri və kargüzarlar müəllimlik edirdilər. Sonralar müəllim kadrlar hazırlamaq üçün əlaçı şagirdlər alman müəllimlər seminariyasına göndərilirdilər.

Müəllimlik seminariyasını qurtardıqdan sonra onlar koloniyaya qayıdır və təlim-tərbiyə ilə məşğul olurdular. Stavropol quberniyasının, Terek və Kuban vilayətlərinin bütün məktəblərində Qara dəniz sahili məktəblərdə tətbiq olunan tədris planlarından və metodlarından istifadə edirdilər.

Arxiv materialları sırasında alman koloniyalarında mövcud olmuş ibtidai məktəblərin fəaliyyəti haqqında, onların yevangelist-lüteran kilsəsi ilə əlaqələri haqqında müxtəlif sənədlər vardır. Bu sənədlər Qafqazda fəaliyyət göstərmiş alman

kolonist məktəblərinin daxili həyatı haqqında dəqiq təsəvvür yaratmaqda böyük rol oynayır. Bir neçə koloniya məktəbinin fəaliyyət mexanizmi ilə tanışlıq onlarda mövcud olan problemlərin oxşarlığı və bununla yanaşı, hər məktəbdə tədrisin xüsusiyyətləri haqqında fikir söyləməyə imkan verir. Məsələn, Vladiqafqazda fəaliyyət göstərmiş alman məktəbinin hesabat sənədlərindən görünür ki, məktəb 1882-ci ildə açılmışdır və almanların xalq evində yerləşirdi. İllik məktəbə ayrılan məbləğ 687 rubl olmuşdur ki, bunun da 327 rublu kirxa tərəfindən qalan pullar isə şagirdlərin valideynləri tərəfindən ayrılmışdı.[20] Məktəbdə təhsil pullu idi və hər ayda təhsilə görə şagirdin valideyni 2 rubl 50 qəpik ödəməli idi. Tədris planı aşağıdakı qaydada tərtib olunurdu:

dini biliklər — 8 saat;
alman dili — 5 saat;
rus dili — 5 saat;
hesab — 6 saat;
xəttatlıq — 2 saat;
coğrafiya — 1 saat;
tarix — 1 saat;
musiqi fakültativ məşğələ — 2 saat.

Fakültativ məşğələyə görə müəllim maaş almırdı. Tədris 20 avqustdan 30 maya qədər davam edirdi. Sinif jurnalı rus dilində tərtib olunurdu.[21]

Alman məktəblərinin müstəqilliyi uzun sürmədi: Rusiya hökumətinin 22 noyabr 1890-cı il tarixli fərmanı ilə imperiyada mövcud olan bütün Protestant-Lüteran məktəbləri Xalq maarifi Nazirliyinə tabe etdirildilər. Fərmana görə adı çəkilən məktəblərdə ana dili və Dinin əsaslarından savayı bütün fənlərin tədrisi rus dilində aparılmalı idi.[22] 19 mart 1891-ci il tarixdə Qafqaz təhsil dairəsinin nəzarətçisi Terek vilayətinin Xalq məktəbləri direktoruna ünvanladığı məktubda yazırdı ki, «Moskva və Sankt-Peterburq dairələrindəki, yevangelist-lüteran konsistoriyasının tabeçiliyində olan, bütün quberniyalarda fəaliyyətdə olan lüteran kilsə məktəbləri müvafiq qanunun 1-ci punktuna və 434 maddəsinə uyğun olaraq bütün əmlakı ilə birlikdə Xalq Maarifi Nazirliyinə tabe edilsinlər və onların hüquqi statusu bütün ibtidai məktəblərin statusu ilə eyniləşdirilsin». Bununla yanaşı, məktubda qeyd olunurdu ki, yeni idarə sistemində protestant din xadimlərinin alman gənclərin dini təhsilinə nəzarət etmək hüququ saxlanılsın.[23]

Terek vilayətinin Vladiqafqaz, Pyatiqorsk şəhərlərindəki və Nikolayevka, Konstantinovka, Aleksandrovka, Kanna koloniyalarındakı yevangelist-lüteran kilsə məktəbləri də bu qanunun aid olduğu ibtidai məktəblər siyahısına düşmüşdülər.[24]

Alman koloniyalarında savadsız yox idi. Qnadenburq koloniyasının Nizamnaməsində deyilirdi ki, məktəblərdə tədris rus və alman dillərində aparılır. Ümumi məcburi tədris müddəti kolonist icmasının sədri tərəfindən təyin olunurdu. Dinin əsaslarını və başqa fənləri şagirdlər 14 yaşa qədər mənimsəməli idilər.[25]

1883-cü ildə Semyonovka koloniyasında məktəb təşkil edildi. Məktəb binası olmadığından dərslər əvvəlcə ibadət evlərində və yaxud ayrı-ayrı kolonistlərin evlərində keçirilirdi. Yalnız 1892-ci ildə Semyonovkada məktəb binası inşa edildi. Şimali Qafqazın bəzi koloniyalarından fərqli olaraq, burada məktəb pullu deyildi. «Dinin əsasları», «Rus dili», «Alman dili», riyaziyyat, xəttatlıq və gimnastika tədris olunan bu məktəbdə 1893-cü ildə 79 şagird təhsil alırdı. Məktəbdə rus dilini rus millətindən olan müəllim tədris edirdi, qalan müəllimlər mənşəcə alman idi və kadr çatışmazlığı ucbatından onların əksəriyyətini din xadimləri təşkil edirdilər.[26]

Koloniya sakinləri yüksək savad səviyyəsi ilə fərqlənirdilər. L.Rozenberqin yazdığına görə XIX əsrin 90-cı illərinin sonuna Semyonovka koloniyasında savadlı əhali 365 nəfər təşkil edirdi.[27]

Voldemfryüst, Aleksandersfeld koloniyalarında məktəblər kolonist icması hesabına fəaliyyət göstərirdilər. 14 yaşına çatmamış uşaqların məktəbə getməsi məcburi xarakter daşıyırdı, uşaqlarının məktəbə getməsini təşkil edə bilməyən kolonist ailələri icma yığıncaqlarında müzakirə edilir, onlara qarşı müəyyən cəza tədbirləri, sanksiyalar qəbul edilirdi. Təhsilə bu cür ciddi yanaşmanın nəticəsi idi ki, 1882-ci ilin məlumatlarına görə hər iki koloniyada savadlılar ümumi əhalinin təqribən 3/2-ni təşkil edirdilər.

1897-ci ilin Rusiya əhalisinin siyahıya alınmasının nəticələrinə görə mennonitlərdən ibarət olan Voldemfryüst və Aleksanderfeld koloniyalarında savadlılar ümumi əhalinin 80%-i təşkil edirdilər.[28]

Rusiya imperiyasının hər yerində olduğu kimi kənd ibtidai məktəblərini bitirən alman gəncləri təhsillərini kilsə- prixod məktəblərində davam etdirirdilər. Rus dilini pis bilən alman gəncləri Rusiyanın ali məktəblərində təhsil almaq imkanından məhrum idilər. Buna görə 1897-ci ilin məlumatlarına, əsasən adı çəkilən koloniyalarda cəmi bir nəfər ali təhsilli var idi.[29]

1897-ci il Rusiyada əhalinin siyahıya alınmasının nəticələrinə nəzər salsaq Şimali Qafqazın bir çox koloniyalarında — Stavropol quberniyasının Yohannersdorf, Martinfeld, Germansburq, Fridrixsfeld, Yohannesheim koloniyalarında, Kuban vilayətinin — Semyonovka koloniyasında, baron Şteinqelin «Xutorok» adlı mülkündə, Terek vilayətinin Tempelhof, Karras və sair koloniyalarda kilsə-prixod məktəblərinin fəaliyyət göstərdiyini görərik.[30]

Kuban vilayətinin alman koloniyalarında məktəb və maarif işinin inkişafında tanınmış iş adamı, baron Şteynqelin böyük rolu olmuşdur. «Xutorok» adlı mülkündə baron Şteynqel öz işçilərinin uşaqları üçün məktəb tikdirmişdi və bu məktəbin bütün xərclərini öz üzərinə götürmüşdü. Baron Şteynqel istedadlı alman gənclərinin Rusiyanın tanınmış ali məktəblərində təhsil alması məsələsini daim diqqətində saxlayırdı. 1885-ci ildə Armavirdə yevangelist-lüteran kilsəsi tikildi ki, bu kilsə nəzdində kilsə-prixod məktəbi fəaliyyət göstərirdi.[31] Armavir kişi

gimnaziyasını qəyyumluğa götürən baron Şteynqel burada alman yeniyetmələrin təhsil almasına qayğı göstərirdi.[32]

XIX əsrin 70-ci illərinədək Cənubi Qafqazın alman koloniyalarında tədris yalnız alman dilində aparılırdı. 1884-cu ildə Yelenendorf alman məktəbində pastor Millerin səyləri nəticəsində daha bir əlavə sinif təşkil edildi və 1888-ci ildə bu məktəbdə 321 şagird təhsil alırdı.[33] Sonralar 1901-ci ildə onun səyləri nəticəsində Yelenendorfda məktəbəqədər təhsil müəssisəsi — uşaq bağçası fəaliyyətə başladı. 1890-cı ilə qədər Cənubi Qafqazın alman məktəbləri Zaqafqaziya kolonist sinodu tərəfindən idarə olunurdu və əsas nəzarətçi rolunu yerli pastorlar oynayırdılar.

Çar hökumətinin 22 noyabr 1890-cı il tarixli fərmanı ilə Yelenendorf alman məktəbi ikisinifli məktəb statusu aldı. Yeni qaydalara görə bir müəllimə 60-dan artıq şagird düşə bilməzdi. Buna görə məktəbdə əlavə bir neçə tədris otağı tikildi və yeni müəllimlər dəvət olundular. 1897-ci ilin məlumatlarına görə Yelenendorf məktəbində 5 müəllim çalışırdı.

XIX əsrin sonlarında tədqiqatçı P.Basixinin verdiyi məlumata görə Yelenendorf məktəbində təkcə oğlan şagirdlərin sayı 200-ə çatırdı, onların tədrisi ilə 4 alman mənşəli müəllim məşğul olurdu.[34] P.Basixinin yazdığına görə məktəbdə «dərslər, əsasən alman dilində aparılır, rus dili ilə tanışlıq üçün çox az vaxt sərf olunur. Bu tanışlıq o qədər bəsitdir ki, koloniyada yalnız yaşlılar və əsasən də kişilər rusca başa düşür, sındıra-sındıra rusca danışmağı bacarırdılar. Əksinə, almanların əksəriyyəti yadelli — gürcü, erməni və tatar (Azərbaycan— *İ.A.)* dillərini heç də pis bilmirlər».[35] İmperiyanın hər yerində olduğu kimi, Cənubi Qafqazda da tədris, əsasən alman dilində aparılırdı. Uşaqların musiqi və dini tərbiyəsinə böyük diqqət yetirilirdi və məktəblərin fəaliyyətinə kilsənin və din xadimlərinin təsiri çox böyük idi.

Rus dilinin mütləq şəkildə öyrənilməsi çarizmin 1880—1890-cı illərdə apardığı mürtəce «ruslaşdırma» siyasətindən irəli gəlirdi və rəsmi orqanlar bu məsələni çox ciddi nəzarətdə saxlayırdılar. 1892-ci ildə Yelenendorf məktəbində aparılan yoxlama zamanı məktəbdə rus dilindən savayı, bütün fənlərin yüksək səviyyədə tədris olunduğu vurğulanmışdı.[36] Rəsmi orqanlar rus dilinin tədrisinə diqqətin artırılmasını tələb edirdilər. 22 noyabr 1990-cı il fərmanından sonra Şimali və Cənubi Qafqazın regionlarının alman məktəblərində yaranan ən böyük problem rus dilini bilməyən alman uşaqlarına bütün fənlərin rus dilində tədrisi məsələsi idi.

Bu problemin həlli məqsədilə Qafqaz alman məktəblərində Yelenendorf məktəbinin təcrübəsi tətbiq olunmağa başladı.

Tədrisin alman dilindən rus dilinə keçidini təmin etmək məqsədilə Yelenendorf məktəbində yeni bir forma — tədrisin mərhələli forması tətbiq edilirdi ki, onun məzmunu aşağıdakılardan ibarət idi:

I mərhələdə kiçik sinif şagirdləri ana dilində məşğul olur və yavaş-yavaş rus dilini öyrənirdilər;

II mərhələdə artıq uşaqlar rus dilində sərbəst danışmağı və yazmağı bacarırdılar ki, bir çox fənlərin tədrisinin rus dilində aparılmasına imkan yaranırdı;

III mərhələdə artıq hesab və sair mürəkkəb dərslər tam rus dilində aparılırdı;

IV və V mərhələlərdə yuxarı sinif şagirdləri çətin fənlərin — tarixin, coğrafiyanın, fizikanın, kimyanın, rəsm, həndəsə və sair fənlərin öyrənilməsi ilə məşğul olurdular.[37]

Yelenendorfda tətbiq edilən şagirdlərin mərhələli şəkildə almandilli tədris proqramından rusdilli proqrama keçidi mexanizmi, nəinki Qafqazda, hətta Rusiya ərazisində yenilik idi və tədrisin keyfiyyətinin yüksəlməsinə böyük təkan verdi.

Qeyd etməliyik ki, zaman keçdikcə kolonistlər, rusların və əhatəsində yaşadıqları digər xalqların dillərinin öyrənilməsinin zəruriliyini başa düşdülər. Çünki ölkədə iqtisadiyyatın inkişaf etməsi, koloniyaların ölkə iqtisadiyyatına inteqrasiya olması bunu tələb edirdi.

İqtisadi inkişafın tələblərindən irəli gələrək yuxarı siniflərdə artıq məktəblilərin ixtisaslaşması aparılırdı. Alman gənclərində sənətkarlığa çox böyük həvəs vardı ki, bu da alman ailələrində uzun illər mövcud olmuş minorat sistemi ilə izah olunurdu. Bu sistemə görə ailə sahibinin təsərrüfatı bölünmürdü və bütövlükdə oğullardan birinə vərəsəlik hüququ kimi verilirdi — qalanlar müxtəlif sənətkarlıq növlərinə yiyələnməyə məcbur olurdular.[38]

1890-cı il 22 noyabr fərmanından sonra Qafqazdakı bütün alman məktəblərinin dövlət dotasiyasına keçirilməsi ilə onların maddi texniki-bazasının, müəllimlərin maddi vəziyyətinin yaxşılaşmasına ümidlər yarandı. Rus dilinin mütləq dil kimi tədris proqramına daxil edilməsi, fənlərin əksəriyyətinin rus dilində tədris olunması bəzi alman ziyalılarının və din xadimlərinin narazılığına səbəb olsa da, ümumi götürdükdə alman məktəblərinin rus dilli tədrisə keçidi alman əhalisinin Rusiya cəmiyyətinə iqtisadi, siyasi, mədəni inteqrasiyasını gücləndirdi.

Rus dilinin təbliğində çar hökuməti mürtəce niyyətlər güdürdü: əsas məqsəd almanların və imperiyada yaşayan digər qeyri-rus xalqlarının ruslaşdırılmasına nail olmaqdan ibarət idi. Ancaq ruslaşdırma siyasəti almanların assimilyasiyasına əhəmiyyətli dərəcədə təsir göstərmədi — alman əhalisi öz dilinə, dininə, əcdadlarının adət-ənənələrinə sadiq qaldı.

Tədrisin planlaşdırılmasında və təşkilində müəyyən çatışmazlıqlara baxmayaraq, alman məktəblərində şagirdlərin sayı getdikcə artırdı.

Rusiya imperiyasının Birinci ümumi siyahıya alınmasının nəticələrindən görünür ki, Qafqaz almanları regionda yaşayan bütün xalqlar içində təhsil səviyyəsinə görə birinci yerdə dururdu: alman əhalisinin təqribən 37%-i savadlı idi. Qeyd edək ki, çar Rusiyasında savadlılığın meyarı kimi hər hansı bir dildə yazıb-oxumaq bacarığı götürülürdü.

Şəhər və kənd əhalisi arasında savad faizi eyni deyildi. Təhsil səviyyəsi şəhərdə yaşayan almanlar arasında daha yüksək idi.

XIX əsrin sonu — XX əsrin əvvəllərində məktəb işinin idarə olunmasında o qədər də əhəmiyyətli dəyişikliklər baş verməmişdi. 1890-cı ildən alman məktəbləri Rusiya Xalq Maarifi Nazirliyinə tabe olunsa da, məktəblər əvvəlki illərdə olduğu kimi yenə həm məktəb müfəttişlərinin, həm də lüteran pastorların nəzarətində idi. Pastorların tədris prosesinə təsirinin dərəcəsi haqqında o fakt sübut edir ki, tədris proqramlarının planlaşdırılmasında, müəllimlərin attestasiyasında pastorların rəyi əsas götürülürdü. Belə nəticə çıxarmaq olar ki, alman məktəblərinin Xalq Maarifi Nazirliyinə tabe etdirilməsi daha çox formal xarakter daşıyırdı.

XIX əsrin sonu - XX əsrin əvvəllərində alman məktəblərində həll olunmamış qalan problemlərdən biri müəllim çatışmazlığı problemi idi. 1906-cı ilə aid arxiv sənədlərindən görünür ki, Yelenendorfda təhsil alan 396 şagirdlə cəmisi 5 pedaqoq məşğul olurdu.[39] Bu problem iki faktorla bağlı idi. Birincisi, alman məktəblərində tədrisin rus dilində aparılması ucbatından rus dilini bilməyən müəllimlər işi tərk etməli oldular; ikincisi, müəllim hazırlayan ali məktəblərin sayı yetərincə deyildi. Əvvəlki illərdə olduğu kimi, müəllim çatışmazlığı ilə bağlı yaranan bu boşluq pastorlar tərəfindən doldurulurdu.

Alman koloniyalarında müəllim vəzifəsini yerinə yetirən pastorların əksəriyyəti xaricdə və yaxud Derpt alman universitetində təhsil almışdılar. Məsələn, XIX əsrin sonlarına olan statistik məlumata görə Rusiyanın cənub quberniyalarında xidmət edən 152 pastordan yalnız 10%-i kolonist kütləsinin nümayəndəsi idi, onların böyük əksəriyyətini — 64%-i Derpt universitetinin məzunları təşkil edirdilər.[40]

Müəllim əməyi dövlət tərəfindən layiqincə qiymətləndirilmirdi: müəllimlər 150 rubl maaş alırdılar ki, bu da o dövr üçün çox da yüksək maaş sayılmırdı. Bəzən kənd müəllimlərinə kömək məqsədilə kolonist icması tərəfindən 3-8 desyatin torpaq sahəsi ayrılırdı.[41] Ancaq bu onları kasıbçılıqdan xilas etmirdi. Məktəbin maddi-texniki bazası aşağı olduğundan müəllimlərin öz üzərində işləmək imkanları məhdud idi ki, bu da müəllimlərin tədricən diskvalifikasiyasına səbəb olurdu. İqtisadi cəhətdən inkişaf etmiş koloniyalarda müəllimlərin və pastorların bəzi sosial problemləri kolonist icmasının hesabına həll olunurdu. P.Basixin Yekaterinenfeld koloniyasında dərs deyən müəllimlərin «yaxşı maaş aldığını», onların «işıqla, istilik sistemilə təhciz olunan hazır mənzillərlə təmin olunduqlarını» vurğulayır.[42]

Başqa koloniyalarda da müəllim əməyinə münasibət eyni idi. Məsələn, 1892-ci ildə Kuban vilayətinin Semyonovka koloniyasına yeni müəllim təyin olundu. Rus mənşəli bu müəllim gəldikdən sonra rəsmi orqanların köməyi ilə ona 1892-ci ildə yaşayış evi tikildi. Evin planı normalara cavab verməsə də, müəllim üçün rahat mənzil sayılırdı. Sonralar Semyonovka məktəbi müəllim üçün tikilən bu binada yerləşdirildi.

Məktəbdə dərsliklər lazımi sayda — 136 ədəd olsa da, nə şagirdlər üçün, nə də müəllim üçün kitabxana yox idi. Müəllimin şəxsi kitablarının sayı cəmi 37 ədəd

idi ki, bu da tədris üçün qaneedici sayılmırdı[43]. Məktəbdə oxumaq pulsuz idi. Bütün məktəb ləvazimatını kolonist icması öz hesabına alırdı və məktəblilərə paylayırdı. Məktəbin saxlanması bütövlükdə kolonist icmasının çiyninə düşürdü. Kişi əhalisinin siyahısı tutulur, bu siyahıya uyğun olaraq müəyyən miqdarda vəsait toplanılırdı. Məsələn, 1889-1892-ci illər ərzində kolonistlər tərəfindən məktəb üçün 2197 rubl xərclənmişdi. Bu dövr ərzində hər şagirdə orta hesabla 6 rubl xərclənmişdi. Qalan məbləğ məktəb binasının tikintisinə, lazım olan ləvazimatın alınmasına sərf edilmişdi[44].

Beləliklə, qeyd edə bilərik ki, Qafqazda mövcud olan alman məktəbləri istər maddi-texniki bazasına, istərsə də tədris proqramına görə Rusiyanın başqa regionlarında mövcud olmuş məktəblərdən çox az fərqlənirdi. Ancaq Qafqazın yerli xalqları ilə müqayisədə məktəb işi alman koloniyalarında daha yaxşı təşkil edilmişdi: XIX əsrin II yarısında hər koloniyanın öz məktəbi vardı. Kiçik koloniyalarda və xutorlarda yaşayan kolonist uşaqları təhsil üçün qonşu koloniya məktəblərinə gedirdilər. İbtidai təhsil sistemi alman koloniyalarında kütləvi xarakter daşıyırdı. Əhalinin hər 100 nəfərinə düşən şagirdlərin sayına görə almanlar ən yüksək göstəricilərə malik idilər. Məsələn, 1866-cı ilə aid yazılı mənbələrə, əsasən Tiflis klassik gimnaziyasında təhsil alan 650 şagirddən 13 nəfəri alman milliyyətindən olmuşdu.[40] Borçalı qəzasında 1913-cü ilin məlumatlarına görə 53 məktəb fəaliyyət göstərirdi ki, yarandıqları vaxtdan onlarda 3363 şagird təhsil almışdı. Bu şagirdlərin 588 və yaxud təqribən 18%-i 2 alman məktəbinin payına düşürdü.[46]

Alman məktəblərinin ruslaşdırılması, əsasən 1890-cı il fərmanından sonra başlasa da bu sahədə koloniya məktəblərində nəzərəçarpacaq dəyişikliklər baş verməmişdi və bu müasirlərin əsərlərində, qeydlərində öz əksini tapmışdır. Bunun nəticəsi idi ki, almanlar arasında ali təhsillilərin sayı o qədər də çox deyildi.

Kolonistlər arasında təhsilə maraq, savadın yayılması dini adətlərlə izah olunur. Çünki İncilin əsaslarını bilməyənlər konfirmasiyaya buraxılmırdılar və alman ibtidai məktəblərinin ən ümdə vəzifəsi uşaqları konfirmasiyaya hazırlamaqdan ibarət idi. XX əsrin əvvəllərində konfirmasiyaya hazırlıq üçün ayrılan vaxtın müddəti 6-7 ilə qədər artırıldı. Şagirdlər 3 yaş qrupuna bölünürdülər və tədrisin sonunda şagirdlər buraxılış imtahanı verirdilər. Milyonlarla kəndli uşaqları kimi kolonist gənclərinə də yalnız ibtidai təhsil almaq qismət olurdu.

Əvvəlki dövrlərdə olduğu kimi, XIX əsrin II yarısında da din Qafqaz almanlarının mənəvi həyatında mühüm rol oynayırdı.

1866-cı ildən Vladiqafqazda Lüteran kilsəsinin tikintisi başladı. Şəhərin alman əhalisi tikintiyə icazə almaq üçün hələ 1864-cü ildə dövlət orqanlarının adına müraciətnamədə yazırdılar ki, «Vladiqafqazın alman əhalisinin dini etiqadlarını yerinə yetirməsi üçün heç bir şəraiti yoxdur» və almanlar xahiş edirdilər ki, onlara Lüteran kilsəsi tikmək üçün icazə verilsin. Qərara alınmışdı ki, həm kirxa, həm də dua evi almanların öz hesabına tikiləcəkdir.[47] 1866-cı ildə rəsmi

dairələr Vladiqafqaz almanlarına kirxa tikmək üçün yer ayırdılar və şəhərin lüteran icması tikintiyə nəzarət etmək məqsədilə bir neçə nəfərdən ibarət nəzarətçi qrupu seçdi. Arxiv materiallarından görünür ki, nəzarət qrupunun prezidenti aptek işçisi Lorents, nəzarətçilər kimi isə podpolkovnik Eqlau, dövlət məsləhətçisi Kizer və xarici vətəndaş Buze seçildilər. Kirxa 1868-ci ildə tikilib başa çatdırıldı.[48]

Hər kolonist icmasının ayrıca dua evi və yaxud kilsəsi var idi. Şimali Qafqazın lüteran kirxaları baş pastor prixoduna, o isə öz növbəsində Moskva konsistoriyasına daxil idi. Şimali Qafqaz prixodu Rostovna Donu şəhərində yerləşirdi və prixoda Pyatiqorsk, Marienfeld, Qnadenburq, Vladiqafqaz kilsə dairələri daxil idi. Bunlardan savayı, Terek vilayətində mennonitlərin kilsə dairəsi var idi ki, o da Xasavyurt ətrafındakı koloniyaları birləşdirirdi.

Məktəblər kimi kilsələr də kolonist icmalarının öz vəsaiti hesabına tikilirdi. Bu haqda çoxsaylı arxiv materiallarında göstərilir. Məsələn, yuxarıda adı çəkilən Vladiqafqaz kirxası kimi, 1892-ci ildə Qnadenburq və Konstantinovka koloniyalarının kirxaları da kolonistlərin öz hesabına inşa edilmişdi.[49]

Qafqaz almanlarının mənəvi həyatında din vacib rol oynayırdı və bu səbəbdən dini təşkilatlar alman əhalisi arasında öz fəaliyyətini getdikcə artırırdı. Koloniyalarda yeni kirxalar inşa edilir, pastorların sayı artırdı. Ancaq pastorların və sair din xadimlərinin hazırlanmasında müəyyən boşluqlar var idi ki, bu da pastorların intellektual səviyyəsi ilə kolonist kütləsinin mənəvi tələbatları arasında uyğunsuzluq yaratmışdı. Lüteran pastorların hazırlıqsızlığı, onların kolonistləri düşündürən bir çox suallara cavab tapa bilməməsi kolonistlərin sektaçılığa üz tutması ilə nəticələnirdi.

XIX əsrin II yarısında Qafqazda və xüsusən də Şimali Qafqazda protestantizmin metodizm cərəyanı geniş yayılmışdı. Metodistlər, əsasən Şimali Qafqazın Qara dəniz sahili ərazilərində daha çox məskunlaşmışdılar. Lüteran din xadimləri onlara düşməncəsinə yanaşsalar da, tədricən metodizm, hətta yerli slavyan mənşəli xalqlar arasında da yayılmağa başladı.[50]

Qafqazda ən çoxsaylı sekta baptizm sektası idi. Rusiya imperiyasına ilk baptistlər Polşa ərazisindən gəlmişdilər və Ukraynanın cənub ərazilərində məskunlaşan baptistlərin bir qrupu XIX əsrin II yarısında Şimali Qafqaza üz tutdu. Missionerlik fəaliyyəti nəticəsində tezliklə onların sayı əhəmiyyətli dərəcədə artdı. XIX əsrin 70—80-ci illərində sosial bərabərsizliyə protest əlaməti olaraq «qardaşlıq icması» və mennonit sektasının bəzi üzvləri də baptizmi qəbul etdilər.

XIX əsrin sonu — XX əsrin əvvəllərində Qafqaz almanlarının dini həyatı müxtəlif protestant sektalarının fəaliyyəti, maddi-texniki bazanın kasıblığı və vahid idarə mərkəzinin olmaması ilə səciyyələnirdi.

Alman əhalisinin özünüdərk etməsində dini amillərin təsiri o qədər böyük idi ki, onlar üçün etnik mənsubiyyət dini mənsubiyyətlə eyni başa düşülürdü.

Çar Rusiyası dövründə etnik mənsubiyyət haqqında statistik məlumatlar respondentlərin dini mənsubiyyəti əsasında qeydə alınırdı. Bir millətin bütövlükdə

eyni bir konfessiyaya aid olması faktı qeyd olunmasa da, Qafqazda məskunlaşan protestantların böyük əksəriyyətini almanlar təşkil edirdilər. Qafqaz almanları, əsasən lüteran kilsəsinə və mennonit sektasına aid idi. Tarixi ədəbiyyatda ən çox mübahisə doğuran məsələlərdən biri — mennonitlərin etnik mənsubiyyəti məsələsi olmuşdur. Bu məsələ ilə bağlı müxtəlif fikirlər söylənilmişdir. Məsələn, tanınmış tarixçi Q.Q.Pisarevskinin fikrincə, mennonitlər Hollandiyalı olsalar da, XVI əsrdən Almaniyaya köçmüş və burada almanlaşmışlar. Onun fikrincə, XVII—XIX əsrlərdə Rusiyada məskunlaşdıqları zaman mennonitlər artıq alman kimi qəbul edilmişdilər.[51] Bir çox alman tarixçiləri — B.Q.Unru,[52] Q.Penner[53], Q.Holts[54] hesab etmişlər ki, mennonitlər həmişə alman etnosuna mənsub olmuşlar və onların almanlar tərəfindən assimilyasiyası haqqında söhbət gedə bilməz. Polşa tarixçiləri İ.S.Postma[55], S.Tsixotska-Petrajeska[56] mennonit familiyalarının etimoloji analizi əsasında belə bir qənaətə gəlmişlər ki, «mennonitlər hollandlardır, belə ki, onların familiyaları holland mənşəlidir».

Bu məsələ ilə bağlı yeni və orijinal bir fikir sovet tədqiqatçısı A.N.İpatova məxsusdur.[57] O, hesab edir ki, mennonitlərə etnik mənsubiyyət deyil, dini mənsubiyyət nöqteyi-nəzərindən yanaşmaq lazımdır. A.N.İpatova görə, mennonit icmasına «öz etnik və konfessional müstəsnalıq muxtariyyətini müdafiə etmək xarakterikdir».[58]

Mennonitlərin tarixinə aid mənbələrin təhlili əsasında belə bir nəticəyə gəlmək olar ki, mennonitlər öz teoloji və kult praktikasına məxsus olan xüsusi dini cərəyandır. Etnik mənsubiyyət məsələsinə gəldikdə XVI əsrdə mennonitlərin böyük əksəriyyətini bir-birinə qohum olan german dil qrupunda danışan flamandrlar, hollandlar, frizlər, saksonlar təşkil edirdilər. Sonralar Şərqdə — Prussiya və Polşada məskunlaşan mennonitlər onları müdafiə edən yerli xalqlardan təcrid olunmuş şəkildə yaşadıqlarından mennonit sektalarında linqvinistik fərqlər silinmiş və bütün etnoqrafik qrupların sintezindən həm dini, həm də etnik mənsubiyyəti üst-üstə düşən «mennonitlər» adlı etno-konfessional birlik yaranmışdır.

XVIII əsrin II yarısında Rusiya imperiyasında, o cümlədən sonralar Qafqazda məskunlaşan mennonitlər öz dini xüsusiyyətlərini saxlamaqla yanaşı, özlərini etnik baxımdan alman kimi təqdim etmişlər və təsadüfi deyil ki, almanların Rusiyada məskunlaşması tarixini araşdıran tarixçilər mennonitlərin tarixinə «alman kolonistlərinin tarixi» kontekstindən yanaşmışlar. Qafqazda məskunlaşdıqdan sonra da mennonitlər öz etnik və dini xüsusiyyətlərini saxlamaqda davam edirdilər. Şübhəsiz ki, din mennonit koloniyalarının sosial-iqtisadi, siyasi, mədəni həyatında təşkiledici və inteqratik rol oynayırdı.

Əxlaqi sərtlik, məişətdə təvazökarlıq və düzgünlük mennonitləri başqa alman kolonistlərindən fərqləndirən əsas keyfiyyətlər idi. Onlar təcrid həyat tərzi keçirsələr də qonşu xalqlarla həmişə dostluq münasibətlərində yaşamışlar. Rəsmi dövlət orqanları həmişə hesabatlarında mennonitlər haqqında müsbət rəy

söyləmişlər. Mennonitlərin və ümumiyyətlə, alman kolonistlərinin işgüzarlığı, əməksevərliyi, alman filosofu Maks Veberin fikrincə, onunla izah olunurdu ki, protestantlarda əmək fəaliyyəti ruhun xilas edilməsi ideyasına tabe idi. Əməklə bağlı vəzifələrin yerinə yetirilməsinə protestantlar dini vəzifələrin yerinə yetirilməsi, Allaha qulluq etmək kimi baxırdılar. Bu dünyada daha çox çalışan Allahın ən sevimli bəndəsi kimi axirət dünyasında mükafatlanmalı idi və məhz bu ümid mennonitləri daha çox çalışmağa ruhlandırırdı.

Şimali Qafqazda məskunlaşan mennonitlərlə lüteranlar arasında gərgin münasibətlər yaşanırdı. Onlar arasında ziddiyyətlərin tarixi Almaniyada 1525-ci ildə baş vermiş Kəndli müharibəsi və Reformasiya dövründən başlanmışdır. Mennonitlər özlərini «Allah tərəfindən seçilmiş insan» sayırdılar və icmalarını «müqəddəslər icması» adlandırırdılar. Bütün ətrafdakıları onlar «Allah qarşısında günahlı» insan sayır, onlardan özlərini təcrid edirdilər. Mennonit olmayanlarla nikahlar qəti qadağan edilmişdi. Bu qaydanı pozanlar icmadan qovulurdular. Hətta protestantizmə aid konfessiyaların nümayəndələri ilə də nikah qadağan olunmuşdu[59]

Qeyd etmək lazımdır ki, çar hökumət orqanları da əməksevər mennonit icmalarının birliyinin dağılmasında maraqlı deyildi və bəzi hallarda mennonitin başqa konfessiyalara keçməsinə icazə verilmirdi.[60] Rəsmi dövlət orqanlarının və Rusiya yevangelist-lüteran konsistoriyasının sərt müqavimətinə baxmayaraq, XIX əsrin II yarısı — XX əsrin əvvəllərində protestantizmdə mövcud olan konfessional dağınıqlığın qarşısını almaq mümkün olmadı və qeydiyyata düşməyən sektaların sayı artmaqda davam edirdi.

Lüteran pastorların birbaşa vəzifələrindən uzaqlaşaraq daha çox iri torpaq sahiblərinin, sənayeçilərin maraqlarının müdafiəsi ilə məşğul olması, lüteran dini adət və mərasimlərinə görə yığılan məbləğin artması yoxsul protestantlar arasında sektaçılıq hərəkatının güclənməsinə gətirib çıxardı. Kolonistlər, həmçinin ictimai-mədəni fəaliyyətlə də məşğul olurdular. 1859-cu ildə Yelenendorf koloniyasının 50 illik, 1919-cu ildə isə 100 illik yubileyləri keçirilmişdir.[61] Bu tədbirlərdə koloniya musiqiçiləri, kolonistlərdən ibarət xor və orkestr iştirak etmişdir. Koloniyalarda gənclərin musiqi qabiliyyətinin inkişafına diqqət yetirilirdi. Kolonist ailələrinin əksəriyyətində pianino, skripka, fisqarmoniya və sair musiqi alətlərinə rast gəlinirdi. Mədəni-maarif işində kitabxanaların, arxivlərin, muzeylərin yaradılmasına da diqqət yetirilirdi. 1870-ci ildən Yelenendorfda ictimai kitabxana fəaliyyət göstərirdi. Bu kitabxananın fondunu, əsasən almandilli ədəbiyyat təşkil edirdi.[62]

Koloniyaların ictimai-mədəni həyatında onların yaratdığı müxtəlif ittifaqlar, cəmiyyətlər, yığıncaqlar mühüm rol oynayırdı. 1893-cü ildə Yelenendorfda yaradılan İctimai yığıncaq əhali arasında mədəni-maarif işi aparırdı: tez-tez bədii gecələr keçirir, teatr səhnələri nümayiş etdirir, rus və alman dillərində çap olunan qəzet və jurnallar alır, ölkədə və dünyada baş verən hadisələr

haqqında mühazirələr təşkil edirdilər. 1909-cu ildə Yelenendorfda «Qadın Xeyriyyəçilik cəmiyyəti» yaradılmışdı və cəmiyyət xeyriyyəçiliklə yanaşı, həmçinin mədəni-maarif işi ilə də məşğul olurdu.[63]

## 3.2. ALMAN KOLONİSTLƏRİNİN QAFQAZIN YERLİ ƏHALİSİ İLƏ QARŞILIQLI MÜNASİBƏTLƏRİ

Məskunlaşmanın ilk illərində çar hökuməti almanlar arasında mədəni-maarif işinin aparılmasına əhəmiyyət vermədi. Rəsmi orqanlarda belə bir fikir formalaşmışdı ki, kolonistlər tezliklə rus həyat tərzinə, rus dilinə, rus mədəniyyətinə alışacaqlar, rus koloniyalarında tez bir zamanda və asancasına assimilyasiya prosesi gedəcəkdir. Ancaq tarix göstərir ki, kolonistlərin mədəni həyatı çarizmin planlaşdırdığı kimi getmədi. Qafqazda ilk məskunlaşan almanlar üçün ən xarakterik cəhətlərdən biri onların həm təsərrüfat, həm də mədəni-mənəvi həyatda özlərini ətraf xalqlardan təcrid etməsi idi. Bunun obyektiv səbəbləri kimi çar Rusiyasında XVIII əsrin sonu — XIX əsrin I yarısında istehsal münasibətlərinin aşağı inkişaf səviyyəsini, iqtisadiyyatın natural xarakter daşımasını göstərmək olar.

Qonşu xalqlarla əlaqələr minimal xarakter daşıyırdı. Nəzərə alsaq ki, Qafqazda mövcud olan koloniyaların əksəriyyəti qeyri-rus xalqlarının — azərbaycanlıların, gürcülərin, abxazların, osetinlərin, çeçenlərin, balkarların, kabardinlərin, kumıkların və sair Qafqaz xalqlarının ərazilərində yaranmışdı, XIX əsrin I yarısında yerli xalqlarla ünsiyyət zamanı rus dilindən, demək olar ki, istifadə olunmurdu.

Yalnız XIX əsrin 70-ci illərindən başlayaraq alman kolonistləri arasında rus mədəniyyətinin kök salması, müəyyən assimilyasiya elementlərinin formalaşması prosesi başlayır ki, bu da kolonistlərə II Yekaterina tərəfindən bağışlanan bir çox güzəştlərin ləğv edilməsi, alman koloniyalarının ümumi idarəetmə sisteminə tabe etdirilməsi, alman gənclərinin həqiqi hərbi xidmətə cəlb edilməsi, XIX əsrin 90-cı illərindən alman məktəblərinin ruslaşdırılması ilə izah edilir.

Qeyd etməliyik ki, alman kolonistləri arasında assimilyasiya proseslərinin başlanması təkcə çar hökumətinin apardığı «ruslaşdırma» siyasəti ilə bağlı deyil, həm də XIX əsrin sonu — XX əsrin əvvəllərində Rusiya iqtisadiyyatının sürətli inkişafı ilə də bağlı idi: kolonist kütləri arasında sosial təbəqələşmə gedirdi və alman mənşəli iş adamları rus iş adamları ilə ümumi iş qururdular ki, bu da rus dilinin, rus mədəniyyətinin varlı kolonist təbəqələrində kök salmasına gətirirdi.

İqtisadiyyatda gedən inteqrasiya prosesləri kolonist məktəblərində tədrisin məzmununa, alman ailələrində tərbiyə prosesinə dəyişikliklər gətirdi. Alman məktəblərində tədris rus dilinə keçirildi, rus dilinin məktəbdən kənar vaxtlarda öyrənilməsinə maraq artdı.

Alman koloniyalarında gedən assimilyasiya prosesinin ilk əlaməti kimi almanların rus adlarını daşımasını göstərə bilərik. Baxmayaraq ki, doğum haqqında şəhadətnamələrdə alman adları qeyd olunurdu, həyatda kolonistlər, əsasən rus adlarından istifadə edirdilər.[64]

Almanlar arasında assimilyasiya proseslərini gücləndirən başqa bir amil — bu onların ictimai və dövlət strukturlarına fəal inteqrasiya olunması idi ki, bu da rus mədəniyyətini qəbul etmədən mümkün deyildi.

Alman cəmiyyətində assimilyasiyaya qarşı müqavimət daha çox alman ailəsinin milli xüsusiyyətlərinin qorunması, alman gənclərinin milli ruhda tərbiyə olunması formasında özünü büruzə verirdi.

XIX əsrin II yarısınadək almanlar dilemma qarşısında qalmışdılar: məktəb, kirxa tikintisi üçün dövlətə müraciət etmək və bu məsələni dövlət vəsaiti hesabına həll etmək; yaxud dinlə, mədəniyyətlə bağlı məsələləri kolonist icmasının öz hesabına həll etmək və dövlət asılılığını minimuma endirmək.

Artıq XIX əsrin sonu — XX əsrin əvvəllərində dilemma həll olundu — alman məktəbləri məcburi şəkildə dövlətin balansına keçirildilər. Alman milli ruhunun qorunduğu yeganə avtonom sfera kimi ailənin və ictimai birliklərin rolu ön plana çıxdı. Alman milli ailəsi başqa bir etnik əhatədə təkcə gənc nəslin tərbiyəsi ilə məşğul olmur, həmçinin onlarda alman mentalitetinin formalaşmasında böyük rol oynayırdı, «uşaqlar yaşlarına uyğun olmayan dərəcədə ciddi və ağırtəbiətli tərbiyə edilirdilər».[65] Alman ailələri konservativ xarakterə malik idi: qarışıq ailələrə çox nadir hallarda rast gəlinirdi. Alman ailələrində boşanma hallarına, həddi-büluğa çatmayanların nikaha girməsinə, kəbinsiz uşaqların doğulması hallarına yol verilmirdi. Alman ailəsi möhkəmliyi və patriarxallığı ilə seçilirdi: kişinin və atanın ailədə liderliyi şübhəsiz idi. Alman ailələri adətən 3-4 nəfərdən ibarət olurdu və ailələrin əksəriyyətində ailə üzvləri eyni sosial qrupa aid olurdular. Məskunlaşmanın ilk illərində alman ailələri bir neçə nəsli özündə birləşdirən mürəkkəb bir quruluşa malik olsa da, XIX əsrin sonu — XX əsrin əvvəllərində ailələrin sadələşməsi prosesi gedirdi ki, bu da ailə, əmək, milli ənənələrin itirilməsinə, nəsillər arasında əlaqələrin qırılmasına gətirib çıxarırdı.

XX əsrin əvvəllərində alman ailələrində gedən proseslərdən biri də onun demokratikləşməsi oldu, yəni tədricən kişi və qadının funksiyaları bərabərləşirdi. Bu qadınların ictimai həyata daha çox cəlb edilməsinin və qadın emansipasiyasının nəticəsi idi.

Qadınlar, əsasən uşaqların tərbiyəsi və ev işləri ilə məşğul olurdular. Mədəni nöqteyi-nəzərdən milli ailə yeganə yer idi ki, burada alman başqa milli-mədəni təzyiqə məruz qalmırdı. Alman ailələri, həmçinin onları əhatə edən xalqlar haqqında etnik stereotiplərin və avtostereotiplərin formalaşmasında da mühüm rol oynayırdı. Almanlar ailəyə «Özgə elementlərin» müdaxilə etməsinə yol vermirdilər. Hətta dayə və yaxud xidmətçilər yalnız alman milliyyətindən olmalı

idi.[66] Kapitalist münasibətlərinin inkişaf etdiyı bir şəraitdə Qafqaz almanları mürəkkəb bir vəziyyətdə qalmışdılar — iqtisadi fəaliyyət başqa xalqlara daha sıx inteqrasiya olmağı tələb edirdi, bu isə etnik eyniliyin itməsi», assimilyasiya olmaq təhlükəsi yaradırdı. Qeyd etmək lazımdır ki, həm inteqrasiya, həm də etnik izolyasiya prosesləri almanlar üçün eyni dərəcədə təhlükə yaradırdı. Belə ki, etnik inteqrasiya assimilyasiyanı gücləndirdiyi halda, təcridolunma, özünəqapanma isə təsərrüfatın tənəzzülünə, ictimai və siyasi sahədə alman kolonistlərinin fəal mövqeyinin itirilməsinə gətirib çıxarırdı.

Qafqaz almanlarının tarixinin təhlili göstərdi ki, öz konservativliyinə baxmayaraq, alman ailələri də Rusiya cəmiyyətində gedən proseslərdən kənarda qala bilmədi və ailə cəmiyyətin özəyi, bir hissəsi kimi yeni reallıqlara uyğunlaşmağa məcbur oldu. Bunun nəticəsidir ki, artıq XX əsrin əvvəllərində assimilyasiyaya uğramış almanların sayı nisbətən çoxalmışdı. Qeyd edək ki, assimilyasiya ali təhsilli almanlar arasında daha sürətlə gedirdi və məcburi xarakter daşımırdı: alman ziyalılarının müəyyən bir hissəsi üçün rus dili, rus mədəniyyəti onların peşə fəaliyyəti ilə bağlı idi.

Alman gənclərinin milli ruhda tərbiyə olunmasında milli mühitdə istirahətin təşkil olunmasının böyük rolu vardı. Cəmiyyətlər, klublar, rəqs gecələri bu baxımdan çox əhəmiyyət kəsb edirdi.

Mənbələrdən görünür ki, alman iş adamları özlərinə tərəfdaşları, əksər hallarda alman milliyyətinə aid şəxslərdən seçirdilər. Bu A.A.Velitsının qeyd etdiyi kimi, almanların «milli məhdudluğundan» irəli gəlmirdi.[67] Alman iş adamı burada daha çox biznesin maraqlarını üstün tuturdu. Belə ki, almanlar uşaqlıqdan dəqiqlik və səliqəlilik ruhunda tərbiyə olunur, onlarda əməyə əsl «lüteran münasibəti» formalaşdırılırdı ki, bu da «yüksək əmək mədəniyyəti», «özünə və tərəfdaşına cavabdehlik», «götürülən öhdəliyin mütləq yerinə yetirilməsi» kimi keyfiyyətlər nəzərdə tuturdu. Buna görə alman tərəfdaş seçəndə onda daha çox inam hissi yaradan öz soydaşına üstünlük verirdi.

Maddi mədəniyyət sahəsində almanların milli koloriti qoruyub saxlamaq cəhdləri daha çox memarlıqda ifadə olunur. Məktəb, kirxa, yaşayış və inzibati binalar alman memarlıq ənənələrinə uyğun olaraq inşa edilirdi. Bu binaların proyektləri alman mənşəli arxitektorlar tərəfindən hazırlanırdı.[68]

Alman kolonistləri çalışırdılar ki, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etsinlər, övladları Rusiya üçün yararlı vətəndaş kimi formalaşsınlar. Bununla yanaşı, onlar milli dilin, mədəniyyətin, milli psixologiyanın qorunmasını da üstün tuturdular ki, bu keyfiyyətlərinə görə kolonistlər tez-tez rəsmi orqanların qınaq hədəfinə çevrilirdilər.

Rusiya rəsmi orqanları hər hansı milli azlığa təhlükəli bir qüvvə kimi baxır, milli mədəniyyətin inkişafını rus həyat tərzinə, rus mədəniyyətinə nifrət kimi qələmə verirdilər.

Alman kolonistlərinin Qafqaz xalqları ilə birgə yaşayış təcrübəsi müasir dövrdə müəyyən elmi maraq doğurur. Almanların təcrübəsi göstərir ki, başqa bir etnik əhatədə yaşayan etnik qrup və yaxud xalq öz mədəniyyətinin və onu əhatə edən özgə mədəniyyətin əməkdaşlığı sərhədlərini ayırd etməlidir ki, özünü assimilyasiyadan qoruya bilsin.

Qafqaz almanlarının yerli xalqlarla sosial-iqtisadi, siyasi, mədəni əməkdaşlığı onların leksikonunda yeni sözlərdən istifadə olunmasına gətirdi. Bu təbii bir proses idi, belə ki, dil cəmiyyətin yeni əşyaların, anlayışların, hadisələrin ifadə olunması üçün yeni sözlərə olan tələbatının ödənilməsinə xidmət edir.

Şimali Qafqazda yaşayan alman kolonistlərinin leksikonunda rus dilindən keçmə bir çox sözlərə rast gəlinir. Bu sözlər, əsasən dövlət quruluşu, təhsil sistemi, iqtisadiyyatla bağlı idi.

«Desyatine», «zemlyanka», «quartir», «ukaz», «zemstvo», «uryadnik», «sud», «versta», «pud», «rubl», «kopeyka», «vedro», «vodka», «papirosa», «xutor», «step», «tabak», «suchovey» və sair kimi rus sözləri daimi olaraq Qafqaz almanlarının leksikonunda özünə yer tutmuşdu.[69]

Qeyd etdiyimiz kimi, Gürcüstandakı alman koloniyalarının yarıdan çoxu etnik azərbaycanlılar yaşayan bölgələrdə yaranmışdı. Həm Azərbaycanda, həm Gürcüstanda yaşayan alman kolonistlərinin lüğətində Azərbaycan dilindən keçmə sözlər əhəmiyyətli yer tutur. Məsələn, Yelenendorf və Annenfeld, Yekaterinenfeld koloniyasının sakinləri öz ilkin yaşayış yerlərini russayağı «zemlyanka» əvəzinə daha çox azərbaycanca «yurt» adlandırırdılar.[70] Almanlar yaşayış evlərinin arxitekturasına əlavə etdikləri balkonu da azərbaycanca «eyvan» adlandırırdılar. Sosial-iqtisadi həyatla bağlı «fayton», «usta», «kəhriz», «bazar», «karvan» və yaxud kulinariya ilə bağlı «lülə-kabab», «lavaş», «şişlik», «bozbaş», «dolma», «motal-pendir» və sair Azərbaycan sözləri gündəlik həyatda almanlar tərəfindən işlədilən sözlər idi. Almanların leksikonunda ara-sıra gürcü və sair Qafqaz xalqlarının dillərindən keçmə sözlərə də rast gəlinirdi. Ancaq başqa dillərdən götürülən sözlər sırasında rus və türksoylu xalqların dillərindən götürülən sözlər üstünlük təşkil edirdi. Fikrimizcə, bu adi hal kimi qəbul edilə bilər, çünki hələ rus işğalına qədər Azərbaycan dili — türk dilləri qrupunun ən dinamik dili kimi Qafqazda xalqlararası ünsiyyət rolunu oynayırdı. Rus dili, dövlət dili kimi Azərbaycan dilini rəsmi sferadan sıxışdırsa da, Qafqaz xalqları arasında Azərbaycan dili öz kommunikativ əhəmiyyətini itirməmişdi.

XIX əsrin əvvəllərində «yurt»larda yaşayan almanların maddi durumu getdikcə yaxşılaşırdı və əsrin ortalarına onlar artıq qotika stilində daş evlər inşa etməyə başladılar. Yerli iqlim şəraitini nəzərə alaraq almanlar evlərinə Qafqaz xalqlarına xas olan yeni bir memarlıq elementi — balkon (eyvan) əlavə etdilər.

Alman əhalisinin XIX əsrin əvvəllərində Cənubi Qafqaza köçürülməsi, onun yeni etnik, konfessional, siyasi, iqtisadi şəraitə uyğunlaşması, onun Cənubi

Qafqazın yerli əhalisi və bu regiona miqrant kimi gəlmiş başqa etnoslarla qarşılıqlı münasibəti məsələləri böyük maraq doğurur.

Cənubi Qafqaz almanlarının tarixşünaslığında alman kolonistlərinin yerli xalqlarla qarşılıqlı münasibəti məsələlərinə səthi şəkildə toxunulmuş, bu münasibətlərin dərin hərtərəfli təhlili verilməmişdir. Bu günə qədər baxdığımız məsələyə həsr olunmuş heç bir xüsusi tədqiqat işi yazılmamışdır.

Qeyd etmək lazımdır ki, Cənubi Qafqaz xalqları ilə alman kolonistləri arasında münasibətlərə dair fraqmentar məlumatlar ilk olaraq XVIII əsrin sonu — XIX əsrin əvvəlləri Qafqaza səyahət etmiş alman mənşəli alimlərin əsərlərində əks olunmuşdur. S.Q.Qmelin, İ.A.Güldenstedt, G.Y.Klaprot Qafqaza səyahət edərək bu region haqqında iqtisadi, mədəni, etnoqrafik material toplamış, Qafqazın etnik xəritəsi barədə qiymətli qeydlər aparmışlar.[71] Kolonistlərin xatirə xarakterli əsərlərində, oçerklərində, müxtəlif epistolyar materiallarında Qafqaz xalqları ilə alman kolonistlərinin qarşılıqlı münasibəti haqqında çox dəyərli məlumatlara rast gəlinir. Ancaq bütün bu adı çəkilən mənbələrdə Cənubi Qafqaz əhalisinə onun mədəniyyətinə bir qədər subyektiv yanaşma nəzərə çarpır ki, bu da bizim fikrimizcə, almanlarda və ümumən Avropa xalqlarında Şərq haqqında, burada yaşayan xalqlar haqqında formalaşan stereotiplərlə bağlıdır.

Çar Rusiyası dövründə yazılan əsərlərdə də Qafqaz xalqları və eləcə də almanlar haqqında mənfi, bəzən təhqiredici rəylərə rast gəlirik. Bu baxımdan «Qafqaz» qəzetində çap edilən məqalələr daha səciyyəvidir.

Alman kolonistləri ilə yerli Qafqaz xalqlarının qarşılıqlı münasibəti haqqında «Qafqaz» qəzetində dərc olunan P.Dzyubenkonun məqaləsi, xüsusən diqqətəlayiqdir.[72] Müəllif tatarların (azərbaycanlıların) və ermənilərin alman kolonistlərinə mənfi münasibətindən yazır və məqalədən belə nəticə çıxarmaq olar ki, bu cür münasibətin formalaşmasında yerli əhaliyə nisbətən, kolonistlər üçün daha əlverişli iqtisadi şəraitin yaradılması ilə yanaşı, həm də almanların milli mentalitetindən irəli gələn amillərin böyük rolu vardır. P.Dzyubenko almanların ifrat amansızlığından yazaraq vurğulayır ki, alman kolonisti «bir salxım üzümə görə adam öldürə bilər. 46-cı draqun alayının əsgəri məhz belə öldürülmüşdür, varlı alman Forer isə Yelenendorf koloniyasında tatarı (azərbaycanlını—*İ.A.)* qətlə yetirmişdi. Bizim almanımız ifrat dərəcədə kobuddur, qapalıdır və ətraf əhali arasında hörmət sahibi deyil».[73] Bu mənada almanların və duxoborların yerli əhali ilə daha yaxşı münasibətdə olduğunu vurğulayan müəllif, Yermolovun tatarların almanlara nifrət etməsi haqqında 1826-cı ildə söylədikləri ilə həmrəyliyini bildirərək qeyd edir ki, yerli əhalinin almanlara düşmən münasibətinin səbəbi onların kolonistlər tərəfindən istismar olunması, eyni zamanda kolonistlərin müxtəlif mükəlləfiyyətlərdən azad edilməsi idi.

XIX əsrin 90-cı illərində Rusiya ictimai fikrində Qafqazda aparılan daxili siyasətin mahiyyəti müzakirə obyektinə çevrilir. Bir çox publisistlər, tarixçilər və sair ziyalı təbəqəsinin nümayəndələri Qafqazda xarici miqrantların

yerləşdirilməsinin, əsasən də alman və erməni mənşəli mühacirlərin yerləşdirilməsinin səhv addım olduğunu söyləyirlər. Onların fikrincə, Qafqazda rus əhalisinin yerləşdirilməsi dövlət siyasəti nöqteyi-nəzərindən daha məqsədəuyğun olardı. Yerli mətbuat, əsasən Osmanlı imperiyası və İrandan ermənilərin Cənubi Qafqaza köçürülməsini, onların sayının bu regionda artmasını dövlət maraqları üçün gələcəkdə təhlükə yarada biləcək amil kimi qiymətləndirirdi. Məsələn, «Qafqaz» qəzeti 1894-cü ildə yazırdı ki, rus elementi Qafqazda zəif olduğu üçün Rusiyanın burada yaşayan əhaliyə təsiretmə imkanları məhduddur. Qeyd olunurdu ki, İrəvan quberniyasında 4 min rus yaşadığı halda, ermənilərin sayı artıq 40 mini keçib, hansılar ki, burada aborigen əhali deyil, 1850-ci illərdə Osmanlı imperiyasından köçüb gəlmişlər. Qəzet Qafqaza rus əhalisinin köçürülməsini məqsədəuyğun sayırdı, çünki «rus kəndliləri ermənilərdən əməksevər və mədənidirlər».[74]

1896—1899-cu illərdə «Qafqaz» qəzetinin redaktoru olmuş V.L.Veliçko da almanlar haqqında mənfi fikrini açıqlayaraq yazırdı ki, «almanların köçürülməsi (Qafqaza – *İ.A.)* hökumətin ümidlərini doğrultmadı. Belə ki, alman koloniyaları xəzinənin və yerli əhalinin hesabına varlansa da, sonuncular üçün yaxşı heç nə gətirmədilər, əksinə, onları öz nökərlərinə çevirdilər.»[75]

V.L.Veliçkonun fikri o fakta əsaslanırdı ki, XIX əsrin II yarısında alman kolonistlərinin təsərrüfatlarında geniş şəkildə muzdlu əməyindən istifadə olunurdu. Elə kolonist təsərrüfatları var idi ki, onlar yalnız muzdlu işçilərin hesabına mövcud idi. Muzdlu işçilər müxtəlif xalqlardan olurdular: onların arasında azərbaycanlılar, gürcülər, ermənilər, aysorlar, kürdlər, farslar, ruslara və s. rast gəlmək olardı. Ev təsərrüfatı işlərini yerinə yetirmək üçün kolonistlər daha çox azərbaycanlıların əməyindən istifadə edirdilər. Torpaq və bağlarda qulluq məqsədilə kolonistlər müvəqqəti muzdlu işçi qüvvəsindən istifadə edirdilər ki, onlar, əsasən koloniyada almanlarla birgə yaşayırdılar.

Kolonistlərlə muzdlu işçilər arasında işçi münasibətləri mövcud idi. Şəxsi dostluq və yaxud qarşılıqlı bağlılıq haqqında söhbət belə gedə bilməzdi. Hətta bəzi kolonistlər muzdlu işçilərlə özlərini çox amansızcasına aparırdılar. Məsələn, «Qafqaz» qəzeti 1880-ci il 219 saylı nömrəsində iki azərbaycanlının alman tərəfindən muzdlu işə götürülməsindən və onların almanlar tərəfindən aldadılaraq razılaşmadan əlavə istismar olunması faktından yazırdı.[76] Qəzetin yazdığına görə, öz haqlarını tələb edən azərbaycanlı işçilərə qarşı kolonistlər fiziki təzyiq göstərmiş, onlara işgəncə verərək müxtəlif bədən xəsarətləri yetirmişlər.

Alman kolonistlərinin törətdiyi bu qanunsuzluq haqqında, hətta Sankt-Peterburqda nəşr edilən «Nedelya» qəzeti də məlumat vermişdi.[77]

Ayrı-ayrı alman sahibkarların muzdlu və xüsusən də müsəlman dininə aid işçilərlə qeyri-bərabər davranışı çar hökumətinin apardığı milli siyasətin nəticəsi idi. Məsələn, 1857-ci ildə qəbul olunmuş «Rusiya imperiyasındakı xarici koloniyalar haqqında Nizamnamə»yə nəzər salsaq, görərik ki, burada kolonistlərin

ətraf xalqlarla münasibətlərini təyin edən maddələr vardır.[78] Məsələn, 168-ci maddəyə əsasən, alman kolonistlərinə yerli Qafqaz xalqlarının nümayəndələrindən köləliyə satın almaq hüququ verilmişdi.[79] Nizamnamədə göstərilirdi ki, xristian xalqların—gürcü, erməni və yaxud rusların köləlikdə saxlanılması qadağandır. Kolonist yalnız müsəlman və yaxud bütpərəstlərdən köləliyə işçi ala bilərdi. Köləliyin müddəti 7 ildən artıq ola bilməzdi. Əgər köləliyə satılan 16 yaşa çatmamışsa, o, 23 yaşı tamam olana qədər öz sahibinə xidmət etməli idi. Əgər köləliyə satılan kolonistin onu aldığı zaman verdiyi məbləği ödəyə bilərdisə azadlıq əldə edə bilərdi. Kölənin bir kolonist tərəfindən başqasına satılması qadağan olunurdu. Kölədən doğulan uşaq azad sayılırdı. Köləlikdən azad olan öz ailəsi ilə birlikdə, koloniyada məskunlaşıb yaşaya bilərdi və təbii ki, bunun üçün koloniya üzvlərinin ümumi razılığı olmalıydı. Alman koloniyalarının tarixində belə sonluğa çox nadir hallarda rast gəlinirdi.[80]

1857-ci il «Nizamnaməsi»nin 399-cu maddəsində kolonistlərə «bütün qonşularla mehriban və dostcasına davranmaq, onlarla torpaq məsələlərində münaqişə etməmək, hər hansı bir kobudluqdan çəkinmək» tövsiyə edilsə də, faktiki olaraq 168-ci maddəyə əsasən, müsəlman əhaliyə qarşı hər hansı özbaşınalığın törədilməsi üçün şərait yaradılırdı. XIX əsrin II yarısında dövri mətbuatda almanların yerli müsəlman əhali ilə amansız davranışı haqqında yazılar dərc olunurdu. Məsələn, 1880-ci ilin avqust nömrələrinin birində «Qafqaz» qəzeti Yelenendorf koloniyasında baş verən bir neçə hadisəni işıqlandırmışdı. Bu məqalədə alman kolonisti Manuel Frikin şüurlu şəkildə azərbaycanlı yeniyetməni at arabası ilə tapdalamasından, onun valideynlərinin kolonist tərəfindən döyülərək təhqir edilməsindən bəhs olunur.[81]

XX əsrin əvvəllərində P.Basixin almanları xarakterizə edərək yazırdı: onlar öz vətənlərini və yaşayış tərzini əhəmiyyətsiz dəyişikliklər etməklə, yeni-rus şəraitinə gətirdilər. Kolonistlərdə öz milli dəyərlərinə dərin məhəbbət olduğu üçün başqa millətlərə qarşı dözülməzdirlər». [82]

XX əsrin əvvəllərində başqa bir müəllif, Y.Abramov Cənubi Qafqaz almanları haqqında yazırdı ki, almanlar «onları əhatə edən əhaliyə heç bir mədəni təsir göstərməmişlər. Özlərindən razı, hər şeydən şübhələnən, təkəbbürlü, başqa millətin nümayəndələrinə hansısa aşağı bir təbəqə kimi, yuxarıdan aşağı baxırdılar, ən zəruri hallardan savayı onlarla heç bir ünsiyyətə girmirdilər».[83]

Şübhəsiz, «Qafqaz» qəzetində dərc olunan bu yazıların obyektiv əsası vardı. XIX əsrin I yarısında almanlar lüteranlıq ideyalarının sadiq daşıyıcıları kimi var-dövlətə, sələmçiliyə biganə yanaşır, zəngin yaşamağı, başqalarını istismar etməyi günah sayırdılar. Kapitalizmin inkişafı kolonistlərin şüurunda əsaslı dəyişikliklərə gətirdi və bu dəyişikliklər, nəinki koloniyadaxili həyata, həm də kolonistlərin yerli əhali ilə münasibətlərinə böyük təsir etdi. Bununla yanaşı, bir faktı da yaddan çıxarmaq olmaz ki, mətbuatda almanlara qarşı ifşa xarakterli məqalələrin dərc olunması Rusiya imperiyasında «alman elementi»nə qarşı başlanan ümumi

kampaniyanın nəticəsi idi. Yəni, almanlarla yerli əhali arasında münaqişələr əvvəlki dövrlərdə də baş verirdi, lakin bu məsələnin mətbuata çıxarılması təbii ki, siyasi xarakter daşıyırdı və rəsmi hökumət orqanlarının birbaşa dəstəyi ilə həyata keçirilirdi.

XIX əsrin 80-ci illərindən 1917-ci ilə qədər Rusiyada nəşr edilən əsərlərin böyük əksəriyyətində almanlar «amansız», «qaniçici», «təkəbbürlü», ətraf xalqlara həqarətlə yanaşan kimi göstərilmişdir ki, bu da həmin dövrdə çarizmin apardığı «alman elementinin məhdudlaşdırılması», «alman zülmünə qarşı mübarizə» siyasətinin, imperiyada aparılan antialman təbliğatının nəticəsi idi. Çar hökuməti almanların onları əhatə edən xalqlarla münasibətlərini çərçivəyə salmağa, almanları təcridolunmuş şəkildə saxlamağa çalışsa da, qarşılıqlı mədəni, iqtisadi əlaqələr mövcud idi və bu baxımdan kolonistlərlə Qafqaz xalqları arasında mövcud olan həqiqi münasibətlər böyük maraq doğurur.

Qeyd etmişik ki, Qafqazda yaranan alman koloniyalarının əhəmiyyətli hissəsi tarixən azərbaycanlıların məskunlaşdığı ərazilərdə yaranmışdı və çar hökumət dairələrinin məhdudiyyətlərinə baxmayaraq, almanlar və azərbaycanlılar arasında iqtisadi, mədəni əlaqələr formalaşmışdı.

Almanların azərbaycanlılarla münasibəti məsələsinə bir sıra əsərlərdə toxunulub və verilən qiymətlər bitərəfliliyi ilə seçilir. Məsələn, Almaniyalı tarixçi Eva Mariya Aux Cənubi Qafqaz almanlarının tarixinə həsr etdiyi əsərlərində 100 illik azərbaycanlı-alman qarşılıqlı münasibətlərinə ümumi qiymət verərək qeyd edir ki, «XX əsrin əvvəllərinə kimi alman kolonistlərinin həyati məsələsi müsəlman əhalisinin koloniyalara basqınlarının qarşısının alınması olub»[84]. Yaxud Azərbaycanda çap olunmuş bir sıra əsərlərdə azərbaycanlı-alman münasibətlərinə aydınlıq gətirilmir. Demək olar ki, onların hamısında müəlliflər bu münasibətlərə sistemli yanaşmamışlar. Bu baxımdan T.Axundovanın mövqeyi daha səciyyəvidir. Müəllif öz monoqrafiyasında etnik münasibətlər məsələsinə toxunur və qeyd edir ki, almanlar təcridolunmuş vəziyyətdə yaşayırdılar və əsərin bir sıra yerlərində azərbaycanlılarla mövcud münasibətlərin konflikt xarakterli olması söylənilir[85]. Əsərdə 1826-cı il Gəncə üsyanı ilə bağlı çətin sosial vəziyyətə düşmüş kolonistlərin yerli əhalinin evlərində yerləşdirilməsi və bir neçə ay burada yaşadıqları haqqında məlumat verən müəllif «yerli əhali» dedikdə, konkret olaraq kimləri nəzərdə tutduğuna aydınlıq gətirməmişdir. Bu çox prinsipial məsələdir, çünki bir sıra müəlliflər, kolonistlərin yaxşı münasibətdə olduğu «yerli əhali» dedikdə, erməniləri nəzərdə tuturlar. Tədqiqatçı T.Hümbətova öz kitabında almanların Yelizavetpolda «yerli əhali»nin evində sığınacaq tapmasını belə şərh edir: «9 noyabr 1826-cı il tarixdə Yelenendorf koloniyası düşmən tərəfindən darmadağın edildi. Onlardan 70 nəfər öldürüldü, 150 nəfər əsir düşdü. Qalanları isə Yelizavetpola qaçdı və erməni əhalisinin yanında sığınacaq tapdı».[86] T.Hümbətovanın fikrincə, yerli əhali — yəni azərbaycanlılar ruslara, Rusiyaya

nifrət edirdilər və Rusiyaya meyil edən erməni və alman əhalisi də onların nifrətinə tuş gəlmişdi.

Müəllif nəzərə almır ki, 1826-cı ildə II rus-iran müharibəsi başlamaqla yanaşı, Gəncədə rus istilasına qarşı möhtəşəm bir üsyan başlamışdı. Üsyançıların əsas məqsədi Gəncə torpağını, ümumiyyətlə, Azərbaycanı rus işğalından xilas etmək idi. Bu üsyanı iranpərəst qüvvələrin çıxışı və yaxud azərbaycanlıların xristian, o cümlədən alman əhalisinə qarşı hərbi tədbiri kimi qiymətləndirmək düzgün olmazdı.

Tarixi mənbələrdən məlumdur ki, 1818-ci ilin noyabrında Yelizavetpol quberniyasına köçürülən almanlar qış dövrünü nəzərə alaraq 1819-cu ilin baharına kimi ətraf azərbaycanlıların yaşadığı kəndlərdə yerləşdirilmişlər[87]. Bu faktı T.Hümbətova yuxarıda adı çəkilən əsərində də qeyd edir. O ki qaldı 1826-cı il hadisələrinə və alman əhalisinin bu hadisələr zamanı məruz qaldığı itkilərə və zorakılığa, demək lazımdır ki, tarixin təlatümlü anlarında—müharibələr, inqilablar, üsyanlar və sair sosial kataklizmlər zamanı günahsız insan kütlələrinin özlərindən asılı olmayaraq, bu konfliktlərə cəlb olunması, onların fiziki və mənəvi iztirablar keçirməsi halları baş verə bilər. Rusiya almanlarının tarixindən görürük ki, 1773-1775-ci illərdə Volqaboyu regionunda məskunlaşan alman kolonistlərinin böyük bir hissəsi E.İ.Puqaçovun rəhbərliyi ilə baş vermiş Kəndli müharibəsi zamanı məhv edilmiş, qalanı isə köləliyə satılmışdır[88].

1830-1831, 1863-1864-cü illərin Polşa üsyanları zamanı Polşa çarlığında və Qərbi Ukrayna ərazilərində yaşayan alman əhalisi ağır itkilərə məruz qalmış, onların böyük əksəriyyəti yaşadıqları əraziləri həmişəlik tərk etməyə məcbur olmuşlar[89]. Və yaxud, Şimali Qafqazda yaranan bəzi koloniyalar Qafqaz müharibəsi dövründə tərəflər arasında döyüş meydanına çevrilmiş, nəticədə Xasavyurt ətrafındakı bir sıra koloniyalar ləğv edilmişdir[90].

Təkcə alman məskunlaşması tarixindən onlarca belə faktlar gətirmək olar və bu da bir daha sübut edir ki, 1826-cı il Gəncə üsyanı alman əhalisinə qarşı deyildi, sadəcə olaraq, almanlar hadisələrin fəal cərəyan etdiyi ərazilərdə yerləşdiklərindən müəyyən zorakılıqla, itkilərlə üzləşmişlər. Azərbaycanlıların alman kolonistləri ilə münasibətləri çoxməzmunlu olmuşdur. Burada həm əməkdaşlıq, həm də müəyyən konfliktlərə də aid səhifələrə rast gəlinir, amma ədalət naminə qeyd etməliyik ki, bu münasibətlər tarixində əməkdaşlıq daha çox yer tutur.

Əvvəl qeyd etdiyimiz kimi, Yelizavetpol quberniyası ərazisinə köçürdükləri ilk günlərdən azərbaycanlı əhali onları dostcasına qarşılamış və bir müddət onları öz evlərində yerləşdirmişlər.

Təbii ki, hər hansı bir miqrant üçün ən birinci problem yeni coğrafi areala, yeni təsərrüfat formalarına və vərdişlərinə, yeni sosial-iqtisadi mühitə uyğunlaşmaqdır. Bu problem Qafqaz almanlarından yan keçməmişdir.

Azərbaycan almanları, əsasən çöl və yarımçöl iqliminə xas olan bir ərazidə məskunlaşmışdılar və təbii ki, yeni bir coğrafi şəraitdə öz həyat tərzlərini

tapmaqda, fəaliyyətə başlamaqda çətinliklər çəkirdilər. Almanların məskunlaşdıqları ərazi təqribən 40°37' və 41°07' arası şimal enlikdə, dəniz səviyyəsindən 750 metr yüksəklikdə, Kiçik Qafqaz sıra dağlarının şimal ətəklərində yerləşirdi.

Bu əraziyə yağıntılar çox az düşürdü və buna görə mədəni-texniki bitkilərin becərilməsi süni suvarma sistemi olmadan, mümkün deyildi. Alman koloniyalarının tarixi haqqında mənbələrdən görünür ki, alman əhalisi yeni iqlim şəraitinə uyğunlaşma dövründə bir sıra problemlərlə üzləşmişdir.

Kolonistlər üçün ən başlıca problem içməli su problemi idi. İlk illər almanlar içməli suyu açıq kanallardan götürürdülər ki, bu da onlar arasında müxtəlif epidemiyaların yayılmasına şərait yaradırdı. Əsasən də malyariya kolonistlər üçün çox təhlükə yaradırdı və demək olar ki, bu xəstəlikdən Azərbaycandakı bütün koloniyaların əhalisi əziyyət çəkmişdir[91].

İqlim və məişətlə bağlı analoji problemlər almanların məskunlaşdığı Novorossiya, Krım və başqa regionlarda da baş verirdi. Lakin adı çəkilən regionlarda, dövlət səviyyəsində kolonistlərə hər cür köməklik göstərilirdi. Məsələn, hələ 1800-cü ildə, çar I Pavelin fərmanı ilə Novorossiyanın xarici köçkünlərinə qəyyumluq kontoru yaradılmışdır və onun başçısı təyin olunmuş S.X.Kontenius uzun illər Cənubi Ukraynada yaşayan almanların sosial-iqtisadi vəziyyətini araşdırmış, mövcud problemlərin həlli məqsədilə hökumət dairələrinə hesabatlar vermiş və bu məsələlərin həllinə nail olmuşdur.

Azərbaycanda məskunlaşan almanlara dövlət orqanları tərəfindən maliyyə vəsaiti ayrılsa da, gündəlik praktiki məsələlərin həllində almanlar azərbaycanlı əhalisinin köməyindən istifadə edirdi.

Kolonistlər üçün ən vacib problemlərdən biri—içməli su problemi azərbaycanlı ustaların köməyi ilə həll edildi. Onlar alman əhalisi üçün kəhrizlər qurdular və tezliklə alman əhalisi təmiz, sağlamlıq üçün əhəmiyyətli kəhriz sularından istifadə etməyə başladı. XIX əsrin ikinci yarısında alman koloniyalarında kəhrizlərin sayı o qədər artmışdı ki, artıq kəhriz suyundan süni suvarma məqsədilə də istifadə olunurdu. Təsadüfi deyil ki, «kəhriz», «usta» kimi Azərbaycan sözləri alman əhalisinin leksikonunda daimi yer tutmuşdu[92].

Məskunlaşmanın ilk illərində kolonistlərin maddi vəziyyəti çox ağır idi. Azərbaycanlılar almanlara bacardıqları formada köməklik göstərmişlər. Məsələn, general-mayor İsmayıl xan Şəkinski Sartiçalıda məskunlaşan kolonistlərə 30 inək, 27 dana, 200 qoyun bağışlamışdı[93] və yaxud, ilk illər torpaqların xışla əkilməsini də azərbaycanlılar həyata keçirmişdilər.

Bunun səbəbi o idi ki, yeni yaşayış yerində almanların köhnə təsərrüfat vərdişləri, köhnə əmək alətləri lazım gəlmədi. Bundan başqa, almanların Cənubi Qafqaza köçürülməsi total xarakter daşıdığından heç də miqrantların hamısı kənd təsərrüfatı ilə məşğul olmamışdılar. Onların arasında «çoxsayda lazımsız sənət

sahiblərinə, ordudan yayınanlara, keçmiş cinayətkarlara, müxtəlif xroniki xəstəliklərə tutulanlara rast gəlmək olardı.

İlk yaşayış evlərini də almanlar azərbaycanlıların köməyi ilə tikmişdilər ki, onun yarısı torpaqda yerləşirdi. Bu cür yaşayış evini almanlar russayağı «zemlyanka» və yaxud azərbaycanca «yurt» adlandırırdılar. Sonralar, XIX əsrin ikinci yarısında almanlar qotika stilində daş evlər tikəndə də, yerli memarlıq elementlərindən də istifadə edirdilər[94].

Yeni coğrafi şəraitdə düzgün qidalanma böyük əhəmiyyət kəsb edirdi və təbii ki, yüzillərin sınağından çıxmış yerli mətbəx bu baxımdan daha rasional idi. Almanlar azərbaycanlılarla ünsiyyət qurdular, Azərbaycan milli xörəklərini hazırlamağın sirlərini öyrəndilər. «Dolma», «bozbaş», «lülə-kabab», «aş» və sair Azərbaycan milli yeməkləri alman əhalisinin gündəlik qida rasionuna daxil oldu[95].

Baxmayaraq ki, 1865-ci ildə Todan kəndində yaşayan almanlar İsveçrə pendiri hazırlayıb bütün Cənubi Qafqazı bu məhsulla təchiz edirdilər, özləri hazırlama texnologiyasını azərbaycanlılardan öyrəndikləri «motal-pendirə» daha çox üstünlük verirdilər.

Çar hökumət orqanları məskunlaşmanın ilk illərində alman və azərbaycanlıların yaxın təmasda olmasını arzulayırdı. Bunun əsas səbəbi, bizim fikrimizcə, xiliaizm ideyalarının yerli əhali arasında yayılmasının qarşısını almaq məqsədi idi. Bundan başqa, hökumət dairələri yerli əhalinin almanlara «mənfi» təsir göstərəcəyindən ehtiyatlanırdı. Almanların uzun illər təcrid olunmuş şəkildə yaşamaları heç də onların yerli xalqın mədəniyyətinə «yuxarıdan aşağı baxma» kimi qiymətləndirilməməlidir. Sadəcə olaraq, təcrid halda yaşamaq və fəaliyyət göstərmək — bu rəsmi dairələrin apardığı siyasətin nəticəsi idi. Bu fikrin doğruluğuna şübhə qalmaması üçün 1857-ci ildə qəbul edilmiş «İmperiyadakı xarici koloniyaların Nizamnaməsi»nə diqqət yetirmək çox vacibdir[96]. Bu Nizamnamədə alman koloniyalarının daxili həyatının bütün məsələləri öz əksini tapmışdı. Qaydalar o qədər sərt idi ki, kolonist Şultsun icazəsi olmadan koloniyanı tərk edə bilməzdi. Ailə və məişət məsələlərində ciddi olmaq, yeni tanışlıq əlaqələri qurmamaq, özgələrlə ünsiyyətə girməmək və s. kimi qadağalar mövcud idi.

XIX əsrin ikinci yarısında almanlar yavaş-yavaş təcrid olmadan yaxa qurtarmağa başladılar. Bu onunla izah olunur ki, 1871-ci il çar II Aleksandrın fərmanı ilə Cənubi Qafqazda yaşayan bütün kolonistlər ümumi idarəetmə sisteminə tabe etdirildilər və «kolonist» statusunu itirərək kəndlilərlə eyniləşdirildilər.[97] Faktiki olaraq koloniya hələ də bir vahid kimi saxlansa da, artıq əvvəlki koloniyadaxili sərt qaydalar bir qədər yüngülləşmişdi.

Alman-azərbaycanlı münasibətlərinin dərinləşməsinə xidmət edən ikinci bir faktor - bu Rusiyada 1860-1870-ci illər burjua islahatlarından sonra kapitalist münasibətlərinin inkişafıdır. Həyatın tələbindən irəli gələn iqtisadi inteqrasiya prosesləri hər iki xalqın yaxınlaşmasına, onlar arasında mədəni əməkdaşlığın intensivləşməsinə təkan verdi. İqtisadi sahədəki yeniliklər alman və

azərbaycanlıların daha tez-tez işbirliyi qurmasını, əlaqə yaratmasını tələb edirdi. Xalqlar arasında əlaqələrin genişlənməsi, birinci növbədə alman əhalisinin leksikonunda əhəmiyyətli izlər buraxdı. XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində Cənubi Qafqaz almanlarının dilində bir çox Azərbaycan sözləri — «usta», «kəhriz», «bazar», «karvan», «fayton», «pendir», «lavaş», «lülə-kabab», «bozbaş», «plov», «dolma» və s. kimi sözlər ümumişlək sözlərə çevrilmişdilər[98]

Koloniyalarda əsas ünsiyyət vasitəsi alman dili olsa da, kolonistlərin 35% rus dilində yazmağı və oxumağı bacarırdılar. Azərbaycanlılar arasında rus dili bilənlər cəmi 10% təşkil edirdi[99]. Bu səbəbdən almanlar azərbaycanlılarla ünsiyyətdə tərcüməçilərin xidmətindən istifadə edirdilər.

XIX əsrin sonlarına və XX əsrin əvvəllərinə aid mənbələrdə almanların Azərbaycan dilini mükəmməl bilmələri haqda məlumatlara rast gəlinir.

Yuxarıda qeyd etdiyimiz kimi, almanların Cənubi Qafqazda ilk məskunlaşması Gürcüstan ərazisindən başladı və bu regionda yaranan 26 koloniyadan 17-si Gürcüstan ərazisində salınmışdı.[100] Gürcülərin alman kolonistləri ilə münasibəti məsələsinə gəldikdə, qeyd etməliyik ki, alman əhalisi ilə gürcülər arasında münasibətlər hələ XVIII əsrin sonlarından qurulmağa başlamışdı. Məlumdur ki, II Yekaterinanın fərmanına əsasən, 1783-cü ildən etibarən Rusiya imperiyasının roma-katolik kilsələrinə Papa bullasını və onun adından müraciət, ianə qəbul etmək qadağan olmuşdur. Rusiya imperiyası «öz Romasını» -Mogilyov katolik mərkəzini yaratmışdı ki, ona da arxiyepiskop başçılıq edirdi: çar hökumətinin antikatolik siyasətini bəyənməyən polyak, latış, litva, eston, həmçinin alman əhalisinin bəzi təbəqələri mühacirət etməyə məcbur oldular ki, onların da bir qismi XVIII əsrin sonlarında Gürcüstanda məskunlaşmışdı. Yuxarıda qeyd etdik ki, 1817-1818-ci illərdə Cənubi Qafqaza köçən kolonistlərin əksəriyyəti Gürcüstanda və əsasən də Tiflis şəhəri ətrafındakı ərazilərdə məskunlaşmaq istəyirdilər. Bu ərazilər çoxdan mənimsənilmişdi və burada xarici mühacirlərin yerləşdirilməsi üçün boş torpaq sahəsi yox idi. Bu haqda A.P.Yermolov Sankt-Peterburqa dəfələrlə məlumat vermişdi. Bütün bunlara baxmayaraq, kolonistlər mərkəzdən Gürcüstanda məskunlaşmaq hüququ aldılar. Bu səbəbdən Azərbaycandan fərqli olaraq, alman əhalisinin Gürcüstanda yerləşdirilməsi yerli—gürcü əhalisinin narazılığına səbəb oldu. Noy—Tiflis koloniyası gürcü knyazı Amatunun torpaq mülklərində salınmışdı. Rus istilasına qarşı çıxdığı üçün onun mülkləri əlindən alınsa da, bu torpaqların hüquqi vəziyyəti aydınlaşdırılmamışdı. Yelizavettal koloniyasının yaranması yerli gürcülərlə gərgin mübarizə şəraitində baş vermişdi. Hətta mübahisələrin silahlı toqquşmalara çevriləcəyindən ehtiyat edən hökumət orqanları kolonistləri qorumaq üçün 21 əsgər və 6 kazakdan ibarət mühafizə dəstəsi yaradaraq Yelizavettala göndərmişdi.[101]

Gürcü torpaq sahiblərinin alman məskunlarına qarşı mübarizəsi gürcü pravoslav kilsəsi tərəfindən fəal dəstəklənirdi. İstər Noy-Tiflisdə, istər Yelizavettalda, istərsə də Petersdorfda gürcü din xadimləri gürcü əhalisinin

sıxışdırılmasının əleyhinə çıxır, almanları regionun başqa yerlərində — azad torpaq sahələrinin mövcud olduğu ərazilərdə yerləşdirilməsini tələb edirdilər.

Qeyd etmək lazımdır ki, bu mübarizə, bəzən öz nəticəsini verirdi. Məsələn, Tiflisdən 12 km aralıda yaranan, ilk əvvəl «12 Apostol», sonra isə Petersdorf adı ilə tanınan koloniya yerli — gürcü əhalisi ilə uzun sürən çəkişmələrdən sonra, 1820-ci ildə ərazini tərk etməyə və Marinenfeld koloniyasına qatılmağa məcbur oldu.[102]

Gürcüstanda yaşayan almanların əksəriyyəti üzümçülüklə, şərabçılıqla məşğul olurdular və onların gürcülərlə təsərrüfat sahəsində münasibətləri bu sahə ətrafında qurulurdu. Məsələn, almanlar məskunlaşdıqları ilk illər üzümçülükdə əməli nailiyyətlər əldə edə bilmirdilər. Bunun əsas səbəbi kolonistlərin yerli iqlim şəraitini, məhsulu məhv edən müxtəlif xəstəliklərin mənşəyini və onlarla mübarizə metodlarını bilməməsi idi. Gürcü üzümçülərin köməyi vasitəsilə almanlar mis kuporosu tətbiq edərək üzümlükləri bir sıra xəstəliklərdən qoruya bildilər. Alman üzümçüləri əsasən - şaltraube, rundveys, izabella, muskat kimi gətirilmə sortların becərilməsi ilə məşğul olurdular. Yeni iqlim və torpaq şəraitində yerli sortların becərilməsi məhsuldarlığı daha da artıra bilərdi. Yerli əhalidən götürülən tarkveri, Təbriz, rkatsiteli kimi üzüm çubuqları tezliklə, 3-4 ildən sonra məhsul verməyə başladı, almanların gəlirinin artmasını və rifah halının yaxşılaşdırılmasını təmin etdi.[103]

Almanlarla ermənilər arasında tamam fərqli münasibətlər formalaşmışdı və onların qarşılıqlı təması 1821-ci ildən, yəni Bazel missionerləri Azərbaycanın Şuşa şəhərində qərarlaşdıqdan sonra başladı.[104] Əvvəlki fəsillərdə qeyd etmişik ki, çar hökuməti missionerlər qarşısında bütpərəstlər, müsəlmanlar, yəhudilər arasında xristianlığın yayılması vəzifəsini qoymuşdu. Bazel missionerlərinin qeyri-xristian əhali arasında 13 illik missionerlik fəaliyyəti əməli nəticə vermədi, əksinə, başqa xristian cərəyanlarının tərəfdarlarının, əsasən də erməni gənclərinin protestantizmə meyili müşahidə olunurdu. Şimali Qafqazın pravoslav əhalisi arasında da protestantizmi qəbul edənlərə rast gəlinirdi.

Bazel missionerlərinin Rusiyanın dövlət maraqlarına zidd fəaliyyətini nəzərə alaraq çar I Nikolay 26 iyun 1836-cı il fərmanı ilə Rusiya ərazisində missionerliyi qadağan etdi və missionerlər Qafqazı tərk etməli oldular.

Bazel missionerlərinin fəaliyyəti dayandırılsa da onların işini lüteranlığı qəbul etmiş erməni mənşəli Rusiya təbəələri davam etdirirdilər. Belə şəxslərdən biri alman missionerlərinin köməyi ilə Estlandiyada təhsil alan və 1841-ci ildə Şamaxıda erməni uşaqları üçün yevangelist-lüteran məktəbi təşkil edən Sarkis Ambarsumyan olmuşdur. Ermənilər arasında lüteranlığın yayılması erməni-qriqoryan kilsəsinin narazılığına səbəb oldu: erməni kilsə xadimlərinin fikrincə, S.Ambarsumyan və onun tərəfdaşları ermənilər arasında lüteranlığı yaymaqla erməni xalqının parçalanması üçün şərait yaradırdılar. XIX əsrin 20-ci illərindən ermənilər arasında lüteranlığın təbliği çox böyük miqyasda olmasa da, müəyyən

dövrdən sonra öz nəticələrini vermişdi — 1888-ci ilə olan statistik məlumatlara görə Qafqazda artıq lüteranlığı qəbul etmiş ermənilərin sayı 284 nəfər təşkil edirdi.[105] Erməni lüteranlar, əsasən Şamaxıda, Aleksandropolda (indiki — Gümrü şəhəri) və Bakıda yaşayırdılar. XIX əsrin 70-ci illərindən başlayaraq Rusiya rəsmi dairələrində ermənilər arasında lüteranlığın yayılmasına mənfi münasibət dəyişdi və hətta Qafqazdakı adda-budda erməni-lüteran icmaları Rusiya lüteran-yevangelist kilsəsinin himayəsinə qəbul edildilər.

Ermənilərin Bazel missionerləri ilə yaxınlaşmasında, lüteranlığın qəbul edilməsində öz siyasi məqsədləri var idi. Əvvəl ayrı-ayrı şəxslər tərəfindən başa düşülərək lüteranlığa atılan addım müəyyən dövrdən sonra geniş erməni kütləsi tərəfindən anlaşılmağa başladı. Bu dəyişiklik onunla bağlı idi ki, 1879-cu ilin Berlin konfransından sonra bəzi Avropa ölkələrinin xarici siyasətində dəyişikliklər baş verdi. Rusiya və bir sıra Qərb ölkələri «Şərq məsələsi»nin həllində «erməni kartı»ndan istifadə etməyə başladılar. Hətta Rusiyanın rəsmi dairələri erməni əhalisi arasında lüteranlığı yaymaqla qondarma «erməni məsələsi»nin həllində Almaniyanın dəstəyini qazanmaq niyyəti güdürdülər. Almaniyanın ermənilərlə təması yalnız dini-mədəni sahəni əhatə edirdi.

Məsələn, 1897-ci ildə Türkiyədə «Ermənilərə yardım üçün Alman ittifaqı» adlı missioner təşkilatı fəaliyyətə başlamışdı. Bu təşkilat erməni əhalisi arasında lüteranlığın təbliği ilə və xeyriyyəçiliklə məşğul olur, heç bir halda siyasətə qarışmırdı. Təbii ki, XX əsrin əvvəllərində Osmanlı imperiyası ilə Almaniya arasında çox sıx əlaqələr mövcud idi. Almaniya İngiltərə, Rusiya kimi aparıcı dövlətlərdən fərqli olaraq, Osmanlı imperiyasının zəifləməsində və parçalanmasında maraqlı deyildi.

Almaniyanın Türkiyə erməniləri arasında yalnız missionerliklə məşğul olması, Türkiyəyə «erməni məsələsi» ilə bağlı heç bir siyasi təzyiq göstərməməsi erməni millətçilərini qıcıqlandırırdı. Əsasən də erməni-qriqoryan kilsəsinin rəhbərləri Almaniyanın «Şərq siyasəti»ndən çox narazı idilər, çünki ermənilər arasında lüteranlığın yayılmasına göz yummaqla Almaniyanın «erməni məsələsi»ndə mövqeyinin ermənilərin xeyrinə dəyişməsinə ümid edirdilər. Almaniyada «erməni məsələsi» heç vaxt populyar olmamışdır. Almaniyalı siyasətçilər yaxşı başa düşürdülər ki, ermənilər lüteranlığı qəbul etməklə nə kimi siyasi məqsədlər güdürdülər və dırnaqarası «erməni milli hərəkatının» arxasında Rusiyanın Şərqi Anadolunu ələ keçirmək planları durur.

Hətta erməni lobbisinin səyləri nəticəsində bu problem imperator II Vilhelmin özünə şəxsən bildirilmişdi və imperator diplomatik şəkildə «ermənisevər» siyasətçilərə rədd cavabı vermişdi.[106] Bütün bunların fonunda erməni əhalisində alman kolonistlərinə qarşı soyuq münasibətlər formalaşırdı.

Ermənilərin almanlara mənfi münasibətində başqa bir səbəb iqtisadi amillərlə bağlı idi. XIX əsrin II yarısında kənd təsərrüfatında kapitalizmin inkişafı istehsalın daha çox bazar tələbləri üçün işləməsinə gətirib çıxardı. Alman-kolonist

təsərrüfatları daha çox bazar iqtisadiyyatına istiqamətləndi və tezliklə iri şəhərlərdə — Tiflisdə, Bakıda, Gəncədə alman kolonistlərinə məxsus ticarət obyektləri fəaliyyətə başladı və onların sayı durmadan artırdı. Kolonistlərin ticarətlə məşğuliyyəti və başlıcası vasitəçisiz bazara çıxmaq imkanlarını əldə etməsi ticarətdə daha çox monopolluq edən ermənilərin maraqlarına zidd idi.

Cənubi Qafqazda siyasi vəziyyətin mürəkkəbləşdiyi bir dövrdə alman kolonistləri çalışırdılar ki, milli məsələlərdə neytral mövqe tutaraq apolitik statuslarını saxlasınlar. Bu koloniyalarda sabitliyin qorunması çox vacib idi. Milli zəmində baş verən istənilən münaqişə koloniyaya fəlakət gətirərdi.

Belə bir şəraitdə alman kolonistləri daha çox özlərinə qapanır, qonşu xalqlarla ünsiyyətə girməməyə çalışırdılar. Qubernatorun göstərişi ilə alman koloniyalarına tüfəng patron paylanmışdı ki, kolonistlər özlərini və əmlakını basqınlardan qoruya bilsinlər. Qubernatorun bu jesti əsassız deyildi. Yelizavetpol şəhərində «Daşnaksutyun» partiyasının filialı fəaliyyət göstərirdi və yerli partiya komitəsinə erməni-qriqoryan kilsəsinin arximandriti Koryun başçılıq edirdi. Rostov da daxil olmaqla bütün Qafqazı əhatə edəcək «Böyük Ermənistan» dövlətini yaratmaq kimi sərsəm bir xəyal uğrunda terrorçuluq fəaliyyətini genişləndirən ermənilər artıq Rusiyanın siyasi elitasının yuxarı təbəqələrində narahatlıq yaratmağa başladılar.

Hökumət orqanları «erməni milli inqilab hərəkatına» qarşı müəyyən tədbirlər görməyə başladılar. Artıq 4 noyabr 1904-cü il tarixdə Yelizavetpol qubernatoru Lutsay məxfi sərəncama imza atdı.[107] Burada göstərilirdi ki, bölgəyə «erməni milli-inqilab hərəkatının» törətdiyi cinayətlərin böyük əksəriyyətini İran və Türkiyədən gəlmiş ermənilər törədirdilər, hansıların ki, Rusiya imperiyası ərazisində yaşayışı rəsmi şəkildə qeydə alınmamışdır. Sənəddən görünür ki, yerli əhali (yerli ermənilər—*İ.A.)* onlara yaşayış yeri verir, onların cinayətkar fəaliyyətinə göz yumur, bəzən də cinayətkarları gizlədirdilər. Bu səbəbdən qubernator göstəriş verirdi ki, koloniyada yaşayanların sənədləri yoxlanılsın, qeydiyyatsız yaşayan erməni aşkar olunarsa, onlar koloniyadan çıxarılsınlar və onlara himayədarlıq edən sahibkarlar cərimə olunsunlar.[108]»

Maliyyə vəsaiti əldə etmək istəyən erməni-daşnaklar hər cür cinayətkarlığa əl atırdılar. Yelizavetpol quberniyasında yaşayan ermənilərin əksəriyyəti oğurluqla və əsasən də at oğurluğu ilə məşğul idilər. Erməni tacirlərinin ticarət əməliyyatlarında manipulyasiyaya əl atması, onların ikiüzlülüyü alman kolonistlərində onlara qarşı nifrət hissi yaradırdı.

Məşhur Forer qardaşlarının firmasında erməni mənşəli fəhlələr çalışırdı və azərbaycanlılara qarşı milli qırğın törənəndə Forer onların silahlarını əllərindən alıb, özlərini də işdən azad etdi. «Daşnaksutyun» partiyasının fəalları tez-tez Forer qardaşlarına təpki gəlir, onlardan müxtəlif məbləğdə pul vəsaiti tələb edirdilər.

Alman kolonistlərinə qarşı cinayətkar əməllər törədənlər təkcə ayrı-ayrı ünsürlər deyildi. «Daşnaksutyun» partiyasının Yelizavetpoldakı komitəsi

terrorçuları istiqamətləndirir, terror fəaliyyətini maliyyələşdirmək üçün alman mənşəli iş adamlarına hədə-qorxu gəlir, onlardan böyük miqdarda pul tələb edirdi. Əgər onların tələbinə imtina cavabı verilərsə, iş adamının həyatı təhlükə altına alınırdı və bəzən də faciə baş verirdi. Bu cür hallar haqqında əvvəlki fəsillərdə ətraflı danışılmışdır.[109]

1906-cı ildə Qotlib Frikə qarşı terror törədilmişdir. Tanınmış iş adamı Forerdən daşnaklar 30 min rubl ödəməyi tələb etmişdilər. Alman kolonistləri ermənilərin təzyiqlərini dəf etmək xahişilə Yelizavetpol quberniyasının müvəqqəti qubernatoru general Fleyşerə müraciət etdilər və ermənilərin koloniyadan uzaqlaşdırılması uğrunda inadkarcasına mübarizəyə başladılar.

Ancaq hökumət orqanlarının səyləri bir nəticə vermirdi. Bu səbəbdən Forer qardaşları azərbaycanlılar sırasından çıxmış «qoçulara» müraciət etdilər. Ermənilər almanların azərbaycanlılara sığınmasını özlərinə qarşı düşmənçilik kimi qəbul edirdilər.

1906-cı il ərzində də ermənilərin azərbaycanlılara qarşı qırğını davam edirdi. Həmin il Yelizavetpol quberniyasında hərbi vəziyyət elan olundu və hərbi general-qubernator təyin edildi. Ali qərargahın general-mayoru Takayşvili hərbi qubernator vəzifəsinə başlayan kimi qırğın törədənlərə xəbərdarlıq etdi və milli zəmində konfliktlərin yaranması ehtimalında ordu tərəfindən silah işlədiləcəyini bildirdi. Lakin erməni daşnakları öz çirkin fəaliyyətlərini davam etdirirdilər. Takayşvili Cənubi Qafqazda qeydiyyatsız yaşayan ermənilərin, farsların və ləzgilərin öz daimi yaşayış yerlərinə göndərilməsi haqqında əmr imzaladı.[110] Bu göstəriş almanlarla birgə yaşayan erməni mənşəli muzdlu işçilərin də mənafeyinə zidd idi. Qeyd etdik ki, Yelenendorfda çoxsaylı mövsümi fəhlələr çalışırdılar və onlar koloniyada icarəyə mənzil götürərək, kolonistlərlə qonşuluqda yaşayırdılar.

Ermənilərin koloniyada yerləşməsi ilə daxili sabitlik pozuldu. Erməni mənşəli cinayətkarlar koloniya sakinlərinin əmlakını oğurlayır, polis orqanları ilə küçələrdə atışmalar törədirdilər. Ermənilər koloniyada at oğurluğu ilə məşğul olur, hətta kolonistlərin paltarlarını — qurumaq üçün sərilmiş alt paltarları, şalvar, köynək, corab belə oğurlamaqdan çəkinmirdilər. Ermənilərin koloniyada təşkil etdikləri kafelər pozğunluq yuvasına çevrilir, alman gənclərinin mənəviyyatına mənfi təsir göstərirdi. Yelenendorfda ermənilərin arasında yayılmış «məşğuliyyət» növlərindən biri də «dələduzluq» idi. Qəza pristavının formasını geyən erməni «dələduzlar» kolonistlərin evlərinə soxulmaq, axtarış etmək bəhanəsi ilə onların zinət əşyalarına yiyələnmək kimi mənfur planlar qursalar da şuls tərəfindən ifşa edilmişdilər. Kolonistlərin tələbi ilə bir çox ermənilər koloniyadan qovulsalar da, müxtəlif instansiyalara məktublar yazır, şultsu və yaxud bayzitseri zorla pul qoparmaqda günahlandırırdılar. Kolonistlərlə ermənilər arasında münasibətlər 1906-cı ildə Molla Hacılı kəndində erməni qaçqınlarının yerləşdirilməsindən sonra daha da kəskinləşdi. Bu kənd azərbaycanlılara məxsus olmuşdur və 1905—1906-cı illərin soyqırımı nəticəsində azərbaycanlılar kəndi boşaltmış, kənd ermənilər

tərəfindən zəbt edilmişdi. Arximandrit Koryunun vasitəçiliyi və rəsmi orqanların razılığı ilə Molla Hacılıda Osmanlı imperiyasından gələn erməni ailələri yerləşdirildi və kəndin adı dəyişdirilib Koryunun şərəfinə «Koryunapat» adlandırıldı.[111] Hər erməni ailəsinə 100 kv metr hədiyyə torpaq sahəsi verilmişdi. Sonralar arximandrit Koryun 1905—1907-ci illərdə törətdiyi cinayətlərə görə katorqaya göndərildi. Koryunapat, yəni köhnə Molla Hacılı kəndinin adı dəyişdirilib Tserkovnı adlandırıldı və Yelizavetpola birləşdirildi.

1907-ci ildən sonrakı dövrdə ermənilərin terrorçu fəaliyyətinin qarşısı qismən alınsa da, I Dünya müharibəsi başlayandan sonra onların yenidən fəallaşması müşahidə olunurdu.

Biz yuxarıda Qafqazın yerli xalqlarının qarşılıqlı əməkdaşlığa nə dərəcədə hazır olduğunu təhlil etdik. Bəs nə dərəcədə gəlmə alman köçkünləri yaxınlıq münasibətlərinin qurulmasına meyil göstərirdi? Baden-Vürtemberqdən, Gessendən, Bavariyadan və sair alman torpaqlarından Qafqaza köçməyi qət edən almanların bu yeni regionun əhalisinin tarixi, mentaliteti, psixoloji durumu haqqında təsəvvürləri belə yox idi. Tarixində ən çətin dövrü yaşayan Qafqazın avtoxton xalqları—gürcülər, çeçenlər, balkarlar, kumıklar, adıgeylər və əsasən də Azərbaycan xalqı tarixi təcrübə ilə əlaqələnən etnik depressiv vəziyyətdə alman köçkünlərində «düşmən obrazı» yaratmadı, onlarla münasibətlərdə «özününkü» - «özgə» prinsipi ilə sədd çəkmədi. Çünki Qafqaz xalqlarına ümumi «Qafqazlı şüuru», «Qafqazlı özünüeyniləşdirməsi» daha xarakterik idi və bunun ən açıq ifadəsi ətrafdakılara tolerant münasibətdə özünü göstərirdi. Təbii ki, alman kolonistləri ilə Cənubi Qafqaz xalqları arasındakı münasibətləri ideallaşdırmaq olmaz, çünki birgə yaşayış prosesi çox mürəkkəb xarakterlidir. Burada qarşılıqlı münasibət obyektlərinin bərabər şəkildə əməkdaşlığa can atması, qarşılıqlı şəkildə tolerantlığın nümayiş etdirilməsindən çox şey asılı idi. Alman köçkünlərinin qonşu xalqlarla münasibətinə təsir edən ən başlıca amillərdən biri onların dini baxışları olmuşdur. Qafqaz regionuna və əsasən də Cənubi Qafqaza köçənlər üçün öz dini etiqadına sədaqət hər hansı maddi nemətdən üstün idi. Beləliklə, deyə bilərik ki, Qafqazda protestantizmin ən fanatik adeptləri məskunlaşmışdılar ki, bu da onların həyatına bir sıra xüsusiyyətlər gətirdi, əsasən də onları əhatə edən xalqlarla münasibətlərin spesifikliyinə təsir göstərdi.

Beləliklə, Qafqaz almanlarının yerli etnoslarla münasibətinin bəzi məsələlərinə nəzər saldıqdan sonra belə bir qənaətə gələ bilərik ki, azərbaycanlıların, gürcülərin, rusların, çeçenlərin, osetinlərin və sair xalqların almanlarla münasibətlərində müəyyən münaqişələr baş versə də, onlar məişət zəminində yaranırdı. Bu münaqişələr yüzillik birgə yaşayış dövründə heç vaxt etnik xarakter daşımamışdır. Qafqazın avtoxton xalqları almanlarla simbioz münasibətlərdə olmuş, iqtisadi siyasi, mədəni məsələlərin həllində alman kolonistlərinə yardımçılıq etmişlər. Kolonistlərin əldə etdikləri yüksək nailiyyətlər məhz bu cür qarşılıqlı əməkdaşlıq nəticəsində mümkün olmuşdur.

# NƏTİCƏ

Biz Qafqaz almanlarının XVIII əsrin sonlarından 1920-ci ilə qədər tarixinin sosial-iqtisadi, siyasi, konfessional və mədəni həyatının bir sıra məsələləri ilə tanış olduq. Monoqrafiyada gətirilən faktlar ətrafında problemin obyektiv, elmi təhlilindən sonra aşağıdakı nəticəyə gələ bilərik:

Alman əhalisinin keçmiş SSRİ ərazisində məskunlaşması hələ XII əsrdən başlamışdı və o vaxtdan qərbi-rus şəhərlərində alman mənşəli sənətkarlardan, ticarət adamlarından, inşaatçılardan ibarət məhəllələr meydana gəlmişdi. Alman mühacirləri, nəinki sosial-iqtisadi, həmçinin siyasi sahədə fəallıq göstərirdilər. XII-XV əsrlərdə qərbi-rus torpaqlarında Maqdeburq şəhər hüququnun tətbiq olunması ilə əlaqədar almanların şəhərlərin idarə edilməsində rolu daha da artdı. Bu dövrdə almanların məskunlaşması sırf iqtisadi-ticarət xarakteri daşıyırdı və geniş miqyasa malik deyildi.

XVI əsrdən başlayaraq almanların Şərqi Avropada məskunlaşması nisbətən fəallaşır ki, bu da Mərkəzi və Qərbi Avropada baş verən siyasi və dini xarakterli hadisələrlə bağlı idi: 1525-ci il Kəndli müharibəsinin və Reformasiya hərəkatının radikal qolunun məğlubiyyəti nəticəsində Almaniya cəmiyyəti biri-birinə zidd olan iki düşərgəyə parçalandı. Milli birlik və katolik kilsəsinə qarşı mübarizə aparan Reformasiya tərəfdarları repressiyalardan özlərini xilas etmək üçün xarici ölkələrə üz tuturdular.

Onların bir hissəsi XVI əsrdən güclənməyə başlayan Rus dövlətində sığınacaq tapdılar.

Mərkəzləşmiş Rus dövləti inkişaf etdikcə bütün fəaliyyət sahələrində savadlı ixtisasçılara ehtiyac artırdı və rus əhalisi arasında savadın, maarifin aşağı səviyyədə olması ucbatından rus çarları əcnəbi və birinci növbədə alman əsilli ziyalıların Rusiyada məskunlaşmasında maraqlı idilər. I Pyotrun islahatları zamanı alman mənşəli alimlərin, həkimlərin, hərbçilərin və sair ixtisas sahiblərinin oynadığı müsbət rol danılmazdır.

Ancaq XVIII əsrin 30-cu illərində «bironovçuluq» dövründə alman mənşəli məmurlar rus ictimaiyyəti qarşısında özlərini gözdən saldılar, almanlar haqqında mənfi rəy formalaşmağa başladı. Təsadüfi deyil ki, çariça Yelizaveta Petrovnanın hakimiyyəti illəri «alman zülmünə», təkəbbürlü alman məmurlarına qarşı mübarizə şüarı altında keçmişdir. İlk dəfə boş qalmış ərazilərin məskunlaşdırılması problemi ilə ciddi məşğul olmağa başlayan Yelizaveta Petrovna ictimai rəyi nəzərə alaraq alman kolonistlərinin Rusiyaya köçürülməsi təklifindən imtina etmiş, ölkəyə Osmanlı imperiyası ərazilərində yaşayan xristian dininə aid xalqların — serblərin, moldavanların, yunanların, ermənilərin və başqalarının köçürülməsinə daha çox üstünlük vermişdi. Yelizaveta Petrovnanın köçürmə siyasəti əməli bir nəticə vermədi.

Rusiya imperiyasında almanların kütləvi məskunlaşması imperateritsa II Yekaterinanın adı ilə bağlıdır. Öz sələflərindən fərqli olaraq, II Yekaterina imperiya ərazisinə sadə əkinçilərin, heyvandarların, sənətkarların köçürülməsinə daha çox üstünlük verirdi. Fiziokratlar təliminin tərəfdarı kimi, II Yekaterina hesab edirdi ki, zənginliyin mənbəyi sadə zəhmətkeşlərin əməyindədir. Bu səbəbdən II Yekaterinanın 22 iyul 1763 və 22 mart 1764-cü il fərmanları, əsasən Volqaboyunun, Novorossiya diyarının mənimsənilməmiş torpaqlarında sadə kolonistlərin və ilk növbədə imperateritsaya həm dini, həm də etnik cəhətdən yaxın olan alman kolonistlərinin yerləşdirilməsinə xidmət edirdi.

XVIII əsrin sonlarından Şimali Qafqazın əksər ərazilərinin Rusiya imperiyasına birləşdirilməsindən sonra almanların Qafqaza köçürülməsi prosesi başladı. Almanların Qafqazda məskunlaşması prosesi uzun bir dövrü əhatə etmişdir. Rusiyanın başqa regionlarında — Bessarabiyada, Volqaboyunda, Cənubi Ukraynada torpaq çatışmazlığından əziyyət çəkən kolonistlər Şimali Qafqaza üz tuturdular. Bura köçənlərin əksəriyyətini köhnə yaşayış yerlərində öz dini etiqadlarına əməl etməyə imkan tapmayan və torpaq çatışmazlığından əziyyət çəkənlər təşkil edirdi. İlk alman koloniyaları Şimali Qafqazda 1780—1790-cı illərdə yaradılsa da, onlar bu regionda məskən sala bilmədilər: kolonistlərin bir hissəsi geri — gəldikləri regionlara qayıtdılar, qalanlar isə dispers şəkildə Rusiya şəhərlərində məskunlaşdılar.

XVIII əsrin sonunda Şimali Qafqazda almanların məskunlaşdırılmasının baş tutmamasının bir neçə səbəbi vardı. Əvvəla, bu regionda hələ də hərbi əməliyyatlar davam edirdi və bəzi rus rəsmiləri bu strateji ərazilərdə daha çox slavyan mənşəli Don və Zaparojye kazaklarının yerləşdirilməsini tələb edirdilər. Onların fikrincə, Osmanlı dövləti və dağlı xalqları ilə hərbi əməliyyatların davam etdiyi bir vaxtda almanların bu regionda yerləşdirilməsi məqsədəuyğun sayılmırdı. Bəzi yüksəkrütbəli zabitlər arasında alman kolonistlərinin simasında xarici ölkə, məsələn, İngiltərə casuslarını görənlər də var idi. Onlar əcnəbi kolonistlərin yerləşdirilməsinə nisbətən həm mülki, həm də hərbi təşkilat xarakteri daşıyan kazak stanitsalarının yaradılmasını Rusiyanın dövlət maraqlarına daha çox cavab verən tədbir kimi qiymətləndirirdilər.

Şimali Qafqazın mənimsənilməsi, burada çoxsaylı kolonistlərin və sair qəbildən olan mühacirlərin yerləşdirilməsi o vaxt öz müsbət nəticələrini verərdi ki, Şimali Qafqaz bütövlükdə Rusiya hakimiyyətinə tabe etdirilərdi, dağlı xalqlarının hərbi müqavimətinə son qoyulardı. Bu isə yalnız Cənubi Qafqazın işğalından və onun Rusiyanın tərkib hissəsinə çevrilməsindən sonra mümkün ola bilərdi. Bu səbəbdən XIX əsrin ilk illərindən Rusiyanın xarici siyasət sahəsində ən ümdə vəzifələrdən biri Cənubi Qafqazın imperiyaya birləşdirilməsi məsələsi oldu. 1801-ci ildən başlayan rus işğalı 1828-ci ildə bütün Cənubi Qafqazın Rusiyaya qatılması ilə başa çatdı.

Beləliklə, XIX əsrin ilk otuz illiyində Çeçenistanın və Dağıstanın bəzi dağlıq ərazilərini çıxmaq şərtilə bütün Qafqaz çar Rusiyası tərəfindən işğal edildi. Hərbi cəhətdən işğal edilən Qafqazın iqtisadi, mədəni cəhətdən mənimsənilməsi daha vacib məsələ idi və Qafqazda qazanılan hərbi uğurların hansı vaxta qədər Rusiyanın xeyrinə xidmət edəcəyi bu məsələnin necə həll edilməsindən asılı idi — çünki nə Türkiyə, nə İran, nə də Qərb ölkələri Rusiyanın Qafqazda möhkəmlənməsini arzulamırdılar, ən başlıcası isə Qafqazın türk, müsəlman əhalisi öz müstəqilliyinin itirilməsi ilə barışmaq niyyətində deyildi. Bunu 1820-1830-cu illərdə Azərbaycanda, Gürcüstanda baş vermiş xalq üsyanları, həmçinin dağlı xalqlarının arası kəsilməyən azadlıq mübarizəsi bir daha sübut edirdi.

Bu səbəbdən həm Şimali, həm də Cənubi Qafqazda çarizmə sadiq əhalinin yerləşdirilməsi daxili siyasətin ən prioritet məsələlərindən biri idi. Bu məsələnin həllində Qafqaza həm xristian dininə aid xalqların köçürülməsi, həm də yerli qeyri-xristian xalqlar arasında xristianlığın yayılması nəzərdə tutulmuşdu. Bu məqsədlə, Qafqaza xristian xalqları — yunanlar, ermənilər, çexlər, polyaklar, almanlar köçürülür, həm də xarici missioner təşkilatları Qafqaza dəvət olunurdular. Təsadüfi deyil ki, Qafqazda ilk daimi koloniyanın əsasını qoyanlar da Edinburq missioner təşkilatının üzvləri olmuşlar. Şimali və Cənubi Qafqazda alman məskunlaşmasının templəri eyni deyildi. Məsələn, XIX əsrin I yarısında Şimali Qafqazda cəmi 5 alman koloniyası yaranmışdı ki, onlar da Stavropol və Kavminvod ətrafında yerləşirdilər. Şimala nisbətən bu dövrdə Cənubi Qafqazda almanların məskunlaşması daha intensiv getmişdi — XIX əsrin I yarısında Cənubi Qafqazda artıq 8 koloniya mövcud idi və bu koloniyaların əksəriyyəti Gürcüstan ərazisində yerləşirdi.

XIX əsrin I yarısında kolonistlərin sosial-iqtisadi həyatının təşəkkülü çox mürəkkəb şəraitdə keçmişdir. Çar hökumətinin əsas məqsədi alman koloniyalarının təsərrüfat həyatını ölkə sənayesinin xammal tələbatının ödənilməsinə xidmət edən sahələrin — tütünçülüyün, ipəkçiliyin, pambıqçılığın inkişafına yönəltsin. Bu məqsədlə kolonistlərə dövlət büdcəsindən o dövr üçün çox böyük məbləğdə vəsait ayrılmışdı. Təsərrüfat alətlərinin əldə edilməsində, təsərrüfat əhəmiyyətli obyektlərin tikintisində dövlət kolonistlərə təminatsız yardım edirdi. Çarizmin cəhdlərinə baxmayaraq, alman koloniyalarında adı çəkilən təsərrüfat sahələrini inkişaf etdirmək mümkün olmadı. Kolonistlərin təsərrüfat vərdişləri onların tarixi vətənlərində daha çox məşğul olduqları kənd təsərrüfatı sahələrində müsbət nəticələr verə bilərdi. Qafqaz alman kolonistləri onlar üçün ən optimal təsərrüfat sahəsinin axtarışındaydılar və XIX əsrin ortalarında artıq alman-kolonistlər öz «iqtisadi məkan»larında qərarlaşdılar. Daha çox düzənlik ərazilərdə yerləşən Şimali Qafqaz koloniyaları, əsasən maldarlıq və əkinçiliklə, Cənubi Qafqaz almanları isə tədricən üzümçülüklə, şərabçılıqla məşğul olmağa üstünlük verdilər.

XIX əsrin I yarısında alman koloniyaları hələ iqtisadi inkişafda nəzərəçarpacaq nailiyyətlər qazanmamışdılar. Bu həm onların sosial-iqtisadi

vəziyyəti, həm də mədəni-mənəvi həyatda mövcud parçalanma, müxtəlif xilaist təmayüllərin fəaliyyəti ilə izah olunurdu. XIX əsrin I yarısında Qafqaz almanlarının əksəriyyəti Qafqaza müvəqqəti yaşayış yeri kimi baxır, gələcəkdə İsa Məsihin gəlişini qarşılamaq məqsədilə Fələstin ərazilərinə köçməyi planlaşdırırdılar. Dini fanatizmin təsiri ilə kolonistlər arasında asketizm yayılır, təsərrüfat məsələləri o qədər də önəm daşımırdı.

XIX əsrin II yarısından başlayaraq Qafqaz almanlarının həyatında bir sıra mühüm dəyişikliklər baş verdi. İlk növbədə Şimali Qafqazın Kuban, Don, Stavropol, Terek ərazilərində alman məskunlaşmasının intensivləşməsini qeyd etmək lazımdır. Bu, ilk növbədə Krım və Qafqaz müharibəsinin başa çatmasından sonrakı dövrdə Şimali Qafqazda gedən demoqrafik proseslərin nəticəsi idi: minlərlə yerli Qafqaz xalqları çarizmin işğalçılıq siyasəti ilə barışmayaraq öz torpaqlarını tərk edərək Türkiyəyə və sair ölkələrə köçməyə məcbur oldular. Onların boş qalmış torpaqlarına əsasən slavyan mənşəli xalqlar köçürülsə də, bu məskunlaşma prosesində almanlar da fəal iştirak etdilər.

XIX əsrin II yarısında Qafqazda alman məskunlaşmasının ən xarakterik cəhəti — onun ölkədaxili xarakter daşıması idi. Bu dövrdə Cənubi Qafqazda yaranan yeni koloniyalar mövcud koloniyaların daxili resursları hesabına yaranmışdılar və «törəmə» koloniya adlanırdılar. Şimali Qafqazda yaranan koloniyaların böyük əksəriyyətini Saratov, Samara, Yekaterinoslav, Tavriya, Bessarabiya və sair quberniyalarda yaşayan, torpaq çatışmazlığı və başqa sosial problemlərlə üzləşən kolonistlər təşkil edirdilər.

XIX əsrin II yarısında Rusiyada kapitalist münasibətlərinin inkişafı almanların kənd təsərrüfatı rayonlarında məskunlaşmasını intensivləşdirən əsas amillərdən biri idi. Baxdığımız dövrdə təkcə Şimali Qafqazın boş qalmış ərazilərində 220 alman koloniyası yaranmışdı. Şimali Qafqazdan fərqli olaraq, Cənubi Qafqazda əkinə yararlı boş torpaq sahələri az olduğundan burada yeni alman koloniyaları yerli azərbaycanlı və gürcü kəndlilərinin torpaqları hesabına yaradılırdı.

Şimali Qafqazda alman məskunlaşmasının başqa bir xüsusiyyəti — bu prosesin bəzi yerlərdə kortəbii xarakter daşıması idi. Rusiyanın başqa regionlarında yaşayan kolonistlər, bəzən köhnə yaşayış yerlərində qeydiyyatda qalaraq Şimali Qafqaza köçür, burada da özlərinə təsərrüfatlar yaradırdılar. Hökumət dairələrinin kortəbii məskunlaşma ilə mübarizəsi on illərlə davam etsə də, bu prosesi yalnız XX əsrin əvvəllərində tənzimləmək mümkün olmuşdu. Cənubi Qafqazdan fərqli olaraq, Şimali Qafqazda və əsasən də Don ərazisində yaranan koloniyalar nəsli xarakter daşıyırdı: hər koloniya yalnız bir nəslin nümayəndələri tərəfindən salınmışdı.

Qafqazın alman koloniyaları təsərrüfat sahəsində mühüm nailiyyətlər əldə etmişdilər ki, bu da həm torpaqların münbitliyi, almanların yeni təsərrüfat metodlarını və əmək alətlərini, kənd təsərrüfatı maşınlarını tətbiq etməsi və əməksevərliyi ilə izah oluna bilər. Çar hökumətinin almanlara kreditlərlə yardım

